Adilxan
BAYRAMOV





# Sənət məbədləri
# Sənət fədailəri



ADİLXAN BAYRAMOV

# SƏNƏT
# SƏNƏT MƏBƏDLƏRİ
# SƏNƏT FƏDAİLƏRİ

Bakı- 2015

BBK 5.2
A - 2015

Redaktor: **Tehran Vəliyev**

Rəssam: **Arif Həsənov**

**Adilxan Hüseynəli oğlu Bayramov**
Sənət, sənət məbədləri, sənət fədailəri
*«VƏTƏNOĞLU» NPŞ MMC, Bakı, 2015, 336 səh.*

*Kitabda müəllifin respublikada muzey işinin tarixi, müxtəlif profilli muzeylər, muzey əşyaları və muzey qurucuları, milli teatrımızın təşəkkülündə və inkişafında böyük rolu olmuş Tiflis Azərbaycan teatrı və bu teatrın aktyorları, habelə digər sənət sahələri barədə məqalələri toplanmışdır.*

*Müəllif arxiv və muzey materialları ilə yanaşı, özünün şəxsi müşahidələrinə və çoxillik iş təcrübəsinə də istinad etmişdir.*

*Kitab muzeyşünaslar, muzey işçiləri, sənətşünaslar, habelə geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

$\frac{4700000000}{A\text{-}651(03)2015}$ qrifli nəşr

© *A.Bayramov, 2015*

# MİLLİ DƏYƏRLƏRİMİZ

## TARİXİMİZ... MƏDƏNİYYƏTİMİZ... (MÜLAHİZƏLƏR)

Hər bir xalq müəyyən tarixi ərazidə yaranır. Bununla yanaşı, əvvəllər müəyyən bir ərazidə formalaşmış və sonralar başqa yerlərə yayılmış xalqlar da vardır. Azərbaycan xalqı məhz hazırda yaşadığı ərazidə meydana gəlmiş, formalaşmışdır.

Azərbaycanlıların bir xalq kimi formalaşdığı ərazi şimalda Dərbənddən, cənubda Zəncan və Qəzvindən, şimalda Xəzər dənizindən başlayır, qərbdə İrəvan, Borçalı və Urmiya gölünün qərb sahilini əhatə edirdi.

Tədqiqatçılar yazırlar ki, Azərbaycan xalqı bu ərazidə yaşamış türk etnoslarından, habelə qonşu ölkələrdən gəlib burada məskunlaşmış digər türk tayfalarından yaranmışdır.

Azərbaycan dili türk dilləri ailəsinin Oğuz qrupunun Oğuz-səlcuq yarımqrupuna daxildir. Anadolu türkləri, türkmənlər və Krım tatarlarının (əslində Krım türklərinin) cənub dialekti də bu yarımqrupa aiddir.

Bir sıra araşdırmalarda verilmiş məlumatlara görə, azərbaycanlıların qədim dilləri azəri və Arran dilləri olmuş, V-VII və XI-XII əsrlərdə qeyd etdiyimiz əraziyə gəlmiş türkdilli tayfalar yerli dilləri sıxışdırıb assimilyasiyaya uğratmışlar.

Digər məlumatlarda türk mənşəli Azərbaycan dilinin yaranması VIII əsrdə Orta Asiyadan qərbə hərəkət edən oğuzlarla əlaqələndirilir. Beləliklə də xalqımızın

cənubda farsdilli əhalidən, farslardan, şimalda Qafqazdilli etnoslardan dönmə olduğunu «sübuta yetirmək» üçün çox ciddi cəhdlər olmuşdur. Əsasən xarici tarixçilərin söylədiyi bu mülahizələr özünü bəzi Azərbaycan tarixçilərinin əsərlərində də göstərməkdədir.

Şübhəsiz, yuxarıda qeyd etdiyimiz tarixi hadisələr türk mənşəli Azərbaycan dilinin (təbii ki, həm də Azərbaycan xalqının) təşəkkülündə müəyyən rol oynamışdır. Bu tarixi faktlara dilin daxili inkişaf qanunları mövqeyindən yanaşan Azərbaycan dilçiləri çox doğru olaraq qədim zamanlardan burada türk dillərində danışan etnosların mövcud olduğunu söyləyirlər.

Məlumdur ki, hər bir xalqın mənşəyinin müəyyən edilməsində dil mənsubiyyəti ən başlıca əlamət kimi çıxış edir. Dil cəhətdən isə xalqımız Azərbaycanda qədim zamanlardan bəri yaşamış türk dillərində danışan etnoslarla bağlıdır. Azərbaycan türkcəsi VII-VIII əsrlərdə Azərbaycan xalqının dili və ölkədə ünsiyyət vasitəsi kimi mövcud olmuşdur.

Zamanla birlikdə xalqımız da böyük inkişaf yolu keçmiş, öz tarixini və mədəniyyətini yaratmış, dünyanın ən zəngin mədəni irsə malik xalqlarından birinə çevrilmişdir.

Azərbaycanda ən qədim dövrlərdən başlayaraq zaman-zaman insanların bu və ya digər tələbatının ödənilməsi məqsədilə yaradılan bir sıra əşyalar sonradan mədəniyyət sərvəti adını almışdır.

Qobustan, Ordubad və Kəlbəcər bölgələrində üzə çıxarılmış qayaüstü rəsmlər qədim insanlardan qalan qiymətli mədəniyyət sərvətləridir. Qobustanın qaya rəsmləri Azərbaycan ərazisində ən qədim sənət nümunələri hesab olunur. Tədqiqatçıların fikrincə, qayalar üzərində həkk olunmuş bu rəsmlərin ən qədimi era-

mızdan əvvəl VIII-VI əsrlərə aiddir. Əlbəttə, bu təsvirlərin hamısı eyni vaxtda meydana gəlməmiş, ayrı-ayrı dövrlərdə yaradılmışdır.

Azərbaycanda ən qədim zamanlarda müxtəlif sənət sahələri meydana gəlmiş, zaman keçdikcə inkişaf edərək daha da təkmilləşmişdir. Arxeoloji qazıntılar zamanı üzə çıxarılmış məişət və bəzək əşyaları, kiçik heykəltəraşlıq fiqurları qədim insanın yaratdığı sənət nümunələridir. Bu əşyalar ayrı-ayrı dövrlərdə müxtəlif materiallardan hazırlanmışdır. Gil, torpaq, daş, dəri, sümük, yun, metal və s. xammal kimi istifadə olunmuşdur. Şübhəsiz, məhz Azərbaycanın zəngin təbiəti bir çox sənət növlərinin inkişafı üçün şərait yaratmışdır.

Azərbaycanda tarixən dulusçuluq, zərgərlik, habelə daş, ağac, sümük, dəri emalı, xalça və parça toxumaq kimi sənət növləri mövcud olmuşdur.

Orta əsrlərdə dulusçu dəzgahında sürahi, tabaq, küp, fincan, çıraq, kasa və s. saxsı məmulatları hazırlanmışdır. Həmin dövrdə şüşədən də bu cür nümunələr düzəldilirdi. Şüşə, eyni zamanda zərgərlik nümunələrinin hazırlanmasında da istifadə olunmuşdur. Zaman keçdikcə ayrı-ayrı saxsı məmulatları həm də sənət nümunəsi kimi hazırlanmışdır. Həmin nümunələr müxtəlif boyalarla bəzədilmiş, üzərinə naxış vurulmuş, təsvirlər çəkilmişdir. VII əsrdən başlayaraq Azərbaycanda dəmir, mis, gümüş, qızıl və s. materiallardan da məişət əşyaları, habelə bəzək şeyləri hazırlanmışdır. Orta əsrlərdə isə Azərbaycanda toxuculuq sənəti inkişaf etməyə başlamışdır. Həmin dövrdə ipək, kətan və yun parçalar, xalça və xalça məmulatları toxunmuşdur.

XIX əsrin sonlarında və XX əsrin əvvəllərində Azərbaycanın öyrənilməsi üzrə çox cüzi işlər görülmüş, ekspedisiyalar təşkil edilmişdir. Həmin vaxtlar üzə

çıxarılmış əşyalar ayrı-ayrı şəxslərin əlinə keçmiş, ayrı-ayrı ölkələrin muzeylərinə verilmişdir.

Həmin dövrdə Azərbaycanda arxeoloji abidələrin tədqiqi ilə əsasən xarici arxeoloqlar (o cümlədən həvəskar arxeoloqlar) məşğul olmuşlar. 1830-cu illərdə İsveçrə səyyahı Dübua de Manperi Gəncə şəhəri yaxınlığında qazıntı işləri aparmış, tapdığı arxeoloji nümunələri Fransaya göndərmişdir. 1879-cu ildə İ.S.Polyakov Naxçıvan ərazisində, N.O.Selosani isə qədim Bərdə şəhəri xarabalıqlarında axtarışlar aparmışdır. Bir sıra əcnəbi həvəskarlar şəxsi kolleksiya toplamaq məqsədilə qəbir abidələrini qarət etmişlər. Daşkəsən və Gədəbəy mis mədənlərində işləmiş V.Belk adlı şəxs 300-dən çox abidəni qarət etməklə topladığı nümunələri Almaniya muzeylərinə vermişdir. Fransız tədqiqatçısı Jak de Morqan 1880-ci ildə Talış zonasında qəbir abidəlrini açaraq tunc və dəmir dövrlərinə aid zəngin materiallar toplamış və bunları Parisin Sen Jermen muzeyinə təqdim etmişdir.

Azərbaycanda arxeoloji araşdımalar aparmış digər əcnəbilər də bu cür hərəkət etmişlər.

Azərbaycanın mədəniyyət sərvətlərinin respublikamızdan aparılması Sovet hakimyyəti illərində də davam etmişdir. Bu dəfə həmin «vəzifəni» qonşu Ermənistan Respublikası yerinə yetirmişdir. Qonşularımız 1920-1930-cu illərdə Qarabağın dağlıq hissəsinə, Qazax və Zəngəzur bölgələrinə ekspedisiyalar təşkil etmiş, xalqımızın tarixi və mədəniyyəti ilə bağlı dəyərli yadigarları aparmışlar.

Azərbaycan XX əsrdə öz müstəqilliyini iki dəfə elan etmişdir. 1918-ci ilin mayında elan olunmuş müstəqil Azərbaycan 1920-ci ilin aprelində işğal edildi. 1991-ci il oktyabrın 18-də "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edildi və Azərbaycan yeni dövrə -müstəqil inkişaf dövrünə qədəm qoydu.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra mədəniyyət sahəsində də müstəqil siyasət yeritməyə başladı. Mədəni dəyərlərə dövlət qayğısı öz əksini müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında tapdı. «Mədəniyyət haqqında», «Tarix və mədəniyyət abidələrinin qorunması haqqında», «Muzeylər haqqında», «Kitabxana işi haqqında», «Kinematoqrafiya haqqında», «Arxiv işi haqqında», «Folklor haqqında» və s. qanunlar qəbul olundu.

1993-cü ildə Azərbaycan Respublikasının iştirakı ilə qeyri-siyasi təşkilat– Türkdilli ölkələrin mədəniyyət və incəsənət sahəsində əməkdaşlığı üzrə TÜRKSOY Beynəlxalq Təşkilatı yaradıldı. Bu təşkilatın əsas vəzifələrindən biri də bütün türk xalqlarına məxsus mədəniyyət sərvətlərinin, tarix və mədəniyyət abidələrinin müəyyənləşdirilməsi və onların mühafizəsi ilə əlaqədar tədbir görməkdən ibarətdir.

Azərbaycan Respublikası mədəni dəyərlərin qorunması və bərpası ilə məşğul olan bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

Respublikamız müstəqil dövlət olaraq 1993-cü ildə YUNESKO-nun Haaqa Konvensiyasını, 1997-ci ildə isə Paris Konvensiyasını imzaladı. Respublikamızda bu Konvesiyaların müddəalarının yerinə yetirilməsi üzrə komissiyalar yaradılmışdır.

Bütün sahələrdə olduğu kimi, mədəni quruculuq sahəsində əldə olunmuş uğurlar da Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev Azərbaycan xalqının milli mədəniyyətinə, onun tarixi qaynaqlarına həmişə böyük diqqətlə yanaşmış, millətin qan yaddaşına hopmuş tarixi şəxsiyyətlərimizin zaman-zaman yaşaması üçün qayğısını əsirgəməmişdir. Bu cəhətdən milli mədəniyyətimizin tarixində xüsusi rol oynamış dahi söz ustalarımızın,

musiqi xadimlərimizin, səhnə və kino korifeylərimizin yubiley tədbirlərinin keçirilməsi, bu sənətkarların yaradıcılığına lazımi qiymət verilməsi xüsusi qeyd edilməlidir.

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi illərdə musiqi, balet, teatr, kino sahəsində uğurlar qazanan istedadların ölkədən kanarda da tanınması üçün bütün qüvvəsini sərf etmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin kursunu ləyaqətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətində də mədəni irsimizə diqqət və qayğı mühüm yer tutur. Ölkə başçısının son aylarda imzaladığı sərəncamlar bu qayğının bariz ifadəsidir. Belə hesab edirik ki, möhtərəm Prezidentimizin imzaladığı «Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində İstiqlal Muzeyinin yaradılması və İstiqlal abidəsinin uçaldılması haqqında», «Müasir İncəsənət Muzeyinin yaradılması haqqında», «Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında», «Azərbaycan kino sənətinin inkişaf etdirilməsi haqqında», «Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında», «Azərbaycan Respublikasındakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında», «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» sərəncamlarının icrası milli mədəniyyətimizin inkişafına böyük təkan verəcəkdir.

Bu gün Azərbaycan Respublikası ərazisinin 20 faizi Ermənistanın hərbi qüvvələri tərəfindən işğal edilmiş, minlərlə günahsız insanın qanı axıdılmış, qocalar, qadınlar, uşaqlar öldürülmüş, adamlar girov götürülmüşdür. 1 milyondan artıq insan öz doğma torpağında qaçqına çevrilmişdir.

Ermənilər işğal etdikləri ərazidə Azərbaycan xal-

qının tarixini və bu gününü əks etdirən abidələri də planlı surətdə məhv edir, yaxud öz adlarına yazırlar. İşğal olunmuş ərazidə 500-dək tarixi - memarlıq, 100-dən artıq arxeoloji abidə, 22 muzey, 4 rəsm qalereyası qalmışdır.

Erməni təcavüzkarlarının qarət etdikləri muzeylərdə Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları, digər qiymətli materiallar olmuşdur. Bu qiymətli sərvət Ermənistana aparılmışdır. İndi həmin əşyalar işğal olunmuş ərazidən aparılmış digər əşyalarla birlikdə xarici auksionlarda satılır, yaxud müxtəlif sərgi və muzeylərdə dünya ictimaiyyətinə erməni mədəniyyəti nümunəsi kimi təqdim olunur.

Erməni təcavüzkarları vəhşilik göstərərək Azərbaycan musiqisinin böyük xadimləri Üzeyir Hacıbəyovunun və Bülbülün, habelə şairə Xurşud Banu Natəvanın heykəllərini Şuşa şəhərindən Ermənistan ərazisinə aparmışlar. Bu abidələr bütün əxlaq normalarının ziddinə olaraq vəhşicəsinə güllələnmiş və ağır texnika vasitəsilə zədələnmişdir. Həmin abidələr respublikamızın müvafiq qrumları tərəfindən çox çətinliklə əldə edilərək Bakıya gətirilmiş və hazırda Azərbaycan Milli İncəsənət Muzeyinin həyətində nümayiş etdirilir.

Xalqımızın tarixində çox hadisələr baş verib, uğursuzluqlar da olub. Lakin bütün bunlar müvəqqəti xarakter daşıyıb. Bu xalq yaşayıb, yaradıb, öz varlığını da, dilini də, mədəni irsini də qoruyub, gələcək nəsillərə çatdırıb.

**2007**

## MİLLİ VƏ ÜMUMBƏŞƏRİ SƏRVƏT (AZƏRBAYCAN XALÇASI HAQQINDA DÜŞÜNCƏLƏR)

Məlum həqiqətdir ki, hər bir xalqın mədəni irsi onun milli sərvətidir, eyni zamanda, həmin xalqın qabiliyyət və istedadının daşıyıcısı olmaqla onun tarixini və mədəniyyətini də özündə yaşadır. Xalqın özünə və başqalarına, ayrı-ayrı şəxsiyyətlərə, tarixində baş vermiş sosial-siyasi hadisələrə münasibətinin formalaşmasında mədəni irs müstəsna əhəmiyyətə malikdir. Heç də təsadüfi deyildir ki, mədəni irsin qorunması, normativ sənədlər, o cümlədən beynəlxalq normativ sənədlərlə tənzimlənir və qorunur.

Hazırda mədəni irsin qorunması üzrə bir sıra beynəlxalq aktlar - konvensiyalar, tövsiyələr, bəyannamələr fəaliyyət göstərir. Bu sənədlər hər bir xalqın mədəniyyət sərvətlərinin məhz həmin xalqa məxsus olduğunu bəyan edir, onun toxunulmazlığına təminat verir. Bu normativ sənədlər müstəqil Azərbaycan Respublikası tərəfindən də imzalanmış və müəyyən olunmuş qaydada ratifikasiya edilmişdir.

Məlumdur ki, hər bir xalq dünya mədəniyyətini öz töhfələri ilə zənginləşdirir və bütün bunlar bəşəriyyətin mədəni irsinə çevrilir, milli sərvət ümumbəşəri əhəmiyyət kəsb edir. Azərbaycan xalqının mili sərvəti olan xalça sənətinin yaranması və inkişafı milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsidir. Eyni zamanda, bu sənət ümumbəşəri əhəmiyyətə malikdir.

Bu gün Azərbaycan xalça sənəti öz inkişafının yeni mərhələsini yaşayır. «Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında» Qanunun qəbul edilməsi, Azərbaycan Respublikasının Prezidenti

İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün müasir standartlara uyğun binanın inşa edilməsi bu qədim el sənətinə dövlət qayğısının ifadəsidir.

Azərbaycan xalça sənəti YUNESKO-nun «Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı»na daxil edilmişdir. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın təşəbbüsü və əməyi nəticəsində Azərbaycan muğam sənəti və Azərbaycan aşıq sənətindən sonra Azərbaycan xalça sənətinin də qeyd olunan Siyahıda yer alması milli dəyərlərimizin, ümumən mədəniyyətimizin qorunması və beynəlxalq miqyasda tanıdılması yönündə daha bir uğurlu addımdır.

Azərbaycanda xalça sənətinin qədim tarixi vardır və tədqiqatçıların dediyinə görə, bu sənətin yaşı elə xalqımızın yaşına bərabərdir. Bu da təbii sayılmalıdır. Bu torpağın rəngarəng boyaqların hazırlanmasına imkan verən zəngin bitki aləmi və zərif yunu xalça sənətinin yaranmasına və inkişafına şərait yaradıb.

Azərbaycanda xalça sənətinin qədimliyini arxeoloji tədqiqatlar və bir sıra tarixi mənbələr də təsdiq edir. Azərbaycan xalça sənəti tunc dövründən başlayaraq inkişaf etmiş və bu günümüzə qədər gəlib çatmışdır.

Azərbaycan xalça sənəti daim sənətşünasların diqqət mərkəzində olmuş, bu mövzuda elmlər doktoru və fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiyalar müdafiə edilmiş, monoqrafiyalar və çoxsaylı məqalələr nəşr edilmişdir. Görkəmli xalçaçı- rəsam və tədqiqatçı- alim Lətif Kərimov bu sahədə bir sıra sanballı araşdırmaların müəllifidir. Tədqiqatçılardan Rasim Əfəndiyev, Röya Tağıyeva, Cəfər Müciri, Nəcibə

Abdullayeva, Kübra Əliyeva, Anaxanım Əliyeva, Ziyadxan Əliyev, Nərminə Tağıyeva, Xədicə Əsədova, Məmmədhüseyn Hüseynov və bir çox başqaları Azərbaycan xalça sənətinin tarixi, ənənələri və bədii xüsusiyyətləri, ornament və kompozisiyası, ayrı- ayrı xalçaçılıq məktəbləri və s. bağlı araşdırmalar aparmışlar. Xalça sənətimiz xarici tədqiqatçıların da diqqətini cəlb etmişdir.

Məlumdur ki, hər bir xalq yalnız onun özünə məxsus olan bir cəhəti ilə fərqlənir. Azərbaycan xalqının özünəməxsus xüsusiyyətlərindən biri məhz xalça sənəti ilə bağlıdır. Nənələrimizin xalça toxuması, bu məşğuliyyətə xüsusi münasibət bəsləməsi və onu sənət səviyyəsinə qaldırması artıq inkarolunmaz faktlardır. Kasıb və ya varlı olmasından asılı olmayaraq hər bir azərbaycanlının evini xalça və xalça məmulatları bəzəyib. Evdə böyüyən uşaq məhz xalça, palaz üzərində iməkləyib, ayaq tutub, divardakı, taxtın üstündəki xalça onun zövqünün, dünyagörüşünün formalaşmasına təsir göstərib. Beləliklə də xalça, eyni zamanda, əvəzsiz estetik tərbiyə vasitəsinə çevrilib.

Uşaqlıq dünyamızın ilk nağılları, əfsanələri də xalçalarımızla bağlıdır. Neçə-neçə nağıl, əfsanə qəhrəmanlarına qoşulub «uçan xalçalar»da «uçmuşuq».

Hər xalqın özünün toy, qızköçürmə adəti var. Elə xalqlar var ki, müqəddəs hesab etdikləri hər hansı bir əşyanı mütləq qızın cehizinə əlavə edirlər.

Azərbaycanlılar bu adəti xalça vasitəsilə həyata keçiriblər. Ərə gedən qızın cehizi içərisində mütləq xalça da olub. Həm də elə olub ki, bu xalçanı qız özü toxuyub, yaxud onun toxunmasında iştirak edib. Bu, gəlinin əməyə münasibətini, müstəqil həyata hazırlığını bildirir, eyni zamanda, xalqın özünün xalçaya münasibətinin ifadəsidir.

Azərbaycan qadınının həyatında, xalçaçılıq böyük yer tutur. Respublikamızda elə bölgələr var ki, oradakı qız-gəlinlərin əksəriyyəti xalça toxuya bilirlər.

Xalça və xalça məmulatları ilk əvvəllər məişət ehtiyaclarını ödəmək məqsədilə meydana çıxmışdır. Bu məmulatlar zaman keçdikcə həm də mənəvi təlabatın ödənilməsinə xidmət etmişdir. Belə ki, xalça sənət əsərinə çevrilmiş, interyerin tərtibatında əsas vasitə olmuşdur.

Orta əsrlərdə Azərbaycanda toxuculuq sənətinin inkişafı ilə əlaqədar olaraq ipək, kətan və yun parçalar, xalça və xalça məmulatları toxunmuşdur. Tarixi mənbələrdə məlumat verilir ki, məhz həmin dövrdə Azərbaycan xalça istehsalı mərkəzlərindən biri kimi tanınırdı.

Bu mənbələrdən məlum olur ki, hələ eramızın YII əsrində Azərbaycanın şimal- şərqində yüksək keyfiyyətli xalçalar toxunmuş, X əsrdə Azərbaycanın Muğan bölgəsi öz çuval və palazları, Naxçıvan, Xoy və Salmas öz zili və xalçaları, Bərdə öz ipək və xalçaları ilə şöhrət qazanmışdı. Azərbaycan xalçalarının təsvirinə «Kitabi-Dədə Qorqud» dastanında, habelə Qətran Təbrizi, Nizami Gəncəvi, Xaqani Şirvani və başqa söz ustalarının əsərlərində rast gəlirik.

Tədqiqatçılar XYI-XYII əsrlər Səfəvilər dövrünü Azərbaycan xalça sənətinin yüksək inkişaf mərhələsi hesab edirlər. Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətainin XVI əsrin əvvəllərində Təbrizdə öz sarayında yaratdığı kitabxana sənət mərkəzinə çevrilmişdi. Bu «incəsənət akademiyası»na şairlər, elm və mədəniyyət xadimləri ilə birlikdə rəssamlar da toplaşmışdılar. Kitabxananın nəzdində bədii emalatxana yaradılmış və burada Sultan Məhəmmd, Sadiq bəy Əfşar, Dust Məhəmməd kimi qüdrətli fırça ustaları fəaliyyət göstərmişlər. Onlar xalça və bədii parçaların çeşnilərini vermiş və bunların

əsasında toxunmuş zərif xalçalar və parçalar geniş yayılmışdı.

Müxtəlif dövrlərdə Azərbaycanda ayrı-ayrı hökmdarların, zəngin adamların sarayları, məscid və ibadət yerləri də qiymətli sənət nümunələri ilə bəzədilmişdi. Bunların arasında rəsm əsərləri, heykəltəraşlıq nümunələri, qiymətli materiallardan hazırlanmış bəzək əşyaları, silahlar, digər sənət nümunələri ilə yanaşı nadir Azərbaycan xalçaları da olmuşdur.

Azərbaycanda yaradılmış müxtəlif sənət nümunələrindən, o cümlədən Azərbaycan xalçalarından seçmələr 1872-ci ildə Moskvada, 1918-ci ildə Peterburqda Ümumrusiya sərgilərində, 1873-cü ildə Vyanada, 1924-cü ildə Parisdə Ümumdünya sərgilərində nümayiş etdirilmişdir. Bununla yanaşı, bir sıra nadir sənət nümunələrimiz- xalçalarımız zaman-zaman dünyanı dolaşmış, ayrı-ayrı ölkələrin muzeylərinin fondlarını zənginləşdirmiş, şəxsi kolleksiyaların bəzəyinə çevrilmişdir. Bu əşyaların bəziləri ayrı-ayrı şəxslərdən alınmış, bəziləri isə qarət edilərək Azərbaycandan aparılmışdır.

Tarixən Azərbaycana gələn səyyahlar və tacirlər də buradan özləri ilə xalça aparmışlar. Elə indi də belədir. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycan xalçaları dünyanın ən zəngin muzeylərinin və bir sıra şəxsi kolleksiyaların bəzəyinə çevrilmişdir. Bizim xalçalar Nyu-Yorkun Metropoliten, Londonun Viktoriya və Albert, Parisin Luvr, İstanbulun Topqapı, Romanın, Berlinin, Tehranın, Qahirənin, Moskvanın, Sankt-Peterburqun, Vyananın muzeylərində nümayiş etdirilir. Bunların sırasında dövrümüzə çatmış ən qədim Azərbaycan xalçaları- XII-XY əsrlərin yadigarları vardır.

Çox təəssüflə qeyd etmək lazımdır ki, bəzi muzeylərdə bu sənət nümunələri mənsub olduğu xalqın adı ilə

deyil, çox hallarda «İran xalçası», «Qafqaz xalçası», hətta «Erməni xalçası» adları ilə təqdim olunur.

Azərbaycan xalçası milli və ümumbəşəri sərvətdir. Azərbaycan xalçası mənsub olduğu xalqın, eyni zamanda, bütün bəşəriyyətin mədəni-mənəvi sərvəti kimi araşdırılır. Son zamanlar aparılan araşdırmalara əsasən belə bir qənaətə gəlmək olar ki, xalqımıızın qürur hissinin göstəricisi olan Azərbaycan xalçası məhz özünəməxsus milli bədii xüssusiyyətləri, həyat fəlsəfəsi ilə dünya mədəniyyətinin inkişafına təsir göstərən bir amil kimi ümumbəşəri mahiyyətli hadisəyə, bütün bəşər mədəniyyətinin nailiyyətinə çevrilmişdir.

Tanınmış sənətşünas, professor Röya Tağıyeva bu dediklərimizi öz tədqiqatlarında Azərbaycan xalçasının yaranması və inkişafı tarixini izləməklə geniş şərh etmişdir. Onun fikrincə, incəsənətin başqa sahələri kimi Azərbaycan xalça sənəti də özünün yüksəliş dövrünü yaşamış, bununla yanaşı, bu sənətdə ideya və obrazların bədii ifadə sisteminin əsl xalq ruhundan gələn əsaslarına sədaqəti qorunub saxlanılmışdır. Azərbaycan xalçasının zəngin bədii xüsusiyyətləri və forma əlvanlığı onun yaranma tarixindən müşahidə olunmuşdur.

Tədqiqatçı öz araşdırmalarında qədim məxəzlərə isttinadən mədəniyyətlərin bir - birinə təsiri, ayrı-ayrı təriqət və inanclar, bunların simvol və motivlərinin Azərbaycan xalçlarında izlərini üzə çıxarmış və bütün bunlara çağdaş sənətşünaslığın qarşısında duran tələblər baxımından yanaşaraq Azərbaycan xalqının etnomədəni tarixi kontekstində təhlil etmişdir .

Röya Tağıyeva sufizmin Azərbaycan xalça sənətinə təsiri ilə bağlı araşdırmalarında bu təsirin xüsusən XVI-XVII əsrlər Təbriz xalçalarında müşahidə olunduğu qənaətinə gəlmişdir. O, xalçaların ovsunlayıcı

və qoruyucu funksiyaları barədə məlumat vermiş və xalçanın qədimlərdən başlayaraq indiyədək xalqımızın adət – ənənəsində və məişətində oynadığı rolu geniş şərh etmiş, ondan istifadə olunması məsələlərinə aydınlıq gətirmiş, eyni zamanda, xalça naxışları, rəmzləri, hətta onun rəngi ilə bağlı daşıdığı mənaları açıqlamış, bəzi xalça adlarının etimologiyasına öz münasibətini bildirmişdir.

Bu gün ölkəmizdə xalçalarımızı toplayan, qoruyan, öyrənən və təbliğ edən bir məkan var. Bu məkan Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyidir. Ölkəmizin ən zəngin muzeylərindən biri olmaqla,eyni zamanda, elmi- tədqiqat müəssisəsidir. Muzey respublika hökumətinin qərarı ilə 1967-ci ildə təşkil olunmuş, ilk ekspozisiyası isə 1972-ci ildə İçərişəhərdə, XIX əsr memarlıq abidəsi «Cümə» məscidində açılmışdır, 1992-ci ildə «Muzey mərkəzi»nə köçürülmüş və burada yeni ekspozisiya qurulmuşdur. İndii muzey, yuxarıda qeyd etdiyimiz kimi, yeni ünvana- Azərbaycan xalçasına daha layiq məkana köçmək ərəfəsindədir.

Ötən dövr ərzində muzey tərəfindən xalça və xalça məmulatlarının, digər xalq tətbiqi sənəti nümunələrinin toplanması, qorunması, öyrənilməsi və təbliği sahəsində mühüm işlər görülmüşdür. Muzeydə toplanmış əşyalar müxtəlif dövrləri əks etdirir. XII əsrə aid saxsı qablar, XIV əsrə aid bədii metal nümunələri, XVII əsrə aid xalça və xalça məlumatları, XIX əsrə aid bədii tikmələr, milli geyimlər muzey kolleksiyalarının qədimliyindən soraq verir. Hazırda muzeydə 15 mindən artıq müxtəlif sənət nümunələri saxlanılır.

Xarici ölkələrdə Azərbaycan xalçalarından ibarət sərgilərin təşkili muzeyin fəaliyyətində mühüm yer tutur. Belə sərgilər keçmiş SSRİ-nin müxtəlif guşələrində, ABŞ,

Almaniya, İngiltərə, Fransa, Kuba, Hollandiya, İsrail, Nepal, Hindistan, Portuqaliya, Macarıstan, Yuqoslaviya, Türkiyə, Bolqarıstan, Monqolustan, Yaponiya, Finlandiya, İran və s. ölkələrdə uğurla nümayiş etdirilmişdir.

1983-cü ildə muzeyin bazasında «Şərq xalça sənəti» mövzusunda I beynəlxalq simpozium keçirilmişdir. Simpoziumda 170 nəfər, o cümlədən xarici ölkələrdən 57 nəfər iştirak etmişdir. Simpozium çərçivəsində «Azərbaycan təsviri sənəti», «Azərbaycanın süjetli xalçaları», «Milli geyim və zərgərlik sənəti», «Azərbaycanın misgərlik sənəti» və s. sərgilər təşkil olunmuşdur.

Muzeyin bazasında 1988-ci ildə keçirilmiş II beynəlxalq simpozium Azərbaycan xalça sənətinə həsr olunmuşdur. Bu tədbirdə Azərbaycan xalçasının dünya xalqlarının mədəniyyətinə təsiri, qarşılıqlı mübadilə yolu ilə inkişafına aid məruzələr dinlənilmiş, xalça sənətinin öyrənilməsi səviyyəsi və gələcək inkişaf yollarının müəyyənləşdirilməsi məsələləri şərh olunmuşdur.

«Azərbaycan xalçası və xalq tətbiqə sənəti» mövzusunda III beynəlxalq simpozium 2003-cü ildə keçirilmişdir. Bu simpoziumda Azərbaycan xalça sənətinin yeni inkişaf mərhələsinə aid məsələlər araşdırılmışdır.

Azərbaycan  xalça sənətinə həsr olunqmuş IY beynəlxalq simpozium 2007-ci ildə Parisdə, YUNESKO-nun iqamətgahında keçirildi. «Azərbaycan xalçaları» sərgisi ilə müşayiət olunan bu simpozium görkəmli xalçaçı-rəssam və tədqiqatçı-alim Lətif Kərimovun 100 illik yubileyinə həsr olunmuşdu.

2007- ci ildə muzeyə elmi status verilmiş və burada elmi- tədqiqat şöbəsi yaradılmışdır. Şöbədə aparıcı mütəxəssis-alimlər və gənc tədqiqatçılar tərəfindən Azərbaycan xalça sənətinə aid gərəkli araşdırmalar aparılır. Azərbaycan Respublikası Prezidenti yanında Ali

Attestasiya Komissiyasının qərarı ilə muzey dissertasiyalara rəy verən aparıcı elmi müəssisələr sırasına daxil edilmişdir. Burada «Təsviri və dekorativ- tətbiq sənət məsələləri» adlı elmi elmi toplu nəşr edilir.

1998-ci ildə respublikamızda Azərbaycan xalça sənətinə aid yeni bir muzey də açıldı. Bu, Naxçıvan Muxtar Respublikası Azərbaycan Xalçası Dövlət Muzeyidir. Muzey Naxçıvan şəhərində memarlıq abidəsində yerləşir. Ekspozisiyada Azərbaycanın müxtəlif məktəblərini təmsil edən xalça və xalça məmulatları, habelə xalq tətbiqi sənəti nümunələri nümayiş etdirilir.

Bu gün respublikamızda Azərbaycan xalça sənəti, onun tarixi elmi əsaslarla öyrənilir, tədqiq olunur. Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda, Rəssamlıq Akademiyasının, Mədəniyyət və İncəsənət Universitetinin müvafiq kafedralarında bu sahədə araşdırmalar aparılır, monoqrafiyalar nəşr olunur, dissertasiyalar müdafiə edilir, eyni zamanda, yüksək ixtisaslı xalçaçılar hazırlanır.

Bütün bunlarla yanaşı, xalçaçılarımız qədim ənənələrə əsaslanaraq yeni xalçalar yaradır, mədəni irsimizi daha da zənginləşdirirlər.

**2011**

## AZƏRBAYCAN XALÇASI POEZİYADA (XALQ ŞAİRİ SƏMƏD VURĞUNUN YARADICILIĞI ƏSASINDA)

Məlum həqiqətdir ki, Səməd Vurğun yaradıcılığının əsas mövzusu mənsub olduğu xalqın keçmişi və bu günü, gələcək taleyidir :

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən.
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Professor Cəlal Abdullayev şairin yaradıcılığındakı bu xüsusiyyəti belə səciyyələndirmişdir: "Səməd Vurğunun bütün yaradıcılığının bir məhvəri vardır – Azərbaycan! Bütün səyyarələr, planetlər günəş ətrafında dövr etdiyi kimi, şairin də bütün poetik düşüncə silsiləsi, obrazlar aləmi, söz kəhkəşanı, bədii təsvir vasitələri, əsərlərinin kaloriti, zahir və batini, nəyi varsa – hamısı bu məhvərin – Azərbaycanın başına dolanmaqdadır."

Doğrudan da, Səməd Vurğun mənsub olduğu xalqın arzu və istəklərini poeziya dilinə çevirmiş, xalq ruhunun, xalq həyatının tərcumanı olmuşdur. Bununla yanaşı, şairin yaradıcılığı ümumbəşəri səviyyəyə yüksəlmişdir.

Səməd Vurğun xalq həyatını dərindən bilən sənətkar kimi öz əsərlərində bu həyatın özünəməxsus cəhətlərinin zahiri təsvirinə də geniş yer ayırmış, adət-ənənələri, el mərasimlərini, xalq məişəti və mədəniyyətini milli çalarları ilə göstərmişdir. Şair öz əməli fəaliyyətində də xalq həyatının mütəxəssislər tərəfindən elmi şəkildə

öyrənilməsinə xüsusi diqqət yetirmiş, bu işə kömək etmişdir. O, yazmışdır:"Yadelli qəsbkarların saysız basqınlarına baxmayaraq, Azərbaycan xalqı öz dilini, adət-ənənələrini və mədəniyyətini qoruyub saxlamışdır. Azərbaycanın milli mədəniyyət abidələri və bizim minillik yazılı ədəbiyyatımız buna parlaq sübutdur." Buna görə də şair tarixçi, arxeoloq, etnoqraf və sənətşünas alimlərin qarşısında böyük vəzifələr qoyur, qədim abidələri öyrənməyə çağırırdı.

Səməd Vurğunun 1955-ci ilin aprelində respublika Elmlər Akademiyasının 10 illik yubileyi münasibətilə keçirilmiş elmi sessiyadakı çıxışı bu baxımdan maraqlıdır və indi də öz əhəmiyyətini saxlayır. Şair həmin çıxışında xüsusilə orta əsrlərə aid mədəniyyət abidələrinin lazımi səviyyədə üzə çıxarılmadığını və toplanılmadığını təəssüflə bildirir və deyirdi ki, arxeoloq və etnoqraflarımız "hərbi cəldliklə" işləməlidirlər, zaman keçdikcə həmin qədim yazılar silinir, həm də sərt daşlar köhnəlir və aşılanır. Yeni məişət əşyaları köhnələrini sürətlə əvəz edir, insanların həyat tərzi tanınmaz dərəcədə dəyişir. Səməd Vurğun maddi mədəniyyət abidələrinin məhv edilməsinin qarşısını almağa çağırırdı:"Qətiyyən belə yolverilməz hallar da baş verir ki, bizim bəzi inşaatçılarımız üzərində əsrlərdən bəri qədim yazıları, məişət səhnələrinin bədii təsvirlərini, uzaq əcdadlarımızın həyatı və tarixini qoruyub saxlayan, onların adət, mərasim ənənələrini, bir çox nəsillərin müxtəlif zamanların əmək həyatının rəngarəngliyi və xüsusiyyətlərini əks etdirən qayada daşları qırıb-dağıdırlar." Səməd Vurğun respublika Elmlər Akakdemiyasının vitse-prezidenti olaraq humanitar elmlər sahəsində, o cümlədən Azərbaycan təsviri və dekorativ-tətbiqi sənətinin araşdırılması ilə bağlı

görülmüş işlər barədə məlumat vermişdir. Şair demişdir ki, Azərbaycan incəsənətinin miniatür, nəqqaşlıq, divar yazıları, oymanın müxtəlif növləri, bədii işləmə məmulatı, xalçaçılıq sənəti, təsviri incəsənət elmi-tədqiqat obyektlərinə çevrilmiş, bu sahələrin araşdırılması nəticəsində bir sıra nəşrlər meydana çıxmışdır.

Şair bu sıradan görkəmli tədqiqatçı və xalçaçı-rəssam Lətif Kərimovun fundamental "Azərbaycan xalçası" monoqrafiyasının birinci cildinin çapa verildiyini, müəllifin ikinci cild üzərində yaradıcılıq işini başa çatdırmaq üzrə olduğunu xüsusi qeyd etmişdir. Bu da təsadüfi deyildi.

Məlumdur ki, Azərbaycanda xalça sənətinin qədim tarixi olmaqla xalçanın da xalqımızın həyatında və məişətində xüsusi yeri vardır. Azərbaycan xalçası poeziyamızda da xatırlanmış, qədim və həmişəyaşar bir sənət növü kimi oxucuya təqdim olunmuşdur.

Səməd Vurğunun əsərldərində də xalça və xalça məmulatlarının adlarına rast gəlirik. Şairin ayrı-ayrı misralarından aydın görünür ki, o, xalq həyatına və məişəniə daxil olmuş xalçalardan istifadə olunması ilə bağlı geniş biliyə malik olmuşdur.

Şairin əsərlərində xalça və xalça məmulatları xalq həyatı və məişətinin ayrılmaz hissəsi kimi təqdim olunur. Burada rast gəldiyimiz "xalı", "xalça", "xurcun", "keçə", "corab", "çul", "qotaz", "qurşaq", "çarıq bağı", "örkən", "çatı", xalça sənəti ilə bağlı digər söz və ifadələr xalq həyatı ilə bağlı canlı lövhələrin yaradılmasına, milli məişətimizin özünəməxsus cəhətlərinin göstərilməsinə xidmət edir.

Səməd Vurğun, hər şeydən əvvəl, Azərbaycan xalçasının rəng zənginliyinə diqqət yetirir. Şairin əsərlərində ayrı-ayrı rənglər və onların çalarları təbiətin möcüzəsi

və gözəllik mənbəyi kimi təqdim olunur. "Bakının dastanı" poemasında qürub çağının təsviri ilə əlaqədar qələmə alınmış "Al günəşin şəfəqləri qıpqırmızı", "Alov rəngli saçlarının şəfəqləri", "Alov rəngi çökmüş bütün asimana", "Zümrüd göyə çox yaraşır lalə rəngi", "O al şəfəq neçə-neçə rəngə çalır"... misraları xüsusi maraq doğurur. Şair yaratdığı mənzərəni bu misralarla yekunlaşdırır:

Buludların hüsnündəki o şəfəqlər
Gah **abıdır**, gah **narıncı**, gah da **sarı**.
Bəzən eyni gözəlliklə doğur səhər...
Nə əlvandır bizim Bakı axşamları –
Gah **abıdır**, gah **narıncı**, gah da **sarı**

Maraqlıdır ki, bu parçada rast gəldiyimiz "abı", "narıncı" və "sarı" rəngləri Azərbaycan xalça sənətində geniş yayılmış rənglərdən hesab olunur.

Professor Röya Tağıyeva göstərir ki, narıncı rəngi almaq üçün sarı rəngdə boyadılmış yun təbii boyaq bitkisi olan qızıl boyanın (xalq arasında boya, boyaq kökü, boyaq otu adlanır) kökündən hazırlanmış məhlulda qaynadılır. Yun ipi sarı rəngə boyamaq üçün isə tut, tozağacı, ağcaqayın, alça, heyva ağaclarının yarpaqlarından, əspərək, qantəpər, dazı, süddüyən, baldırğan, süsən, qaytarma və digər bitkilərin yarpaq, çiçək, kök, oduncaq, qabıq hissələrindən istifadə edilir.

"Bakının dastanı" poemasında Nizami Gəncəvinin adını daşıyan muzeyin binasının rəngləri və rəng çalarları barədə şairin fikir və mülahizələri də maraqlıdır. Şair bu binanı "yüz rəng çalan sənət" hesab edir və rənglər də məhz cünəş şəfəqləri vasitəsilə üzə çıxır. Eyni zamanda, şair unutmur ki, bu gözəlliyi ehtiyatsız bir hərəkət məhv edə bilər:

Nə zaman ki, al günəşin şəfəqləri
Kölgə salır bu binanın yüz renginə.
O andırır əlvan donlu bir səhəri ; -
Hər səhnənin öz hüsnünə, öz renginə
Başqa boyaq, başqa bir rəng vursa əlin,
Memar yoldaş ! Puça çıxar öz əməlin.

Nəhayət, şair təbiətin bu rənglərini Azərbaycan xalçasında görür.

İlin ən gözəl və qaynar çağı sayılan bahar fəsli şairlərin ilham mənbəyinə çevrilmiş, tərənnüm edilmişdir. Bu mövzuya Səməd Vurğun da müraciət etmişdir. "Bahar düşüncələri" şeirində bahar fəsli şairin "istəklisi", "təbiətin ən gözəl qızı", "şeirin, sənətin gözünün odu", "şair tək qanı qaynar" bir varlıq kimi təqim olunur. Şairə görə, sükuta düşmən olan, heç vaxt sakitləşməyən bu fəslin gözəlliyi, eyni zamanda onun insanı heyrətləndirən rənglərindədir. Səməd Vurğun "Yerdə arzuların gül açır rəng-rəng" misrası ilə çox gözəl bir mənzərə yaradır. Elə bir mənzərə ki, yerə sərilmiş minlərlə xalıdan ibarətdir, fəslin bütün rəng və çalarları da bu xalılara hopmuşdur. Şair təbiətin bu əlvan rənglərinə heyran olur və onları Azərbaycan xalçasında görür :

Sükuta düşmənsən əzəldən sən də...
Nə yatır, nə də bir sakit olursan.
Çöllələrə neçə min xalı sərsən də
Çarpışıb yağışla, boranla, qarla –
Qışın son nəfəsi – qasırğalarla –
Sən də döyüşlərdə yaşa dolursan.
Nə yatır, nə də bir sakit olursan !

Şairin məşhur "Azərbaycan" şeirində isə bahar fəslində təbiətin gözəlliyini daha da artırmaq, rahatlıq yaratmaq üçün xalılardan istfadə olunması arzu edilir :

Ey azad gün, azad insan,
Doyunca iç bu bahardan!
Bizim xalı, xalçalardan
Sər çinarlar kölgəsinə,
Alqış günəş ölkəsinə!

Səməd Vurğunun əsərlərində xalça sənəti xalq həyatı və məişətinin ayrılmaz hissəsi kimi təqdim olunur.

Azərbaycanda hələ qədim zamanlardan keçəçilik geniş yayılmışdır. Məlumdur ki, keçə yunun sıxılıb basılması ilə hazırlanır. Döşənəcək, alaçıq tipli evlərin üstünü örtmək üçün işlənən keçədən, eyni zamanda geyim (yapıncı, papaq və s.) hazırlanmasında, sərraclıq və palançılıq işlərində istifadə olunur.

Keçədən müxtəlif məqsədlərlə istifadə olunduğuna şairin əsərlərində də rast gəlirik. Onun yaradıcılığının ilk illərinə məxsus "Bizim dağların" qoşmasında yaylağın təsviri verilir. Doğma yurdun gözəl guşələrindən olan bu yerlərin əlvan çiçəkləri heç vaxt solmur, çeşmələr başından zurna-balabanın səsi kəsilmir. Bu yerlərin meşəsi, talası, ceyranı, təmiz havası, buz bulaqları insana zövq verir, onun ömrünü uzadır.

Biz şairin təsvirində dağların təbii gözəllikləri, eyni zamanda, yaylağa çıxan adamların məişətinin özünəməxus cəhətləri – qonaqpərvərliyi, məşğuliyyəti ilə tanış oluruq. Şeirdə təbiətin və xalq məişətinin əlaqəli təsviri ilə canlı etnoqrafik lövhələr yaradılır :

Şeh düşər otların üstə gecədən,
Doymaq olmaz orda xoruz-beçədən.
Dəyəsi qurular qalın keçədən
Dərdlərin dərmanı bizim dağların

Göründüyü kimi, şair dəyələrin (alaçıq) keçədən qurulmasını xüsusi vurğulayır və bunula xalq həyatına dərindən bəld olduğunu bir daha sübuta yetirmiş olur.

Keçə ilə bağlı məmulatların adlarına şairin “Vaqif” pyesində, “Komsomol poeması”, “Acı xatirələr” və “Muğan” poemalarında da rast gəlirik.

Xalqımız tərəfindən istifadə olunan geyimlərdən biri də yapıncdır. Yapıncını ən çox yağmurlu havada çobanlar geyinirlər. Adi adamlar da şəraitə uyğun olaraq yapıncıdan istifadə edirlər. “Vaqif”də el ağsaqqalı öz yapıncının altında saxladığı Misri qılıncı Eldara təqdim edir. Eldar da həmin qılıncı öz yapıncısının altından çıxararaq Qacarı qətlə yetirir.

“Muğan”poemasında şairin qarşısına çıxan çoban belə təsvir edilir :

Çıxır qarşımıza qoca bir çoban,
Çiyni yapıncılı, boyu çinar tək.
Azacıq çal düşmüş qaşlar altından
Qırğı baxışları gülümsəyərək,
Yerindən quş kimi qalxır ayağa.

Çoban “çinar tək boyu”, “qırğı baxışları”, “yerindən quş kimi qalxması” ilə bərabər oxucunun yaddaşında həm də çiynindəki yapıncı ilə qalır.

Yapıncı öz sahibini qışın şaxtasından qoruyan geyimdir. “Komsomol poeması”nda şaxtanın təsirindən donmuş Humayı “çöllərin sultanı, şahı çobanlar” yapıncıya bürüyüb evə gətirirlər.

Ümumiyyətlə, xalq həyatı və məişətinin poetik təsviri bu poemada qabarıq verilmiş, canlı etnoqrafik lövhələr yaradılmışdır. Şair kasıb evini – Qızyetər qarının daxmasını belə təsvir edir :

Yerliyi üç metr dərin qazılmış
Bir daxma görməmiş nə bahar, nə qış...
Nəmli divarları məzar kimi dar,
Duyan ürəkləri sıxıb ağladar.
Kərəni, pərdisi hörümçük toru,

Deyirlər, kasıbın bilinməz goru.
Hisli buxarısı kömürdən qara,
Qaranlıq qapısı küsüb dağlara...
Burda ömr eləyir Qızyetər qarı,
Əvvəlki qüvvədən düşmüş qolları.
Çoxdandır kiriyib əyri cəhrəsi,
Atılıb bir yana odun dəhrəsi.
Nə od var, nə ocaq, nə urvalıq un,
Büzüşüb bir küncdə yamaqlı xurcun.

Xalq yazıçısı Mehdi Hüseyn şairin bu təsvrini belə səciyyələndirmişdir : "Yoxsul azərbaycanlı kəndlisinin daxmasını... heç bir şair bu qədər aydın, bu qədər canlı təsvir etməmişdir, desək, qətiyyən yanılmarıq. Bu daxmanın təsvirində hansı təfərrüfat uydurulmuş, hansı qaranlıq bucaq sehrkar rəssam fırçasının qüdrəti sayəsində işıqlandırılmamışdır?"

Doğrudan da yuxarıdakı parçada kasıb evinin – qaradamın daxilinin təsviri ilə yanaşı, ev sahibinin həyat tərzi və məşğuliyyəti, onun maddi məhrumiyyət və çətinlikləri də öz əksini tapmışdır. Cəhrənin səssiz dayanması, dəhrənin bir küncə atılması, buxarının yanmaması, xurcunun büzüşüb qalması Qızyetər qarı üçün həyatın sönməsinə işarədir.

Cəhrə vasitəsilə yun və pambıqdan ip hazırlanır. Bu ip isə xalça və xalça məmulatlarının toxunmasında istifadə olunur. İp əyirmək qədim zamanlardan Azərbaycan qadınlarının əsas məşğuliyyət sahələrindən biri, həm də dolanacaq vasitəsi olmuşdur. Bu parçadan məlum olur ki, Qızyetər qarı da uzun illər cəhrədə ip əyirmiş, bununla da özünü maddi cəhətdən təmin etmişdir.

Poemada adı çəkilən "xurcun" xalça məmulatı əsasən ərzaq məhsulları daşımaq və saxlamaq üçün is-

tifadə edilir. Şairin təsvirindən məlum olur ki, artıq bu əşyaların heç biri Qızyetər qarıya lazım deyil. Cəhrə ona görə səssiz dayanmışdır ki, artıq Qızyetər qarı ip əyirmir, xurcun ona görə küncə atılmışdır ki, içərisi boşdur...

"Komsomol poeması"nda xalqımızın ən qədim ənənəvi mərasimlərindən olan Novruz bayramının təsvirinə xüsusi yer ayrılmışdır. Əsərin fəsillərindən biri "Novruz bayramında" adlanır. Burada təsvir olunan hər bir qapıda tonqal çatılması və uşaqların tonqal üstündən tullanması, kosanın şən zarafatları, qız-gəlinlərin əllərinə xına yaxması, bəxt sınamaq üsçün suya iynə salınması, qapı pusulması ən qədim qaynaqlara söykənir. Kosanın keçə papağı olması xüsusi vurğulanır :

Kosanın başında bir keçə papaq,
Zınqırov da asıb lap kəlləsindən.
Onun çıxardığı oyunlara bax –
Nə üzdən tanınır, nə də səsindən.

"Keçə papaq" ifadəsinin, habelə xalçaçılıqla bağlı "çul" və "qotaz" sözlərinə şairin uşaqlıq xatirələri (acı da olsa) əsasında yazdığı "Acı xatirələr" poemasında da rast gəlirik :

Gələndə hər bahar Novruz bayramı,
Hərənin başında bir keçə papaq,
Düşüb qapılara gəzərdi hamı,
Hər çıxan tüstüdən bir pay umaraq.
Yığıb çantamıza yerdən-yemişdən,
Yolda gah yüyürüb, gah ötüşərdik.
Sonra yuvamıza dönüncə birdən
Çul kimi döşənib, yorğun düşərdik...

Çul minik və yük daşıyan heyvanların soyuqdan qorunması, eyni zamanda gözəl və əzəmətli görünməsi üçün onların belinə salınan incə toxunuşlu, müxtəlif naxışlı örtükdür. Yalnız örtük kimi istifadə olunan çul

belinə salındığı heyvanın hərəkəti istisna olmaqla daim hərəkətsizdir.

Qeyd etdiyimiz parçada yorğun uşağın "çul kimi" uzanıb hərəkətsiz qalması da təbii verilmişdir.

Həmin ifadəyə Səməd Vurğunun "Aslan qayası" poemasında da rast gəlirik. Əsərdə göstərilir ki, xan öz qızını – yeganə vərəsəsi Mahniyarı xan nəslindən olan adama vermək istəyir. Bunun səbəbini Mahniyar da başa düşür. Mahniyar anlayır ki, yağılar onun atasının taxt-tacına göz dikmişlər. Lakin Mahniyar şöhrət, var-dövlət üçün hər adama könül verə bilməz :

Fəqət şöhrət üçün, xaniman üçün,
Qanlarla yoğrulan bir zaman üçün
Qoparıb qəlbimi ata bilmərəm,
Çul kimi döşənib yata bilmərəm...

Qotaz bəzək məmulatıdır. Eyni, yaxud müxtəlif rəngli sap və ya iplərdən hazırlanır. Keçmişdə çul, yəhər xalçası və bəzi qadın paltarlarının bəzədilməsində istifadə olunmuşdur.

Yaxşı yadımdadır, doqquz yaşımda
Ağacdan qotazlı bir at mindiyim,
Aranda, yaylaqda, sular başında
Ağır danışdığım, ağır dindiyim,
Ağacdan qotazlı bir at mindiyim.

Göründüyü kimi doqquz yaşlı bir kənd uşağı ağacdan düzəltdiyi "atı" qotazla bəzəmişdir. Bu, təbii təsir bağışlayır və kənd uşağının – gələcəyin böyük şairinin böyük arzularla yaşadığına işarədir.

Səməd Vurğun hər hansı bir hadisəni və ya yaranmış vəziyyəti daha təsirli və canlı vermək üçün xalçaçılıqla bağlı terminlərdən istifadə etmişdir.

Şair "26-lar" poemasında XX əsrin əvvəllərində Bakıda mövcud durumu belə təsvir edir :

Bakının dərdi var, Bakı xəstədir,
Könül intizarda, göz yol üstədir...
Soyuq divarlarda güllə nişvanı,
Didir, parçalayır insan insanı,
Burda döngələrin yeri darısqal.
Oturmuş palanın üstündə hambal,
Dərin fikirlərə qərq ollmuş yazıq,
Dincəlmək istəyir o da azacıq...

Təsvirdən göründüyü kimi, Bakı öz ağır günlərini yaşayır. Yadellilərin gözü şəhərə – neft səltənətinə dikilmişdir. Şəhər əhalisinin də vəziyyəti ağırdır. Burada aclıq hökm sürür. Bununla yanaşı, "bir çörək pulu arzusu" ilə Bakıya  qonşu İrandan gələnlər də var. Bunlardan biri də "palanın üstündə oturmuş" hambaldır.

Palan heyvanların üstünə qoyulan yükü saxlamaq üçün köhnə xalça-palazdan, yaxud qaba toxunmuş kətan və pambıq parçadan hazırlanan yəhərdir. Bəzi hallarda yük daşıyan adamlar – hamballar da palandan istifadə etmişlər.

Poemada göstərilir ki, hambal dincəlmək məqsədilə palanın üstündə oturmuşdur. Bütün gün ərzində isə palan hambalın belində olmuşdur. Şair "palan" sözünü işlətməklə həmin dövrdə yük daşıyan heyvanla insana fərq qoyulmadığına işarə edir. Poemanın əvvəlində "Oturmuş palanın üstündə hambal" misrasının müxtəlif vəziyyətlərdə üç dəfə təkrar edilməsi insanın çəkdiyi əzab-əziyyətə işarədir.

Səməd Vurğunun "Üsyan" poemasında da həmin dövrün hadisələri qələmə alınmışdır. Əsərdə ölkədə baş verən hərc-mərcliklər göstərilir. Aclıq, xəstəlik, soyğunçuluq, talançılıq adi hal almışdır :

Aclıq ! Çəkilmişdir göylərə çörək,
Susuzluq ! Quruyur bağlarda tənək.

Gölmə sularının rəngi sapsarı,
Xəstəlik çürüdür ağaclıqları.
Dərin bir sükuta dalır təbiət,
Beləydi sevgilim, bizim köhnə kənd.

Bu kəndin ağası Elxan zəngin var-dövlət sahibidir. Onun aranı və dağı, yaylaq yerləri, habelə saysız malı və ilxıları, "bordaxda saxlanan minik atları" ilə yanaşı əzəmətli bir imarəti də vardır. Yaşıllıqlarla əhatə olunmuş bu yaraşıqlı binanın eyvanı güllü-çiçəklidir, "hər daşı bir dağdan" gətirilmişdir. Burada hər zaman bahardır.

Binanın daxili daha gözəldir. Bü gözəlliyi yaradan isə bizim xalçalarımızdır. Şair bu evin böyük salonunu belə təsvir edir :

Salonda, bir baxın, görün nələr var,
Taxta göşəməsi, seçmə xalçalar,
Vurulmuş divarda bir uzun xalı,
Asılmış üstündən bəyin xançalı.
Yanır lalə kimi xalının rəngi,
Xançalın yanında bir türk tüfəngi.
Asılmış üstündən altı patrondaş...

Təsvirdən məlum olur ki, bu salon mülk sahibinin qonaq otağıdır.

Burada taxta döşəmə üzərinə seçmə xalçalar salınmışdır. Divara isə uzun bir xalı vurulmuş, onun üstündən xəncər və tüfəng asılmışdır. Azərbaycan xalçalarının, xüsusən rəngi "lalə kimi yanan" xalının yaratdığı gözəllik və rahatlıq insanı valeh edir.

Bu evin bolşeviklər tərəfindən yandırılması ilə bu gözəllik bir anda yox olur :

Qaralmış divarları
Yanan bir xanimanın,
Qəlbi vurur zamanın
Nə xalça var, nə xalı,

Nə Elxanın xançalı,
Nə də bahar gülləri.

Xalçadan yalnız interyerin tərtibatında deyil, müxtəlif mərasimlərdə, o cümlədən el şənliklərində, toy və nişan mərasimlərində tərtibat və bəzək vasitəsi kimi istifadə olunmuşdur. Şair "Şadlıq" şeirində onun özünün kənd əhalisi tərəfindən qarşılanması mərasimini təsvir etmişdir. Bu yerlərin təbii gözəlliklərini, habelə el adəti ilə bəzədilməsini ön plana çəkən şair bütün bunların xoş ovqat yaratdığını da nəzərdən qaçırmır :

Bəzəmiş yolları xalı-xalçalar,
Kəndistan yerinin öz rəssamı var.
Bayram içindədir nazlı kəndimiz,
Bizim bu söhbətli, sazlı kəndimiz.

Tarixən Azərbaycanda xalça və xalça məmulatları hədiyyə vasitəsi kimi istifadə edilib. Ən yaxın qohumlar və dostlar bir-birinə xalça, yəhərüstü, heybə, corab, qurşaq, çarıq bağı və s. bağışlamışlar. Xalqımızın əsrlər boyu yaratdığı bu adətin təsvirinə Səməd Vurğunun əsərlərində də rast gəlirik.

"Vaqif" pyesində Əli bəyin qaynanası Əminə öz kürəkəninə pay olaraq bir cüt corab gətirir. O, hədiyyəni xurcundan çıxarıb Əli bəyə təqdim edərkən belə deyir

Oğul ! Deyirlər ki, qış bərk gələcək;
Sənə toxumuşam bu corabları.
Bilirsən, bunlardır kəndlinin varı.

Əli bəy bu hədiyyəni böyük məmnuniyyətlə qəbul edir və qaynanasına təşəkkürünü bildirir. Əminə də ona belə deyir :

Sağlıqla geyəsən, mehriban bala !

Göründüyü kimi, şair qeyd olunan sənət sahəsinin Azərbaycan kəndində qadınların məşğuliyyət növlərindən biri kimi geniş yayıldığını, eyni zamanda toxun-

muş məmulatların yüksək qiymətləndirildiyini xüsusi vurğulamışdır.

Böyük Vətən müharibəsi illərində arxa cəbhədən ön cəbhəyə göndərilən sovqatlar arasında isti paltar xüsusi yer tutmuşdur. Bu öz əksini bədii ədəbiyyatda da tapırdı. Səməd Vurğunun bu mövzuda 1941-ci ilin sentyabr ayında qələmə aldığı "Sovqat" şeiri maraqlıdır. Göründüyü kimi, şeir payızda, sərt qış fəsli ərəfəsində yazılmışdır. Şeir qızın öz sevgilisinə, cəbhədə vuruşan əsgərə məktubundan ibarətdir :

Sevgilim, qış gəlir, şaxta düşəcək,
Yenə axar sular buz tutacaqdır.
Yenə çapırdacaq atını külək,
İsti ocaqları soyudacaqdır.

Şimalın sərt şaxtasına gözmək, düşmənə layiqli cavab vermək üçün döyüşçünün əyni isti olmalı, əl-ayağı üşüməməlidir. Ona görə də qız öz toxuduqlarını sevgilisinə sovqat göndərir :

Bir corab, bir əlcək, bir isti köynək,
Bir də ki, yun başlıq göndərirəm mən.
Səni qılınc kimi kəsməsin külək,
Sən də nərə çəkib qılıncını çal !

Şair 1944-cü ildə yazdığı "Bakının dastanı" poemasında arxa cəbhənin ön cəbhəyə köməyindən söz açmış, fabrik və zavodlarda çalışan adamların əməyini tərənnüm etmişdir. Cəbhə üçün hazırlanan məhsullar arasında isti əsgər geyimləri də var :

İsti corab... İsti köynək... O yun əlcək
Ziynətidir gördüyünüz bü səhnənin.
Onlar bizim cəbhələrə pay gedəcək...

Şair Azərbaycanın ticarət əlaqələrinin inkişafında xalça və xalça məmulatlarının xüsusi rol oynadığını da vurğulamışdır :

Yüklənmiş gəmilərə o vaxt tay-tay
Azərbaycan torpağının ipək malı,
Min xalçası, kəlağayı, tirmə şalı.
Ürək deyir hər birini yerində say.

Şair onu da bildirir ki, ixrac olunan bu malların (xalça, kəlağayı, tirmə və s.) müqabilində Azərbaycana Hindistandan şəkər, İrandan çay, Türkmənistandan dəri, Rusiyadan metal məmulatları, Hollandiyadan mahud gətirilmişdir. O bu ölkələri sadalamaqla tarixən Azərbaycan xalçalarının geniş yayıldığını, dünya bazarına çıxarıldığını və yüksək qiymətləndirildiyini nəzərə çatdırır. Bu gün Azərbaycan xalçalarının dünya muzeylərinin və şəxsi kolleksiyaların bəzəyinə çevrildiyi həm də bununla bağlıdır.

Səməd Vurğun, eyni zamanda bir vaxtlar xalqımızın digər sərvəti kimi, xalçalarımızın da yadellilər tərəfindən qarət edilərək başqa ölkələrə aparıldığını unutmamış, bəzi hallarda isə bu cür əşyaların məhz özümüz tərəfindən yadlara "hədiyyə" edildiyini acı-acı xatırlamışdır.

Bu baxımdan böyük Azərbaycan şairi M.P.Vaqifə həsr olunmuş "Şairin ölümü" şeiri diqqəti cəlb edir. Burada İran hökmdarı Ağa Məhəmməd Şah Qacarın Qarabağa yürüşü və bu yerləri talaması, xalqın sərvətini qarət etməsi, insanları gözü yaşlı qoyması, habelə Vaqiflə bağlı hadisələr qələmə alınmışdır. Bütün bunları oxucuya çatdıran şair Vaqifə müraciətlə belə deyir:

O qanlı günlərə şahid idin sən,
Divarlar töküldü güllə səsindən.
Naxışlı xalçalar, uzun xalılar,
Babalar yurdundan qalan yadigar
"Hədiyyə" verildi o yaramaza ;

Sənsə gördüyünü düz yaza-yaza,
"Dünyada doğru bir halət görmədin
Bütün əyri gördün, babət görmədin".

Şair "Babalar yurdundan qalan yadigar" misrası ilə həmin xalçaların qədimliyinə işarə etmişdir.

Səməd Vurğun digər xalqların mədəniyyət sərvətlərinin, o cümlədən xalçalarının qarət edilməsini də yolverilməz saymış, buna etirazını bildirmişdir. Şairin "Avropa xatirələri" silsiləsinə daxil olan "Ziyafət" şeiri 1947-ci ilin mart ayında London şəhərində keçmiş SSRİ-nin Parlament nümayəndə heyətinin şərəfinə verilmiş ziyafətin təəssüratı ilə yazılmışdır.

Bu ziyafətdə böyük təmtəraq var. Mərmər döşəmələrin üstünə xalılar sərilmişdir. Müxtəlif yeməklər, rəngarəng şərablarla dolu məclisdə "yelpazəli xanımlar", fraklı serlər qədəhlərini toqquşdurur, qonaqların şərəfinə sağlıqlar deyirlər.

Şair bu məclisdə qəzəblənmişdir. O bilir ki, buradakı yeməklər, rəngarəng şərablar zəncinin, həbəşin, afrikalının qanı və alın təri bahasına başa gəlmişdir. Şair onu da bilir ki, üstündə lordların rəqs etdiyi "hər kiçik naxışında bir od rəngi" olan xalıların bəzilərini qəlbi odlara yanan hind qızı toxumuş, bəziləri isə Çindən gətirilmişdir.

Mərmər döşəmələr üstə xalılar –
Bəzisi Hinddəndir, bəzisi Çindən.
Hər kiçik nəqşədə bir od rəngi var,
Elə bil od çıxır zülmət içindən...
Xəyalı pəjmürdə, ürəyi səsdə,
Yaxır hind qızının qəlbini odlar;
Onun toxuduğu xalılar üstə
Qol-qola tutuşub rəqs edir lordlar.

Səməd Vurğunun ayrı-ayrı əsərlərində rast gəl-

diyimiz “Qurşaq tutub at oynadıb, ox süzdürmüş pəhləvanlar” , “Deyirlər ağ ipəkdənmiş, qırılmazmış o qurşaqar”, “Örkən, çatı toxuyan”, “O baftalı çuxası, o düyməli yaxası”, “Dayan, çarığımın bağı açıldı” kimi misralar da şairin Azərbaycan xalça sənətinə bələdliyini əks etdirir.

**2008**

# MUZEYLƏRİMİZİN TARİXİNƏ QISA SƏYAHƏT

Muzeylərin topladığı maddi mədəniyyət nümunələri «muzey əşyası» adlanır. Muzey əşyası qorunub-saxlanılması və təbliği zəruri olan mədəniyyət sərvətidir. Azərbaycanda bu cür əşyalar muzeylərdən çox-çox əvvəl meydana gəlmiş, yəni muzeydən öncə muzey əşyası yaradılmışdır. Ən qədim dövrlərdən başlayaraq zaman-zaman insanların bu və ya digər tələbatının ödənilməsi məqsədilə yaradılan bu nümunələr sonradan «mədəniyyət sərvəti», daha sonra isə bu əşyaların muzeylərdə toplanan hissəsi «muzey əşyası» adlarını almışdır.

Müxtəlif dövrlərdə Azərbaycanda ayrı-ayrı hökmdarların, zəngin adamların sarayları, məscid və ibadət yerləri də qiymətli sənət nümunələri ilə bəzədilmişdi. Bunların arasında nadir Azərbaycan xalçaları, rəsm əsərləri, heykəltəraşlıq nümunələri, qiymətli materiallardan hazırlanmış bəzək əşyaları, silahlar, müxtəlif hədiyyələr və s. olmuşdur. Bu cür əşyalar uzun illər Azərbaycandan aparılmış, yadellilərin sərvətinə çevrilmişdir.

Əlbəttə, bu nümunələrin ölkədən aparılmasının əsas səbəblərindən biri də o vaxtlar burada onları toplayan və qoruyan mərkəzin – muzeyin olmaması ilə bağlıdır.

XIX əsrin sonlarında və XX əsrin əvvəllərində Azərbaycanın öyrənilməsi üzrə çox cüzi işlər görülmüş, ekspedisiyalar təşkil edilmişdir. Həmin vaxtlar üzə çıxarılmış əşyalar ayrı-ayrı şəxslərin əlinə keçmiş, ayrı-ayrı ölkələrin muzeylərinə verilmişdir.

Məhz həmin illərdə Azərbaycanda da muzey yaradılması üçün təşəbbüslər olmuşdur. Bu təşəbbüslərin

müəllifləri əsasən müəllimlər və ayrı-ayrı ziyalılar idi.

İlk əvvəllər Bakı, Şamaxı və Naxçıvan şəhərlərində ayrı-ayrı şəxslər antik şeyləri, tarixi əhəmiyyətə malik digər əşyaları toplamış, öz kolleksiyalarını ara-sıra nümayiş etdirmişlər.

1890-cı illərdə böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadə Nehrəm kənd məktəbində işləyərkən burada diyarşünaslıq muzeyi təşkil etmişdi. Muzeydə əsasən tarix və etnoqrafiyaya aid, habelə tədrislə bağlı materiallar toplanmışdı. Cəlil Məmmədquluzadə bu sahədə fəaliyyətinə görə Xalq məktəbləri müdiriyyətinin təşşəkürünü almışdır.

XX əsrin əvvəllərində Bakı şəhərində Xalq məktəbləri müdiriyyəti nəzdində Pedaqoji muzey fəaliyyət göstərmişdir. Həmin dövrdə Ümumrusiya Texniki Cəmiyyəti Bakı şöbəsinin nəzdində muzey yaradılmışdır. Bu muzeylər tədris məqsədilə yaradılmış və onlardan əsasən tədris prosesində istifadə olunmuşdur. Burada dərslik və dərs vəsaitləri, tədris-metodiki ədəbiyyat toplanmış, muzey əşyaları əyani vəsait kimi müvafiq bölmələrdə nümayiş etdirilmişdir.

Sənətşünaslıq namizədi Alla Bayramovanın tədqiqat işindən məlum olur ki, XIX əsrin sonlarına yaxın görkəmli maarifçi, ictimai xadim və publisist Həsən bəy Zərdabi Azərbaycanın xalq tətbiqi sənəti ilə bağlı muzey yaradılması ideyasını irəli sürmüş, bununla əlaqədar mətbuatda çıxış etmişdir.

Respublikamızda ilk rəsmi dövlət muzeyi- İstiqlal muzeyi Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmışdır.  Son vaxtlar aparılmış obyektiv araşdırmalar nəticəsində məlum olmuşdur ki, Xalq Cümhuriyyəti dövründə tariximizin və mədəniyyətimizin öyrənilməsi və təbliğ olunması məqsədilə bir sıra işlər görülmüşdür.

Həmin illərdə «Müsəlman şərqini öyrənən cəmiyyət» təsis edilmiş, bu cəmiyyətdə maddi mədəniyyət nümunələrinin tədqiqi üzrə iş aparılmış, bir sıra sərgilər təşkil olunmuşdur. 1920-ci ilin əvvəllərində Maarif Nazirliyində Arxeologiya şöbəsi yaradılmışdır.

İstiqlal muzeyi 1919-cu il dekabrın 7-də Azərbaycan Parlamentinin yaradılmasının ildönümü münasibətilə Parlamentin binasında açılmış və onun nəzdində fəaliyyət göstərmişdir. Parlament üzvləri və hökumət nümayəndələrinin də iştirak etdiyi təntənəli açılış mərasimində bu muzeyin təşkilinin əhəmiyyəti xüsusi qeyd olunmuş, onu yaradanların əməyi yüksək qiymətləndirilmişdir.

Bu muzey geniş profilli düşünülmüşdü. "Həmişəlik Azərbaycan Parlamanı ixtiyarında olaraq hələlik Parlaman imarətində təsis edilən "Muze İstiqlal" adına müəssislər tərəfindən toplanmış olan şeylərin Birinci Parlaman Divani – Rəyasətinə təhvil verilməsi haqqında şərait"ə əlavə olunmuş siyahıda həmin əşyalar qeyd edilmişdir. Bu siyahıda qılınc, qəmə, xəncər, "Quran" əlyazmaları, üzərinə ayələr yazılmış müxtəlif əşyalar, bəzək əşyaları, ayrı-ayrı dövrlərə aid pullar, xalq tətbiqi sənəti nümunələri, məişət əşyaları, əlyazmalar və s. vardır. Muzeydə arxeoloji kolleksiyaların mövcudluğu barədə də məlumat verilir.

İstiqlal muzeyinin təşkili və fəaliyyəti ilə bağlı bu sənəd xüsusi maraq doğurur. Əşyaların təhvil verilməsi aktı formasında yazılmış bu sənəd «Həmişəlik Azərbaycan Parlamanı ixtiyarında olaraq hələlik Parlaman imarətində təsis edilən «Muze İstiqlal» adına müəssislər tərəfindən toplanmış olan şeylərin Birinci Parlaman Divani-Rəyasətinə təhvil verilməsi haqqında şərait» adlanır. Sənədi bir tərəfdən İstiqlal muzeyinin

yaradıcıları, görkəmli sənətşünaslar Hüseyn bəy Mirzəcamalov və Məhəmməd Ağayev, digər tərəfdən Azərbaycan Parlamenti sədrinin müavinləri Həsən bəy Ağayev, S.M.Qəniyev və parlamentin rəyasət heyətinin məsul əməkdaşları imzalamışlar. Sənəd 1919-cu il noyabrın 6-da, muzeyin açılışına hazırlıq görülərkən tərtib olunmuşdur.

«Şərait» Azərbaycanda muzeyin təşkili və fəaliyyətini tənzimləyən ilk hüquqi sənədlərdən biri kimi xüsusi əhəmiyyət kəsb edir. Burada müasir muzey işində aparıcı sənədlər – muzeyin əsasnaməsini, uçot-mühafizə üzrə təlimatı və fond-satınalma komissiyası haqqında əsasnaməni əvəz edən müddəalar yığcam şəkildə öz əksini tapmışdır. Sənəddə göstərilir ki, muzeyə verilən hər bir əşya milli sərvətdir, gələcəkdə əşya sahiblərinin ailə üzvləri onları tələb edə bilməzlər. Muzeyə hədiyyə olunmuş əşyalar geriyə qaytarılmır. «Şərait»in 3-cü bəndində yazılır: «Muze İstiqlal» milli bir müəssisə olduğu üçün bütün muzedə mövcud əşya milli mal hesab olunur. Heç kəs və heç bir müəssisə o şeylərə sahib ola bilməz».

Tərəflərin razılaşmasına əsasən İstiqlal muzeyinin təşkili və fəaliyyəti ilə bağlı bütün xərcləri Parlamentin rəyasət heyəti öz öhdəsinə götürür. Sənəddən görünür ki, gələcəkdə muzey üçün xüsusi binanın ayrılması, yaxud tikilməsi, muzeyin nəzdində zəngin kitabxananın yaradılması, muzeyin proqram və nizamnaməsinin hazırlanması və s. nəzərdə tutulmuşdur.

Muzeyə verilmiş əşyaların qiymətləndirilməsi və uçota alınması, əşya təqdim edən şəxslərə müvafiq sənədin verilməsi, muzeyin əldə etdiyi gəlirlərdən istifadə qaydaları də sənəddə öz əksini tapmışdır.

İstiqlal muzeyi cəmi dörd ay iyirmi gün, 1919-

cu il dekabrın 7-dən 1920-ci il aprelin 28-dək mövcud olmuşdur. Sovet dövründə Azərbaycan Xalq Cümhuriyyəti və onun Parlamenti kimi, bu muzey də tənqid atəşinə tutulmuş, "Parlament nəzdində" yaradılması kinayə ilə qarşılanmışdır. Əlbəttə, o dövrdə başqa cür ola da bilməzdi. İstiqlal muzeyi isə müstəqil Azərbaycan dövlətinin yaratdığı mədəniyyət müəssisəsi kimi tariximizdə qalmışdır 1920-ci ilin aprelində Azərbaycanda sovet hakimyyəti qurulduqdan sonra İstiqlal muzeyi ləğv edilsə də yeni muzeylərin təşkilində mühüm rol oynadı.

1920-ci ilin iyununda Bakı şəhərində diyarşünaslıq dərnəyi yaradıldı. Bu dərnəyin qarşısına muzey və ekskursiyalar, habelə diyarşünaslıq laboratoriyaları təşkil etmək vəzifəsi qoyulmuşdu. Diyarşünaslıq dərnəyi həmin il iyunun 15-də Muzey-ekskursiya şöbəsi adı ilə Xalq Maarif Komissarlığının tərkibinə daxil edildi. Şöbənin ilk yığıncağında tədris xarakterli muzeyin təşkil olunması qərara alındı və bu muzey «Doğma diyarın tədris muzeyi» adlandırıldı. 1920-ci ilin iyulunda İstiqlal muzeyinin, habelə Pedaqoji muzeyin və bəzi məktəblərdə fəaliyyət göstərmiş diyarşünaslıq kabinetlərinin əşyaları bu muzeyə verildi. 1920-ci ilin oktyabrında muzey «Azərbaycan Dövlət Muzeyi» adlandırıldı.

Muzey-ekskursiya şöbəsinin, habelə onun nəzdində ayrı-ayrı komissiyaların yaradılmasında, nəhayət, şöbənin Azərbaycan Dövlət Muzeyinə çevrilməsində İstiqlal muzeyinin yaradıcıları Məhəmməd Ağayev və Hüseyn bəy Mirzəcamalov yaxından iştirak etmişlər.

**1999- 2010**

## EKSPONATLARDA YAŞAYAN TARİX

Azərbaycanda tarix profilli muzeylərin yaradılması qədim tarixə və mədəniyyətə malik xalqımızın öz keçmişini öyrənmək istəyi ilə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış İstiqlal muzeyi də tarix profilli olmuşdur.

1919-cu il dekabrın 7-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş istiqlal muzeyinin əşyaları 1920-ci ildə təşkil olunmuş Azərbaycan Dövlət Muzeyinə verilmişdir. Geniş profilli Dövlət muzeyinin müvafiq şöbələri əsasında 1930-cu illərdə yeni muzeylər yaradılmış, muzeyin profili isə dəqiqləşdirilərək Azərbaycan Tarixi Muzeyi adlandırılmışdır.

Milli Azərbaycan Tarixi Muzeyində hazırda 300 mindən artıq əşya toplanmışdır. Bu əşyalar muzeyin arxeologiya, etnoqrafiya, numizmatika, yeni tarix, müasir tarix, qiymətli əşyalar və mühüm sənədlər fondlarında mühafizə edilir. Bu kolleksiyalar vasitəsilə xalqımızın zəngin tarixi öyrənilir və öyrədilir. Burada saxlanılan və nümayiş etdirilən nadir muzey əşyalarının yaşı neçə-neçə milyon illərlə hesablanır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Azərbaycan Tarixi Muzeyinə Milli Muzey statusu verilmişdir. Muzeyin direktoru, akademik Nailə Vəlixanlı AzərTAC-ın müxbirinə verdiyi müsahibədə demişdir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin birbaşa təşəbbüsü ilə 2005-2007-ci illərdə burada aparılan əsaslı bərpa və yenidənqurma işlərindən sonra muzey yeni inkişaf mərhələsinə qədəm qoymuş, tarix elminin son nailiyyətlərinə və müasir

muzeyşünaslıq prinsiplərinə əsaslanan yeni ekspozisiya ziyarətçilərin ixtiyarına verilmişdir.

Vaxtilə böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin mülkü olmuş bu binada onun xatirə muzeyi də yaradılmışdır. Burada Hacı Zeynalabdin Tağıyevin həyatı və fəaliyyətinə dair müxtəlif materiallar nümayiş etdirilir.

Naxçıvan Dövlət Tarix Muzeyi də respublikamızda həmin profildən olan zəngin muzeylərdən sayılır. Bu muzey 1924-cü ildə yaradılmışdır. 1925-ci ildə yaradılmış «Naxçıvanı tədqiq və tətəbbö» cəmiyyətinin muzeyin zənginləşməsində xüsusi rolu olmuşdur. Cəmiyyətin sədri Mirbağır Mirheydərzadə muzeyin inkişafı üçün böyük əmək sərf etmişdir. O, Muxtar Respublika ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilmiş nümunələri muzeyə gətirmişdir.

Naxçıvan Dövlət Tarix Muzeyi 2000-ci ildə yeni binaya göçürülmüşdür. Burada Azərbaycanın, o cümlədən yurdumuzun ən qədim guşələrindən olan Naxçıvanın tarixi ilə bağlı minlərlə əşya toplanmışdır. Bunların sırasında arxeoloji abidələr, etnoqrafik əşyalar, sənədlər, xalça və xalça məmulatları, xalq tətbiqi sənəti nümunələri, rəsm və heykəltəraşlıq əsərləri, görkəmli şəxsiyyətlərin şəxsi əşyaları və s. vardır. Gəncə, Şəki, Quba, Lənkəran, Zaqatala, Şamaxı tarix-diyarşünaslıq muzeyləri də respublikamızın zəngin mədəniyyət ocaqlarındandır.

Gəncə tarix-diyarşünaslıq muzeyi 1924-cü ildə Gəncə Pedaqoji Seminariyasının müəllim və tələbələrinin təşəbbüsü və qüvvəsi ilə yaradılmışdır. İlk əvvəllər muzeydə 500-dək əşya olmuşdur. Hazırda burada Gəncənin dünəni və bu günü ilə bağlı 30 mindən çox əşya vardır.

Muzey bir neçə dəfə ünvanını dəyişmiş, hazırda yerləşdiyi binaya 1970-ci illərin əvvəllərində köçürülmüşdür. XIX əsrin sonlarında tikilmiş bu bina Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından olan İsmayılxan Ziyadxanovun mülküdür.

Təbii ki, muzeyin qədim Gəncəyə aid ekspozisiya bölməsi tamaşaçı üçün daha maraqlıdır. Üzərində «Atabəy Məhəmməd Cahan Pəhləvan» sözləri yazılmış Gil çıraq XII əsrə aiddir. Burada, həmçinin, Gəncədə buraxılmış mis pullar, saxsı su boruları, qədim Gəncəyə aid sənətkarlıq nümunələri nümayiş etdirilir.

Muzeydə Gəncənin qədim qapısının fotoşəkli göstərilir. Bu qapını 1063-cü ildə dəmirçi Osman oğlu İbrahim hazırlamışdır. 1140-cı ildə qonşu gürcü çarının hücumu zamanı qarət kimi Gürcüstana aparılmışdır. Qapı hazırda Gürcüstanın Herat monastrında saxlanılır.

Muzeyin salonlarından biri dahi Azərbaycan şairi Nizami Gəncəviyə həsr olunmuşdur. Bu bölmədə həmçinin XII əsrdə yaşamış şairlərdən Məhsəti Gəncəvi və Əbül-Üla Gəncəvi barədə məlumat verilir.

Gəncə hökmdarı Cavad xan, şair M.Ş.Vazeh, habelə Azərbaycan Xalq Cümhuriyyəti barədə materiallar Gəncənin nisbətən yaxın tarixini əks etdirir. Tamaşaçıya xüsusi olaraq çatdırılır ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökuməti məhz Gəncədə təşkil olunmuş və ilk aylar burada fəaliyyət göstərmişdir.

Ekspozisiyanın sonrakı bölmələri son yüz ildə baş vermiş mühüm hadisələrə, habelə Gəncənin bu gününə həsr olunmuşdur. Gəncə tarix-diyarşünaslıq muzeyinin son iki salonunda bu bölgə üçün xarakterik olan xalça və xalça məmulatları, xalq tətbiqi sənəti nümunələri, bəzək əşyaları və başqa sənət nümunələri göstərilir.

1928-ci ildə Gəncənin yaxınlığında yerləşən Xanlar

rayonunda (indiki Göygöl rayonu) da diyarşünaslıq muzeyi yaradılmışdır. Bu muzeyin təşkili və fəaliyyəti orta məktəb müəllimi, milliyyətcə alman olan Yakov Hummelin adı ilə bağlıdır.

Yakov Hummel işlədiyi orta məktəbin şagirdləri–nin köməyi ilə Gəncəçay ərazisində arxeoloji qazıntılar aparmış, ibtidai icma dövrünə aid materiallar əldə etmişdir. Bu əşyalar sonradan muzeyin ilk eksponatlarına çevrilmişdir. Yerli təşkilatlar muzeyə bina ayırmış və burada ekspozisiya yaradılmışdır. Muzeyin direktoru Yakov Hummelin özü isə SSRİ Elmlər Akademiyası Azərbaycan Filialının elmi əməkdaşı təyin edilmiş və ona Gəncəçay ərazisində arxeoloji tədqiqatlar aparmağa icazə verilmişdir.

Muzey aşağıda göstərilən ekspozisiya bölmələrindən ibarət idi: «Təbii şərait», «Qədim insan», «Qədim xalqların dünyagörüşü və müasir dinlər», «Tarix və etnoqrafiya», «Müasir quruculuq». Bunlardan başqa, muzeyin elmi arxivi və kitabxanası da olmuşdur.

Yakov Hummel apardığı arxeoloji qazıntılarla bağlı elmi araşdırmalar aparmış, kitab və məqalələr yazmışdır. Onun «Xanlar diyarşünasılq muzeyi» adlı kitabçası 1929-cu ildə Moskvada alman dilində, 1939-cu ildə isə Bakıda rus dilində nəşr  olunmuşdur. Xanlar diyarşünaslıq muzeyi 1961-ci ildə müstəqil müəssisə kimi ləğv edilərək Gəncə tarix-diyarşünaslıq muzeyi ilə birləşdirilmişdir.

Quba tarix-diyarşünaslıq muzeyi də respublikamızda həmin profildən olan ilk muzeylərdən biridir. Bu muzeyin bünövrəsi də 1924-cü ildə qoyulmuş, 1935-ci ilədək ictimai əsaslarla fəaliyyət göstərmişdir. 1932-ci ildə muzeyin əsaslı surətdə yaradılması məqsədilə Quba

rayon İcraiyyə Komitəsində xüsusi məsələ müzakirə edilmiş və qərar qəbul olunmuşdur.

Yerli ziyalı Əhməd Əfəndi Çələbizadənin təşkil etdiyi muzey dövlət müəssisəsinə çevrilir və onun yaradıcısı bu muzeyin direktoru təyin olunur. Lakin muzeyin dövlət müəssisəsi kimi fəaliyyəti uzun sürmür. 1937-ci ildə Əhməd Əfəndinin repressiyaya məruz qalması ilə əlaqədar muzeyin fəaliyyəti də dayanır.

Quba tarix-diyarşünaslıq-muzeyinin fəaliyyəti 1943-cü ildə bərpa edilmişdir.

Lənkəran tarix-diyarşünaslıq muzeyi də 1924-cü ildə yaradılmış, lakin Böyük Vətən müharibəsi illərində fəaliyyətini dayandırmışdır. 1961-ci ildə muzeyin fəaliyyəti bərpa edilmişdir.

Azərbaycan hökumətinin qərarı ilə 1977-ci ildə muzeyə Lənkəranda bu işin ilk təşkilatçısı, maarifçi və jurnalist Mirzə Ağaəli Əliyevin adı verilmişdir.

Lənkəran tarix-diyarşünaslıq muzeyi 1978-ci ildə yeni binaya köçürülmüş və burada elmi əsaslarla ekspozisiya açılmışdır. Muzey 1991-ci ildən isə XIX əsr memarlıq abidəsi olan Mir Əhməd xan Talışinskinin evində fəaliyyət göstərir.

Lənkəran tarix-diyarşünaslıq muzeyi xalqımızın qədim tarixini əks etdirən əşyalarla zəngindir.

YIII-IX əsrlərə aid memarlıq abidəsi Bəlləbur qalasının tikinti materialları nümunələri, qalanın ətrafında tapılmış əşyalar xüsusi maraq doğurur. Ekspozisiyada nümayiş etdirilən misgərlik nümunələri, əmək və məişət əşyaları da qədim dövrlərə aiddir.

XX əsrin əvvələrində Lənkəranda açılmış «Behcət» məktəbinin adı həkk olunmuş daş lövhə, həmin məktəbin müəllimlərindən M.A.Əliyev, M.Mövsümzadə, T.Bayraməlibəyov, Mirzə Əbülhəsən, tanınmış generallardan

Səməd bəy Mehmandarov, İbrahim bəy Talışinski, Mir Kazım bəy Talışinski və iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov barədə materiallar nisbətən yaxın tariximizin salnaməsidir.

Şamaxı tarix-diyarşünaslıq muzeyində də bu qədim diyarın, şeir-sənət ocağının keçmişi və bu günü əşyaların dili ilə tamaşaçıya çatdırılır.

Muzey işinə aid 1980-ci ildə qəbul edilmiş qərarda respublikanın bütün şəhər və rayonlarında tarix-diyarşünasılıq muzeylərinin yaradılması nəzərdə tutulmuşdu.

Bu, Azərbaycan xalqına məxsus milli sərvətin – tariximiz və mədəniyyətimizlə bağlı dəyərlərin, ulu keçmişimizi özündə yaşadan yadigarların toplanılması, qorunması, öyrənilməsi və gənc nəslin tərbiyəsində istifadə edilməsi üçün böyük əhəmiyyətə malik idi.

Tarix-diyarşünaslıq muzeylərində həmin bölgənin keçmişi və bu günü, xalqımızın azadlıq uğrunda mübarizələri, tanınmış şəxsiyyətlərin, elm və mədəniyyət xadimlərinin, xalq qəhrəmanlarının həyatı və fəaliyyəti konkret materiallar əsasında tamaşaçıya çatdırılır. Hər bir vətəndaş öz diyarının, hətta doğulduğu kəndin tarixini bilməsində bu muzeylərin mühüm rolu vardır.

Şübhəsiz, tarix-diyarşünasılq muzeyləri tamaşaçıda xalqımızın ulu keçmişinə, ayrı-ayrı şəxsiyyətlərə, ana yurdun təbiətinə, dağına, aranına, meşəsinə, bulaqlarına sevgi və qayğı, habelə bu yurdun, bu sərvətin sahibi olduğu üçün qanuni iftixar hissləri əmələ gətirir.

1980-1982-ci illərdə rayon mərkəzlərində 30-dək yeni tarix-diyarşünaslıq muzeyi yaradılmışdır. Bunların sırasında Astara, Ağcabədi, Qəbələ, Neftçala, Salyan, Yardımlı, Şərur, Ordubad, Xaçmaz, Qusar, Oğuz, Qax və başqa tarix-diyarşünaslıq muzeyləri vardır. Ötən müddət ərzində bu muzeylərin fondları daha zənginləşdirilmiş,

mövcud ekspozisiyalar təkmilləşdirilmiş, bəzi muzeylər yeni binalarla təchiz edilmişdir.

Qəbələ tarix-diyarşünaslıq muzeyinin ilk ekspozisiyası 1980-ci ildə açılmışdır. Qəbələ rayonu ərazisi dünyanın ən qədim yaşayış məskənlərindən sayılır. Azərbaycan xalqının zəngin tarixinin parlaq bir səhifəsini təşkil edən Qəbələ arxeoloji abidəsi bu ərazidədir. Muzeyin iki salonu qədim və orta əsrlər Qəbələsinə həsr olunmuşdur. Qədim Qəbələnin maketi ətrafında bələdçilərin söhbəti bu diyar barədə təsəvvür yaradır.

Qəbələdə aşkar edilən ən qədim tapıntılar eramızdan əvvəlki III minilliyə - Tunc dövrünə aiddir. Bunların içərisində həmin dövrün əmək alətləri, bəzək əşyaları, silahlar, gil qablar vardır.

Muzeyin növbəti ekspozisiya bölmələri sonrakı inkişaf mərhələlərinə və müasir Qəbələyə həsr olunmuşdur.

Azərbaycan tarixini özündə yaşadan və tamaşaçılara təqdim edən muzeylər sırasında ümummilli liderimiz Heydər Əliyevin ömrü yolunu və fəaliyyətini canlandıran muzeylər xüsusi yer tutur. Heydər Əliyev muzeyləri (mərkəzləri) 2000-ci illərin əvvəllərindən etibarən yaradılmağa başlanmış və bu günə demək olar ki, respublikamızın bütün bölgələrini əhatə edir.

Tariximizin otuz ildən artıq bir dövrü Heydər Əliyevin adı və şəxsiyyəti ilə bağlıdır.

Öz xalqının tarixi, mədəniyyəti və mənəviyyatı ilə sıx bağlı olan bu Böyük Şəxsiyyət mənsub olduğu xalqın öndəri və lideridir. O öz ömrünü müstəqil Azərbaycan dövlətinin qurulmasına və möhkəmlənməsinə, xalqımızın tərəqqisinə, elmimizin, təhsilimizin və mədəniyyətimizin çiçəklənməsinə həsr etmiş, ümum-

xalq sevgisini qazanmış, ümummilli liderə çevrilmişdir.

Milli Azərbaycan Tarixi Muzeyində, tarix-diyarşünaslıq muzeylərində yaradılmış Heydər Əliyev guşələri, ayrı-ayrı rayon və şəhərlərdə yaradılmış Heydər Əliyev muzeyləri bu ulu şəxsiyyətin həyat və fəaliyyətinin xalqımızın tarixində və taleyində oynadığı rolu müxtəlif materiallar vasitəsilə tamaşaçıya çatdırır.

Naxçıvan, Gəncə, Şəki, Yevlax, Şirvan, Quba, Xaçmaz, Kürdəmir, İmişli, Qəbələ, Biləsuvar, Salyan, Sabirabad, Ağdaş, Yardımlı, Samux və digər şəhər və rayonlarda bu məqsədlə tikilmiş binalarda yaradılan Heydər Əliyev muzeyləri böyük öndərin fəaliyyəti və zəngin irsi ilə bağlı materialları toplayan və təbilğ edən müəssisələrdir.

Bu muzeylərdə Heydər Əliyevin 1969-1982-ci illərdə, habelə 1993-cü ildən ömrünün sonunadək ölkəmizə rəhbərlik etdiyi hər iki dövr işıqlandırılır. Onun 1990-cı il 20 Yanvar faciəsi ilə bağlı məşhur bəyanatı, 1993-cü, 1994-cü və 1995-ci illərdə Azərbaycan dövlətinin müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, qardaş qarğınının qarşısının alınması, torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı fəsliyyəti müxtəlif vasitələrlə tamaşaçıya çatdırılır.

Bu muzeylərdə nümayiş etdirilən eksponatlar arasında ulu öndərin həmin bölgə ilə əlaqələrini əks etdirən materiallar xüsusi yer tutur.

Bir sözlə, Heydər Əliyev muzeyləri (mərkəzləri) bir insanın mənsub olduğu xalqa bağışlanmış ömrünün səhifələrini canlandıran məbədlərə çevrilmişdir.

Bu gün Bakı şəhərində Azərbaycan İstiqlal Muzeyi də fəaliyyət göstərir. Bu muzey Xalq Cümhuriyyəti dövründə bir neçə ay yaşamış İstiqlal muzeyinin mənəvi varisi sayıla bilər.

Muzeyin əsas vəzifəsi Azərbaycanın istiqlal tarixinə aid nümunələrin toplanılması, öyrənilməsi, mühafizəsi və təbliğindən ibarətdir. Muzeydə xalqımızın qədim dövrlərdən bu günədək öz azadlıq və müstəqilliyi uğrunda apardığı mübarizə tarixi müxtəlif materiallar vasitəsilə tamaşaçıya çatdırılır.

Ekspozisiyada xalqımızın azadlığı və müstəqilliyi uğrunda mübarizəsi Xürrəmilər hərəkatı, dövlətçilik uğrunda mübarizəsi isə Səfəvilər dövlətinin timsalında göstərilir. Rusiya və İran arasında bağlanmış «Gülüstan» (1813) və «Türkmənçay» (1828) müqavilələri torpağımızı və xalqımızı iki yerə bölən tarixi faciə kimi mənalandırılır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və fəaliyyəti xüsusi ekspozisiya bölməsində işıqlandırılır.

Cənubi Azərbaycanda 1905-1911, 1917-1918 və 1945-1946-cı illərdə baş vermiş milli - azadlıq hərəkatını əks etdirən fotoşəkillər, sənədlər, kitablar və müxtəlif əşyalar tamaşaçılarda xüsusi maraq doğurur.

1930-cu illərin qanlı repressiyaları, 1941-1945-ci illərin müharibəsi və burada Azərbaycan övladlarının qəhrəmanlığı barədə materiallar ekspozisiyanın növbəti bölmələrində göstərilir.

1988-1989-cu illərdə Dağlıq Qarabağ hadisələri ilə əlaqədar Azərbaycan xalqının kütləvi etiraz aksiyalarından qorxuya düşən Moskva respublikamızda fövqəladə vəziyyət elan etmişdi. Məhz həmin vaxt - 1989-cu il mayın 28-də, Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gün milli bayrağımız Qız qalası üzərində dalğlandı. Həmin bayraq hazırda Azərbaycan İstiqlal muzeyində saxlanılır.

Muzeydə daha bir üçrəngli bayraq var. Bu bayraq 1991-ci il dekabrın 8-də Azərbaycan ordusunun könüllülərdən ibarət ilk taborunun Şəhidlər xiyabanında and-

içmə mərasimində döyüşçülərimizin başı üzərində dalğalanmışdır.

Muzeydə nümayiş etdirilən 1990-cı ilin 20 yanvar faciəsi, Qarabağ uğrunda mübarizəmiz, ölkəmizin beynəlxalq əlaqələri barədə materiallar da mövzu ilə səsləşir.

Bu gün müstəqil Azərbaycan Respublikasının muzeyləri tariximizi özündə yaşadan əşyaları toplayır, qoruyur, öyrənir və təbliğ edirlər.

**2010**

## ƏDƏBİ-XATİRƏ MUZEYLƏRİ

Respublikamızın muzey şəbəkəsində görkəmli şəxsiyyətlərin xatirə muzeyləri mühüm yer tutur. Bu muzeylər Bakı şəhərində, habelə ayrı-ayrı bölgələrdə yaradılmışdır.

Xatirə muzeylərinin yaradılmasına xüsusi dövlət qayğısı 1970-ci illərə və 1980-ci illərin əvvəllərinə, daha sonra isə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonrakı dövrə təsadüf edir. Eyni zamanda, bu muzeylərin açılışı təntənəli mərasimlərlə müşayiət olunmuş, dövlət və hökumət rəsmiləri həmin mərasimlərdə iştirak etmişlər.

Üzeyir Hacıbəylinin, Səməd Vurğunun, Cəfər Cabbarlının, Cəlil Məmmədquluzadənin, Bülbülün, Hüseyn Cavidin, L. və M. Rostropoviçlərin, Nəriman Nərimanovun, Abdulla Şaiqin (Bakı), Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Məmməd Səid Ordubadinin, Yusif Məmmədəliyevin (Naxçıvan Muxtar Respublikası), Mirzə Ələkbər Sabirin (Şamaxı), Həzi Aslanovun (Lənkəran), Mirzə Fətəli Axundzadənin, Rəşid bəy Əfəndiyevin, Sabit Rəhmanın (Şəki), Cəfər Cabbarlının (Xızı), Rəsul Rzanın (Göyçay), Hüseyn Arifin (Ağstafa), Mir Cəlal Paşayevin (Gəncə), Maqsud Şeyxzadənin (Ağdaş) xatirə muzeyləri həmin şəxsiyyətlərin həyatı və fəaliyyəti ilə bağlı materialların toplandığı, qorunduğu, öyrənildiyi və təbliğ olunduğu mədəniyyət müəssisələri, eyni zamanda bu şəxsiyyətlərin xatirəsini əbədiləşdirən müqəddəs yerlərdir.

Çox təəssüflə qeyd olnmalıdır ki, Ermənistanın respublikamıza təcavüzü nəticəsində bu cür müqəddəs ocaqlarımızdan bəziləri işğal olunan torpaqlarda qal-

mışdır. Şuşada Üzeyir Hacıbəylinin, Bülbülün və Mir Möhsün Nəvvabın, Ağdamın Gülablı kəndində Qurban Primovun, Laçının Güləbird kəndində Sarı Aşığın xatirə muzeyləri bu təcavüzün qurbanı olmuş, öz yurdlarında girova çevrilmişlər.

Xatirə muzeyi (memorial muzey, ev- muzeyi, mənzil-muzeyi də adlandırılır), adətən şəxsin doğulduğu, bütün ömrünü və ya həyatının müəyyən illərini yaşadığı, yaxud həmin şəxslə bağlılığı olan yerdə (evdə, mənzildə, iş otağında və s.) yaradılır. Mühüm tarixi hadisələrlə bağlı yerlərdə yaradılan muzeylər «xatirə kompleksləri» adlandırılır. Xatirə muzeyinin profili həmin şəxsin fəaliyyət sahəsinə uyğun müəyyən edilir.

Respublikamızın xatirə muzeyləri sırasında şair və yazıçılara həsr olunmuş muzeylər- ədəbi-xatirə muzeyləri çoxluq təşkil edir.

Ədəbi-xatirə muzeyləri kompleksinə yazıçının yaşamış olduğu ev, mənzil, malikanə, onun şəxsi əşyaları, əlyazmaları, müxtəlif sənədləri, sağlığında nəşr olunmuş kitabları, yaxud yaradıcılığına həsr olunmuş tədqiqat işləri və s. daxildir.

Xatirə muzeyi yaradılarkən həmin şəxsiyyətin yaşadığı şəraitin bərpa olunmasına əməl edilməsi xüsusi tələb kimi qarşıya qoyulur. Məsələn, şəxsiyyətin iş və yataq otaqları, qonaq otağı onun sağlığında olduğu vəziyyətə gətirilməlidir. Bu otaqlardan (bunlar «xatirə otaqları» adlandırılır) həm əşyaların yerləşdirilməsi, həm də otaqların ümumi görünüşü (divar, döşəmə, tavan, istifadə olunmuş material və rənglər) həmin dövrü xatırlatmalıdır.

«Memorial» sözünün əsasını təşkil edən «memoria» latın sözüdür, Azərbaycan dilində «xatirə» sözünə uyğun gəlir. Xatirə muzeyinin əşyaları da təbii ki, həmin

şəxsiyyətin həyatı və fəaliyyəti ilə bağlı olur. Buraya ilk növbədə muzeyin yaradıldığı yer (ev, mənzil, malikanə, iş otağı və s.) daxildir. Təcrübə göstərir ki, yaşadığı müddətdən asılı olmayaraq həmin yerdə xatirə muzeyi yaradılır və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır. Ona görə ki, mənsub olduğu xalqa başucalığı gətirən, öz xalqının tarixində və taleyində önəmli rol oynayan, elminin və mədəniyyətinin inkişafına dəyərli töhfələr verən şəxsiyyətlərin adı ilə bağlı hər bir məkan müqəddəs tutulur.Buraya gələn hər bir tamaşaçıda xoş hisslər, duyğular yaranır, şəxsiyyətin xatirəsi böyük ehtiramla yad edilir.

Məlumdur ki, böyük rus yazıçısı L.N.Tolstoy 1910-cu ilin noyabr ayında evdən çıxmış və həyatının son günlərini Ryazan-Ural dəmir yolunun Astapovo stansiyasında keçirmişdir. O, yeddi gün burada, stansiya rəisinin evində yaşamış və elə burada da dünyasını dəyişmişdir. İndi həmin evdə «L. N. Tolstoyun xatirəsi muzeyi» fəaliyyət göstərir. Yazıçının dünyasını dəyişdiyi otaq 1910-cu ilin noyabrında olduğu vəziyyətdə saxlanılır. Digər otaqlarda L.N.Tolstoyun həyatı və yaradıcılığı ilə bağlı ekspozisiya yaradılmışdır.

«L.N.Tolstoyun xatirəsi muzeyi» Dövlət L. N. Tolstoy Muzeyinin filialıdır.

Pyatiqorsk şəhərində şair M.Y. Lermontovun 1841-ci ildə həyatının son iki ayını yaşamış olduğu evdə də xatirə muzeyi yaradılmışdır. Bu mədəniyyət ocağı «M.Y.Lermontovun evi» Dövlət Muzeyi adlanır.

Respublikamızda ilk xatirə muzeyi- böyük Azərbaycan yazıçısı və filosofu M.F.Axundzadənin ev-muzeyi 1940-cı ildə yaradılmışdır. Yazıçı burada uşaqlıq illərinin bir hissəsini və ilk gənclik illərini keçirmişdir. Muzey iki kiçik otaqdan ibarətdir. Rus yazıçısı A.A.

Fadeyevin «eyni ilə Belinskinin Çembarıdakı evi kimi kiçik, amma qalın bir tədqiqat əsərindən daha mənalı» hesab etdiyi bu ev XIX əsrin əvvəllərində çiy kərpicdən tikilmiş, qayğıkeş insanların sayəsində bu günümüzə gəlib çatmışdır.

Burada məhz həmin dövrü əks etdirən şərait bərpa olunmuşdur. Evin yaxınlığında başqa bir tikili də var. Bu, sonradan inşa edilmişdir və burada böyük yazıçının həyat yolu və yaradıcılığına aid ekspozisiya yaradılmışdır.

Məlumdur ki, M.F.Axundzadə ömrünün əsas hissəsini Tiflis şəhərində yaşamış və işləmişdir. Bu gün böyük yazıçının bir vaxtlar Tiflis şəhərində işləyərkən yaşadığı evdə onun xatirə muzeyi fəaliyyət göstərir. Bu mədəniyyət ocağı Gürcüstanda yaşayan soydaşlarımızın tez-tez toplaşdıqları yerdir- Gürcüstan Azərbaycanlılarının Mədəniyyət Mərkəzi burada yerləşir.

Cəfər Cabbarlının Bakıda və Xızıda, Cəlil Məmmədquluzadənin Bakıda və Nehrəmdəki xatirə muzeylərinin tarixi də xüsusi maraq doğurur.

Cəfər Cabbarlı Xızıda anadan olmuş, daha sonra ailənin Bakı şəhərinə köçməsi ilə əlaqədar olaraq bütün ömrü bu şəhərlə bağlanmışdır. Cəfər Cabbarlının Bakı şəhərindəki ev-muzeyinin yerləşdiyi binanı yazıçının özü tikdirmişdir.

Cəfər Cabbarlının Bakı şəhərindəki ev-muzeyi ilə tanışlıq həyətdən başlayır. Unudulmaz sənətkarın əkdiyi tut ağacı, bu ağaca sarmaşan üzüm tənəyi, habelə əncir, nar, armud ağacları əvəzsiz eksponatlardır.

1890-cı illərdə böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadə Nehrəm kənd məktəbində müəllim işləmiş və burada diyarşünaslıq muzeyi təşkil et-

mişdi. Bu gün Naxçıvan Muxtar Respublikasında yazıçının adı ilə bağlı yerlərdə yaradılmış üç xatirə muzeyi fəaliyyət göstərir. Bu muzeylərdən biri Cəlil Məmmədquluzadənin doğulub boya-başa çatdığı Naxçıvan şəhərində, digər ikisi isə ədibin müəllimlik etdiyi Babək rayonunun Nehrəm kəndində və Şərur rayonunun Cəlilkənd kəndindədir. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Dövlət Ədəbiyyat Muzeyi də böyük yazıçının adını daşıyır. Əlbəttə, bütün bunlar Mirzə Cəlil sənətinə dövlət qayğısı və ümumxalq məhəbbətinin nəticəsi kimi dəyərləndirilməlidir.

Yazıçının Bakı şəhərində yaradılmış xatirə muzeyi də özündə maraqlı tarix yaşadır.

Məlumdur ki, Cəlil Məmmədquluzadə Azərbaycanda ilk satirik jurnal, bütün Yaxın Şərqdə geniş yayılmış və şöhrət qazanmış «Molla Nəsrəddin»in yaradıcısı və naşiri olmuşdur. Jurnal əvvəllər Tiflisdə (1906-1917), sonra Təbrizdə (1921), daha sonra Bakıda (1922-1931) nəşr olunmuşdur.

Xalq Komissarları Şurasının sədri Nəriman Nərimanov 1921-ci ildə Cəlil Məmmədquluzadəni Bakıya dəvət etmiş və həmin il iyunun 21-də indi muzeyin yerləşdiyi mənzilin açarını şəxsən özü ona təqdim etmişdir. Jurnal Bakıda nəşr olunarkən onun redaksiyası da, mətbəəsi də elə burada, Mirzə Cəlilin mənzilində yerləşirdi.

Bu fakt bu mənzilin Cəlil Məmmədquluzadə ilə yanaşı digər «Molla Nəsrəddin»çilərin də xatirəsini özündə yaşatdığını əks etdirir.

Görkəmli yazıçı, tədqiqatçı-alim və pedaqoq Mir Cəlal Paşayevin ömür yolunun müəyyən hissəsi Gəncə ilə bağlıdır. O, 1908-ci ildə Cənubi Azərbaycanın Ərdəbil şəhərində doğulmuş, atası Gəncəyə köçdüyündən uşaq-

lığı və gənclik illəri burada keçmişdir. 1918–1919-cu illərdə Gəncə şəhərində ibtidai təhsil almış, daha sonra Gəncə Darülmüəllimində oxumuşdur (1924–1928). İndi Gəncədə ədibin ev-muzeyi fəaliyyət göstərir. Burada onun həyatı və yaradıcılığı ilə bağlı ekspozisiya yaradılmışdır.

Əlbəttə, xatirə muzeylərində qorunan və nümayiş etdirilən xatirə əşyaları da xüsusi maraq doğurur.

Bu barədə növbəti yazılarımızda…

**2010**

## CANSIZ ƏŞYA YADDAŞA ÇEVRİLƏNDƏ

Ədəbi-xatirə muzeylərində xatirə əşyaları, habelə həmin yazıçının yaşadığı dövrü əks etdirən əsli materiallar mühüm yer tutur. Bu əşyalar yazıçının həyatı və fəaliyyəti ilə bilavasitə bağlı olduğu üçün emosional təsir gücünə malikdir və tamaşaçı tərəfindən maraqla qarşılanır, sənətkarla tamaşaçı arasında canlı əlaqə yaradır, mövzu ilə bağlı bilik dairəsinin genişlənməsinə xidmət edir.

Yazıçının xatirə əşyaları əsasən onun yaradıcılığı ilə bağlı əşyalardır. Bu sıraya onun istifadə etdiyi yazı ləvazimatı, kağız, kitablar, digər çap məhsulları, ev əşyaları, geyim şeyləri, müxtəlif məqsədlərlə istifadə etdiyi əşyalar  və s. daxildir. Bəzən bu əşyalardan eləsi olur ki, özündə başqa bir görkəmli şəxsiyyətin xatirəsini də yaşadır. Avtoqraflı kitablar, dost hədiyyələri, məktublar, xatirələr, müxtəlif qeydlər bu qəbildəndir.

Xatirə muzeyinin yaradıldıgı ev, mənzil bir vaxtlar yazıçının yaradıcılıq laboratoriyası olmuşdur. Muzeyin ekspozisiyasında yazıçının yaradıcılıq yolu dövrün ədəbi prosesi ilə paralel işıqlandırılır. Onun yaşamış olduğu ayrı-ayrı məqamlar, psixoloji anlar, müxtəlif  əlaqələri məhz burada öz əksini tapır.

Məlumdur ki, ədəbiyyat tarixinin öyrənilməsində ayrı-ayrı mənbələr əsas rol oynayır. Bu baxımdan ilk mənbə kimi muzey əşyaları da xüsusi əhəmiyyət kəsb edir. Bu mənbələrin tədqiqata cəlb edilməsi, onların hər birinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla işlənilməsi yazıçının ömür yolu, yaradıcılığı barədə daha dəqiq faktların üzə çıxarılmasına, bəzi hallarda isə bu

və ya digər tədqiqatın istiqamətinin müəyyənləşməsinə kömək edir.

Respublikamızın xatirə muzeylərinin ekspozisiya və fondlarında ən sanballı elmi-tədqiqat işlərinin aparılmasına imkan verən materiallar qorunub-saxlanılır. Böyük şairimiz Səməd Vurğunun ev-muzeyinə xatirə otaqlarına nəzər yetirək.

Şairin iş otağı. Hər şey sadə, hər şey adi. Yazı stolu, stullar, kitablarla dolu şkaflar… Yazı stolunun üstündə şairin son əlyazmaları, ömür vəfa etmədiyi üçün çəkə bilmədiyi yarımçıq papiros qutusu, avtoqələm və ailə üzvlərinin birgə fotoşəkli qoyulmuşdur.

İş otağında Vurğun xatirəli daha bir eksponat var – radioqəbuledici. Şair bu radioqəbuledici vasitəsilə dünyada baş verən hadisələr barədə xəbər tutub, sevdiyi musiqi əsərlərini dinləyib. O bu radioqəbulediciyə sonuncu dəfə 1956-cı ilin may ayının 12-də qulaq asıb. Həmin gün Azərbaycan Dövlət Opera və Balet Teatrında S.Vurğunun anadan olmasının 50 illiyinə həsr edilmiş təntənəli yubiley gecəsi keçirilirdi. Ağır xəstə olan şair gecədə iştirak etmirdi. O, təntənəli yığıncağı həmin radioqəbuledici vasitəsilə dinləmişdir. Qələm dostlarının, ictimaiyyət nümayəndələrinin ürək sözləri ona bu radio vasitəsilə yetişmişdir…

Qonaq otağı… bir vaxtlar bu otaqda A.Fadeyev, N.Tixonov, V.Luqovskoy, K.Simonov, P. Antokolski, G.Leonidze, Mehdi Hüseyn, Rəsul Rza və bir sıra başqa sənəkarlar əyləşmişlər. Burada elm və mədəniyyətimizin problemləri, inkişaf yolları ilə bağlı söhbətlər, qızğın mübahisələr olmuşdur. Neçə-neçə gənc yazıçı öz əsərinin əlyazmasını bu stolun üstünə qoymuş, böyük ustadın xeyirxah məsləhətlərini dinləmiş, onun xeyir-duasını almışdır.

Otaqdakı royalı dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin barmaqları dilləndirmiş, unudulmaz bəstəkarlarımız Qara Qarayev, Fikrət Əmirov bu royalda öz əsərlərini ifa etmiş, böyük Bülbülün «Sənsiz»i bu royalın müşayiəti ilə ətrafa yayılmışdır.

Saz… Vurğunun sazı. Vurğun bu sazda el havalarını, qəhrəmanlıq nəğmələrini dilə gətirib.

Azərbaycanın elə bir guşəsi yoxdur ki, şair orada olmasın. «Binələri çadır-çadır dağları», quşqonmaz qayaları, dupduru çeşmələri, «xınalı kəklikləri» görmək, yorğunluğu unutmaq, ən əsası – mehriban, qayğıkeş insanlarla görüşmək, yazmaq, yaratmaq üçün…

Doğma diyarı öz sahibi ilə dolaşmış ov tüfəngi də buradadır. Otaqdakı saatın əqrəbləri 1956-cı il mayın 27-də saat 7-30 dəqiqədə saxlanılmışdır. Bu, şairin dünyasını dəyişdiyi vaxtı bildirir.

C.Cabbarlının ev-muzeyində yazıçının iş otağındakı yazı stolu, stul, qələm, eynək… Cəfər xatirəli eksponatlardır. «Aydın», «Oqtay Eloğlu», «Od gəlini», «1905-ci ildə», «Almaz» kimi sənət inciləri bu yazı stolunun üstündə ərsəyə gəlib, buradan da səhnəyə və ekrana, tamaşaçıların, oxucuların qəlbinə yol tapıb, insana, Vətənə, torpağa məhəbbət hissi tərbiyə edib, öz müəllifinə şan-şöhrət gətirib.

Qonaq otağı da öz əvvəlki görkəmində saxlanılır. Buradakı piano, tar, qaval, patefon, eləcə də müxtəlif ev əşyaları yazıçının və onun ailəsinin yaşadığı şərait barədə təsəvvür yaradır. Cəfər bu tarı və pianonu dilləndirib, dostlarının ifasında mahnı və muğamlar dinləyib, patefonda sevdiyi nəğmələrə qulaq asıb. Bu nəğmələrin doğma ruhu, burada ifadə olunan pak duyğular, səmimi hisslər onun əsərlərinə köçüb, mahnı mətnlərinin yaranmasına səbəb olub…

Muzeydəki tar yazıçının “1905-ci ildə” əsəri ilə bağlı bir əhvalatı yada salır: Cəfər əsərdə Baxşı rolunu oynayacaq aktyor S.Tağızadə üçün tar alır və bəstəkar Ə.Bədəlbəylidən xahiş edir ki, “Azad bir quşdum” mahnısını tarda ifa etməyi aktyora öyrətsin. Ə.Bədəlbəylinin zəhməti öz bəhrəsini verir və beləliklə də pyesin ən dramatik yerlərindən biri yaranır: Baxşı tar çalır, «Azad bir quşdum» kövrək duyğular oyadır…

Yataq otağı… Yazıçının çarpayısı, paltarları… Divar saatının əqrəbləri 1934-cü il dekabrın 31-də Cəfərin dünyasını dəyişdiyi vaxtı göstərir.

Azərbaycan ədəbiyyatının klassiki, görkəmli yazıçı, publisist, Şərqdə ilk satira jurnalı «Molla Nəsrəddin»in yaradıcısı Cəlil Məmmədquluzadənin Bakı şəhərindəki ev-muzeyində sonuncu otaq Mirzə Cəlilin iş otağıdır. 1920-ci illərdə «Molla Nəsrəddin» jurnalının redaksiyası da burada yerləşmişdi. Ədibin yazı stolu, şəxsi əşyaları, «Molla Nəsrəddin»in müxtəlif sayları, digər sənədlər… Ədibə məxsus təsbeh və möhürü görən tamaşaçı (elə tədqiqatçı da) «Cəlil Məmmədquluzadə yaradıcılığında ateizm», «Molla Nəsrəddin» jurnalında ateizm məsələləri» ilə birdəfəlik vidalaşır.

Yazı stolunu «yazıçının emalatxanası» adlandırırlar. Ədəbiyyat tarixində elə yazıçılar olmuşdur ki, ömrü boyu yalnız bir masadan istifadə etmiş, bütün əsərlərini məhz bir masa üzərində ərsəyə gətirmişlər. Böyük yazıçı L.N.Tolstoy Yasnaya Polyanada yazıb-yaradarkən həmişə eyni masanın arxasında əyləşmişdir. Bu gün həmin masa ədibin oradakı muzey-malikanəsinin ən qiymətli eksponatlarından sayılır.

Görkəmli yazıçımız Abdulla Şaiqin mənzil-muzeyində nümayiş etdirilən ədibə məxsus xatirə əşyaları sırasında yazı masası da xüsusi maraq maraq

doğurur. Ədibin oğlu, akademik Kamal Talıbzadənin xatirələrində oxuyuruq: «Atamın 1906-cı ildə alınmış bir yazı masası vardır. Həmin masanı bir dəfə anam-Şahzadə xanım yenisi ilə dəyişmək, otağın görkəmini təzələmək fikrinə düşdü, sərli-səliqəli arvad idi. «A kişi, təzə moda yazı masaları gəlib, gəlsənə bunu dəyişək, təzəsini alaq?» Anamın – bu nurani, mehribani insanın arzusuna əks getmək atam üçün çox ağır idi, onun hər diləyini yerinə yetirmək ona həmişə ən böyük mənəvi təsəlli olmuşdu. Ancaq bu dəfə o bir söz demədi. Səhər «Masama» adlı mənsur şeirini yazdı, hamıya oxudu, - məsələ öz-özündən həll olundu – 40 illik dostdan ayrılmaq olardımı? Vəfasızlıq ona yaraşardımı? Axı o yuxusuz gecələrinin şahidi, dərdlərinin, sevinclərinin dilmancı idi. Ədib uzun illərin dostuna - masasına mü-raciətlə yazırdı: «Qəlbimdə sənət eşqi hələ sönməmişdir. Bundan sonra səninlə yenə baş-başa verib mühitimdən aldığım qüvvət, eşqimdən aldığım hərarətlə yeni əsərlər yaratmaq ən böyük əməlimdir. Qırx ildir bərabər çalışırıq… Hər halda son əsərimi də sənin, ancaq sənin üzərində yazacağam».

Qeyd edək ki, buradakı digər ev əşyalarının hər biri özündə Şaiqlə yanaşı neçə-neçə unudulmaz sənətkarın xatirəsini də yaşadır. Qonaq otağında nümayiş et-dirilən stol və stullar, habelə qədim kreslo, qamış kətil ötən günlərdən xəbər verir. Bir vaxtlar bu otaqda unudulmaz sənətkarlarımız- Hüseyn Cavid, Səməd Vurğun, Y.V.Çəmənzəminli, Əhməd Cavad, Mikayıl Müşfiq və başqaları Şaiqin qonağı olmuş, yaradıcılıq söhbətləri aparmış, duz-çörək kəsmişlər. O dövrün gənc qələm sahiblərinin bəzilərinin toy məclisi də elə burada keçirilmişdir.

Ədəbi-xatirə muzeylərinin fondlarında saxlanılan,

yaxud ekspozisiyada nümayiş etdirilən əşyalar, adətən, bu şəkildə qruplaşdırılır: xatirə əşyaları və şəxsi əşyalar, yazıçının yaşadığı dövrə aid əsli materiallar, əlyazmaları, kitablar, qəzet və jurnallar, təsviri materiallar, fotomateriallar, sənədlər, kino və fonomateriallar…

Məlumdur ki, yazıçının xatirə əşyaları sırasına on un istifadə etdiyi yazı ləvazimatı, kağız, kitablar, digər çap məhsulları, ev əşyaları, geyim şeyləri, müxtəlif məqsədlərlə istifadə etdiyi əşyalar, yaşamış olduğu, yaxud ona mənsub olmuş ev, mənzil, malikanə (bunlar xatirə obyektləri adlanır) və s. daxildir. Bütün bu əşyalar və obyektlər, eyni zamanda, həmin yazıçının şəxsi şeyləridir.

Bununla yanaşı, şəxsi olmayan əşya da xatirə əşyası ola bilər. Məsələn, istifadə üçün kitabxanadan alınmış kitab, başqasının, dost-tanışın hədiyyəsi, yazıçının yaşamış olduğu, lakin ona məxsus olmayan ev, mənzil və s.

Əsli materiallar ekspozisiyaya elmi xarakter verir, onu daha da məzmunlu edir, yazıçının həyatı və fəaliyyətinin məlum olmayan məqamları ilə tanış olmağa imkan yaradır.

Yazıçının əlyazmaları da onun xatirə əşyaları sırasına daxildir. Məşhurların əlyazmaları həm də milli sərvət hesab olunur. Müəllifin əlyazması müddətindən asılı olmayaraq gərgin əməyin məhsuludur. Ona görə ki, hər bir əsər əvvəlcə əlyazma şəklində meydana gəlir. Daha sonra isə janrından asılı olaraq tamaşaya, kinofilmə, mahnıya çevrilir, kitab şəklində oxucuya təqdim olunur. Bütün bunlarla birlikdə əlyazmalar yazıçının yuxusuz gecələrinin (bəlkə də aylarının) şahidi (bəlkə də yeganə şahidi) kimi təqdim olunur, ilkin məxəz olaraq ayrı- ayrı obrazları göz önünə gətirir, hadisələri çözələyir, seyrçini

yazıçının mənəvi aləminə aparır, onun ustalığı, sözə münasibəti, dilimizə məhəbbəti ilə tanış edir.

Yazıçının məktub, qeyd, xatirə, məqalə və çıxışlarının əlyazmaları da xüsusi muzey əhəmiyyəti kəsb ed ir. Səməd Vurğunun ev-muzeyində təsadüf etdiyimiz bir məktub bu baxımdan diqqətimizi çəkdi. Şair məktubu 1955-ci ilin iyulunda İstisudan həyat yoldaşı Xavər xanıma yazmışdır. Bütün yaradıcılığı boyu Azərbaycan təbiətinin gözəlliklərini, onun təbii sərvətlərini milli qürur hissilə tərənnüm etmiş Səməd Vurğunun məktubu da bu ruhdadır. O yazır: «Əzizim Xavər! İstisu mənə çox kömək eləyir. Bütün ömrümdə bu qədər təsirli su, təmiz hava görməmişəm...»

Əlbəttə, Səməd Vurğun dünyanın bir çox yerlərində olmuşdu, dünyanın bir çox yerləri barədə məlumatı vardı. Lakin vətənpərvər şairin fikrincə, min bir dərdin dərmanı, həyatın mənbəyi məhz doğma yurddadır, on un təbiətindədir.

Cəfər Cabbarlının ev-muzeyində saxlanılan məşhur məktubun əlyazması. Bir bənddən ibarət şeirlə yazılmış bu məktubu Cəfər bağda olarkən həyat yoldaşı Sona xanıma ünvanlayıb:

«Ay Sonası, çay gətir mənimçün,
Qələmdaram, pay gətir mənimçün.
Bağ yeridir, qəndi çox işlətmərəm
İstəyirsən say gətir mənimçün.»

Əlyazmaları həm də mühüm elmi əhəmiyyətə malikdir. Bu materiallardan elmi-tədqiqat işində çox vacib bir mənbə kimi yararlanmaq olar.

Əlyazma üzərində aparılan iş əsərin düzgün variantının müəyyənləşməsinə xidmət edir. Bu isə öz növbəsində yazıçının yaradıcılığı ilə bağlı yeni və daha dəqiq faktların üzə çıxmasına, bəzi hallarda isə bu və ya

digər tədqiqatın yönünün formalaşmasına səbəb olur. Əlyazmaların toplanılması və tədqiqata cəlb edilməsi müəllifin məlum olmayan əsərlərinin, o cümlədən bədii əsər, məqalə, xatirə, çıxış, məktub və s. meydana çıxması ilə nəticələnir. Yazıçının seçilmiş əsərlərinin nəşrində də məhz əlyazmasından istifadə edilir.

Ədəbi-xatirə muzeylərində yazıçının öz kitabları xüsusi maraq doğurur. Bunları da iki yerə ayırmaq olar: müəllifin sağlığında nəşr olunmuş kitabları, onun vəfatından sonra işıq üzü görmüş kitabları. Təbii ki, müəllifin sağlığında nəşr olunmuş kitabları muzey işində xüsusi önəm kəsb edir. Ona görə ki, hər bir yeni kitab yazıçının həyatında mühüm hadisə olmuş, şirin, bəzən acı xatirələrlə yaddaşlarda qalmış, öz dövrünün ədəbi tənqidinin və oxucuların münasibəti ilə müşayiət edilmişdir. Yazıçıların öz sağlıqlarında nəşrini görə bilmədiyi əsərləri də vardır. Cəfər Cabbarlının bir sıra əsərləri o dövrün ab-havasını əks etdirmədiyinə görə dramaturqun ev-muzeyinin əməkdaşlarının, tədqiqatçıların, xeyirxah insanların əməyi sayəsində yalnız bizim günlərdə işıq üzü görə bilmişdir.

Kitab hər bir yazıçının dostu və məsləhətçisi, onun bilgi mənbəyi olmuşdur. Yazıçının şəxsi kitabxanası vasitəsilə onun yaradıcılığına hansı müəllifin və hansı əsərin bu və ya digər dərəcədə təsir göstərdiyini müəyyənləşdirmək olar. Bu kitablar sırasında klassiklərin əsərlərinə, habelə yazıçının öz müasirlərinin kitablarına rast gəlirik. Burada elə kitablar da vardır ki, həmin yazıçı ilə yanaşı başqa bir sənətkarın xatirəsini də özündə yaşadır. Bunlar müasirlərinin öz avtoqrafları ilə yazıçıya bağışladıqları kitablardır. Əlbəttə, yazıçı bu kitabların əksəriyyətini oxumuş, elə burada öz qeydlərini aparmışdır.

Səməd Vurğunun ev-muzeyində mühafizə olunan çoxsaylı avtoqraflı kitablar arasında görkəmli rus şairi Pavel Antokolskinin bağışladığı iki kitab- «Şeirlər və poemalar» və «On il» kitabları da vardır. Hər iki kitabda Səməd Vurğunun qeydləri nəzəri cəlb edir. Şair kitabları mütaliə edərkən ona yaxşı təsir bağışlamış şeirlərin sərlövhəsi yanında nida işarəsi qoymuş, bəzi misraların altından xətt çəkmişdir. Bəzi yerlərdə sual işarəsi vardır. Bu cür qeydlər «Oğul» poemasının mütaliəsi zamanı daha çox edilmişdir.

Şairin bu qeydləri onun Yazıçıların II Ümumittifaq qurultayında poeziya haqqında etdiyi məruzədə öz əksini tapmışdır. Pavel Antokolskinin yaradıcılığı barədə xoş sözlər söyləyən Səməd Vurğun «öz dramatizmi və yüksək üslubu olan» «Oğul» poemasında «Vətən uğrunda, haqq işi uğrunda mübarizə aparmış gənc nəslin obrazının qüvvətli verildiyini» xüsusi qeyd etmişdir.

Cəlil Məmmədquluzadə 1905-ci ildə TİflisdəÖmər Faiq Nemanzadə və Məşədi Ələsgər Bağırovla birlikdə «Qeyrət» adlı mətbəə-nəşriyyat açmış, burada ilk əvvəllər Firdovsinin, Namiq Kamalın, Əbdürrəhim bəy Haqverdiyevin, digər yazıçıların kitablarını nəşr etmişdir. Onun «İranda hürriyyət»,«Usta Zeynal», «Qurbanəli bəy» kimi məşhur hekayələri də ilk dəfə kitabça şəklində bu mətbəədə işıq üzü görmüşdür. İndi bu kitablar böyük yazıçının bir naşir kimi fəaliyyətinin ilk dövrünün əyani göstəricisi, həm də qiymətli muzey əşyalarıdır.

Abdulla Şaiqin mənzil-muzeyində «Talıbzadə Abdulla Şaiq» adlı bir kitabça nümayiş etdirilir. 1923-cü ildə buraxılmış bu nəşr özündə maraqlı bir tarix, habelə bir sıra görkəmli sənətkarların xatirəsini yaşadır. Qeyd edək ki, həmin ildə Şaiqin ədəbi-pedaqoji fəaliyyətinin

20 illiyinə həsr olunmuş təntənəli gecə keçirilmiş və bu təntənə «Şaiq gecəsi» adlandırılmışdır. Ədibin oğlu Kamal Talıbzadənin yazdığına görə, Şaiq bu gecəni ömrü boyu xatırlamışdır.

Kitabda toplanan xatirə, məqalə və bədii yazılarda Şaiqin ədəbi, elmi və pedaqoji fəaliyyətinə qısa nəzər salınmış, bir vətəndaş və şəxsiyyət kimi insani keyfiyyətlərindən söz açılmışdır. Bu yazıların müəllifləri dövrünün görkəmli ziyalıları-yazıçılar, müəllimlər, dövlət xadimləridir. Onların sırasında Hüseyn Cavid, Seyid Hüseyn, Qantəmir, Əli Rağib, Tağı Şahbazi,Adil Nəcdət, Məmməd Süad, Bədrəddin Seyidzadə, Hüseyn Nəcdət… vardır.

Ötən illərin qəzet və jurnalları da yazıçının həyat və yaradıcılığı ilə bağlı müəyyən məqamların öyrənilməsi baxımından əhəmiyyətlidir. Adətən, yazıçının əsərlərinin ilk variantı, onun yaradıcılığı barədə məqalələr burada dərc edilir.

Məlumdur ki, böyük yazıçımız Cəlil Məmmədquluzadə, eyni zamanda, Yaxın Şərqdə ilk satirik jurnalın- «Molla Nəsrəddin»in baş mühərriri olmuşdur. Jurnalın 1906-cı il aprelin 7-də işıq üzü görmüş ilk sayı «Molla Nəsrəddin»in məşhur «Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!» müraciəti ilə başlanırdı. Jurnal tez bir zamanda Yaxın və Orta Şərqdə şöhrətləndi, çoxlu dostlar qazandı, eyni zamanda, onun düşmənləri də meydana gəldi. Təbii ki, «Molla Nəsrəddin»in bu uğurlarında Cəlil Məmmədquluzadə ilə birlikdə jurnalın fəal müəlliflərindən Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Ömər Faiq, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi və başqalarının, rəssamlardan O. Şmerlinq, İ. Rotter və Əz im Əzimzadənin də böyük əməyi olmuşdur. Jurnalın

ədibin xatirə muzeyində nümayiş etdirilən nüsxələri seyrçini bu barədə məlumatlandırır, ədibin özü və müasirləri barədə yeni bilgilər verir.

Bəli, cansız əşya yaddaşa çevrilir, neçə-neçə sənətkarın xatirəsini özündə yaşadır, gələcək nəsillərə ötürür.

**2010**

## TABLOLARDA YAŞAYAN ÖMÜRLƏR

Məlumdur ki, incəsənət əsərləri profilindən asılı olmayaraq bütün muzeylərdə mövcuddur. Ədəbi-xatirə muzeylərində də bu qəbildən olan dəyərli nümunələr vardır. Buraya rəsm və heykəltəraşlıq əsərləri, xalq-tətbiqi sənəti nümunələri və xalçalar, o cümlədən portretlər, yazıçının əsərlərinə çəkilmiş illüstrasiyalar, geyim eskizləri və s. daxildir. Bu əsərlərin özlərini də bir neçə qrupa bölmək olar. Elə əsərlər vardır ki, onlar yazıçının sağlığında ərsəyə gəlmişdir. Bunlar xatirə əşyası olduğu üçün xüsusi muzey əhəmiyyəti kəsb edir.

Muzeyin ekspozisiyası qurularkən mövcud mövzu-ekspozisiya planına uyğun olaraq yeni incəsənət əsərləri sifariş edilir və bədii tərtibat işində onlardan istifadə olunur. Bir sıra əsərlər isə sonradan yaradılır və muzeyə təqdim edilir. Ayrı-ayrı şəxslər tərəfindən hədiyyə olunmuş nümunələr də vardır.

Bütün bunlar sənətkar ömrünün aynasıdır. Sənətkarın ömür yolunu, yaşamış olduğu anları, yaratdığı obrazları fırçanın dili ilə muzeyin seyrçilərinə çatdırır.

Səməd Vurğunun ev-muzeyinin yerləşdiyi binanın birinci mərtəbəsinin bayır divarında şairin büstü quraşdırılmışdır. Binanın giriş qapısına daxil olub üçüncü mərtəbəyə qalxırıq. Elə burada divar boyu şairin ayaqüstü portreti mozaik pannoda canlandırılmışdır. Muzeyə giriş qapısının önündə isə tamaşasçı onun büstü ilə qarşılaşır. Bütün bunlar Səməd Vurğunun əzəmətini dərk etmək üçün seyrçini hazırlayır.

Muzeyə daxil oluruq. Səməd Vurğunun dünyaya gəldiyi Yuxarı Salahlı kəndini əks etdirən tablonu və kənddəki evlərinin maketini görürük.

Xalq rəssamı Mikayıl Abdullayevin çəkdiyi tablo «Şairin gəncliyi» adlanır. Burada təsvir olunan kənd uşağının – Səmədin nikbin nəzərləri parlaq gələcəyə dikilmişdir. Rəssamın yağlı boya ilə işlənilmiş başqa bir əsəri- «Səməd Vurğunun portreti» qonaq otağında nümayiş etdirilir. Mikayıl Abdullayev bu tablonu şairin sağlığında- 1944-cü ildə naturadan çəkmişdir. Şair Şüvalandakı bağında, tut ağacının altında yaradıcılıq prosesində təsvir edilmişdir. Rəssamın böyük ustalıqla yaratdığı tablonun qarşısında öz dostlarını bağına dəvət edən şairin bu misralarını xatırlayırsan:

Gəlin dostlar!
Mənim könlüm dönməmiş sizdən,
Bağımdakı tut ağacı bir alaçıqdır.
Məhəbbətlə tutacağam əllərinizdən,
Qəlbim kimi üzünüzə qapım açıqdır.

Muzeydə Səməd Vurğunun naturadan çəkilmiş daha iki portreti- iki qrafika işi də vardır. Bunlardan biri 1950-ci ildə Bakıda rəssam Yar Kravçenko, digəri isə 1954-cü ildə Moskvada, şair Pavel Antokolskinin evində rəssam Bunin tərəfindən ərsəyə gətirilmişdir. Nisbətən kiçik ölçülü bu rəsm əsərləri şairin iş otağında nümayiş etdirilir.

Muzeydə maraq doğuran kiçik ölçülü başqa bir rəsm əsəri də var. Bu rəsm əsərini şairin böyük oğlu Yusif (xalq yazıçısı Yusif Səmədoğlu) çəkmişdir. Yusifin on altı yaşında olarkən çəkdiyi rəsm Qazax Müəllimlər Seminariyasının tələbəsi olan Səməd Vurğunun foto-şəklinin surətidir.

Muzeydə nümayiş etdirilən başqa bir boyakarlıq əsəri «Şair, nə tez qocaldın sən» adlanır. Rəssam Nəcəf-qulu İsmayılov öz tablosuna Səməd Vurğunun eyni adlı

şeirinin adını vermişdir. Bu tabloda bütün həyatı boyu mənsub olduğu xalqın təəssübünü çəkən, onu hər bir hücumdan cəsarətlə qoruyan, sözün həqiqi mənasında alovlu bir vətənpərvər olan, xalq tərəfindən sevilən, bununla birlikdə 1937-1938-ci illərdə, habelə 1950-ci illərin əvvəllərində haqsız hücumlara məruz qalan və nəticədə «tez qocalan şairin» obrazı yaradılmışdır. Lakin bu «qocalıq» şərtidir. Tablo qarşısında elə böyük şairin öz misraları yada düşür:

Saç ağardı, ancaq ürək
Alovludur əvvəlki tək.
Saç ağardı, ancaq nə qəm!
Əlimdədir hələ qələm…
Bilirəm ki, deməyəcək
Bir sevgilim, bir də Vətən:
Şair, nə tez qocaldın sən?!

Muzeydə şairin 50 illik yubileyində ona bağışlanılmış incəsənət əsərləri də nümayiş etdirilir. Üzərində Səməd Vurğunun portreti olan xalça respublika Elmlər Akademiyasının, böyük Azərbaycan rəssamı Səttar Bəhlulzadənin fırçasından çıxmış «Qudyalçayın sahilində» boyakarlıq əsəri Rəssamlar İttifaqının hədiyyəsidir. Şairin dostlarından Pavel Antokolskinin bağışladığı kiçik heykəl, Maksim Rılskinin hədiyyəsi –bəzək qutusu, Qafur Qulamın hədiyyəsi – milli özbək xalatı, Georgi Leonidzenin Gürcüstandan gətirdiyi şərab dəsti də burada nümayiş etdirilir.

1976-cı ildə şairin 70 illik yubileyi münasibətilə üzərində onun portreti olan yeni bir xalça da toxunmuş və muzeyə təqdim edilmişdir.

Cəfər Cabbarlının ev-muzeyinin ekspozisiyasında da incəsənət əsərlərindən geniş istifadə edilmişdir.

Məlumdur ki, Cabbarlı ən böyük fikirlərini pyes-

lərində ifadə etmişdir. Elə bir zəngin obrazlar qalereyası yaratmışdır ki, burada istənilən tipə rast gələrsən. Muzeyin həyətində rəssam Mirzəağa Qafarovun «Cabbarlı dünyası» adlı mozaik pannosunda bu obrazların bir neçəsi ilə görüşürük. Pannonun mərkəzində ədibin portreti, onun ətrafında isə obrazları öz əksini tapıb.

Cabbarlı qəhrəmanları- Aydın və Oqtay sadə insanların yaxın dostu, silahdaşıdır. Aydın özü də belə deyir: «Həyata yanaşınca içindəki təzadları, birinin varlı, birinin yoxsul, kiminin hakim, kiminin məhkum olduğunu görüncə, bu arzu dəyişib bir fikrə çevrildi: bütün yaşayışda bir inqilab yaratmaq…»

«Səfillər padşahı» Oqtay Eloğlunun etiraz səsi çox güclüdür: «Mən dünyada ədalət divanı adlı bir şey tanımıram. Hamısı yalandır!.. Mən yenə ancaq bu zavallı xalqı tanıyıram, ona müraciət edirəm. Son söz onundur...»

«Od gəlini» pyesində xalqın içərisindən çıxan və xalqın səadəti uğrunda mübarizə aparan Elxanı da burada görürük: «Azad, məsud bir dünya – budur mənim yolum, budur mənim qanunum. Azad sevgilər, qorxusuz, pak və azad vicdanlar – budur mənim allahım. Azad istəklər, azad diləklər, azad hərəkətlər – budur mənim qanunum.»

Girəcəkdə sənəkarın heykəli qoyulub. Heykəlin fonunda uşaqlıq və gənclik illəri ilə bağlı materiallar nümayiş etdirilir.

Xalq rəssamı M.Abdullayevin çəkdiyi portret bizi ədibin anası Şahbikə xanımla tanış edir. Başqa bir rəsm əsərində balaca Cəfər bibisi Zərnişanın nağıllarına qulaq asır. Yəqin ki, Cəfərin bir sənətkar kimi yetişməsində bu söhbətlərin, nağıl və rəvayətlərin böyük rolu olub.

Ayrı-ayrı boyakarlıq əsərləri Cəfər Cabbarlını müxtəlif yaş dövrlərində əks etdirir. Təbii ki, cəmi 35 il ömür sürmüş Cəfər həmişə cavandır. Elə burada Cəfərlə birlikdə başqa bir qələm sahibi ilə rastlaşırıq. Rəssam Hacıağa Nəzərov onunla nakam şairimiz Mikayıl Müşfiqi bir yerdə Xızı dağları fonunda təsvir etmişdir.

Üzərində  Cəfər Cabbarlının portreti olan xalça da ekspozisiyanı xeyli zənginləşdirir.

Məmməd Səid Ordubadinin xatirə muzeyində də tamaşaçılar ilk əvvəl yazıçının büstü ilə qarşılaşırlar. Mərmər büstün müəllifi heykəltəraş, xalq rəssamı Xanlar Əhmədovdur. Xalq rəssamı Arif Hüseynovun yağlı boya ilə işlədiyi tablo Azərbaycanın qədim və gözəl guşələrindən birini- bir  sıra görkəmli şəxsiyyətlərlə yanaşı Məmməd Səidin də dünyaya gəldiyi Ordubad şəhərini əks etdirir.Arif Hüseynov Ordubadi yaradıcılığına da müraciət etmişdir, Yazıçının «Döyüşən şəhər» romanına çəkilmiş qrafik illüstrasiyalar diqqəti cəlb edir.

Muzeydə M. S.  Ordubadinin libretto müəllifi olduğu Ə. Bədəlbəylinin «Nizami» operasına və F. Əmirovun «Ürək çalanlar» operettasına aid sənət əsərləri də nümayiş etdirilir.

Abdulla Şaiqin mənzil-muzeyində olan incəsənət əsərləri də ekspozisiyanı xeyli baxarlı edir, yazıçının həyatı və fəaliyyəti, qələm dostları, yaxınları barədə məlumatı genişləndirir. Burada onun büstü, habelə müxtəlif yaş dövrlərinə aid portretləri, əsərlərinə çəkilmiş illüstrasiyalar, digər nümunələr  nümayiş etdirilir.

Rəssamlardan Tofiq Kərimov, Qafar Seyfullayev və Əli Zeynalov yazıçının gənclik illərini təsvir etmişlər. T. Kərimovun fırçasından çıxmış tablo «Abdulla Şaiq və Hüseyn Cavid masa arxasında» adlanır. Müəllif burada

böyük mütəfəkkir, şair və dramaturq Hüseyn Cavidlə Abdulla Şaiq arasında səmimi və paklıqla yoğrulmuş dostluğu qabarıq verməyə səy göstərmişdir.

Abdulla Şaiqin daim hörmətlə yanaşdığı və əlaqə saxladığı sənətkarların yağlı boya ilə işlənilmiş portretləri də onun dostluqda sədaqətini əks etdirir. Muzeydə bir xalça da var. Üzərində Abdulla Şaiqlə oğlu Kamal Talıbzadənin portreti canlandırılmışdır. Burada ata - oğul məhəbbətinin ilmələrlə canlandırılmış ifadəsinə rast gəlirik.

Ekspozisiyada kiçik bir natürmort nümayiş etdirilir. «Üç limon» adlanır. 1927-ci ildən Şaiqin ailəsində olmuş, 1994-cü ildən isə muzeydədir.

Bu natürmortu Şaiqə görkəmli türk şairi və ədəbiyyatşünası İsmayıl Hikmət bağışlamışdır. Məlum olduğu kimi, İsmayıl Hikmət ötən əsrin 20-ci illərində Türkiyədən Azərbaycana dəvət olunmuş və 1923-1927-ci illərdə Dövlət Universitetində, habelə Pedaqoji İnstitutda və Teatr Texnikumunda mühazirələr oxumuşdur.O, Azərbaycan ziyalıları, o cümlədən Şaiqlə ünsiyyətdə olmuş, dostluq etmişdir. Xüsusi maraq doğuran cəhət odur ki, natürmortun müəllifi İsmayıl Hikmət özüdür. Rəsmin arxasında müəllifin belə bir xatirə yazısı vardır: «Çox sevimli mələk, xilfət qardaşım Abdulla Şaiqə kiçik bir xatirəyi səmimiyyət. Bakı, 11 may 1927. İsmayıl Hikmət».

Ədəbi-xatirə muzeylərində nümayiş etdirilən hər bir sənət əsəri ekspozisiyanı zənginləşdirməklə yanaşı, həm də həmin sənətkarın ömrünü yaşadır.

**2010**

## FOTOŞƏKİLLƏR ÖNÜNDƏ DÜŞÜNCƏLƏR

Muzey ekspozisiyasının tərtibatı işində fotoşəkillərdən geniş istifadə olunur. Hər bir fotoşəkil özündə müəyyən tarix yaşadır və buna görə də seyrçinin ondan aldığı təəssürat uzunömürlü olur, bu və ya digər hadisə yaddaşlarda nəqşlənir, mahiyyəti ətrafında düşünülür.

Fotoşəkillər ədəbi-xatirə muzeylərinin ekspozisiyasında da mühüm yer tutur. Bu da təbii qarşılanır. Yaradıcı şəxsiyyətin şəxsi həyatı və fəaliyyəti ilə bağlı fotoşəkillərlə yanaşı, onun ayrı-ayrı əsərlərinə aid nümunələrin də nümayişi mövzunun daha dərindən qavranılmasına müsbət təsir göstərir.

Fotoşəkillərdə yaradıcı insanın acılı-şirinli ömrünün müəyyən anları əbədiləşir, onun hər hansı bir hadisəyə münasibəti və bu hadisələrdə iştirakı öz əksini tapır, müasirləri, dost-tanışları, qayğıları barədə məlumat yaşayır. Bəzən bir fotoşəklin təəssüratı yaddaşlarda əbədi nəqşlənir. Bir sözlə, fotoşəkillər yazıçı ömrünün aynasıdır.

Xatirə yazısı olan fotoşəkillər özündə başqa bir görkəmli şəxsiyyətin də xatirəsini yaşatdığı üçün daha böyük muzey əhəmiyyəti kəsb edir. Bəzən nadir fotoşəkillərə rast gəlirik ki, bunlar da öz növbəsində ekspozisiyanı zənginləşdirir.

Xalqımızın yetirdiyi böyük söz sərraflarından Səməd Vurğunun, Cəfər Cabbarlının, Məmməd Səid Ordubadinin, Cəlil Məmmədquluzadənin və Abdulla Şaiqin xatirə muzeylərində apardığımız müşahidələr zamanı xüsusi maraq doğuran fotoşəkillərlə rastlaşdıq.

Əlbəttə, ilk fotoşəkillər bu sənətkarların uşaqlıq və ilk təhsil illərinə aiddir, onların  valideynlərinin və müəllimlərinin fotoşəkilləridir. Səməd Vurğunun ev muzeyində nümayiş etdirilən ilk fotoşəkillər şairin üçsinifli kənd məktəbində və Qazax Müəllimlər Seminariyasında təhsil aldığı illərə aiddir. Seminariyanın yaradıcısı və ilk müdiri körkəmli ədəbiyyatşünas və pedaqoq Firudin bəy Köçərli, müəllimlərdən Yusif Qasımov və Əli Hüseynovla fotoşəkillər vasitəsilə tanış oluruq.

Seminariyanı 1924-cü ildə bitirmiş gənclərin fotoşəkli. Bu gənclər sonradan Azərbaycanda elm və mədəniyyətin inkişafında mühüm rol oynadılar. Onların arasında Səməd Vurğun da var.

Sonrakı fotoşəkillər şairin Qazax və Quba rayonlarında, Gəncə şəhərində müəllimlik etdiyi illərə, ədəbiyyat aləminə gəldiyi dövrə aiddir.

Səməd Vurğunun Moskvada təhsil aldığı dövrə, Böyük Vətən müharibəsi illərində fəaliyyətinə, ümumittifaq və beynəlxalq əlaqələrinə aid fotoşəkillər  də maraq doğurur.

Şairin yazı stolunun üstündə ailə üzvlərinin birgə fotoşəkli də qoyulmuşdur.

Şairin Polşanın Vrotslav şəhəri qardaşlıq qəbristanlığındakı  bir məzarın qarşısında fotoşəkli var.

Səməd Vurğun 1948-ci ildə Polşada olarkən Böyük Vətən müharibəsi qurbanlarının – Vrotslav qəbrstanlığında uyuyan bir neçı azərbaycanlının adını öz dəftərinə yazmışdır. Şair başdaşlarını oxuyarkən İslam adına da rast gəlmişdir. O, sonradan həmin vaxt keçirdiyi hissləri belə ifadə etmişdir: «Onların məzarı öz doğma torpağından, Xəzər sahillərindən, Kürdən, Arazdan, Şahdağın ətəklərindən, Muğan, Mil və Şirvan düzlərindən çox-çox uzaqlarda olduğu üçün ağsaçlı

anaları, bacı- qardaşları və nişanlıları heç olmazsa son dəqiqələrdə öz əzizlərilə görüşüb vidalaşa bilmədikləri üçün məni dərin bir kədər hissi bürüdü. Eyni zamanda, qəlbim fəxrlə döyündü ki, doğma xalqımın oğulları, Babək və Köroğlunun bu cəsur balaları da hər bir əzab və əziyyətə dözərək, Mozdokdan Vrotslava qədər uzaq bir yol keçərək Avropanı hitlerçilərin zülm, həqarət və əsarətindən xilas etdilər…»

Şairin «İslam» balladası konkret olaraq həmin hisslərin təsiri ilə yaranmışdır və dünyanın xilası yolunda şahid olanların xatirəsinə gözəl bir abidədir.

Muzeydə yazıçıların İkinci Ümumittifaq qurultayına xüsusi guşə ayrılmışdır.

Məlumdur ki, S.Vurğun həmin qurultayda poeziya haqqında məruzə ilə çıxış etmişdir. Fotoşəkillər vasitəsilə biz S.Vurğunu xitabət kürsüsündə, qurultayın rəyasət heyətində, səsvermə mərasimində, fasilə zamanı qələm dostları ilə söhbətdə görür və fərəhlənirik…

Səməd Vurğunun ev-muzeyində nümayiş etdirilən bir fotoşəkil diqqətimizi çəkir: Şair kolxozçu qadınlara M.F.Axundzadənin «A.S.Puşkinin ölümünə Şərq poeması»nı oxuyur.

Nəzərləri başqa fotoşəkillər də cəlb edir: Səməd Vurğun məktəblilərlə dahi Nizami Gəncəvinin portreti önündə, qocaman qazax akını Cambulla birlikdə həmişəyaşar Şota Rustavellinin büstü fonunda, incə qəlbli lirik Mola Vəli Vidadinin məzarı üstündə…

Daha bir fotoşəkil: Səməd Vurğun bir dəstə məktəbli ilə böyük dramaturq Cəfər Cabbarlının portreti önündə…

Bütün bunlar şairin klassik ədəbiyyata, onun ayrı-ayrı nümayəndələrinə bağlılığını və məhəbbətini əks etdirir.

Cəfər Cabbarlının ev-muzeyində iri fotoşəkil seyrçini Cəfərin dünyaya göz açdığı Xızıya aparır.

Cəfər təhsilini Bakı şəhərində alıb. Fotoşəkillər bizi ədibin müəllimləri ilə tanış edir. Onlar dövrünün tanınmış sənətkarları və ziyalılarıdır: Abdulla Şaiq, Süleyman Sani Axundov, Mirzə Əbdül Qadir, Bədəl bəy Bədəlbəyli…

Ekspozisiyada Cəfər Cabbarlının səhnəmizin İsmayıl Hidayətzadə, Aleksandr Tuqanov, Rza Təhmasib, Mustafa Mərdanov və başqa unudulmaz simaları ilə birgə fotoşəkilləri nümayiş etdirilir. Bunlar Azərbaycan teatr tarixinin parlaq səhifələridir.

Dramaturqun «Aydın», «Oqtay Eloğlu», «Od gəlini», pyeslərinə həsr olunmuş ekspozisiya bölmələrində Aydın, Oqtay, Elxan obrazlarını yaratmış unudulmaz sənəkarlarımız- Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Ələsgər Ələkbərov, Rza Əfqanlı ilə yenidən görüşürük.

Başqa bir otaq «Almaz» və «Sevil» pyeslərinə həsr olunub. Bu bölmənin eksponatları həm də Azərbaycan səhnəsinin Mirzəağa Əliyev, Mərziyyə Davudova, Möhsün Sənani, Sona Hacıyeva kimi unudulmaz nümayəndələrinin adı ilə bağlıdır. Nümayiş etdirilən proqram və afişalarda onların adı yazılıb, təsvir olunan obrazların yaradıcıları da onlardır.

«Yaşar», «1905-ci ildə» və «Dönüş» əsərlərinə aid otaq da baxarlıdır. Bu bölmədə bir daha Cabbarlı obrazlarının yaradıcıları ilə rastlaşırıq: Rza Təhmasib, İsmayıl Dağıstanlı, Ağasadıq Gəraybəyli, Həsənağa Salayev…

Yataq otağı… Burada ədibin dəfni ilə bağlı fotoşəkillər də nümayiş etdirilir. Bu fotolardan biri ədiblə vidalaşma mərasimində çəkilib: Cəfəri haq dünyasına yola salmaq üçün onun doğmaları, pərəstişkarları,

dövrünün görkəmli şəxsiyyətləri indiki Milli Elmlər Akademiyasının salonuna toplaşmışlar. Bir çox tanış simalar görünür. 1937-cı ilin qara yelləri hələ əsməyib, qarşıdadır.

Ədibin yubileyləri böyük el bayramları kimi qeyd edilib, indi də qeyd edilir. . Fotoşəkillər müxtəlif illərdə keçirilmiş yubiley tədbirlərini əks etdirir.

Abdulla Şaiqin mənzil-muzeyində nümayiş etdirilən fotoşəkillər seyrçini mədəniyyətimizin və ədəbiyyatımızın xüsusi maraq doğuran səhifələri ilə tanış edir, gərəkli məqamları özündə yaşadır. Ötən əsrin əvvəllərində çəkilmiş bir fotoşəkil: «Nicat» cəmiyyətinin yaradıcıları və ilk üzvləri- Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Süleyman Sani Axundov, Əlibəy Hüseynzadə, Həsən bəy Ağayev, Əbdürrəhim bəy Haqverdiyev… bir yerdədirlər. Təqdimata ehtiyacı olmayan bu şəxsiyyətlərin arasında Abdulla Şaiq də var. Başqa bir fotoşəkil. Abdulla Şaiq görkəmli alimlər və yazıçılarla bir yerdədir. İndiki yaşlı və orta nəsil buradakıları baxan kimi tanıyır: Atababa Musaxanlı, Əhməd Cavad, Səməd Mənsur, Azər Buzovnalı, Süleyman Sani Axundov, Bəkir Çobanzadə, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, İsmayıl Hikmət, Seyid Hüseyn…

Ədibin öz doğmaları, şagirdləri və dostları ilə fotoşəkilləri ilə də bu gün əvəzsiz muzey eksponatlarıdır.

Belə fotoşəkillərdən biri 1932-ci ildə tənqidçi Atababa Musaxanlının bağ evində çəkilmişdir. Atababa Musaxanlının və Şaiqin ailə üzvləri və ən yaxın qohumları ilə birlikdə Səməd Vurğun, onun gələcək həyat yoldaşı Xavər xanım (Şaiqin baldızı) da buradadır. Muzey işində maraq doğuran bir cəhəti də qeyd edək ki, bu fotoşəkli yazıçı Mikayıl Rzaquluzadə çəkmişdir. Cəlil Məmmədquluzadənin və Məmməd Səid Ordubadinin

xatirə muzeylərində nümayiş etdirilən fotoşəkillər də ekspozisiyanı xeyli zənginləşdirir.

Cəlil Məmmədquluzadənin ev-muzeyində yazıçının həyatının müxtəlif dövrlərinə aid fotoşəkillərlə yanaşı, ailə üzvlərinin, o cümlədən oğlanları Midhət və Ənvərlə birgə fotoşəkilləri də ümayiş etdirilir.

Ekspozisiyada yazıçının həyat yoldaşı, Azərbaycanın tanınmış ziyalı qadınlarından olan Həmidə xanım da yer almışdır.

Burada həmçinin Mirzə Cəlillə birlikdə «Molla Nəsrəddin» jurnalını yaradan və onun müəlliflərindən Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Əliqulu Qəmküsar, Əli Nəzmi, Məmməd Tağı Sidqi kimi qeyrətli qələm sahibləri də təqdim olunur.

**2010**

## TƏQDİMATDA YADIMA DÜŞƏNLƏR

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin yeni saytı hazırlanıb. Sayt «Musiqi dünyası» jurnalının redaksiyası tərəfindən ərsəyə gətirilib. "Muzey Mərkəzi"ndə saytın təqdimatı mərasimi keçirildi. Təqdimat mərasimində ziyalılar, teatr xadimləri, muzey işçiləri, teatrsevərlər və muzeysevərlər iştirak edirdilər.

Tədbirdə Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev çıxış etdi. Nazir son illərdə milli-mədəni dəyərlərimizin qorunması və təbliği ilə bağlı görülən işlər barədə geniş məlumat verdi. O, qeyd etdi ki, bu məqsədlə respublikamızda bir sıra muzeylərin saytları yaradılmış və istifadəçilərə təqdim olunmuşdur, Teatr muzeyinin saytı da öz növbəsində teatr sənətimizə aid materialların geniş miqyasda təbliğində mühüm rol oynayacaqdır.

Nazir onu da vurğuladı ki, indi qədim tarixə və zəngin ənənələrə malik Azərbaycan teatrının tarixi, onun ayrı-ayrı yaradıcıları barədə dünyanın müxtəlif guşələrində seyrçilər məlumat alacaq və mədəniyyətimizlə daha yaxından tanış olacaqlar.

Əbülfəs Qarayev bütün bunları ölkəmizdə milli-mədəni dəyərlərimizə dövlət səviyyəsində qayğının ye ni təzahürü kimi qiymətləndirdi.

«Musiqi dünyası» jurnalının baş redaktoru, sənətşünaslıq doktoru, professor Tariyel Məmmədov saytı təqdim etdi.

Teatr tariximizi muzey materialları əsasında canlandıran sayt böyük maraq doğurdu.

Təqdimatda və təqdimatdan sonra bu muzeyin fon-

duna və ekspozisiyasına bələd olan, tarixini araşdıran bir şəxs kimi mənim də yaddaşımda bəzi məqamlar canlandı…

Azərbaycanda teatr muzeyinin ilk dəfə təşkili 1927-ci ilə təsadüf edir. Muzeyin yaradıcısı teatr tariximizin öyrənilməsində və təbliğində böyük əmək sərf etmiş Ağakərim Şərifov olmuşdur.

1927-ci ildə teatr işçilərinin respublika müşavirəsində teatr tariximizə aid muzeyin yaradılması barədə məsələ qaldırılmış və elə həmin ildə Azərbaycan Dövlət Dram Teatrının binasında belə bir muzey təşkil olunmuşdur. Əslində bu, teatr tarixinə aid sərgi və gələcək muzeyin təməli idi. Şahidlərin xatırladığına görə, sərginin açılışı lentini kəsən böyük ədiblərimiz - Cəlil Məmmədquluzadə və Əbdürrəhim bəy Haqverdiyev be lə demişlər: "Yaşasın Azərbaycan teatrı!"

Məhz həmin gündən bu muzey teatr tarixinə və teatr xadimlərinə aid yadigarları, əlyazmaları, fotoşəkilləri, rəsm əsərlərini, müxtəlif sənədləri... toplayan və qoruyan məbədə çevrilmişdir.

Sərgi tez bir zamanda o vaxtlar fəaliyyət göstərən Azərbaycan Dövlət Muzeyinin teatr şöbəsi kimi rəsmiləşdirilir. Nəhayət, 1934-cü ildə Azərbaycan Dövlət Muzeyinin müvafiq şöbəsinin bazasında Azərbaycan Dövlət Teatr Muzeyi yaradılır və Ağakərim Şərifov muzeyin direktoru təyin edilir.

1934-cü il noyabrın 24-də muzeyin təntənəli açılışı mərasimi keçirilir. Mərasimdə o dövrün görkəmli sənət xadimləri - Bülbül, Şövkət Məmmədova, Hüseynqulu Sarabski, Aleksandr Tuqanov, Ülvi Rəcəb, İsmayıl Hidayətzadə və başqaları iştirak edirlər. Bu hadisə barədə "Pravda" qəzetinin 21 dekabr 1934-cü il tarixli sayında məlumat dərc edilir.

1935-ci ildə muzeyə böyük Azərbaycan dramaturqu Cəfər Cabbarlının adı verilir.

Bir şeyi də çox təəssüflə qeyd etmək lazım gəlir ki, bu muzey bağlanmış, yenidən təşkil olunmuş, dəfələrlə müxtəlif yerlərə, hətta yararsız sahələrə köçürülmüşdür.

Qarşımda bir arayış var. Uzun illər Azərbaycan Dövlət Teatr Muzeyinə rəhbərlik etmiş mərhum Turan xanım Cavidin imzaladığı bu arayışı "Teatr muzeyinin köçürülmə tarixi" də adlandırmaq olar.

Buradan məlum olur ki, muzey 1940-cı ildə indiki Y.Məmmədəliyev küçəsində yerləşən Kənd Təsərrüfatı Muzeyinin binasına köçürülmüş, elə həmin ilin iyul ayında öz ünvanını yenidən dəyişməli olmuşdur. Muzey bu dəfə İncəsənət işləri idarəsi binasının l mərtəbəsində və zirzəmisində yerləşdirilmişdir. Normal şəraitin olmadığı həmin sahədə fədakar muzey işçiləri yeni ekspozisiya yarada bilmişlər. Lakin muzey burada da bənd almamışdır. 1941-ci ilin iyulunda indiki Nizami adına Ədəbiyyat Muzeyinin binasının l mərtəbəsində iki otağa köçürülmüşdür. Həmin ilin dekabrında muzeyə bu binanın ll mərtəbəsində beş ekspozisiya zalı ayrılmış və burada ekspozisiya yaradılmışdır.

1945-ci ilin sonlarında Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin açılışa hazırlanması ilə əlaqədar Teatr muzeyi yenidən öz ünvanını dəyişməli olmuş, bu dəfə İncəsənət işləri idarəsinin indiki T.Əliyarbəyov küçəsindəki binasına köçürülmüşdür. 1953-cü ildə həmin bina Mülki Müdafiə Qərargahına verilir və buna görə də Teatr muzeyi yenidən Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində yerləşdirilir. Burada muzey üçün ayrılmış otaqlar isə əşyaların normal mühafizəsi, habelə ekspozisiya yaradılması üçün əlverişli olmamışdır.

1963-cü ildə isə Azərbaycan Dövlət Teatr Muzeyi

ləğv edilir və Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin Teatr və dramaturgiya şöbəsinə çevrilir.

Respublika hökuməti 1968-ci ildə həmin şöbənin bazasında "Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin təşkili haqqında" qərar qəbul etdi. Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin binasının lV mərtəbəsindəki otaqlar yeni yaradılmış muzeyə verildi. Bu otaqlarda yalnız muzeyin fond əşyalarını və əməkdaşlarını yerləşdirmək mümkün oldu. Azərbaycan Dövlət Teatr Muzeyinin həyatında ən şərəfli köçürülmə tarixi 1991-ci ildə baş verdi. Azərbaycanda muzey məqsədilə tikilmiş ilk və yeganə bina -keçmiş V.İ.Lenin Mərkəzi Muzeyi Bakı filialının binası Mədəniyyət Nazirliyinə verildikdən sonra burada "Muzey Mərkəzi" yaradıldı, Azərbaycan Xalçası Dövlət Muzeyi və Azərbaycan İstiqlal Muzeyi ilə yanaşı Dövlət Teatr Muzeyi də bu binada yerləşdirildi. Beləliklə də Azərbaycan teatrının tarixini əks etdirən zəngin ekspozisiya yaradıldı.

İndi isə bu muzeylə bağlı bəzi məqamları yada salaq.

1937-1938-ci illərin acı yelləri teatr xadimlərinin, habelə Dövlət Teatr Muzeyinin üstündən də əsib, milli teatrımızın inkişafına ağır zərbə vurub. Həmin illərdə bir sıra teatr xadimləri repressiyaya məruz qalırlar. Bunların arasında Dövlət Teatr Muzeyinin direktoru Ağakərim Şərifovun qohumları da vardı. Bir qədər sonra Ağakərim Şərifovu işdən götürürlər.

Məhz həmin illərdə muzeyin elmi işçisi Afərin Məmmədbəyova öz həyatını təhlükədə qoyaraq repressiya qurbanlarının muzeydəki əşyalarını gizlətmiş, ələ keçməkdən qorumuş və beləliklə də həmin sənədlər bu günümüzə gəlib çatmışdır.

Muzey 1960-cı illərin əvvəllərində də hücuma məruz

qalmışdır. “İzvestiya” qəzetinin 1 oktyabr 1963-cü il tarixli sayında mərkəzi orqanlarda məsul vəzifə daşıyan şəxsin imzası ilə “Mürgülü vəziyyətdə” sərlövhəli yazı dərc edilmişdi. Burada keçmiş SSRİ-də muzey işində mövcud problemlər araşdırılır, tənqidi münasibət bildirilirdi. Dövlət Teatr Muzeyinin ləğv edilməsi də həmin vaxtlara təsadüf etmişdir. Bu təsadüfdürmü? Həmin qəzetin 22 noyabr 1963-cü il tarixli sayında dərc edilmiş “Belə muzeylər lazım deyil” sərlövhəli yazıya nəzər yetirək (Qeyd etdiyimiz kimi, “Pravda” qəzeti 1934-cü ildə Azərbaycan Dövlət Teatr Muzeyinin açılmasını alqışlamışdı).

“Belə muzeylər lazım deyil” sərlövhəli yazının Azərbaycana həsr olunmuş hissəsində oxuyuruq: “Azərbaycan Teatr Muzeyi, əgər bu sözü düzgün izah etsək, heç vaxt sənət məbədi olmamışdır. Əslində bu muzeyin mövcudluğuna ehtiyac da olmayıb. Axı, Bakıda Azərbaycan Tarixi Muzeyi, Nizami adına Ədəbiyyat Muzeyi və bu muzeylərdə mədəniyyət şöbələri vardır. Azərbaycan teatrı tarixində maraq doğuran nə varsa, onları burada nümayiş etdirmək mümkündür. Kitablara gəldikdə isə, nə üçün kütləvi kitabxananın və ya Teatr İnstitutunun kitabxanasının incəsənət şöbəsinə verilməsin?”

Yazının müəllifləri öz mülahizələrini bu cür əsaslandırırlar: “Bu muzeyin işçiləri - direktoru və üç əməkdaşı faktiki olaraq kitabxanaçı vəzifəsini yerinə yetirirdilər. Muzeyin həmçinin fotoqrafı, rəssamı, mühasibi, təsərrüfat müdiri, mühafizəçisi, xadiməsi var idi.”

Müəlliflər daha sonra yazırlar: “Bu yaxınlarda (1963-cü il nəzərdə tutulur - **A.B.**) respublika Mədəniyyət Nazirliyi bu işi qaydasına salmaq qərarına gəldi. Həmin muzey Ədəbiyyat muzeyinin Teatr sənəti şöbəsi

hüququnda saxlanıldı. Nə dəyişdi ki? İndi direktor şöbə müdiri adlanır. İki elmi əməkdaşdan başqa, nəyə lazım olduğu bilinməyən ikinci bir ştat - laborant ştatı əlavə edildi. Rəssam ştatı da saxlanıldı."

Göründüyü kimi, Azərbaycan teatrı tarixini özündə əks etdirən muzeyin ləğv olunaraq başqa bir muzeyin şöbəsinə çevrilməsi, bir neçə ştatın saxlanılması yazı müəlliflərini qane etmir. Belə çıxır ki, Azərbaycan teatr tarixinə aid materiallar ümumiyyətlə saxlanılmamalı və təbliğ olunmamalıdır. Buna görə də elmi işçi, fotoqraf və rəssam ştatlarına da ehtiyac yoxdur. Məqalə müəlliflərinin tələbi budur: "Boş muzey salonlarının dövlət vəsaitini necə udduqlarına, onların əməkdaşlarının isə yalnız qədim əşyaları qoruyub saxlayanların rolu ilə kifayətləndiklərinə kənar müşahidəçi kimi sakitcə dayanıb baxmaq olmaz".

Bütün bunlara baxmayaraq muzeyin müxtəlif nəsillərdən olan əməkdaşları Ağakərim Şərifovun başlamış olduğu bu xeyirxah işi hətta ən çətin vəziyyətlərdə belə ləyaqətlə davam etdirdilər. Artıq dünyalarını dəyişmiş Sabit Rəhman, Afərin Məmmədbəyova, Sona Cabbarlı, Ayişə Qasımova, Turan Cavid, habelə muzeyin indiki direktoru Nuridə Nurullayeva əsl fədakarlıq nümunəsi göstərmişlər. Məhz bunun nəticəsidir ki, Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi bu gün respublikamızın zəngin və qabaqcıl mədəniyyət ocaqlarından birinə çevrilmiş, burada 130 minədək əşya toplanmışdır.

İndi bu zəngin sərvətlə dünyanın müxtəlif guşələrində tanış ola biləcəklər.

Bu, hamı kimi, məni də sevindirir…

**2011**

## SƏNƏT MƏBƏDİ–MÜQƏDDƏS MƏKAN

Bakı şəhərində, habelə ayrı-ayrı bölgələrdə bir sıra görkəmli şəxsiyyətlərin xatirə muzeyləri fəaliyyət göstərir. Bu muzeylərin əksəriyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xeyir-duası ilə yaradılıb.

Azərbaycan professional musiqisinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəylinin Bakıda ev-muzeyinin yaradılması da Heydər Əliyevin xidmətidir. Respublika hökuməti muzeyin təşkili barədə hələ 1949-cu il fevralın 19-da qərar qəbul etsə də, bu istiqamətdə heç bir iş görülməmişdi. 1975-ci ildə Üzeyir bəyin 90 illik yubileyi ərəfəsində Heydər Əliyev bu məsələ ilə maraqlanmış, təcili tədbirlər görülməsi üçün göstəriş vermişdir. Şəxsən onun qayğısı ilə qısa müddətdə muzeyin binasında təmir-bərpa işləri aparılmış, burada ekspozisiya və lektoriya yaradılmışdır.

Muzeyin açılışı 1975-ci il noyabrın 20-də oldu.

Muzeyin açılışına respublikanın rəhbər işçiləri, görkəmli elm və mədəniyyət xadimləri, bəstəkarın yubiley şənliklərinin iştirakçıları gəlmişdilər.

Üzeyir bəyin tələbələrindən biri – böyük bəstəkar Qara Qarayev üzünü buraya toplaşanlara tutdu:

- Bizə respublikamızın mədəni həyatında həqiqətən tarixi hadisədə – böyük Azərbaycan bəstəkarı, professional musiqimizin banisi, özündən sonra gələn musiqiçilər nəslinin tərbiyəçisi və müəllimi, görkəmli ictimai xadim Üzeyir Hacıbəyovun ev-muzeyinin açılışında iştirak etmək səadəti nəsib olmuşdur. Sakit küçədə yerləşən bu sadə ev böyük bəstəkarın irsini gələcək nəsillər üçün qoruyub saxlayacaqdır.

Qara Qarayev xüsusi olaraq qeyd etdi ki, Üzeyir Hacıbəylinin adı ilə bağlı olan sərvəti qoruyub saxlayanlara gələcək nəsillər «çox sağ olun» deyəcəklər. O, zəngin sərvətin toplanılması, qorunması və mühafizəsi üçün əvəzsiz rol oynayan muzeyin təşkilinə göstərilən qayğıya görə respublika rəhbərliyinə minnətdarlığını bildirdi.

Muzeyin ilk tamaşaçıları Üzeyir bəyin həyat və fəaliyyətinin parlaq səhifələri ilə tanış oldular. Böyuk bəstəkar və dramturqun uşaqlıq və gəncliyinə, Şuşada ikisinifli məktəbdə, Qori seminariyasında, daha sonra Peterburq Konservatoriyasında təhsil illərinə aid materiallar bu məlumatı zənginləşdirir. Heç şübhəsiz, Üzeyir bəyin bir musiqi xadimi kimi yetişməsinə Azərbaycanın ən qədim guşələrindən olan Şuşanın musiqi və poeziya mühiti, ulu ənənələr mühüm təsir göstərmişdir. Şuşa onun yaradıcılıq beşiyi olmuşdur.

Hələ kiçik yaşlarından  Üzeyir bəyin məlahətli səsi olmuş, o, muğam və xalq mahnılarını bacarıqla ifa etmişdir. Ötən əsrin axırlarında görkəmli Azərbaycan yazıçısı Əbdürrəhim bəy Haqverdiyevin Şuşada görkəmli müğənni Cabbar Qaryağdı oğlunun iştirakı ilə tamaşaya qoyduğu «Məcnun Leylinin məzarı üstündə» səhnəsində Üzeyir bəy oğlanlar xorunda çıxış etmişdir. Bu hadisə onu çox həyəcanlandırmış və özünün sonralar dediyinə görə, «Leyli və Məcnun» operasının yaranmasına təsir göstərmişdir.

Qori seminariyasında təhsil illəri səmərəli keçmişdir. O, burada dünya mədəniyyətinin qabaqcıl nümayəndələrinin fəaliyyəti ilə tanış olmuş, skripkada çalmağı öyrənmiş, bəzi  Azərbaycan xalq mahnılarını nota köçürmüşdür.

XX əsrin əvvəllərində Bakıya gələn Üzeyir Hacıbəyli

publisistika sahəsində məhsuldar işləmiş, «İrşad», «Həqiqət», «Tərəqqi», «Yeni iqbal», «Molla Nəsrəddin» kimi qəzet və jurnallarda çıxış edərək özünü maarifçi-demokrat ruhlu bir ziyalı kimi tanıtmışdır.

Muzeydəki əşyalar Üzeyir bəyi Azərbaycan professional musiqisinin banisi, böyük bəstəkar, dramaturq və publisist, musiqi nəzəriyyəçisi, mədəniyyətimizin inkişafında müstəsna əməyi olan ictimai xadim, geniş qəlbli insan və vətəndaş kimi təqdim edir.

Ekspozisiyada müəllifin Yaxın Şərqdə ilk opera hesab olunan «Leyli və Məcnun»undan başlayaraq «Koroğlu»suna qədər bütün səhnə əsərləri barədə məlumat verilir.

«Leyli və Məcnun»un ilk tamaşasının rejissoru Hüseyn Ərəblinski, Məcnun rolunun ifaçısı isə Hüseynqulu Sarabski idi. Hüseynqulu Sarabski uzun illər Azərbaycan səhnəsinin Məcnunu olmuşdur. Opera elə ilk tamaşadan böyük əks-səda doğurmuş, dövrün mədəni hadisəsinə çevrilmişdir. Üzeyir Hacıbəyli əsərin böyük uğurunun səbəbini belə izah etmişdir: «Zənnimizcə, bu müvəffəqiyyət onunla izah edilir ki, artıq Azərbaycan xalqı öz səhnəsində Azərbaycan operasının yaranmasını gözləyirdi. «Leyli və Məcnun»da isə əsl xalq musiqisi ilə məşhur klassik süjet birləşmişdir.»

Bəstəkarın iş otağı… Neçə-neçə ölməz sənət əsəri, məşhur konsert salonlarını ehtizaza gətirən nümunələr o cümlədən, Azərbaycan musiqi mədəniyyətinin incisi sayılan «Koroğlu» operası burada yaranmışdır. Bəstəkarın yuxusuz gecələrinin şahidi olan qara royal elə bil öz sahibinin yolunu gözləyir. Gözləyir ki, Üzeyir bəy yenidən gəlib yeni bir əsər yaratsın…

Üzeyir bəyin dostları, həmkarları, şagirdləri, Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri dəfə-

lərlə bu otaqda böyük ustadın qonağı olmuş, onunla yaradıcılıq söhbətləri aparmışlar.

Bu evin əziz qonaqlarından biri də böyük sənətkarımız Bülbül idi. O, tez-tez buraya gələr, bəstəkar və müğənni arasında Koroğlu obrazı barədə maraqlı söhbətlər olardı. Muasirlərinin dediyinə görə, onlar hər bir musiqi parçasını müzakirə edir, birlikdə yeni variantlar hazırlayırdılar.

«Koroğlu» 1937-ci ilin aprelin 30-da Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyuldu. Əsər elə ilk tamaşadan böyük uğur qazandı və Azərbaycan musiqisinin şöhrətini dünyaya yaydı. Əlbəttə, bu uğurda Üzeyir bəylə Bülbülün əlbir yaradıcılığının mühüm rolu oldu.

Musiqimizin inkişafında "Koroğlu"nun yeri əvəzsizdir. Musiqişünaslar belə hesab edirlər ki, bu əsər opera janrı ilə yanaşı simfoniya və balet janrlarını da özündə birləşdirmişdir. Üzeyir Hacıbəyli «Koroğlu» operasına görə SSRİ Dövlət Mükafatına layiq görülmüşdür.

Bu otaqda bəstəkarın xatirə əşyaları da nümayiş etdirilir.Yazı stolu, onun üstündə müəllifin yarımçıq qalmış «Azərbaycan» simfonik poemasının partiturası… Bəstəkarın barmaq izlərini saxlayan skripka tamaşaçıların böyük həyəcanına səbəb olur…

Muzeydəki müxtəlif hədiyyələr, mükafatlar, sənədlər Üzeyir bəyə ümumxalq məhəbbətini, habelə onun dünya şöhrətini əks etdirir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1995-ci ildə Üzeyir Hacıbəylinin yubileyi ərəfəsində bəstəkarın Azərbaycan musiqi sənətinin inkişafında misilsiz xidmətlərini nəzərə alaraq böyük sənətkara xalq ehtiramını və məhəbbətini təcəssüm etdirmək məqsədilə hər il sentyabrın 18-də

(Ü.Hacıbəylinin doğum günü) Milli Musiqi Günü keçirilməsi barədə sərəncam imzaladı.

Heydər Əliyev bəstəkarın yubiley gecəsində çıxış edərək 1975-ci ildə onun 90 illik yubileyi günlərində ev-muzeyini açılmasını xatırlatdı. O, muzeyin ötən 20 il ərzində mədəniyyətmizin inkişafında rolunu razılıq hissi ilə qeyd etdi. Ölkə rəhbəri ilk gündən indiyədək bu muzeyə rəhbərlik edən Üzeyir Hacıbəylinin yaxın silahdaşı Ramazan Xəlilovun əməyini yüksək qiymətləndirdi. Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafında, xüsusən dahi bəstəkar Üzeyir Hacıbəylinin ədəbi və musiqi irsinin qorunması və təbliğində böyük xidmətlərinə görə Ramazan Xəlilovun Azərbaycanın yüksək ordeni- «Şöhrət» ordeni ilə təltif olunması barədə fərman imzaladığını bildirdi.

O, qocaman muzey işçisi haqqında ən xoş sözlər söylədi:

- Ramazan Xəlilov çox xoşbəxt adamdır, 95 yaşı var, bu gün də fəaliyyətdədir. O, Üzeyir Hacıbəyovla çiyin-çiyinə gedib, bizim üçün onun nişanəsidir. Ona görə də bizim üçün əzizdir və xoşbəxtlik də ondan ibarətdir ki, o bu gün də yaşayır…

Üzeyir Hacıbəylinin ev-muzeyi böyük bəstəkarın xatirəsini əbədiləşdirən sənət məbədi, müqəddəs məkandır.

**2010**

## XATİRƏLƏRDƏ YAŞAYAN SƏNƏTKAR

Görkəmli yazıçı, pedaqoq, Azərbaycan ədəbiyyatının klassiki Abdulla Şaiq uzun illər öz ədəbi-bədii yaradıcılığı və pedaqoji fəaliyyəti ilə gənclərimizin mənən saflaşmasına, onlarda yüksək insani hisslər yaradılmasına xidmət etmişdir.

Ədibin əsərləri - şeir və poemaları, dram və hekayələri geniş oxucu və tamaşaci kütləsini cəlb etmiş, eyni zamanda, tənqid və ədəbiyyatşünaslığın da diqqət mərkəzində olmuş, onun yaradıcılığı barədə dissertasiyalar, monoqrafiyalar, coxsaylı məqalələr yazılmışdır.

Bir neçə nəsil Şaiqin tələbəsi olmuş, onun hazırladığı dərsliklərdən öyrənmişdir. Onun adı hələ sağlığında ikən geniş yayılmış, xeyirxah, mehriban, namuslu müəllim – vətəndaş simvolu olmuş, ədəbi-bədii, elmi əsərlərə, xatirələrə çevrilmişdir.

Hələ 1923-cü ildə Bakıda yazıçının pedaqoji fəaliyyətinin 20 illiyinə həsr olunmuş təntənəli yubiley – «Şaiq gecəsi» keçirilmişdir. Həmin yubileylə əlaqədar «Talıbzadə Abdulla Şaiq» adlı kitab nəşr olunmuş, buraya Şaiq haqqında xatirələr, ürək sözləri, bədii əsərlər və məqalələr daxil edilmişdir. Onun haqqında sonralar da bir sıra xatirələr qələmə alınmışdır.

Sənətkarın müasirləri və tələbələrinin xatirələri xüsusi maraq doğurur. Xatirə müəllifləri, akademik Kamal Talıbzadənin qeyd etdiyi kimi, «…ədibin fəaliyyətinin müxtəlif sahələrini müəyyən mənada şəxsiyyəti ilə əlaqələndirməyə çalışmış, müəllim-şəxsiyyət, ictimai xadim-şəxsiyyət, yazıçı-şəxsiyyət problemi ətrafında mülahizələr söyləmişlər, onun insani keyfiyyətləri

ilə yaradıcılığı arasındakı vəhdəti həmişə bir qanuni xüsusiyyət kimi nəzərə çarpdırmışlar».

Görkəmli yazıçı, alim və ziyalılardan Atababa Musaxanlının, Seyid Hüseynin, Vəli Hacıoğlunun, Mehdi Hüseynin, Məmməd Arifin, Əfrasiyab Bədəlbəylinin və başqalarının xatirələrində Abdulla Şaiqin şəxsiyyəti haqqında incə məqamlarla rastlaşırıq. Həmin xatirələrdən qəti olaraq müəyyənləşir ki, müəllim, yazıçı, ictimai xadim və insan Şaiqin şəxsiyyəti ilə yaradıcılığı bir-birini tamamlayır.

Ədəbiyyaşünas Atababa Musaxanlı yazır: «…Şaiqin müəllim olmaq həvəsilə geniş bir əxlaqın, kiçik bir sükutun mərhələsi, şair olduğu üçün həssas bir ruhun, incə bir düşünüşün yaradıcısı – deyə tanıda bilərik».

Akademik Məmməd Arif isə Şaiqə müraciətlə belə yazmışdır: «Sizi yaxından tanıyanlar yaratdığınız əsərlərlə şəxsiyyətiniz arasında qəribə bir uyğunluq olduğunu görürlər».

Şaiqi tanıyanlar və tələbələri öz yazılarında onun şəxsiyyətində olan bir sıra keyfiyyətlər haqqında məlumat verirlər. Biz burada Şaiqin səmərəli ədəbi və elmi-pedaqoji fəaliyyəti ilə birlikdə şəxsiyyətindəki bütövlük, paklıq, təvazökarlıq, qayğıkeşlik və s. insani keyfiyyətlərlə tanış oluruq.

Bu barədə akademik Məmməd Cəfərin xatirləri çox maraqla oxunur: «…qayğıkeşlik onun təbiəti, xarakteri ilə bağlı olmaqla bərabər, həmçinin dünya baxışı ilə əlaqədar olan bir xüsusiyyətdir». Şaiqin tələbələrindən biri, görkəmli mədəniyyət xadimi, tərcüməçi Adil Əfəndiyev belə yazmışdır: «Səmimiyyət Şaiqin varlığının əsas keyfiyyəti, rəmzi idi. Onun bütün hərəkətləri, sinifə gəlişi, salam verməsi, tələbələrlə görüşü, öz-özlüyündə bir əxlaq və tərbiyə dərsi olardı».

Müasirləri Şaiqi ürəkdən sevmiş, onun barəsində ən xoş sözlər söyləmişlər. Bu baxımdan Firudin bəy Köçərlinin, Hüseyn Cavidin, Abdulla Surun, Mustafa Quliyevin, Səməd Vurğunun, Mirzə İbrahimovun, Mir Cəlalın… ürək sözləri çox maraqlıdır. Şaiq şəxsiyyətinə və yaradıcılığına dərin hörmət bəsləyən Səməd Vurğun yazmışdır: «Sizin adınız hər bir azərbaycanlı üçün əzizdir. Çünki Siz bütün ömrünüz boyu xalqımızın ən nəcib duyğularını, yüksək humanist əməllərini tərənnüm ed ən gözəl bir sənətkar, böyük bir insan olmusunuz ».

Bu sözlər isə Mir Cəlala məxsusdur: «Abdulla Şaiqin fikrini həmişə məşğul edən azad mədəni həyat, müasir ictimai məsələlər, xalqın dərd və ehtiyacları idi».

Şaiqə həsr olunmuş ilk bədii əsərlər hələ 1923-cü ildə qələmə alınmışdır. O vaxtlar Adil Həcdət, Məmməd Süad, Bədrəddin Seidzadə, Hüseyn Nəcdət kimi şairlər ona şeirlər həsr etmiş, daha sonra Səməd Vurğun, Süleyman Rüstəm, Mirmehdi Seidzadə, Bəxtiyar Vahabzadə və başqaları öz şeirlərində Şaiqin obrazını yaratmışlar.

Şaiqə həsr olunmuş elmi məqalələrdən onun yaradıcılığının müxtəlif cəhətləri ilə tanış oluruq.

Bu tədqiqat işlərindən məlum olur ki, Abdulla Şaiq öz ədəbi-bədii, elmi-pedaqoji fəaliyyəti ilə «Azərbaycan xalqının minlərlə oğlunu tərbiyələndirmiş, onların qəlbinə əsl hümanizm duyğuları aşılamış, köləliyə və haqsızlıq dünyasına sonsuz bir nifrət hissi oyatmış, XX əsr Azərbaycan ədəbiyyatı tarixində şərəfli bir mövqe tutmuş, lirik nəsrimizin təməl daşını qoymuş, öz bədii lövhələrində saf Azərbaycan dilinin gözəlliklərini təcəssüm etdirmiş» (Mehdi Hüseyn) bir sənətkar olmuşdur.

Abdulla Şaiqə həsr olunmuş xatirələri, digər yazıları oxuyanda illər otdükcə gəncləşən, gözəl yazıçı

və müəllim, «mələk kimi bir insan» (Hüseyn Cavid) Şaiqə məhəbbətimiz daha da artır.

**2011**

## MÜQƏDDƏS SƏNƏT MƏBƏDLƏRİ

Hər bir xalqın özünün dünya mədəniyyətinə bəxş etdiyi görkəmli şəxsiyyətləri, o cümlədən söz sərrafları vardır. Belə şəxsiyyətlər tarixə dünya ədəbiyyatının klassiki, böyük şair və dramaturq, nəzəriyyəçi və ədəbi prosesin təşkilatçısı kimi daxil olmuşlar. Şübhəsiz, bütün dahilərin əsas yaradıcılıq mövzusu mənsub olduğu xalqın keçmişi və indisi, həm də gələcək taleyi olmuşdur. Bununla yanaşı, onların yaradıcılığı ümumbəşəri səviyyəyə yüksəlmişdir. Bu xüsusiyyətlər onların daha geniş miqyasda tanınmasına və sevilməsinə səbəb olmuşdur.

Dünya muzeyləri sırasında bu cür şəxsiyyətlərin adı ilə bağlı xatirə muzeyləri mühüm yer tutur. Öz xalqının sevimlisinə çevrilmiş qələm sahiblərinin xatirəsini əbədiləşdirmək məqsədilə ilk ədəbi-xatirə muzeylərinin yaradılması XlX əsrin ikinci yarısına təsadüf edir. Onu da qeyd edək ki, bu qəbildən olan muzeylər sənətkarın doğulduğu, boya-başa çatdığı, ömrünün əsas hissəsini yaşadığı məkanlarla yanaşı, onunla az-çox bağlılığı olan yerlərdə də yaradılmışdır.

Bu ideyanın ortaya çıxması və gerçəkləşməsi Vilyam Şekspirin və Valter Skottun adları ilə bağlıdır.

Dahi ingilis dramaturqu Vilyam Şekspirin Böyük Britaniyanın Stratford şəhərindəki ev-muzeyi çox məşhurdur, Böyük Britaniyada turist və seyrçilərin ən çox ziyarət etdiyi məkanlardan sayılır. Vilyam Şekspir 1564-cü ildə məhz bu evdə dünyaya gəlib, uşaqlıq və gənclik illərini burada keçirib. İlk təhsilini də Stratfordda alıb, sonradan Londona gedib.

Dramaturq ömrünün son illərini də Stratfordda yaşayıb və burada da dünyasını dəyişib. Bu ev XlX əs-

rin ortalarında muzey yaradılanadək Şekspir nəslinin istifadəsində olub. Məhz həmin vaxtlar ictimaiyyətin maddi və mənəvi köməyi ilə bu ev «Şekspirin doğum günü komitəsi» tərəfindən alınıb və burada muzey təşkil edilib.

Bu muzey özünün orijinallığı ilə diqqəti cəlb edir. Şekspir burada yaşadığı vaxtdan təxminən 300 il sonra təşkil edilib. Muzeyin yaradıcıları 300 il əvvəlki şəraiti bərpa etməli olublar, yəni evi 300 il əvvəlki vəziyyətinə gətiriblər. Təbii ki, evlə birlikdə ev əşyaları da Şekspir dövrünə uyğunlaşdırılıb.

Yazıçılardan Böyük Britaniyada Valter Skott (1771-1832) və Çarlz Dikkensin (1812-1870), Fransada Onore de Balzak ((1779-1850), Viktor Hüqo (1802-1885) və Qustav Floberin (1821- 1886), Amerikada Mark Tven (1835-1910), Cek London (1876-1916) və Ernest Heminqueyin (1899-1961), digər qələm sahiblərinin xatirə muzeyləri də məşhurdur. Ernest Heminqueyin Kubada, Havana şəhəri yaxınlığında fəaliyyət göstərən xatirə muzeyi də turistləri cəlb edən mədəniyyət ocaqlarındandır.

Böyük alman dramaturqu, şair və filosof Fridrix Şillerin (1759-1805) Almaniyanın Leypsik, Drezden və Veymar şəhərlərində xatirə muzeyləri fəaliyyət göstərir. Dramaturqun Veymardakı xatirə muzeyi onunla əlamətdardır ki, o, ömrünün uzun illərini indi muzey kimi fəaliyyət göstərən bu evdə yaşamış, dünyasını da bu evdə dəyişmişdir. Yazıçının ən məşhur əsəri- «Vilhelm Tell» bu evdə ərsəyə gəlmişdir.

Veymarda digər alman şairi və mütəfəkkiri İohan Hötenin (1749-1832) də xatirə muzeyi də yaradılmışdır. Şairin xatirəsi ilə bağlı başqa bir muzey Düsseldorf şəhərindədir.

Rusiyada ədəbi-xatirə muzeyinin təşkili ideyası

1837-ci ildə böyük rus şairi A. S. Puşkinin faciəli qətlindən sonra meydana gəlsə də, yalnız 1879-cu ildə Tsarskoye Selo litseyində kitabxana yaradılır, 1889-cu ildə isə bu kitabxana A. S. Puşkin muzeyinə çevrilir. Şairin Mixaylovski kəndindəki məşhur muzeyi isə 1908-ci ildə açılmışdır.

Bu gün Rusiya Federasiyasının müxtəlif guşələrində A. S. Puşkinlə yanaşı rus ədəbiyyatının klassiklərindən L. N. Tolstoyun, F. M. Dostoyevskinin, İ. S. Turgenevin, M. Y. Lermontovun, N. A. Nekrasovun, A. P. Çexovun, Maksim Qorkinin, Sergey Yeseninin və bir çox başqalarının xatirə muzeyləri fəaliyyət göstərir. Ukraynada Lesya Ukrainkanın, Taras Şevçenkonun, İvan Frankonun, Gürcüstanda Vaja Pşavelanın, Akaki Seretelinin, İlia Çavçavadzenin, Qazaxıstanda Abayın, Cambulun, Muxtar Auezovun, digər söz sərraflarının xatirə muzeyləri vardır.

Muzey işində ədəbi qəhrəmanların adları ilə bağlı muzeylərin təşkili praktikası da mövcuddur. Böyük Britaniya yazıçısı Artur Konan Doylun məşhur detektiv qəhrəmanı Şerlok Holmsa həsr olunmuş eyni adlı muzey, fransız yazıçısı Qustav Floberin «Madam Bovari» romanının qəhrəmanı Madam Bovariyə həsr olunmuş eyni adlı muzey bu qəbildəndir. Rusiyanın Leninqrad Vilayətinin Vıra kəndində yaradılmış muzey «Stansiya nəzarətçisinin evi» adlanır. Adından da göründüyü kimi, 1972 - ci ildən tamaşaçılarını qəbul edən bu muzey A. S. Puşkinin «Stansiya nəzarətçisi» povestinin qəhrəmanının adı ilə bağlıdır.

İ.S.Turgenevin Moskva şəhərində 2009-cu ildə açılmış xatirə muzeyi də daha çox yazıçının məşhur «Mumu» hekayəsi ilə əlaqələndirilir. Muzeyin yaradıldığı imarəti moskvalılar «Mumunun evi» adlandırırlar. Məsələ

burasındadır ki, «Mumu» hekayəsində təsvir olunan hadisələr məhz bu evdə baş vermişdir. Həyətdə dalandar Gerasimin saxladığı iti- Mumunu məhv etdirən zalım xanımın prototipi İvan Turgenevin özünün doğma anasıdır. Onun anası ömrünün son 10 ilini bu evdə yaşamış, burada da dünyasını dəyişmişdir. Turgenev də bu evə- anasının yanına gələrmiş…

Əlbəttə, yuxarıda adlarını sadaladığımız bu muzeylərin hər biri həmin sənətkarın ömür yolunu əks etdirir, həmin mövzuda əşyaları toplayır, qoruyur və təbliğ edir. Bu muzeylər çox haqlı olaraq müqəddəs sənət məbədləri adlandırılır, eyni zamanda, sənətsevərləri cəlb edən mədəniyyət mərkəzləridir.

Burada ədəbiyyatla bağlı birliklər, poeziya dərnəkləri yaradılır, rəngarəng tədbirlər- sərgilər, kitab təqdimatı mərasimləri, yubileylər, konsertlər, poeziya axşamları keçirilir. Bu qələm sahiblərinin hər biri öz xalqının oğludur, milli ruhda köklənmişlər. Bununla yanaşı, onların hər birinin yaradıcılığı ümumbəşəri mahiyyət kəsb edir. Dünyanın müxtəlif guşələrindən gələn ziyarətçilər bu sənətkarların ömür yolu, milli, eyni zamanda, ümumbəşəri mahiyyət kəsb edən ədəbi irsi ilə tanış olur. Bütün bunlar isə xalqlar arasında mədəni mübadilənin və qarşılıqlı zənginləşmənin inkişafına mühüm təsir göstərir. Ona görə ki, belə yaradıcı şəxsiyyətlər bütün dünyaya məxsusdur…

**2011**

# MUZEY QURUCULARIMIZ

## AĞAKƏRİM ŞƏRİFOV

Məlumdur ki, muzey xalqın milli sərvətini- maddi və mənəvi abidələrini toplayır, qoruyur, onların öyrənilməsini, nümayişini və təbliğini təmin edir. Beləliklə də muzeylərin meydana gəlməsi həm də elmi biliklərin təbliği və cəmiyyət üzvlərinin estetik tələbatının ödənilməsi zərurəti ilə bağlıdır. Eyni zamanda, o da məlumdur ki, muzey əşyaları muzeylərdən çox-çox əvvəl mövcud olmuş, yəni muzeydən öncə muzey əşyası meydana gəlmişdir. Ən qədim dövrlərdən başlayaraq zaman-zaman insanların bu və ya digər tələbatının ödənilməsi məqsədilə yaradılan bu nümunələr sonradan «mədəniyyət sərvəti», «muzey əşyası» adlarını almışdır.

Bu sərvəti müəyyən bir məkanda toplayanlar və gələcək nəsillərə ötürmək istəyənlər öz xalqına, onun tarixinə və mədəniyyətinə qəlbən bağlı olan şəxslər olmuşdur. Bu cür insanlar tarixən Azərbaycanda da olmuşdur və indii də var.

Respublikamızda 1919- cu ildə yaradılmış ilk rəsmi dövlət muzeyinin- İstiqlal muzeyinin qurucuları görkəmli sənətşünaslar- Hüseyn bəy Mirzəcamalov və Məhəmməd Ağayev olmuşdur.

1924-cü ildə Naxçıvan və Gəncə, daha sonra Şəki və Lənkəran şəhərlərində tarix-diyarşünaslıq muzeyləri

yaradıldı. Qubada isə muzeyin əsası qoyuldu. Bu muzeylərin yaradılmasında yerli həvəskarlar fəal iştirak edirdilər.

Naxçıvanda yerli ziyalı Mirbağır ağa burada tarix muzeyinin əsasını qoyanlardan biridir. İndi Naxçıvan Muxtar Respublikası Dövlət Tarix Muzeyi kimi fəaliyyət göstərən həmin muzeyin ilk direktoru da Mirbağır ağa olmuşdur.

Qubada muzeyin əsasını görkəmli din xadimi və ziyalı Əhməd Əfəndi Çələbizadə qoymuşdur. O, 1924-cü ildə «Cümə məscidi» yanında dərs dediyi mədrəsədə tarix muzeyi yaratmış, burada Azərbaycan tarixinə aid materialları toplamışdır. Eksponatların əksəriyyəti Əhməd Əfəndinin özünə məxsus olmuşdur.

Şəki tarix-diyarşünaslıq muzeyinin yaradılmasında dövrünün qabaqcıl maarif xadimi, yazıçı və dramaturq Rəşid bəy Əfəndiyevin müstəsna əməyi vardır. Lənkəranda muzeyin bünövrəsini yerli ziyalı Mirzə Ağaəli Əliyev qoymuş, Masallıda isə ilk muzeyin yaradıcısı orta məktəb müəllimi Rəhim Tağıyev olmuşdur. Bu gün öz yaradıcılarının xatirəsinə hörmət əlaməti olaraq Şəki muzeyi Rəşid bəy Əfəndiyevin, Lənkəran muzeyi Mirzə Ağaəli Əliyevin, Masallı muzeyi isə Rəhim Tağıyevin adını daşıyır.

Muzey direktorlarından Solmaz Məhərrəmova (Laçın) və Xalis Məmmədov (Qəbələ) da boya- başa çatdıqları rayonun tarix-diyarşünaslıq muzeyinin qurucularıdır. Onların hər ikisi bu gün «Əməkdar mədəniyyət işçisi» fəxri adını şərəflə daşıyırlar.

Muzey rəhbərlərinin bir neçəsi ilə «Mədəniyyət»in («Mədəniyyət» qəzeti –red.) oxucularını az-çox dərəcədə tanış etmiş, digərləri barədə söhbət açmağa söz vermişik. İndiki söhbətimiz Cəfər Cabbarlı adına Azərbaycan

Dövlət Teatr Muzeyinin yaradıcısı və ilk direktoru Ağakərim Şərifov haqqındadır.

O, 1899- cu ildə doğulmuş, 1942- ci ildə dünyasını dəyişmişdir. Kiçik yaşlarından özü də, qardaşları - Ağasəlim, Hacıbaba və Niyaz da teatr sənəti ilə bağlı olmuşlar. Niyaz Şərifov sonradan tanınmış rejissor, Ağakərim isə teatr tarixçisi, tədqiqatçı və pedaqoq kimi fəaliyyət göstərmişdir.

Ağakərim Şərifov 1920-ci illərin əvvəllərində Bakı Türk İşçi Teatrında, eyni zamanda, Bakı Teatr Texnikumunda işləyirdi. Məhz həmin illərdə o, teatr tarixinə aid muzey yaratmaq fikrinə düşmüş və bu yöndə iş aparmağa başlamışdır. Müxtəlif teatr tamaşalarının proqram və afişalarını, teatr xadimlərinin şəxsi əşya və sənədlərini, rol dəftərlərini, teatr geyimlərini, fotoşəkillərini və digər materialları toplamaqla gələcək muzeyin əsasını qoymuş, eyni zamanda, rəsmi qaydada teatr muzeyi yaradılması barədə məsələ qaldırmışdır. Dövrünün görkəmli ziyalıları, sənət adamları, o cümlədən Üzeyir Hacıbəyli, Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Əzim Əzimzadə, Sidqi Ruhulla onu dəstəkləmiş, həm də kömək göstərmişlər.

1927-ci ildə teatr işçilərinin respublika müşavirəsində məhz Ağakərim Şərifovun təşəbbüsü ilə teatr tariximizə aid muzeyin yaradılması barədə məsələ qaldırılmış və elə həmin ildə Azərbaycan Dövlət Dram Teatrının binasının foyesində belə bir muzey təşkil olunmuşdur. Muzeyin açılışı mərasimində rəsmi şəxslər, görkəmli ziyalılar və sənət adamları iştirak etmişlər.

Məhz həmin gündən bu muzey teatr tarixinə və teatr xadimlərinə aid yadigarları, əlyazmaları, fotoşəkilləri, rəsm əsərlərini, müxtəlif sənədləri... toplayan və qoruyan məbəd kimi formalaşmağa başlayır.

Sərgi tez bir zamanda Azərbaycan Dövlət Muzeyinin teatr şöbəsi kimi rəsmiləşdirilir. Bu zaman əşyaların əsas hissəsi Azərbaycan Dövlət Muzeyinə verilir, bəzi əşyalar isə teatrda saxlanılaraq sərgilərdə istifadə olunur. Nəhayət, 1934-cü ildə Azərbaycan Dövlət Muzeyinin müvafiq şöbəsinin bazasında Azərbaycan Dövlət Teatr Muzeyi yaradılır və Ağakərim Şərifov muzeyin direktoru təyin edilir.

1934-cü il noyabrın 24-də muzeyin təntənəli açılışı mərasimi keçirilir. Mərasimdə o dövrün görkəmli sənət xadimləri - Bülbül, Şövkət Məmmədova, Hüseynqulu Sarabski, Aleksandr Tuqanov, Ülvi Rəcəb, İsmayıl Hidayətzadə və başqaları iştirak edirlər. Bu hadisə barədə «Pravda» qəzetinin 21 dekabr 1934-cü il tarixli sayında məlumat verilir.

Əlbəttə, bütün bunlar Ağakərim Şərifovun inadkar fəaliyyətinin və gərgin əməyinin nəticəsi idi. O, sözün həqiqi mənasında muzey vurğunu, muzey fədaisi idi. Teatr tariximizlə bağlı hər bir əşya onun üçün əziz idi, doğma idi, hər şeydən əvvəl, əvəzsiz sərvət idi. Məhz buna görə də həmin əşyaları qayğı ilə (bəzi hallarda böyük əmək sərf etməklə) toplayır və qoruyurdu.

Əlbəttə, Ağakərim Şərifov bu işə söz sənəti, xüsusən teatr sənəti ilə məşğul olanları da cəlb edir, muzeyə qayğı göstərməyi bir vəzifə kimi onların qarşısında qoyurdu. Muzeyin inkişafına, bir mədəniyyət ocağı kimi zənginləşməsinə qayğı göstərənlərdən biri də professor Əziz Şərif olmuşdur.

Professor Əziz Şərifin «Keçmiş günlərdən» kitabından: «Ağakərim Şərifov mənim yaxın və səmimi dostlarımdan idi, o zaman (1928- ci il nəzərdə tutulur- **A.B.**) təzəcə təşkil etdiyi teatr muzeyini idarə edir, teatrımızın tarixinə dair müxtəlif materialları toplayır,

muzeyi zənginləşdirməyə, onu teatr tariximizi işıqlandıra bilən mədəni- elmi mərkəzə çevirməyə çalışırdı … Teatr muzeyi yalnız Ağakərimin yorulmaq bilmədən, gecə- gündüz çalışıb- vuruşması sayəsində yaşayırdı».

Əziz Şərif, eyni zamanda, muzeyin yaradıcısına toplama işində kömək edir, Tiflis Azərbaycan teatrına aid materialları muzeyə verirdi.

Azərbaycan MEA-nın müxbir üzvü, mərhum teatrşünas İnqilab Kərimov belə yazmışdır: «Ağakərim Şərifov sənət vurğunu, fədaisi kimi, bu işi həvəslə şövqlə, cəfakeşliklə yerinə yetirmişdir. O, muzeyi əziyyətlə, vərəq-vərəq topladığı və həm də Azərbaycan Dövlət Muzeyində olan müvafiq materiallardan istifadə edib yaratmışdı; «heçdən bir şey» düzəltmişdi».

1935-ci ildə Ağakərim Şərifovun təklifi ilə muzeyə böyük Azərbaycan dramaturqu Cəfər Cabbarlının adı verilir.

Qeyd etdiyimiz kimi, Ağakərim Şərifov, eyni zamanda, teatr tədqiqatçısı kimi fəaliyyət göstərmişdir. Onun 1930- cu ildə nəşr olunmuş «Azərbaycanda türk teatrı tarixi materialları» kitabı Azərbaycan teatrşünaslığında ilk tədqiqat işlərindəndir. Kitabda milli teatr sənətimizin yaranması və inkişaf tarixi, habelə səhnə xadimlərinin fəaliyyəti barədə məlumat verilmiş, bu sahədə mövcud problemlər öz əksini tapmışdır. Bu kitab sonralar teatrımızın tarixi ilə bağlı tədqiqatların aparılmasında dəyərli mənbə rolunu oynamışdır.

1937-1938-ci illərin acı yelləri teatr xadimlərinin, habelə Dövlət Teatr Muzeyinin üstündən də əsib, milli teatrımızın inkişafına ağır zərbə vurub. Həmin illərdə bir sıra teatr xadimləri repressiyaya məruz qalırlar. Bunların arasında Dövlət Teatr Muzeyinin direktoru Ağakərim Şərifovun qohumları da vardı. Ağakərim

Şərifovun oğlu Azad Şərifov yazır: «...Bir qədər sonra atamı işdən götürdülər və on ay ailəmiz rahatlıq nə olduğunu bilmədi, gecələr gözümüzə yuxu getmirdi, gözləyirdik ki, indi - bu saat NKVD-nin «qara maşını» qapımızın ağzında dayanacaq. Ancaq, gözlənilmədən hadisələr başqa cür cərəyan etdi. Azərbaycanın görkəmli mədəniyyət xadimlərinin təhriki ilə atamı işə bərpa etdilər, hətta xəstəliyi ilə əlaqədar müalicə olunmaq üçün sanatoriyaya putyovka da verdilər. Lakin atamın son günləri idi, 1942-ci il fevralın 5-də, şaxtalı bir gündə atam dünyasını dəyişdi».

Ağakərim Şərifovun əsasını qoyduğu Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi bu gün ölkəmizin ən zəngin və baxarlı muzeylərindən biridir. Burada fəal toplama işi aparılır, rəngarəng tədbirlər keçirilir. Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Nuridə Nurullayeva yazır: «Xoş bir haldır ki, istər sərgilərimizin hazırlanmasında, istərsə də tədbirlərimizin yüksək səviyyədə təşkilində muzeyimizin xəzinəsi öz dəyərli, nadir sənədləri ilə əlimizdən tutur və biz xüsusilə belə anlarda muzeyin banisi və ilk direktoru olan, teatr işini mükəmməl bilən gözəl insan, zəhmətkeş ziyalı Ağakərim Şərifovu dönə-dönə yad edirik. Onun uzaqgörənliklə topladığı və bu gün tarixilik baxımından əvəzsiz olan sənədlər teatrımızın keçmişini öyrənən neçə-neçə tədqiqatçı üçün salnamə xidməti göstərmiş və bu iş bu gün də layiqincə davam etdirilir».

Ağakərim Şərifov, yəqin ki, Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyini belə görmək istəyirdi.

**2011**

## ƏHMƏD ƏFƏNDİ ÇƏLƏBİZADƏ

Azərbaycan xalqının milli sərvətinin - maddi və mənəvi abidələrinin toplanılması, qorunması və gələcək nəsillərə ötürülməsi sahəsində fədakarlıqla çalışan şəxslərdən biri də Əhməd Əfəndi Çələbizadə olmuşdur. O, dövrünün görkəmli din xadimi və ziyalısı kimi tanınmışdır. «Əfəndi» ləqəbi Əhməd Çələbizadəyə sonradan verilmişdir. «Əfəndi» sünni məzhəbinə mənsub olan din xadimlərinə verilmiş ləqəbdir. Bu söz, eyni zamanda, hörmət əlaməti olaraq ziyalı adamların adlarına qoşulmuş və həmin şəxslərə müraciət zamanı işlənmişdir. Təbii ki, Əhməd Çələbizadə bu adı öz nüfuzu və ziyalılığı sayəsində qazanmışdır.

O, Qubada ilk dəfə tarix muzeyi yaratmış, habelə həmin bölgənin etnoqrafik tədqiqi ilə məşğul olmuşdur.

Quba tarix- diyarşünaslıq muzeyinin direktoru Məryəm Hacıyeva 2000- ci ildə bizə Əhməd Əfəndinin həyatı və fəaliyyəti ilə bağlı matateriallar təqdim etmişdi və həmin materiallar Azərbaycanda muzey işinin tarixinə aid apardığımız araşdırmalarda istifadə olunmuşdur. Belə hesab edirik ki, bu işıqlı insanı, maddi və mənəvi sərvətlərimizin fədakar toplayıcısı və tədqiqatçısını daha yaxından tanımalı və tanıtmalıyıq.

Əhməd Əfəndi Çələbizadə 1892- ci ildə Qubada doğulmuşdur. Tiflisdə ruhani məktəbində təhsil almış, Qubaya qayıtdıqdan sonra Cümə məscidində ruhani kimi fəaliyyət göstərmişdir. Eyni zamanda, məscidin yanında yerləşən mədrəsədə müəllimlik etmişdir.

Məryəm Hacıyevanın təqdim etdiyi materiallardan məlum olur ki, Əhməd Əfəndi öz xalqının tarixinə və mədəniyyətinə yaxından bələd olmuş, ədəbiyyat bilicisi

kimi tanınmış, bir neçə dil bilmişdir. Məhz öz xalqının tarixinə və mədəniyyətinə sonsuz məhəbbət və maraq onun Qubada muzey yaratması ilə nəticələnmişdir.

O, 1924-cü ildə «Cümə məscidi» yanında dərs dediyi mədrəsədə muzey yaratmış, burada Azərbaycan tarixinə və mədəniyyətinə aid materialları toplamışdır. Eksponatların əksəriyyəti Əhməd Əfəndinin özünə məxsus olmuşdur. Bununla yanaşı, o, idarə və təşkilatlar, ayrı-ayrı şəxslərlə əlaqə saxlamış, bir sıra əşyaların muzeyə verilməsinə nail olmuşdur. Bu əşyalar sırasında qədim əlyazmaları və kitablar, xalça və xalça məmulatları, xalq tətbiqi sənəti nümunələri, zərgərlik məmulatları və s. vardı. Muzey ictimai əsaslarla yaradılmış və fəaliyyət göstərmişdir. Təbii ki, mövcud ekspozisiya tələb olunan səviyyədə deyildi və Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan Quba bölgəsinin zəngin tarixini və mədəniyyətini dolğunluğu ilə əks etdirə bilməzdi. Muzeyin əsaslı surətdə yenilənməsi və dövlət müəssisəsinə çevrilməsi günün reallığı idi.

1932- ci ilin avqust ayında Quba Rayon İcraiyyə Komitəsinin iclasında «Quba şəhərində muzeyin təşkili barədə» xüsusi məsələ müzakirə edilmişdir. İclasda muzeyin təşkili məqsədilə mütəxəssislər tərəfindən hazırlanmış tezislərə və plan-layihəyə baxılmışdır. Hər iki sənəddə muzeyin ekspozisiyasının təşkili ilə bağlı tövsiyələr, habelə təxmini strukturu öz əksini tapmışdır.

Plan-layihədən məlum olur ki, ekspozisiyanın ilk bölməsi rayonun təbiətinə həsr olunmuşdur. Burada rayonun və keçmiş Quba qəzasının coğrafi və hidrometrioloji xəritələri, habelə ərazinin flora və iqliminə aid xəritələr quraşdırılmış, bitki aləmi və faydalı qazıntılarından nümunələr nümayiş etdirilmişdir.

Sonrakı bölmələr bölgənin tarixinə, mədəniyyətinə

və etnoqrafiyasına həsr olunmuşdur. Bölmələrin adları da maraq doğurur və 1930- cu illərdə muzeyin yaradıcılarının uzaqgörənliyini, eyni zamanda, cəsarətini alqışlayırsan. Bölmələrin adlarına nəzər yetirək: «Keçmiş Quba qəzasının qədim mədəniyyət abidələri», «Quba xanlığının yaranmasına qədər olan dövrə aid materiallar», «Quba xanlığının rus çarizmi tərəfindən zəbt edilməsi», «Komendantlıq dövrü» və s.

Ekspozisiyada ayrıca «Etnoqrafiya» bölməsi də nəzərdə tutulmuşdu. Bu bölmədə azərbaycanlılarla yanaşı, rayonda yaşayan azsaylı xalqların həyatına, adət-ənənələrinə, sənətkarlığına, xüsusən bölgədə geniş yayılmış xalça sənətinə və misgərliyə  aid materiallar göstərilirdi. Əlbəttə, ekspozisiyada 1920-1930- cu illərdə Qubanın mədəniyyət, maarif və təsərrüfatını əks etdirən materiallar da yer almışdı.

Rayon İcraiyyə Komitəsinin iclasında Qubada muzey yaradılması məqsədəqyğun sayılmış və bu barədə xüsusi qərar qəbul olunmuşur. (11 avqust 1932- ci il tarixli, 9 saylı protokol). Eyni zamanda, bu işə kömək göstərilməsi Azərbaycan Dövlət Muzeyindən (indiki Milli Azərbaycan Tarixi Muzeyi) və digər muzeylərdən xahiş edilmişdir.

Qeyd etmək lazımdır ki, Quba tarix-diyarşünaslıq muzeyi respublikamızda həmin profildən olan ilk muzeylərdən biridir. Bünövrəsi 1924-cü ildə qoyulmuş bu muzey Əhməd Əfəndi Çələbizadənin rəhbərliyi ilə 1935-ci ilədək ictimai əsaslarla  fəaliyyət göstərmişdir. Azərbaycan Xalq Maarif Komissarlığı 1935-ci ilin mayında Quba Maarif Şöbəsinə yazmışdır: «Xalq Maarif Komissarlığının Elmi-tədqiqat müəssisələri idarəsi yoldaş Əhməd Çələbizadəni Quba muzeyinin müdirliyinə təyin olunmaq üçün Sizin sərəncamınıza göndərir. Yol-

daş Çələbizadə lazımi təlimatla təmin edilmiş və ona təşkil edəcəyi muzey haqqında konkret tapşırıqlar verilmişdir».

Beləliklə, Əhməd Əfəndi Çələbizadənin təşkil etdiyi muzey dövlət müəssisəsinə çevrilir və onun yaradıcısı bu muzeyin direktoru təyin olunur. Lakin muzeyin dövlət müəssisəsi kimi fəaliyyəti uzun sürmür. 1937-ci ildə Əhməd Əfəndinin repressiyaya məruz qalması ilə əlaqədar muzeyin fəaliyyəti də dayanır.

Mədəni dəyərlərimizin cəfakeş toplayıcısı və qoruyucusu olan bu gözəl ziyalı 1937-ci ildə həbs olunur və elə həmin il sentyabr ayının 1- də güllələnir.

Əhməd Əfəndi Çələbizadə tədqiqatçı- etnoqraf kimi də tanınır. O, 1930- cu illərdə ilk və görkəmli Azərbaycan etnoqraflarından biri Ələsgər Ələkbərovun tövsiyəsi ilə Quba bölgəsinin etnoqrafiyasına aid çöl- tədqiqat işləri aparmışdır.

Uzun illər əlyazması şəklində Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində mühafizə olunan bu tədqiqat işi  Quba Rayon İcra Hakimiyyətinin tövsiyəsi və köməyi ilə Milli Azərbaycan Tarixi Muzeyi tərəfindən 2008- ci ildə «Quba- dövrün adət və qaydaları (XlX- XX əsrin 20-30- cu illəri)» adı ilə  nəşr edilmişdir. Biz bu nəcib işin həyata keçirilməsində iştirak etmiş hər bir şəxsin əməyini yüksək qiymətləndirir, onlara minnətdarlığımızı bildiririk. Milli Azərbaycan Tarixi Muzeyi bu kitabı nəşr etməklə çox maraqlı və gərəkli bir tədqiqat işini mütəxəssislərə və geniş oxucu kütləsinə təqdim etmişdir.

Məlum həqiqətdir ki, konkret bir bölgənin tarixi-etnoqrafik tədqiqi ümumən xalqın tarixinin və etnoqrafiaysının öyrənilməsində mühüm rol oynayır. Bu baxımdan Əhməd Əfəndi Çələbizadənin Quba böl-

gəsinin etnoqrafiyası ilə bağlı araşdırmaları xüsusi əhəmiyyət kəsb edir. Bu tədqiqat işində bölgədə mövcud adət və qaydalar, o cümlədən toy adətləri, dini adətlər, bayramlar, sınaqlar, etiqadlar, dini mərasimlər, habelə bölgənin təsərrüfat həyatı- əkinçilik, bostançılıq, tərəvəzçilik və s. barədə yetərli məlumat verilmişdir.

Əhməd Əfəndi Çələbizadənin bu araşdırmasından ayrı- ayrı bölgələrin etnoqrafik tədqiqində dəyərli bir mənbə kimi istifadə etmək olar.

Onun yaratdığı muzey isə 1943-cü ildə bərpa edilərək Elmlər Akademiyasının baza müəssisəsi kimi yenidən fəaliyyət göstərmişdir. Muzey 1963-cü ilədək yenə də ictimai əsaslarla fəaliyyət göstərmiş, nəhayət, 1964-cü ildə respublika Mədəniyyət Nazirliyinin tabeliyinə verilmiş, lazımi ştat vahidləri və vəsaitlə təmin olunmuşdur.

Muzey yenidən fəaliyyətə başladıqdan sonra bu müəssisəyə tanınmış yerli ziyalılardan Mürsəl Hacıyev, Aslan Quliyev, Nəzirə Əsgərova, Cəfər İbrahimov, İzəddin Şıxverdiyev rəhbərlik etmiş, Əhməd Əfəndi Çələbizadənin başlamış olduğu xeyirxah işi davam etdirmişlər.

1997- ci ildən Quba tarix-diyarşünaslıq muzeyinə Məryəm Hacıyeva rəhbərlik edir. Məryəm xanımın rəhbərliyi dövründə muzeyin fəaliyyəti daha da genişlənmiş, Qubada ictimai əsaslarla iki yeni muzey - Şəhidlər muzeyi və A.A.Bakıxanovun ev-muzeyi yaradılmışdır. A.A.Bakıxanovun Amsar kəndində yerləşən ev-muzeyi 1999-cu ildə respublika Mədəniyyət Nazirliyinin əmrinə əsasən tarix-diyarşünaslıq muzeyinin filialına çevrilmişdir.

Məryəm Hacıyeva muzey işi sahəsində qazandığı uğurlara görə Azərbaycan Resublikasının Əməkdar

Mədəniyyət İşçisi fəxri adına layiq görülmüşdür. O, Beynəlxalq Muzeylər Şurası (İKOM) Azərbaycan Milli Komitəsinin üzvüdür.

Bəli, gözəl ziyalı, mədəni dəyərlərimizin cəfakeş toplayıcısı və qoruyucusu olmuş Əhməd Əfəndi Çələbizadənin Qubada əsasını qoyduğu muzey bu gün tariximiz və yaddaşımızla bağlı milli sərvətimizi toplayır, qoruyur və təbliğ edir.

**2011**

## UNUDULMAZ KAZIM MÜƏLLİM

Əmək fəaliyyətimlə əlaqədar uzun müddət təmasda olduğum, təcrübəsindən öyrəndiyim, bəzən mübahisə etdiyim (muzey işində belə hallar da olur) və daim hörmətlə yanaşdığım şəxslərdən biri haqqında danışmaq istəyirəm. Bu şəxs uzun illər Azərbaycan Dövlət İncəsənət Muzeyinə rəhbərlik etmiş mərhum Kazım Kazımzadədir. Yaşından asılı olmayaraq tanıyanların böyük əksəriyyəti ona «Kazım müəllim»- deyə müraciət edərdi.

Bəli, o, hər şeydən əvvəl müəllim idi. Ötən əsrin 30-cu illərində xalqının balalarını maarifləndirən işıqlı müəllim, öz mənəviyyatı ilə nümunə ola biləcək müəllim.

Belə adamların özləri bir məktəb idilər. Bu gün təəssüflənirəm ki, bu adamlardan daha çox şey öyrənə bilərdim.

Kazım Kazımzadə 1913-cü ildə Bakı şəhərində doğulub. Əmək fəaliyyətinə də müəllim kimi başlayıb. Pedaqoji texnikumu bitirdikdən sonra bir müddət Dəvəçi (indiki Şabran) rayonunda müəllimlik edib, kənd məktəbinin müdiri vəzifəsində çalışıb.

O, hələ texnikumda təhsil alarlən rəssamlığa böyük həvəs göstərirdi. Texnikumda sənət dərslərini tədris edən müəllimləri onun rəssamlıq istedadını hiss etmiş və bu sahədə təhsil almasını məsləhət görmüşdülər. Nəhayət, Kazım Kazımzadə Bakı Rəssamlıq Texnikumunu da bitirir. Daha sonra bu sahədə ali təhsil də alır.

Kazım müəllim o dövrün işıqlı simalarının əhatəsində olmuşdu, onlardan öyrənmişdi. O, Əzim Əzim-

zadədən dərs almış, Üzeyir Hacıbəyli, Səməd Vurğun kimi şəxsiyyətlərlə oturub- durmuşdu.

Heç şübhə yoxdur ki, Kazım Kazımzadə Azərbaycan fırça sənətinin görkəmli nümayəndələrindən biridir. Onun fırçasından çıxmış qrafik əsərlər yaradıcılığı üçün daha səciyyəvidir və üstünlük təşkil edir. Ayrı-ayrı bədii əsərlərə çəkdiyi illüstrasiyalar, kitablara verdiyi bədii tərtibat ən incə zövqlü şəxslər tərəfindən də rəğbətlə qarşılanır. O, Azərbaycan folkloruna və klassik ədəbiyyatına yaxşı bələd idi. «Kitabi-Dədə Qorqud» dastanları, Nizami Gəncəvi, Ş.İ. Xətai, H. Şirazi, M.Ş. Vazeh və başqa qələm sahiblərinin əsərlərinə sənətkarlıqla çəkdiyi illüstrasiyalar dediyimizi sübuta yetirir.

Kazım Kazımzadə Böyük Vətən müharibəsinin iştirakçısı olmuş, həmin illərində, hətta müharibədən sonra bu mövzuda dəyərli əsərlər yaratmışdır. Rəssamın əsərləri keçmiş SSRİ-nin müxtəlif guşələrində, habelə xarici ölkələrdə keçirilən sərgilərdə uğurla nümayiş etdirilmişdir.

Onun eskizləri əsasında dəyərli xalçalar toxunmuşdur. Kazım müəllim teatr və kino rəssamlığı sahəsində də çalışmışdır.

O, sənət sahəsindəki uğurlarına görə Əməkdar incəsənət xadimi, Xalq rəssamı fəxri adlarına, Dövlət mükafatına layiq görülmüş, orden və medallara təltif edilmişdir.

Bütün bunlarla yanaşı, Kazım müəllim milli dəyərlərimizin təəssübkeş qoruyucusu və təbliğatçısı olmuşdur. Yarım əsr müddətində Azərbaycan Dövlət İncəsənət Muzeyində direktor vəzifəsində çalışan K.Kazımzadə bu sahədə də səmərəli fəaliyyət göstərmişdir. Məhz onun rəhbərliyi dövründə muzeyin fondları ən dəyərli sənət əsərləri ilə zənginləşdirilmiş,

eyni zamanda Azərbaycanda, habelə dünyanın bir çox guşələrində nümayiş etdirilmiş, təsviri sənətimizin təbliğinə, fırça və tişə ustalarımızın geniş miqyasında tanınmasına, şöhrətlənməsinə mühüm təsir göstərmişdir.

Azərbaycan Dövlət İncəsənət Muzeyi 1951-ci ildə, məhz Kazım müəllimin rəhbərliyi dövründə Bakı şəhərinin mərkəzində ikimərtəbəli binaya köçürülmüşdür. 1991-ci ildə Kommunist Partiyasının ləğvindən sonra Bakı Şəhər Partiya Komitəsinin binası da Azərbaycan Dövlət İncəsənət Muzeyinə verildi. Kazım müəllimin rəhbərliyi ilə qısa müddətdə burada muzeyin yeni ekspozisiya bölmələri yaradıldı, fond və xidmət otaqlarının sayı artırıldı. Nəticədə uzun illər saxlanclarda qalmış qiymətli sənət əsərlərinin tamaşaçı kütləsinə çatdırılması mümkün oldu. Muzey əşyalarının mühafizəsi və əməkdaşların iş şəraiti yaxşılaşdırıldı.

Kazım müəllim dünya miqyasında tanınan muzey mütəxəssisi idi. O,1954-cü ildən Beynəlxalq Muzeylər Şurası Sovet Komitəsinin üzvü olmuş, 1992-ci ildə isə yeni təsis edilmiş Azərbaycan Milli Komitəsinin üzvü seçilmişdir.

O, eyni zamanda respublikamızda sənətşünasların (Kazım müəllim həm də sənətşünas idi) və muzey kadrlarının yetişdirilməsinə böyük əmək sərf etmişdir. Əvvəllər Azərbaycan Dövlət İncəsənət Muzeyində çalışmış mərhum akademik Rasim Əfəndiyev və professor Mürsəl Nəcəfov onu öz müəllimləri hesab edirdilər.

Kazım müəllim haqqında kitabın və bir sıra məqalələrin müəllifi, tanınmış sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev də xeyli müddət bu muzeydə işləmiş, onun dəyərli məsləhətlərindən faydalanmışdır.

Kazım Kazımzadə respublikamızda muzey şəbə-

kəsinin inişafına da dəyərli töhfələr bəxş etmişdır. Bakı şəhərində Səməd Vurğunun və Uzeyir Hacıbəylinin ev-muzeylərinin, Qazaxda Səməd Vurğun poeziya evinin, Lənkəran Tarix-Diyarşunaslıq Muzeyinin ilk bədii tərtibatını məhz Kazım müəllim vermişdir.

Kazım Kazımzadə 1992-ci ilin oktyabrında dünyasını dəyişdi. 50 il rəhbərlik etdiyi muzeydən götürülərək Fəxri Xiyabanda torpağa tapşırıldı. Bir qədər sonra sənətşüunas Z.Əliyevin Kazım Kazımzadənin 80 illik yubileyi münasibətilə nəşr olunmuş kitabına ön sözdə muzeydə onu əvəz edən Təbrik Qasımova belə yazdı: "Bu gün İncəsənət muzeyinin divarlarında Kazım müəllimin nəfəsi, hər eksponatda əllərinin hərarəti, sənət yanğısı duyulmaqdadır. Sənət fədaisinin doğma evindən də artıq sevdiyi, ömrünün ən gözəl günlərini bəxş etdiyi bu muzey ölməz sənətkarın ənənələrini qoruyub saxlamalıdır."

**2010**

## XALİS MÜƏLLİM - XALİS ƏMİ

Dostlarımdan biri mənə zəng vurub dedi:

- Kazım müəllim haqqında yazdığın məqaləni qəzetdə oxudum. Çox sağ ol! (Dostum xalq rəssamı, uzun illər Azərbaycan Dövlət İncəsənət Muzeyinin direktoru vəzifəsində çalışmış Kazım Kazımzadəni nəzərdə tuturdu.)

Dostum sonra dedi:

- Məlumdur ki, Kazım müəllim haqqında çoxsaylı məqalələr, habelə kitablar yazılıb, hətta dissertasiya müdafiə edilib. Əlbəttə, bütün bunlar rəssam Kazım Kazımzadə, onun yaradıcılığı barədədir. Sənin yazın isə muzey direktoru Kazım Kazımzadə haqqındadır. Axı, Kazım müəllim 50 ilə yaxın bir müddətdə Dövlət İncəsənət Muzeyinə rəhbərlik etmiş, milli dəyərlərimizin toplanılması, qorunması və təbliği sahəsində səmərəli fəaliyyət göstərmiş, öz töhfələrini vermişdir. Bu gün İncəsənət Muzeyinin dünyanın zəngin muzeylərindən birinə çevrilməsində Kazım müəllimin əməyi danılmazdır.

Dostum daha sonra dedi:

- Unutma ki, milli sərvətimizin keşiyində ləyaqətlə dayanan muzey direktolarımız az olmayıb, bu gün də var. Arzu edərdim ki, onların hər biri haqqında yazılsın, kitablar nəşr edilsin.

Dostum həmin şəxslərdən bir neçəsinin adını çəkdi, Onların arasında haqq dünyasına qovuşanlar da vardı, milli dəyərlərimizi bu gün qoruyanlar da…

Düzü, bu sahədə çalışanların gərgin əməyinə yaxından bələd olduğum üçün onların barəsində az-çox yazmışam, Dostuma söz verdim ki, bundan sonra da

yazacağam. Dostumun təklifi ilə bu dəfə Qəbələ tarix-diyarşünaslıq muzeyinin direktoru Xalis Məmmədov haqqında söz açmağı qərara aldım. Ona görə ki, onu 1980- ci ildən tanıyıram. İşinə də bələdliyim var. Bilirəm ki, Xalis müəllim bircə gün muzeysiz yaşaya bilməz. O, muzeyi ata balasını istəyən kimi istəyir. Qəbələ muzeyi onun gərgin əməyi, zəhməti, bəzən inadkarlığı bahasına ərsəyə gəlib və  bu gün respublikamızın diqqəti çəkən muzeylərindən birinə çevrilib. Mən Xalis müəllimin bu yöndə gördüyü işlərin şahidi olmuşam. Həm Bakıda, həm də Qəbələdə.

Xalis müəllimin iş rejiminə də bələdəm. Yaxşı bilirəm ki, o hər səhər hamıdan tez oyanır. Səhər yeməyindən sonra səliqə ilə kağız-qələmini, gündəlik qeydlər apardığı dəftərini, günorta yeməyini, digər zəruri şeyləri nənəsindən ona qalmış toxunma çantaya qoyur. Sonra doğulduğu və yaşadığı Bum kəndindən rayon mərkəzinə gedən yola çıxır. Çox vaxt avtobus gözləməyə ehtiyac olmur. Qəbələyə gedən minik maşınlarından biri dayanır və sürücü nəzakətlə onu maşına dəvət edir. (Rayonda ona həm «Xalis müəllim», həm də «Xalis əmi» - deyə müraciət edirlər. Beş-on dəqiqə keçməmiş Xalis müəllim iş yerinə- Qəbələ tarix-diyarşünaslıq muzeyinə çatır. O, adəti üzrə ekspozisiyanı nəzərdən keçirir, otaqların təmizliyinə xüsusi diqqət yetirir, əgər ehtiyac olarsa, əməkdaşlarla birlikdə lazımi işləri görür.

Artıq muzey seyrçiləri qəbul etməyə tam hazırdır.

Muzeyin təbiət bölməsi elə ilk baxışdan nəzəri cəlb edir. Bu da təbiidir. Qəbələ Azərbaycanın ən gözəl guşələrindən biridir. Qəbələ meşələri, buradakı müxtəlif ağac və quş növləri, heyvanlar aləmi, bitgilər əsli materiallar, müqəvvalar, foto və slaydlar vasitəsilə göstərilir.

Tarixdən məlumdur ki, qədim Qəbələ şəhəri bizim eradan əvvəl 4-cü əsrdən bizim eranın 5-ci əsrinədək Azərbaycanın paytaxtı olub. Bu şəhərin qalıqları rayonun Çuxur Qəbələ kəndi yaxınlığında indiyədək qalmaqdadır. Qəbələ rayonu ərazisi dünyanın ən qədim yaşayış məskənlərindən sayılır. Muzeyin iki salonu qədim və orta əsrlər Qəbələsinə həsr olunmuşdur. Qədim Qəbələnin maketi ətrafında bələdçilərin söhbəti bu diyar barədə təsəvvür yaradır.

Qəbələdə aşkar edilən ən qədim tapıntılar eramızdan əvvəlki III minilliyə–Tunc dövrünə aiddir. Bunların içərisində həmin dövrün əmək alətləri, bəzək əşyaları, silahlar, gil qablar vardır.

Muzeyin növbəti ekspozisiya bölmələri sonrakı inkişaf mərhələlərinə və müasir Qəbələyə həsr olunmuşdur…

Xalis müəllim gənclik illərindən Qəbələdə belə bir muzeyin olmasını arzu edirdi və buna nail olmağa çalışırdı. 1978-ci ildə universiteti bitirib doğma Qəbələdə əmək fəaliyyətinə başladığı ilk günlərdən bu yöndə bir sıra işlər gördü, dəfələrlə Şəki və Zaqatala tarix-diyarşünaslıq muzeylərində oldu, həmin muzeylərin əməkdaşlarından məsləhətlər aldı. O, Qəbələnin tarixini, xüsusən qədim dövrünü öyrənir, eyni zamanda, gələcək muzey üçün əşya toplayırdı. O vaxtlar rayonda arxeoloji qazıntı işləri aparan görkəmli arxeoloqlar- Qara Əhmədov və İlyas Babayevlə tez-tez görüşür, onlardan öyrənirdi.

Rayonda çıxan «Qalibiyyət» qəzetinin 25 oktyabr 1979-cu il tarixli sayında «Keçmişə və gələcəyə ehtiram» adlı yazı ilə çıxış edərək Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan Qəbələdə tarix-diyarşünaslıq muzeyi yaradılmasının əhəmiyyətini xüsusi vurğuladı,

həmyerlilərini bu işdə fəal olmağa çağırdı. Rayon təşkilatları onu dəstəklədilər, lazımi kömək göstərdilər.

Əlbəttə, bütün bunlar ilkin hazırlıq işləri idi və gələcək muzeyin bünövrəsinin qoyulmasına istiqamətlənmişdi. Qəbələdə, habelə digər rayon mərkəzlərində yeni muzeylərin yaradılması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

1980-ci ilin əvvəllərində məhz Heydər Əliyevin təşəbbüsü ilə muzey işinə aid xüsusi qərar qəbul edildi. Həmin qərarda bir sıra önəmli məsələlərlə yanaşı respublikanın bütün şəhər və rayonlarında tarix-diyarşünasılıq muzeylərinin yaradılması da nəzərdə tutulmuşdu.

Bu, Azərbaycan xalqına məxsus milli sərvətin – tariximiz və mədəniyyətimizlə bağlı dəyərlərin, ulu keçmişimizi özündə yaşadan yadigarların toplanılması, qorunması, öyrənilməsi və gənc nəslin tərbiyəsində istifadə edilməsi üçün böyük əhəmiyyətə malik idi.

Beləliklə də Xalis müəllimin çoxdankı arzusu reallaşdı. 1980-ci ilin aprelində Qəbələ tarix-diyarşünaslıq muzeyinin açılışı oldu və mədəniyyət nazirinin əmri ilə Xalis Məmmədov muzeyin direktoru təyin edildi.

İlk ekspozisiya rayon kinoteatrının foyesində açıldı. Bir neçə il sonra memarlıq abidəsində ekspozisiya yaradıldı. 2004-cü ildə isə muzey daha münasib binaya köçürüldü. Hər dəfə ekspozisiya qurularkən Xalis Məmmədov gərgin əmək sərf etdi və bunun nəticəsi fərəhləndirici oldu. Daha sonra onun rəhbərliyi və iştirakı ilə muzeyin iki filialı – İsmayıl bəy Qutqaşınlının ev-muzeyi və Şəhidlər muzeyi yaradıldı, hər iki filial dövlət müəssisəsinə çevrildi. Bu gün Qəbələ tarix-diyarşünaslıq muzeyi respublikamızın zəngin fonda və baxarlı ekspozisiyaya malik muzeylərindən biridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2005-ci ilin avqustunda Qəbələyə səfəri zamanı muzeydə də oldu. Xalis müəllim ölkə başçısına Qəbələnin keçmişi və bu günü barədə ekspozisiya əsasında geniş məlumat verdi. Azərbaycan Prezidenti öz ürək sözlərini rəy kitabına yazdı, muzeyin əməkdaşlarına uğurlar dilədi.

Xalis Məmmədovun muzey işi sahəsində fəaliyyəti yüksək qiymətləndirilmişdir. O öz fəaliyyətini «Əməkdar mədəniyyət işçisi» kimi davam etdirir. Dəfələrlə Mədəniyyət və Turizm Nazirliyinin müxtəlif mükafatlarına layiq görülmüşdür. Xalis müəllim, eyni zamanda, bir sıra elmi- tədqiqat işlərinin müəllifidir. Tarix, arxeologiya, etnoqrafiya, numizmatika və muzeyşünaslığa aid onlarla məqaləsi, bir kitabı işıq üzü görmüşdür. Respublikamızda, habelə onun hüdudlarından kənarda keçirilən elmi konfransların iştirakçısı olmuş, məruzə ilə çıxış etmişdir. Xalis müəllim təcrübəli bir muzey işçisi kimi digər rayon tarix- diyarşünaslıq muzeylərinə əməli və metodiki kömək göstərir. Lahıc tarix- diyarşünaslıq muzeyinin təşkilində yaxından iştirak etmişdir.

Xalis Məmmədov bu ilin (2011-ci il nəzərdə tutulur- **red.**) may ayında ömrünün 65-ci baharı ilə qovuşacaq. O, yenə də həvəslə çalışır, yenə də hər səhər hamıdan tez oyanır. Səhər yeməyindən sonra səliqə ilə kağız-qələmini, gündəlik qeydlər apardığı dəftərini, günorta yeməyini, digər zəruri şeyləri nənəsindən ona qalmış toxunma çantaya qoyub iş yerinə- Qəbələ tarix-diyarşünaslıq muzeyinə yollanır…

Uğur olsun, Xalis müəllim, uğur olsun, Xalis əmi!

**2011**

# SƏHNƏ USTALARIMIZ: SƏNƏT FƏDAİLƏRİ

## MİRZƏLİ ABBASOV

Milli teatrımızın inkişafında mühüm rol oynamış Tiflis Azərbaycan teatrında bir sıra qüdrətli səhnə ustaları yetişmiş və fəaliyyət göstərmişlər. Onlardan biri də rejissor, aktyor, teatr təşkilatçısı və sözün əsl mənasında teatr fədaisi, Gürcüstanın əməkdar artisti Mirzəli Abbasov (1874-1943) olmuşdur.

XIX əsrin axırlarına yaxın Tiflisdə yerli Azərbaycan ziyalıları «Müsəlman teatr cəmiyyəti» yaratmışdılar. Cəmiyyətin üzvləri müxtəlif səpkili tamaşalar hazırlayır və nümayiş etdirirdilər. Gürcüstanın xalq artisti İbrahim İsfahanlının yazdığına görə, cəmiyyətin hazırladığı tamaşalar məktəb binasında və kiçik klublarda göstərilirdi. Sonradan Mirzəli Abbasov da bu cəmiyyətə daxil olur, bir qədər sonra isə cəmiyyətin rəhbərlərindən biri, eyni zamanda, bacarılı aktyor və rejissor kimi tanınır.

Görkəmli teatr xadimlərindən Mustafa Mərdanov, İbrahim İsfahanlı və Aleksandr Tuqanovun, görkəmli ədəbiyyatşünas-alim, professor Əziz Şərifin xatirələrində, habelə mərhum professor Abbas Hacıyevin «Tiflis Azərbaycan teatrı» adlı monoqrafiyasında Mirzəli Abbasovun həyatı və fəaliyyəti ilə bağlı müəyyən məqamlara rast gəlirik. Həmin mənbələrdən aydın olur ki, Mirzəli Abbasov Tiflis teatrında həm rejissor, həm də aktyor kimi fəaliyyət göstərmişdir.

O, teatrda «Otello», «Nadir şah», «Ölülər», «Qaçaqlar», «Şeyx Sənan», «Dağılan tifaq», «O olmasın, bu olsun», «Arşın mal alan», «Hacı Qara», «Müfəttiş» və s. məşhur səhnə əsərlərinə quruluş vermiş, eyni zamanda, bu tamaşalarda aktyor olaraq iştirak etmişdir. «Tiflis teatrının ibtidai dövrlərindən başlamış son günlərə qədər ağır yüklərini çiynində daşıyan və təməl daşını qoyan Mirzəli Abbasov» (İbrahim İsfahanlı) burada Otello ( «Otello»), Hacı Qara («Hacı Qara»), Hacı Qəmbər («Yağışdan çıxdıq, yağmura düşdük»), İxtiyar («İblis»), Nadir şah («Nadir şah»), Qacar («Ağa Məhəmməd şah Qacar»), Nəcəf bəy («Dağılan tifaq»), Fon Moor («Qaçaqlar») və digər bir-birindən fərqlənən obrazlar yaratmış, tamaşaçıların sevimlisinə çevrilmişdi.

Nəriman Nərimanov Tiflisdə olarkən müəllifi olduğu «Nadir şah» pyesinin tamaşasına dəfələrlə baxmış və hər dəfə Nadir şah rolunun ifaçısı Mirzəli Abbasova öz minnətdarlığını bildirmişdir.

Mirzəli Abbasov 1914-cü ildə türk dramaturqu Əli Heydər Əmirin «Səd ibn-Vəqqas» əsərini tamaşaya qoyub. Bu tamaşada Azərbaycan səhnəsinin ustadlarından Hüseyn Ərəblinski də oynayırdı. O vaxtlar Tiflisdə yaşayan Əziz Şərifin tamaşa barədə yazdığı məqalədə oxuyuruq: «İran şahının rolunu böyük istedad sahibi olan Mirzəli Abbasov oynayırdı. Özünə uyğun rolda səhnəyə çıxanda o, tamaşaçıları valeh edir. Bu axşam oynadığı rol onun xasiyyətinə tam uyğun idi və başqa bir artistin bu mürəkkəb rolu daha yaxşı oynaya biləcəyini təsəvvürə gətirmək çox çətindir».

Mirzəli Abbasov Hüseyn Ərəblinski, Mustafa Mərdanov, İbrahim İsfahanlı kimi sənət xadimləri ilə eyni tamaşalarda çıxış etmiş, dəfələrlə Tiflis tear truppasının tərkibində qastrol səfərlərində olmuşdur. Onun qas-

trol səfərlərinin xəritəsi də genişdir: Türkiyə, İran, Özbəkistan, Türkmənistan…

Mirzəli Abbasov, həm də Tiflis Azərbaycan teatrında yeni aktyorların yetişməsi üçün gərgin əmək sərf etmişdir. Onun xeyir-duasını almış neçə-neçə sənətçi müxtəlif teatrların aparıcı aktyorları olmuşlar. İbrahim İsfahanlı, Mirseyfəddin Kirmanşahlı, Əli Qurbanov, Möhsün Sənani, Əhməd Salahlı, Ələkbər Seyfi və bir çox başqaları onun məsləhət və tövsiyələrindən faydalanmışlar.

Mirzəli Abbasov öz qızı Diləfruzu da qızlar arasında ilk dəfə səhnəyə çıxarmış və o, qısa müddətdə görkəmli aktirisa kimi tanınmışdır. 1923-1924-cü illərdə Tiflis Azərbaycan teatrının bədii rəhbəri olmuş görkəmli rejissor Aleksandr Tuqanovun bu barədə xatirələrini həyəcansız oxumaq mümkün deyil: «İndiki kimi yadımdadır, «Oqtay Eloğlu»nun (C. Cabbarlının pyesi nəzərdə tutulur- **A. B.**) qoyuluşu yeni türk aktrisasının meydana gəlməsi ilə eyni vaxta düşürdü: artist Mirzəli Abbasov doğma qızı Diləfruzun taleyini səhnə ilə bağlamaq istəyirdi. Diləfruz Oqtayın bacısı rolunu oynayırdı və Oqtayın onu səhnəyə gətirmək istəməsi həyəcanla, gurultuyla, alqışlarla qarşılandı!»

Həmin tamaşa ilk dəfə Rustaveli teatrının binasında göstərilmiş və ilk dəfə Sevər rolunda səhnəyə çıxan Diləfruz Abbasovanın çıxışı da alqışlarla qarşılanmış, ona gül-çiçək dəstələri təqdim olunmuşdur. Onu da qeyd edək ki, məhz Diləfruz Abbasovadan sonra Tiflis Azərbaycan teatrına azərbaycanlı qızlar gəlmiş, onlar öz talelərini səhnə ilə bağlamışlar.

Mirzəli Abbasov bir sıra səhnə əsərlərinin müəllifi kimi də tanınmışdır.

1924-cü ildə Rustaveli teatrında onun səhnə fə-

aliyyətinin 25 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir. Yubiley gecəsində təbriklərdən sonra «İblis» pyesinin tamaşası göstərilmişdir. Həmin tamaşada Mirzəli Abbasov İxtiyar rolunu ifa etmişdir.

O, səmərəli səhnə fəaliyyətinə görə Gürcüstanın əməkdar artisti fəxri adına layiq görülmüşdür.

Mirzəli Abbasov 1943-cü ildə dünyasını dəyişənədək teatrdan ayrılmamışdır.

**2011**

## MİRZƏXAN QULİYEV

Teatr sənətimizin inkişafında Tiflis Azərbaycan teatrının rolu, bu teatrın yaradıcıları, ayrı-ayrı aktyorları barədə bir sıra araşdırmalar aparılmışdır. Xatırlatmaq yerinə düşər ki, İbrahim İsfahanlı, Mustafa Mərdanov, Möhsün Sənani, Əli Qurbanov, Ülvi Rəcəb, Mirzəli Abbasov, Mirseyfəddin Kirmanşahlı, Abbas Qurbanov kimi məşhur səhnə ustaları məhz bu teatrda yetişmiş və fəaliyyət göstərmişlər. Professor Əziz Şərif xatirələrində yazır ki, Tiflis artistləri o zaman çətin həyat sürür, olduqca ağır şəraitdə çalışırdılar. Azərbaycan teatrının öz binası yox idi, tamaşa vermək üçün başqa teatrların binalarından istifadə edilirdi.

Şöhrət qazanmış artistlər belə, çörəkpulu qazanmaq üçün gündüz başqa işlərdə çalışırdılar. «Bu həvəskar artistlər, bu fədakar səhnə xadimlərinin arasında köhnə paltar satan, dərzi, mətbəə mürəttibi, xırda alverçi, hamamda kisəçi, çəkməçi, məktəbli və sair peşə sahibləri olardı».

Bu aktyorların əksəriyyəti maddi sıxıntılarla üzləşsələr də, bəzən təqiblərə məruz qalsalar da, teatr aləmindən ayrılmamış, Tiflisdə Azərbaycan teatrı yaratmış, öz peşəkarlıqlarını durmadan artıraraq bu sənəti yaşatmış və inkişaf etdirmişlər. Bir sözlə, sözün həqiqi mənasında sənət fədaisi olmuşlar.

Belə sənət fədailərindən biri də məşhur komik, «Azərbaycan səhnəsinin ilk professional artistlərindən biri» (Mustafa Mərdanov) Mirzəxan Quliyevdir.

Görkəmli teatrşünas, akademik Cəfər Cəfərovun xalq artisti Mustafa Mərdanovun «50 il Azərbaycan səhnəsində» (Bakı, 1959) adlı xatirələr kitabına yazdığı

ön sözdə sənətsevərlərə və teatr tarixçilərinə az məlum olan, yaxud heç məlum olmayan bir sıra məqamların həmin kitabda yer aldığını xüsusi vurğulamışdır. Cəfər Cəfərov ön sözdə yazırdı: «Tiflis Azərbaycan teatrına həsr olunmuş səhifələrdən bir çox tanınmış Azərbaycan aktyorlarının, məsələn, Kirmanşahlı, Ülvi Rəcəb, Möhsün Sənani, Əli Qurbanov və başqalarının öz fəaliyyətlərini məhz Tiflisdə başlayıb, sonradan Bakıya gəldiklərini öyrənməklə bərabər, Azərbaycan tamaşaçı və oxucularına az məlum olan və bəlkə də məlum olmayan bir sıra görkəmli Azərbaycan aktyorlarının da həyat və yaradıcılığına dair maraqlı faktlarla tanış oluruq. Bu aktyorlardan xüsusilə məşhur komik Mirzəxan Quliyevi və görkəmli sənətkar Mirzəli Abbasovu qeyd etmək lazımdır ki, «Xatirələr»in bir çox səhifələrində onların fəaliyyətindən hörmət və məhəbbətlə bəhs edilir».

Yeri gəlmişkən qeyd edək ki, Mustafa Mərdanov bir sıra müasirləri, o cümlədən Mirzəxan Quliyev haqqında ayrıca xatirələrini də qələmə almış və bunlar aktyorun «Mənim müasirlərim» adlı kitabında toplanmışdır.

1910-cu ilin dekabr ayında neçə il əvvəl yaradılmış «Müsəlman teatr cəmiyyəti»nin nizamnaməsi təsdiq olunur və cəmiyyət Zubalov xalq evində rəsmi surətdə fəaliyyət göstərir. Cəmiyyətin təsisçilərinidən biri də Mirzəxan Quliyev idi. Bundan sonra Tiflisdə Azərbaycan teatrına maraq daha da artır.

Mirzəxan Quliyevin aktyor və rejissor kimi gərgin və məhsuldar fəaliyyəti ötən əsrin 10 - 20 - illərinə təsadüf edir. Professor Əziz Şərifin yazdığına görə, 1911-1912- ci il teatr mövsümü Tiflisdə zəngin və maraqlı olmuş, burada birpərdəli komediya və vodevillərlə yanaşı, «Yağışdan çıxdıq, yağmura düşdük», «Hacı Qara», «Müsyö Jordan və dərviş Məstəli şah», «Pəhləvanani-zəmanə»,

«Bəxtsiz cavan», «Zorən təbib», «Tamahkarlıq düşmən qazanar» və s. irihəcmli tamaşalar da göstərilmişdir.

Bu tamaşalarda Mirzəxan Quliyev də çıxış etmiş, «Yağışdan çıxdıq, yağmura düşdük» tamaşasında yaratdığı Hacı Qəmbər və Cəbi, növbəti teatr mövsümündə isə Hambal («O olmasın, bu olsun») obrazları aktyora şöhrət gətirmişdir.

Mustafa Mərdanovun «Xatirələr»i yalnız xatirə olaraq qalmır, aktyor oyununa və rejissor işinə bir mütəxəssis baxışı kimi də diqqəti cəlb edir. «50 il Azərbaycan səhnəsində» kitabından: «Mirzəxan Quliyevin oyunu sadə və son dərəcə inandırıcı idi; elə buna görə də xalq onu sevirdi. «Hacı Qara» komediyasında Kərəməlinin, «Yağışdan çıxdıq, yağmura düşdük» komediyasında Hacı Qəmbərin, «Əlli yaşında cavan» operettasında Muradxanın, Molyerin «Jorj Danden» komediyasında Jorj Dandenin rolunu böyük məharətlə ifa edən Mirzəxan Quliyev qoca qarı rollarını da çox yaxşı oynayırdı».

Mirzəxan Quliyev, eyni zamanda, rejissor kimi də fəaliyyət göstərmişdir. O, rejissorluqda da öz çərçivəsindən çıxmamış, bir qayda olaraq həmişə komediya quruluşçusu kimi çıxış etmişdir. «Hacı Qara» və «Müsyö Jordan və dərviş Məstəli şah» komediyalarının tamaşaları onun bu sahədə də böyük imkanlara malik olduğunu göstərmişdir. Azərbaycan səhnəsində Molyerin «Jorj Danden» komediyasının ilk quruluşçusu Mirzəxan Quliyev olmuş, Jorj Danden rolunda da özü çıxış etmişdir. Böyük səhnə xadimi Hüseyn Ərəblinski XX əsrin əvvəllərində bir neçə dəfə Tiflisdə olmuş, yerli aktyorlvrın iştirakı ilə tamaşalar hazırlamışdır. Onun hazırladığı və özünün də oynadığı tamaşalar böyük uğur qazanmışdır. Şübhəsiz, bu uğurlar, hər şeydən əvvəl, Hüseyn Ərəblinskinin adı, onun böyük

istedadı və ilə bağlı idi. Bunula yanaşı, professor Abbas Hacıyevin yazdığı kimi, «Hüseyn Ərəblinskinin böyük müvəffəqiyyətinin bir sirri də bu dövr Tiflis Azərbaycan teatrınınn güclü aktyor kollektivinə malik olmasında idi. 1905-1920-ci illərdə teatrın yaradıcı heyətinə Mirzəli Abbasov, Mirseyfəddin Kirmanşahlı, Mirzəxan Quliyev və başqa istedadlı aktyorlar daxil idi».

Mirzəxan Quliyev digər aktyorlarla dostluq etmiş, onlarla yaradıcılıq əlaqəsi saxlamışdır. Aktyorun dostları sırasında məşhur dram və komediya ustası Vaso Abaşidze (sonralar Gürcüstanın xalq artisti adına layiq görülmüşdür) və Korş teatrının məşhur komiki Boris Borisov da vardı. Onun Vaso Abaşidze ilə müştərək yaradıcılıq işi Azərbaycan-gürcü teatr əlaqələri tarixində parlaq iz qoymuşdur.

Qeyd etdiyimiz kimi, Mirzəxan Quliyev həm də istedadlı rejissor idi. O, Üzeyir Hacıbəylinin məşhur «Arşın mal alan» operettasını hazırlamış və bu tamaşa Tiflisdə, habelə Gürcüstanın bir sıra şəhərlərində uğurla göstərilmişdir. Onun hazırladığı «Arşın mal alan» ey ni vaxtda iki dildə- Azərbaycan və gürcü dillərində oynanılırdı. Bu tamaşada Vaso Abaşidze ilə birlikdə onun qızı Taso (Anastasiya) Abaşidze də (sonralar o da Gürcüstanın xalq artisti adına layiq görülmüşdür) iştirak edirdi. Hər iki aktyor öz rollarını gürcü dilində ifa edirdilər.

Mustafa Mərdanovun xairələrindən: «Bir axşam Tiflisdə- «Dvoryan teatrı»nın ( indiki Tbilisi Dövlət Rus Dram Teatrı- **A.B.**) səhnəsində yenə də «Arşın mal alan» iki dildə gedirdi. Vəli ilə Tellinin görüş səhnəsi başlandı. Vəli- Mirzəxan heç gözlənilmədən, hətta iştirakçıların belə xəbəri olmadan, başladı gürcü dilində oxumağa: «Qoy xanımı bəy aparıb tezliklə toy eləsin». Mirzəxanın

gürcücə oxuması tamaşaçıların gurultulu alqışlarına səbəb oldu. Dueti dörd dəfə oxutdular».

Mustafa Mərdanovun xairələrində «Arşın mal alan»ın başqa bir tamaşası da xüsusi qeyd edilmişdir: «1915- ci ildə Mirzəxan Quliyevin rəhbərliyi ilə bir dəstə artist Kutaisi şəhərinə «Arşın mal alan» əsərini oynamağa getmişdik. Gülçöhrəni Taso Abaşidze (Vaso Abaşidzenin qızı) gürcü dilində, Tellini Panfiliya Tanailidi Azərbaycan dilində, Sultan bəyi mən, Əsgəri İbrahim İsfahanlı… oynayırdı. Tamaşaçılar burada da Mirzəxan Quliyevi hərarətlə alqışladılar».

Azərbaycan teatrı ilə çox yaxından bağlı olan və bir müddət Tiflis Azərbaycan Teatrının baş rejissoru işləmiş Aleksandr Tuqanov bu teatrın tanınmış simaları- İbrahim İsfahanlı və Mirzəli Abbasovla birlikdə Mirzəxan Quliyevin də istedadını və fədakarlığını yüksək qiymətləndirmişdir.

Mirzəxan Quliyevin Tiflis teatrında aktyorların yetişməsində və püxtələşməsində də əməyi olmuşdur. Mustafa Mərdanov, Möhsün Sənani, İbrahim İsfahanlı və bir çox başqaları sənət sirlərini ilk dəfə ondan öyrənmişlər.

1921-ciilədək truppa şəklində fəaliyyət göstərən Tiflis teatrı hökumətin müvafiq qərarı ilə Tiflis Dövlət Azərbaycan Dram Teatrına çevrilir. Əlbəttə, bu kollektivin gərgin əməyi nəticəsində mümkün olmuşdu. Bu işdə teatr fədailəri- İbrahim İsfahanlı, Mirzəli Abbasov, Mustafa Mərdanov və Mirseyfəddin Kirmanşaşlı ilə birlikdə Mirzəxan Quliyev də fədakarlıq göstərmişdi.

Həmişə komik rollar oynayan və komediyalara quruluş verən Mirzəxan Quliyev həyatda da şən, zarafatcıl və hazırcavab bir adam olmuşdur. Ailəsini dolandırmaq üçün ağır zəhmətə qatlaşlasa da, çox ağır günlər keçirsə

də, teatrdan ayrılmamış, bu sənətin inkişafı yolunda yorulmadan çalışmışdır.

**2011**

## NADİR İBRAHİMOV

Nadir İbrahimov. Bu şəxs kimdir? Belə bir sorğu ilə tanışlarımın və dostlarımın bir neçəsinə müraciət etdim. Bunların arasında teatr tariximizlə az- çox tanış olanlar da vardı. Lakin heç kəsdən müsbət cavab almadım. Onun haqqında yalnız bir neçə tədqiqat işindən, bir də müasirlərinin xatirələrindən məlumat ala bildim.

Nadir İbrahimov gənclik illərində Tiflis Azərbaycan teatrının aktyoru olub. Teatra xüsusi həvəs göstərən gimnaziya şagirdi Nadir ilk dəfə 1909-cu il də Tiflisin Şeytanbazar məhəlləsindəki evlərdən birinin zirzəmisində «səhnə»yə çıxıb.

Gənc yaşlarından aktyor olmaq arzusu ilə yaşayan Mustafa Mərdanov yaxın dostları- İbrahim İsfahanlı və Nadir İbrahimovu dəvət edib onlarla tamaşa hazırlamaq barədə söhbət edir. Dostlar öz gücləri ilə Myasnitskinin Azərbaycan dilinə tərcümə olunmuş «Xor-xor» vodevilini bir yerdə oxuduqdan sonra məhz həmin əsəri tamaşaya qoymaq qərarına gəlirlər.

Sonradan Mustafa Mərdanov həmin günləri belə xatırlamışdır: «Həyətdə, qonşumuzun zirzəmisinin qapısına böyük bir afişa vurduq… Tamaşa günü gəlib çatdı. Tamaşanı bir həftədən sonra bir daha təkrar etdik. Bu tamaşalarımızın fəal iştirakçılarından Nadir İbrahimovu, İbrahim İsfahanlını qeyd etmək istəyirəm. Mənim kimi onlar da artist olmaq arzusu ilə yaşayırdılar».

Beləliklə, Mustafa Mərdanov da, İbrahim İsfahanlı da, Nadir İbrahimov da istedadlı gənc aktyor kimi Tiflis Azərbaycan teatrının truppasına cəlb olunurlar. Qeyd edək ki, bu gənclərin və onların həmyaşıdlarının aktyor kimi yetişməsində, püxtələşməsində Tiflis Azərbaycan

teatrının yaradıcılarından biri, sənət fədaisi Mirzəli Abbasovun böyük rolu, əməyi olub.

Nadir İbrahimov bu truppaya daxil olarkən artıq burada Mirzəli Abbasovla yanaşı Mirzəxan Quliyev, Mirseyfəddin Kirmanşahlı, Əşrəf Yüzbaşov kimi ustad aktyorlar, habelə Möhsün Sənani, Əli Qurbanov, Ələkbər Seyfi, Həbib Köçərlinski kimi istedadlı gənclər vardı.

Azərbaycan teatrının unudulmaz siması Hüseyn Ərəblinski bu aktyorların iştirakı ilə burada tamaşalar hazırlayır və özü də onlarla tərəf- müqabil olurdu. Əlbəttə, Hüseyn Ərəblinskinin hazırladığı tamaşada iştirak etmək və onunla eyni tamaşada oynamaq hər bir aktyor üçün şərəfli iş hesab olunurdu.

Belə bir şərəf Nadir İbrahimova da nəsib olmuşdur. 1914- cü ildə Mirzəli Abbasovun rejissorluğu ilə hazırlanmış «Sultan Əbdüləziz, yaxud Osmanlı inqilabı» tarixi faciəsinin (müəllif Mehdi bəy Hacınski) tamaşasında Sultan Əbdüləziz rolunda Hüseyn Ərəblinski, Yusif İzəddin (vəliəhd) rolunda isə Nadir İbrahimov çıxış etmişdir.

Nadir İbrahimov müxtəlif vaxtlarda ayrı-ayrı rejissorlar tərəfindən hazırlanmış «Ağa Məhəmməd şah Qacar», «Nadir şah», «Bəxtsiz cavan», «Ölülər», «Qaçaqlar», «Otello», «Dağılan titfaq», «Zorən təbib», «Arşın mal alan», «O olmasın, bu olsun», «Leyli və Məcnun», «Əsli və Kərəm» və başqa tamaşalarda oynamış, Mirseyfəddin Kirmanşahlı, Əşrəf Yüzbaşov, Mustafa Mərdanov, İbrahim İsfahanlı, Möhsün Sənani, Əli Qurbanov, Ələkbər Seyfi, Həbib Köçərlinski kimi sənətkarlarla birlikdə çıxış etmişdir.

O, «Ölülər»də İsgəndər obrazının ən yaxşı ifaçılarından biri kimi də tanınmışdır. Professor Əziz Şərif özünün «Keçmiş günlərdən» (Bakı, 1977) adlı kitabında

bu barədə belə yazmışdır: «Amma onun (Nadir İbrahimov nəzərdə tutulur- **A. B.**) bir rolu bu günə kimi mənim gözümün qabağında canlanmaqdadır, çünki «Ölülər»də İsgəndərin rolunu ondan yaxşı, ya ona bərabər oynayan artisti mən yadıma sala bilmirəm. Bu, mübaliğə deyil, həqiqətdir!»

Bu fikri xalq artisti Mustafa Mərdanov da səsləndirmişdir: «Ölülər» əsərindəki İsgəndərin rolunun gözəl ifaçısı Nadir İbrahimovun qastrola (Tiflis Azərbaycan teatrı truppasının 1916- cı ildə İrəvan şəhərinə qastrolu nəzərdə tutulur- **A.B.**) getməyə imkanı olmadığından, bu rolu Cəlil Məmmədquluzadənin tapşırığı ilə Mirseyfəddin Kirmanşahlı ifa etməli idi».

Gürcüstanın xalq artisti İbrahim İsfahanlı öz xatirələrində Tiflis Azərbaycan teatrının repertuarında musiqili tamaşalara, o cümlədən opera və operettalara yer ayrıldığını qeyd etmişdir. O, 1911- ci ildə Üzeyir Hacıbəylinin musiqili əsərlərin tamaşalarını göstərmək məqsədilə Tiflisə gəldiyini qeyd edir və sonra yazır: «Abbas Mirzə Şərifzadənin rejissorluğu ilə verilən bu əsərlər böyük şöhrət qazanırdı. Həmin əsərlərdə dirijor vəzifəsini böyük sənətkar Üzeyir bəy öz öhdəsinə almışdı… Yerli artistlərdən məlahətli səsə malik olan Nadir İbrahimov, Əli Şahsabahlı, Məmməd Cəfərli, Səməd Mövləvi, Seyid Şuşinski, Əli Bpayramovu qeyd etmək istərdim. Bu artistlər həvəskalıq dövrlərindən ta sənətkar bir ustad kimi operalarda və musiqili komediyalarda baş rolları ifa etmişlər» (Şurəddin Məmmədli. «İbrahim İsfahanlı», Tbilisi, 1997)

Nadir İbrahimovun səhnədə canlandırdığı Süleyman («Arşın mal alan») və Kərəm («Əsli və Kərəm») obrazları da aktyoru sevdirmişdir. 1915- ci ildə truppanın Mirzəxan Quliyevin rəhbərliyi ilə Kutaisi şəhərində

eyni vaxtda iki dildə- Azərbaycan və gürcü dillərində göstərdiyi «Arşın mal alan» tamaşasının uğurunda, təbii ki, digər aktyorlarla yanaşı, Süleyman rolunun ifaçısı Nadir İbrahimovun da əməyi olmuşdur. O, 1921- ci ildə İbrahim İsfahanlının benefesində göstərilmiş «Əsli və Kərəm» operasının tamaşasında Kərəm rolunda da uğur qazanıb.

Nadir İbrahimov həm də istedadlı musiqiçi idi. Buna görə də musiqili tamaşalarda da uğurla çıxış edirdi.

Professor Əziz Şərifin «Keçmiş günlərdən» (Bakı, 1977) kitabında yazdıqlarından: «Nadir İbrahimov mənimlə yaşıd olardı, mən gimnaziyada oxuyanda o da Tiflisdə birinci kommersiya məktəbində oxuyurdu. Biz onunla dost idik, bir yerdə Tiflisdə məşhur rəqs müəllimi fransız Overlonun məktəbində Avropa rəqs dərslərini keçirdik. Musiqi aləmində Nadir doğrudan da nadir bir istedad idi. O, tar da çalırdı, kamança da, piano da, qarmon da. Bütün klassik muğam və təsnifləri də, xalq mahnılarını da çox gözəl bilir və gəncliyinə baxmayaraq, bitkin bir sənətkar kimi ifa edirdi».

Nadir İbrahimov o vaxtlar Tiflisdə müntəzəm təşkil olunan Şərq konsertlərində fəal iştirak etmiş, burada opera və operettalardan parçalarda oynamış, habelə tarda muğam və təsnifləri ifa etmişdir.

Nadir İbrahimov həm də rejissor kimi fəaliyyət göstərmişdir. İbrahim İsfahanlının yazdığına görə, o, böyük dramaturq Ədürrəhim bəy Haqverdiyevin təşəbbüsü ilə «rejissor vəzifəsinə irəli çəkilmişdir».

Professor Abbas Hacıyevin «Tiflis Azərbaycan teatrı» (Bakı, 1984) kitabından: «1919-1920- ci illərdə Tiflisdə ancaq «İttihad» və «İbrət» dram cəmiyyətləri fəaliyyət göstərmirdi. Bu dram cəmiyyətlərinin heç birinə qarışmayan kiçik dəstələr də var idi və onlar daha

çox birpərdəli əsərləri tamaşaya qoyurdular. Şəhərin nüfuzlu və təsirli dram cəmiyyəti isə «İttihad» idi. Onun göstərdiyi tamaşalara  Mrzəli Abbasov, Mirseyfəddin Kirmanşahlı, İbrahim İsfahanlı və Nadir İbrahimov quruluş verirdilər. «İttihad»ın repertuarında əsas yeri Azərbaycan operettaları və musiqili məzhəkələri, habelə «Gaveyi-ahəngər», «Jorj Dande», «Vətən», «Salman bəy», «Fərhad bəy», «İblis», «Ziqamor», «Akif  bəy», «Hümmət ağa», «Ac həriflər» və «Xor- xor» tuturdu».

Nadir İbrahimov gimnaziyanı bitirdikdən sonra təhsilini davam etdirmək üçün Moskvaya gedir. Dostu Əziz Şərif  ona məsləhət görmüşdü ki, konservatoriyaya daxil olsun. Lakin o, digər dostu Əhməd Pepinovun tövsiyəsi ilə təhsilini Moskva universitetinin iqtisadiyyat fakültəsində davam etdirir.

İnqilabdan sonra, 1923-cü ildə isə  Mustafa Mərdanov, Mirseyfəddin Kirmanşahlı və daha iki nəfər teatr təhsili almaq məqsədilə Moskvaya göndərilirlər. Təbii ki, köhnə dostlar və həmkarlar burada görüşür, əlaqə saxlayırlar.

Mustafa Mərdanovun yazdıqlarından: «Bir gün, Ümumittifaq Mərkəzi İcraiyyə Komitəsi bizdən- Azərbaycan tələbələrindən xahiş etdi ki, Moskvada olan İran məktəbinin nəfinə bir tamaşa verək. Kirmanşahlını bu təklif  bir an belə rahat buraxmadı. Zarafat deyildi. Birinci dəfə Moskvada Azərbaycan dilində tamaşa vermək kimi ciddi, şərəfli iş ona tapşırılmışdı. Kirmanşahlı bu tamaşanın quruluşunu vermək təklifini hədsiz sevinc, eyni zamanda, böyük ehtiyatla qəbul etdi. Çox fikirləşdikdən sonra Üzeyir Hacıbəyovun «Arşın mal alan» operettasını oynamağı qərara aldıq». (Mustafa Mərdanov. «Mənim müasirlərim», Bakı, 1973)

Mustafa Mərdanov «xoşbəxtlikdən Tiflis səhnəsinin

müqtədir aktyoru, gözəl tarzən», Lomonosov adına Universitetdə təhsil alan Nadir İbrahimovun həmin vaxt Moskvada olduğunu xüsusi qeyd edir. Beləliklə, tamaşanın musiqi hissəsini Nadir İbrahimov hazırlayır.

Tamaşa 1923- cü il noyabrın 14- də indiki K.Stanislavski və V.Nemiroviç- Dançenko adına teatrın binasında göstərilir və böyük uğur qazanır. Tamaşada Nadir İbrahimov özünün təşkil etdiyi orkestrə dirijorluq edir. Həmin gecədə iştirak edən Ümumittifaq Mərkəzi İcraiyyə Komitəsinin sədri Nəriman Nərimanov tamaşanın iştirakçılarına razılığını bildirir və onları İcraiyyə Komitəsi tərəfindən mükafatlandırır.

Nadir İbrahimov təhsilini başa vurduqdan sonra Bakıya qayıtmış, bir sıra məsul dövlət işlərində çalışmışdır.

Bir daha professor Əziz Şərifin «Keçmiş günlərdən» kitabından: «Çox təəssüf olsun ki, bu nadirvücud (Nadir İbrahimov nəzərdə tutulur- **A. B.**) haqqında nə teatr tariximizdə görkəmli bir iz qalmışdır, nə də musiqi sənətimizin tarixində, halbuki Nadir İbrahimov milli teatr və musiqi sahəsində görkəmli bir sima olmuş və incəsənətimizin inkişafında müəyyən rol oynamışdır… Mən arzu edərdim ki, milli səhnə və musiqi tariximizdə onun da adı çəkilsin, çünki Nadir doğrudan da buna layiq bir sənətkar idi».

Düz sözə nə deyəsən?!.
Çalışarıq, Ustad!..

**2011**

## ƏŞRƏF YÜZBAŞOV

Əşrəf Yüzbaşov tədqiqatçıların diqqətini o qədər cəlb etməmiş aktyorlarımızdandır. Barəsində çox az yazılıb. Yazanlar da bu aktyorun inqilabi fəaliyyətinə daha artıq yer vermiş, onun 1901-ci ildən inqilabi hərəkata qoşulması, 1905-ci ildə bolşeviklər partiyasına daxil olması, gizli fəaliyyətinə görə dəfələrlə həbsə alınması və sürgün edilməsi ilə bağlı məqamları ön plana çəkmişlər.

Əşrəf Yüzbaşov doğrudan da həyatını öz xalqının azadlığı uğrunda mübarizəyə həsr etmiş, «Hümmət» təşkilatının Tiflis şöbəsini təşkil edənlərdən biri olmuşdur. Bütün bunlarla yanaşı, o, Mirzəli Abbasov, Mirzəxan Quliyev, Mirseyfəddin Kirmanşahlı, İbrahim İsfahanlı, Mustafa Mərdanov, Həbib Köçərlinski, Möhsün Sənani və başqa səhnə ustaları ilə bir sırada Tiflisdə Azərbaycan teatrının yaradılmasında, təşkilatlanmasında və yeni aktyorların yetişməsində böyük əməyi olan teatr fədailərindəndir.

Əşrəf Yüzbaşov 1880- ci ildə Şamaxıda doğulub. Sonradan Tiflisə gəlib və burada dərzilik edib. Teatr sənətinə sonsuz həvəsi də elə burada yaranıb.

Sənət dostu Mustafa Mərdanovun yazdıqlarından: «Bir aktyor olaraq Əşrəf Yüzbaşov Azərbaycan teatr tarixində özünəməxsus yer tutur. Onun yaratdığı Hacı Səməd, Hacı Həsən, Qubad, Cavad, Həsən, Barabansio, Qoca Moor, Səyyah, Məşədi İbad, Zimzimov hələ də tamaşaçıların yadındadır». (Mustafa Mərdanovun Əşrəf Yüzbaşov haqqında xatirələri oxuculara 1973- cü ildə çatdırılıb- **A.B.**)

Professor Abbas Hacıyev «Tiflis Azərbaycan teatrı» kitabında onun sənət fəaliyyətini yüksək qiymətlən-

dirmiş və belə yazmışdır: «Türkiyə və İran, Gəncə və Naxçıvan, Batum, Şəki, Borçalı, Qarayazı, Adıgün və Volqa boyunda qastrollarda olan, ömrünün sonuna qədər səhnədən ayrılmayan Əşrəf Yüzbaşov Tiflis Azərbaycan teatrının inkişafına hərtərəfli kömək etmiş, cavan aktyorlara sənət qayğısı ilə yanaşmışdır. O, xüsusən 1916- cı il Təbriz, 1919- cu ildə isə Türkiyə qastrollarında böyük müvəffəqiyyət qazanmışdır».

Məlumdur ki, Azərbaycan səhnəsinin böyük aktyoru və rejissoru Hüseyn Ərəblinski həmin illərdə vaxtaşırı Tiflisə gələr, buradakı aktyorların qüvvəsi ilə tamaşalar hazırlayar, özünün tamaşalarında, eyni zamanda, yerli rejissorların tamaşalarında aktyor kimi iştirak edərdi. Bu tamaşalara Mirzəli Abbasov, Mirzəxan Quliyev, Mirseyfəddin Kirmanşahlı, Həbib Köçərlinski və İbrahim İsfahanlı ilə yanaşı Əşrəf Yüzbaşov da dəvət edilirdi. Əlbəttə, Hüseyn Ərəblinski kimi sənətkarın hazırladığı tamaşalarda iştirak etməsi, habelə onunla tərəf-müqabil olması Əşrəf Yüzbaşovun istedadını, özünəməxsus yaradıcılıq keyfiyyətlərini üzə çıxardır, həm də bir sənətkar olaraq onun daha da püxtələşməsinə ciddi təsir göstərirdi.

1910-cu ildə Bakıdan Tiflisə qastrola gəlmiş «Səadət» cəmiyyətinin dram kollektivinin üzvləri yerli aktyorların iştirakı ilə hazırladıqları «Əlmənsur», «Müsibəti- Fəxrəddin», « Gaveyi- ahəngər», «Pəri cadu» tamaşalarını nümayiş etdirmişlər. Bu tamaşalar, xüsusən «Gaveyi- ahəngər» böyük uğur qazanmış, tamaşaçıların marağı nəzərə alınaraq təkrar göstərilmişdir.

Qeyd edək ki, «Gaveyi- ahəngər»də Hüseyn Ərəblinski, Sidqi Ruhulla, Hüseynqulu Sarabski ilə yanaşı Tiflis aktyorlarından Əşrəf Yüzbaşov, İbrahim İsfahanlı və başqaları da uğurla çıxış etmişlər.

«Gaveyi-ahəngər»in digər quruluşda tamaşası barədə məlumata profıessor Əziz Şərifin xatirələrində rast gəlirik. Professorun öz gündəliyinə və tamaşanın şəxsi arxivində saxladığı məramnaməsinə (proqramına) əsasən verdiyi məlumata görə, Tiflis teatrının aktyoru və rejissoru Mirzəli Abbasovun hazırladığı bu tamaşa («Gaveyi- ahəngər») 1914-cü il yanvarın 17-də Tiflisdə, «Gürcü teatrı»nda göstərilmişdir. Tamaşada Hüseyn Ərəblinski ilə birlikdə Tiflis teatrının aktyorları- Mirzəli Abbasov, Mirseyfəddin Kirmanşahlı, Əşrəf Yüzbaşov və başqaları da iştirak etmişlər.

Əziz Şərif özünün «Keçmiş günlərdən» adlı kitabında bu tamaşanın proqramını vermiş və sonra yazmışdır: «Bu siyahıdan (iştirakçıların siyahısı nəzərdə tutulur- **A.B.**) əsərin və tamaşanın nə qədər mürəkkəb olduğunu duymaq o qədər də çətin olmamalıdır. İnqilabdan sonra müasir orijinal və tərcümə edilmiş dram əsərlərinin səhnəmizə gəlməsi ilə səhnəmizdə öz yerini itirmiş bu əsər («Gaveyi- ahəngər»- A.B.) o zamanlar tamaşaçıları çox maraqlandırır və cəlb edirdi. Dahi Firdovsinin «Şahnamə»sindən götürülərək, məşhur Osmanlı ədibi Şəmsəddin Sami bəy tərəfindən tərtib edilmiş bu əsər o zaman üsyankar bir əsər kimi səslənirdi. Buradakı zəngin səhnə surətləri də aktyorlara öz sənət və istedadını göstərmək üçün geniş imkan verirdi. Buna görədir ki, artistlər də çətin və şərəfli sınaqdan keçmək üçün hər dəfə bu əsəri seçirdilər».

Hüseyn Ərəblinskinin bu kollekivlə növbəti işi Mehdi bəy Hacınskinin «Sultan Əbdüləziz» tarixi faciəsinin tamaşası olmuşdur. Mirzəli Abbasovun hazırladığı tamaşa 1914-cü il yanvarın 24-də yenə «Gürcü teatrı»nda gösttərilmişdir. Tamaşada Sultan Əbdüləziz rolunun ifaçısı Hüseyn Ərəblinski ilə yanaşı Mirzəli

Abbasov, Nadir İbrahimov, Əşrəf Yüzbaşov və başqaları da oynamışlar.

Onu da qeyd edək ki, həmin vaxtlar Əşrəf Yüzbaşovun da iştirakçısı olduğu «Ağa Məhəmməd şah Qacar», «Nadir şah», «Qaçaqlar», «Otello», «Dağılan tifaq», «Arşın mal alan», «O olmasın, bu olsun", «Bəxtsiz cavan», «Pəri cadu» və başqa tamaşalar da uğurla nümayiş etdirilirdi.

Professor Əziz Şərif öz gündəliyində 1914- cü il martın 26-da Tiflis şəhərinqdə, «Kazyonnı teatr»da Tehrandan gəlmiş məşhur xanəndə və sazəndələr- Mirzə Əbülhəsən xan, Tahirzadə və Dərviş xanın, habelə Hüseyn Ərəblinski və Tiflis teatrının bir qrup aktyorunun iştirakı ilə keçirilmiş «Şərq konserti» barədə müfəssəl məlumat vermişdir. Əziz Şərifin yazdığı «Gündəlik»dən sətirlər: «Konsertin ikinci şöbəsində yalnız bizim artistlər iştirak edirdilər… Yüzbaşov (Əşrəf Yüzbaşov- **A. B.**) və Quliyev (Mirzəxan Quliyev- **A. B.**) «Əlli yaşında cavan» operettasından birinci şəkli çox canlı oynadılar. Onlar teatr paltarında, ancaq qrimsiz idilər. Bu, hamının xoşuna gəldi. Bunlardan sonra Kirmanşahlı Hüseyn Cavidin «Gecəydi» şeirini oxudu. Ondan sonra Ərəblinski çıxdı. Hamletin məşhur monoloqunu oxudu».

Əlbəttə, Əşrəf Yüzbaşovun belə yüksək səviyyəli tədbirdə məşhur sənətkarlarla birlikdə çıxış etməsi artıq onun bir sənətkar kimi özünü təsdiq etdiyini göstərir.

Müasirlərinin və həmkarlarının xatirələrindən məlum olur ki, Tiflis Azərbaycan teatrının Təbriz (1917-ci il) və İstanbul (1919-cu il) qastrollrının təşkilində və keçirilməsində də Əşrəf Yüzbaşovun böyük rolu və əməyi olmuşdur.

Təbriz qastrolunun təşkilatçıları Mustafa Mərdanov və Əşrəf Yüzbaşov olmuşlar.

İbrahim İsfahanlının xatirələrindən: «1917-ci ilin əvvəllərində Təbriz qastrolunun təşkilat işləri Mustafa Mərdanova və Əşrəf Yüzbaşova tapşırılmışdı. Rejissorluq işi mənim öhdəmə düşürdü… Artistlərdən Mirzəli Abbasov, Mustafa Mərdanov, Əşrəf Yüzbaşov, Məmmədəli Əliyev, Haşım Haşımov, mən və qeyriləri daxil idik». Truppa həmin səfər müddətində «Nadir şah», «Dağılan tifaq», «Arşın mal alan», «O olmasın, bu olsun", «Bəxtsiz cavan», «Gaveyi- ahəngər»,«Pəri cadu» və başqa tamaşaları göstərmişdir.

İbrahim İsfahanlının yazdıqlarından: «Bizim teatrın artistlərinin iştirakı ilə oynanılan bu əsərlər ( müəllif bu siyahıya bir neçə Azərbaycan operasını da əlavə etmişdir- **A.B.**) 1917- ci ildə Təbrizdə, 1919-cu ildə İstanbulda, 1922- ci ildə Qarsda, habelə 1926-cı ildə yenə Təbrizdə bizə şöhrət qazandırmışdır».

Bu qastrolların təşkilində, ayrı- ayrı tamaşaların hazırlanmasında və nümayiş etdirilməsində Əşrəf Yüzbaşov müstəsna xidmətlər göstərmişdir.

Tiflis teatrının İstanbul qastrolu barədə «Mədəniyyət»in ("Mədəniyyət" qəzeti-**red.**) oxucularına məlumat vermişik. İndi isə Əşrəf Yüzbaşov barədə söhbət getdiyini nəzərə alaraq bir daha deməliyik ki, bu qastrolun uğurunda da onun əməyi danılmazdır.

Müasirlərinin və həmkarlarının dediklərinə və yazdıqlarına istinadən qeyd edək ki, Əşrəf Yüzbaşovun aktyorluq fəaliyyətini yalnız Tiflis deyil, Gəncə, Şəki, Kutaisi, Batumi, habelə Təbriz və İstanbul mətbuatı da işıqldandırırdı.

Tiflis teatrının truppası 1919-cu ildə İstanbulda qastrolda olarkən Türkiyə mətbuatında çoxsaylı elanlar və resenziyalar verilirdi. İstanbulda çıxan «Nədim» qəzetinin 23 yanvar 1919- cu il tarixli sayında verilmiş

elanlardan nümunə: «Azərbaycan dram və operetta kompaniyası qarşıdakı cümə günü saat bir yarımda yalnız xanımlar üçün, nəqliyyat vasitəsi və hazırkı vəziyyət nəzərə alınaraq gündüz və axşam saat 5-də Təpəbaşı qış teatrında, cümə ertəsi cündüz və gecə Şahzadəbaşında «Millət» teatrında, bazar ertəsi günü və axşamı Qazıköyündə «Quşdili» teatrında Qafqaziyanın ən məşhur operetti «Məşədi İbad»ı («O olmasın, bu olsun» nəzərdə tutulur- **A.B.**) oynayacaqlar». (Qulam Məmmədli. «Azərbaycan teatrının salnaməsi», Bakı, 1975, s.514).

«Tamaşa» jurnalında Əşrəf Yüzbaşov haqqında yazılmış məqalədə isə deyilirdi: «…Kompaniyanın pək möhtərəm bir siması olan Əşrəf bəy Yüzbaşov bizə canlı Məşədi İbad surətini göstərdi… Həyat adiyədə də pək təmkinli, pək dərabətli olan bu zat Qafqazın həyat tamaşasının ən əski nadimlərindən biridir. Əşrəf bəyi tanımaqla böyük bir məmnuniyyət duyuruq». (Sitat Mustafa Mərdanovun «Mənim müasirlərim» (Bakı, 1973) kitabından götürülmüşdür).

Əşrəf Yüzbaşov 1920- ci ildən 1923- cü ilədək Azərbaycanda yaşamış və burada müxtəlif vəzifələrdə işləmişdir. 1923- cü ildə yenidən Tiflisə qayıtmış və ömrünün sonuna- 1938-ci ilədək Tiflis Azərbaycan Dövlət Dram Teatrında aktyor kimi fəaliyyət göstərmişdir.

**2011**

## HƏBİB KÖÇƏRLİNSKİ

Həbib bəy Kərim bəy oğlu Kərimov (Köçərlinski, yaxud Köçərli), yaxud da sadəcə Həbib Kərimov. Bu şəxsin kimliyi təbii ki, çoxlarına məlum deyil. Onu öz cəbhədaşları və dövrünün ziyalıları yaxşı tanıyıblar. Savadlı, bilikli, geniş dünyagörüşünə və mədəniyyətə malik bir insan kimi, ziyalı kimi.

Köçərlinski onun təxəllüsüdür. Özü götürmüşdür.

Həbib Köçərlinski 1890-cı ildə Şuşada doğulub. İlk təhsilini də burada alıb. Şuşa realnı məktəbini bitirib. Sonra təhsilini Tiflisdə davam etdirib. I Tiflis gimnaziyasına daxil olub və 1913-cü ildə təhsilini başa vurub. Daha sonra Almaniyada, Leypsiq şəhərində kommersiya institutunu bitirib və doğma Azərbaycanda işləyib.

Bununla yanaşı, Həbib Köçərlinski həm də teatr həvəskarı olmuş, Tiflis Azərbaycan teatrında aktyor və rejissor kimi fəaliyyət göstərmişdir. Tədqiqatçıların yazdığına görə, onun ilk dəfə bu teatra gəlişi 1905- ci ildən sonrakı dövrə təsadüf edir. Tiflis teatrının tarixinə nəzər salarkən Həbib Köçərlinskinin məhz bu illərdə göstərilən tamaşalarda çıxış etdiyinin şahidi oluruq. Müasirlərinin yazdıqlarından o da məlum olur ki, aktyorluğa başlayan bu gimnaziya şagirdi xüsusi aktyorluq təhsili görməmiş, müxtəlif tamaşalara baxaraq təcrübəli aktyorlardan öyrənmiş, teatr sənətinə aid əlinə keçən kitabları oxumuşdu. Həbib Köçərlinskinin səhnə uğurları, eyni zamanda, teatra olan sonsuz məhəbbəti və təbiətin bəxş etdiyi fitri istedadı ilə bağlı idi.

O, müxtəlif vaxtlarda «Ağa Məhəmməd şah Qacar», «Nadir şah», «Qaçaqlar», «Dağılan tifaq», «Bəxtsiz ca-

van», «Arşın mal alan», «O olmasın, bu olsun", «Hacı Qara», «Yağışdan çıxdıq, yağmura düşdük», «Zorən təbib», «Müsyö Jordan və dərviş Məstəli şah» və bir çox başqa tamaşalarda aktyor, bəzən rejissor kimi çıxış etmişdir.

Həbib Köçərlinskinin gimnaziya yoldaşı və dostu, eyni zamanda, gənc aktyor Həbibin pərəstişkarı olmuş görkəmli ədəbiyyatşünas, professor Əziz Şərifin xatirələrində bu aktyorla bağlı maraqlı məqamlar vardır.

Əziz Şərifin sistemli şəkildə qələm aldığı gündəliyində onun Həbib Köçərlinskini ilk dəfə səhnədə görməsi barədə qeyd 1909-cu il oktyabrın 5-də edilmişdir. Aktyor həmin gün türk dramaturqu Namiq Kamalın «Vətən» dramında baş rolu oynamışdır. Professorun xatirələrində oxuyuruq: «Eyni tamaşa bir ay sonra, noyabrın 7-də yenə Həbib Köçərlinskinin iştirakı ilə təkrar edilmişdi. Onun son dərəcə müvəffəqiyyətlə oynaması bu gün də mənim yadımdadır. Həbib Köçərlinski, demək olar ki, səhnədə yaşayır və təsvir etdiyi qəhrəmanları yaşadırdı».

Əziz Şərif, eyni zamanda, Həbib Köçərlinskinin Fəxrəddin («Müsibəti- Fəxrəddin») və Fərhad («Bəxtsiz cavan») rollarını da «böyük məharət və ehtirasla» oynadığını xüsusi qeyd etmişdir.

Tədqiqatçılar onun «Otello» tamaşasında yaratdığı Yaqo obrazını yüksək qiymətləndirmişlər. Həmin tamaşada Həbib Köçərlinskinin tərəf-müqabili Otello rolunun ifaçısı- görkəmli aktyor Mirzəli Abbasov olmuşdur. 1911-ci ildə göstərilən bu tamaşaya o vaxtlar Tiflisdə müalicə olunan böyük şairimiz Mirzə Ələkbər Sabir də baxmış və xeyli təsirlənmişdir. Qeyd edilməlidir ki, həmin illərdəTiflis Azərbaycan teatrının öz binası yox idi. Azərbaycanlı artistlərin hazırladığı tamaşalar ayrı-ayrı teatrlara məxsus binalarda göstərilirdi. Belə vəziyyət

isə bu teatrın inkişafına, tamaşaların keyfiyyətinə, xüsusən tamaşaçı toplamasına mənfi təsir göstərirdi. Buna görə də yerli ziyalılar şəhərin azərbaycanlılar yaşayan «Şeytanbazar» məhəlləsində teatr üçün xüsusi bina ayrılmasına səy göstərirdilər. Bu ideya 1912-ci ildə reallaşdı- elə həmin məhəllədə teatr üçün «Auditoriya» açıldı.

«Auditoriya»nın təntənəli açılışı mərasimi həmin il aprelin 1-də olmuşdur. Bu mərasimdə görkəmli Azərbaycan ziyalıları, digər xalqların nümayəndələri iştirak etmişlər. Onların sırasında Həbib Köçərlinski də vardı. «Auditoriya» açıldıqdan sonra Mirzəli Abbasovun rəhbərlik etdiyi «Dram cəmiyyəti» ilə Həbib Köçərlinskinin başçılıq etdiyi «Səadət» teatr cəmiyyəti birləşdilər. Nəticədə daha səriştəli teatr truppası yarandı.

Həbib Köçərlinskinin 1911-ci ildə «Ruslan və Lüdmila» rus operasından iqtibas etməklə «Mehr və Mah» adlı opera yazdığı da məlumdur. Operanın tamaşaya qoyulmasına rəsmi razılıq da verilmişdi. Bu əsərin sonrakı taleyi barədə məlumat yoxdur.

Həbib bəy 1913- cü ildə Tiflisdən və teatrdan ayrılır, gimnaziyanı bitirərək təhsilini davam etdirmək məqsədilə Almaniyaya- Leyspiq şəhərinə gedir. Əlbəttə, mən burada «teatrdan ayrılır» kəlmələrini şərti işlədirəm. Onun həyatının Almaniya dövrü barədə heç bir məlumatım yoxdur. Ancaq bir şeyə qəti əminəm: bu «teatr məftunu və səhnə yaradıcısı» ola bilməzdi ki, həmin illərdə Almaniyanın qaynar teatr həyatı ilə təmasda olmasın, burada tamaşalara baxmaqla mənən zənginləşməsin.

Həbib bəyin 1914-cü ildə Tiflisdə olması (çox güman ki, tələbələrin tətili vaxtı) və aktyor kimi səhnəyə çıxması barədə faktlar vardır.

Əziz Şərifin öz dostu ilə bağlı xatirələri 1971- ci ildə tamamlanır. O, həmin il Azərbaycan yazıçılarının Y qurultayında iştirak etmək üçün Bakıya gələndə fədakar teatr tədqiqatçısı Qulam Məmmədli vasitəsilə Həbib bəyi tapır və dostlar görüşürlər. Bu görüş onların son görüşündən 57 il sonra olub.

Əziz Şərifin xatirələrində oxuyuruq: «Qapıda bizi qoca Həbib bəy qarşıladı. Sifətindəki cizgilər mənimlə bir neçə il Tiflis gimnaziyasının pansionunda yaşayıb oxumuş, teatr məftunu və səhnə yaradıcısı gənc gimnazisti, mənim qədim yoldaş və dostum Həbib Kərimov–Köçərlinskini xatırladırdı. O da məni xatırladı, tanıdı… Mən onun üzünə, danışığına, gülüşünə, hərəkətlərinə diqqət edir, gimnazist Həbibi, gənc artist Köçərlinskini xatırlayırdım…»

Dostlar bu görüşdə gimnaziyada onlara dərs demiş müəllimləri, pansionda xidmət etmiş qulluqçuları, gimnaziya yoldaşlarını və bir də, təbii ki, ötən dövrün teatr tamaşalarını, ayrı-ayrı aktyorları xatırlamış, doyunca şirin söhbət etmişlər.

Əziz Şərifin 1972- ci ildə qələmə aldığı və 1977- ci ildə nəşr olunmuş kitabına daxil etdiyi xatirəsində Həbib Köçərlinskini «Həbib bəy» kimi təqdim etməsi də nəzərimdən yayınmadı.

Təəssüf ki, bu çox maraqlı insan, ziyalı Həbib Köçərlinski barədə bildiklərim bunlardır. Bu insanın sonrakı fəaliyyəti və taleyi ilə bağlı araşdıamamı davam etdirəcəyəm. Belə adamları tanımalı və tanıtmalıyıq. Unutmağa haqqımız yox!

Sağlıq olsun…

**2011**

## İBRAHİM İSFAHANLI

Milli teatr sənətimizin qüdrətli simalarından biri də Gürcüstanın xalq artisti İbrahim İsfahanlıdır. O, teatr tariximizə görkəmli aktyor və rejissor, eyni zamanda, teatr təşkilatçısı kimi daxil olmuşdur. Sənətkarın «M.F.Axundov adına Tbilisi Azərbaycan Dövlət Musiqili Dram Teatrının tarixi» adlı xatirələri isə onu həm də teatr tarixçisi kimi yaşadır. «Xatirələr»in əlyazması Gürcüstan Dövlət Teatr, Musiqi və Kino Muzeyində saxlanılır. Bu əsər milli teatr tariximizin inkişafı, ayrı-ayrı tamaşalar, rejissor və aktyorlarla bağlı tədqiqatların aparılması baxımından çox qiymətli məxəzlərdən biridir. «Xatirələr»dən parçalar ilk əvəllər Azərbaycan mətbuatında, habelə «Gürcüstan» qəzetində çap olunmuş, daha sonra «İbrahim İsfahanılı» kitabının (Tbilisi,1997) müəllifi, professor Şurədddin Məmmədli xatirələrin əsas hissələrini həmin kitaba daxil etmişdir.

İbrahim İsfahanlı (Hüseynzadə) 1897-ci ildə Tiflisdə anadan olmuşdur. Uşaqlıq illərindən başlayaraq Tiflisin Şeytanbazar məhəlləsindəki çayxanalarda çalıb-oxuyan və dastan danışan aşıqlar, Türkiyədən gəlmiş Yaqub Şükri əfəndiyə məxsus çayxanada məşhur türk «Qaragöz oyunu»nu nümayiş etdirən Bəkir əfəndi, habelə cümə günləri Qarpız meydanında qoç «buynuzlaşdırılması» və xoruz döyüşdürülməsi, digər xalq oyun və tamaşaları ona ciddi gəlir göstərmiş, teatr sənətinə meylinin ilk cizgilərini yaratmışdır.

Sonralar isə o, yerli həvəskarların hazırladığı tamaşalarda əvvəlcə tamaşaçı, daha sonra aktyor kimi iştirak etmişdir.

1908-ci ildə Tiflisdə baş vermiş bir hadisə onun

həyatında silinməz izlər buraxmış, bəlkə də səhnəyə həmişəlik bağlanmasına səbəb olmuşdur. İbrahim İsfahanlı özü sonradan belə xatırlamışdır: «Küçələrə vurulmuş bər-bəzəkli afişalar 1908-ci ildə tiflisliləri Əbdürrəhim bəy Haqverdiyevin «Ağa Məhəmməd şah Qacar» faciəsinin tamaşasına çağırırdı. Tamaşada Qacar rolunu Hüseyn Ərəblinski, İrakli rolunu Əbülfət Vəli oynayacaqdı. Tiflisə qastrola gələn hər iki sənətkarın adı afişada iri hərflərlə yazılmışdı».

Həmin tamaşanı Hüseyn Ərəblinski hazırlamışdı. O vaxtlar Tiflisdə olan Ə.Haqverdiyev özü ona kömək etmişdir. Əsərdəki digər rolları Tiflis teatrının aktyorları oynamışlar. Böyük uğurla keçən tamaşanı o vaxtlar Tiflisdə yaşayan ziyalılar - Cəlil Məmmədquluzadə, M.A.Şahtaxtlı, E.Sultanov, habelə gürcü ziyalıları da izləmiş, H.Ərəblinskini təbrik etmişlər. İbrahim İsfahanlının xatirələrindən: «Ərəblinskinin o gecəki vüqarı, boy-buxunu, hələ də gözlərim önündədir – «bəli, bu belədir, belə də gərək olsun»- sözləri qulağımdan getməyib».

İbrahim İsfahanlı ilk dəfə səhnəyə qadın rolunda çıxmışdır. Peşəkar Tiflis Azərbaycan teatrının yaradıcılarından biri, xalq artisti Mustafa Mərdanov özünün «Xatirələri»ndə («Xatirələrim» adlanır) yazmışdır: «Azərbaycan dilinə təbdil və tərcümə olunmuş «Xor-xor» vodevili əlimə keçdi. Burada məni, xüsusən əsgər Seyfullanın rolu çox maraqlandırdı. Fikrimi yaxın dostlarımdan Nadir İbrahimova və İbrahim İsfahanlıya bildirmək üçün ornları evimizə dəvət etdim. Əsəri bir yerdə oxuduq və bəyəndik».

Dostlar bu əsər əsasında tamaşa hazırlamağı qərara alırlar və müəyyən tərəddüdən sonra İbrahim İsfahanlı Zabitin arvadı rolunu oynamağa razılıq verir. Tamaşa uğurla keçir, eyni zamanda Mustafa Mərdanov, Nadir

İbrahimov və İbrahim İsfahanlı səhnədə ilk addımlarını atır və öz talelərini teatra bağlayırlar. Bu hadisə 1909-cu ildə baş vermişdi.

İbrahim İsfahanlı 1910-cu ildən isə Hüseyn Ərəblinski ilə eyni tamaşalarda çıxış etmişdir. O, Hüseyn Ərəblinskinin hazırladığı və özünün də iştirak etdiyi «Dəmirçi Gavə» tamaşasında Rüstəm, «Şamdan bəy» tamaşasında Rza bəy obrazlarını yaratmışdır. Əlbəttə, bütün bunlar İbrahim İsfahanlının bir səhnə xadimi kimi yetişməsində mühüm rol oynamış, aktyor özü belə yazmışdır: «Bu böyük sənətkarın mənə qarşı qayğısına məftun olub, iftixarla deyə bilərəm ki, mən də Hüseyn Ərəblinskinin şagirdlərindən biriyəm».

İbrahim İsfahanlı, eyni zamanda, Mirzağa Əliyev, Sidqi Ruhulla, Hüseynqulu Sarabski, Mustafa Mərdanov, Möhsün Sənani, Əşrəf Yüzbaşov, Mirzəli Abbasov kimi sənətkarlarla səhnəyə çıxmış, Təbriz, İstanbul, Qars, Gəncə, Batum şəhərlərində qastrol səfərlərində olmuşdur.

İbrahim İsfahanlının Tiflis teatrının dövlət teatrı statusu almasında, yəni M.F.Axundov adına Tbilisi Azərbaycan Dövlət Dram Teatrının yaradılmasında mühüm xidmətləri vardır. O bu teatrın aparıcı akyorlarından biri olmaqla yanaşı, rejissoru, daha sonra baş rejissoru olmuş, həm aktyor, həm də rejissor kimi tamaşaçılara bol-bol teatr sevinci bəxş etmişdir. 1932-ci ildə Gürcüstanın xalq artisti fəxri adına layiq görülmüşdür.

İbrahim İsfahanlı bu teatrda onlarla əsərə quruluş vermiş, fəaliyyəti dövründə səhnədə 300-dək obraz canlandırmışdır. Onun yaratdığı Şeyx Sənan («Şeyx Sənan»), İsgəndər («Ölülər»), Elxan («Od gəlini»), Aydın («Aydın»), Vaqif və Qacar («Vaqif»), Nəbi («Qaçaq Nəbi»), Otello («Otello»), Hamlet («Hamlet») obrazları şahidlərin

hafizəsində bu gün də yaşayır. «Azərbaycanfilm»in istehsal etdiyi «Böyük dayaq» filmində Yarməmməd rolunun ifaçısı da İbrahim İsfahanlıdır.

İbrahim İsfahanlı 1947-ci ildə Tiflis teatrı bağlandıqdan sonra da öz sevimli peşəsindən ayrılmamış, Qazax və Zaqatala teatrlarına rəhbərlik etmiş, Gürcüstanın azərbaycanlılar yaşayan rayonlarında həvəskar aktyorların iştirakı ilə tamaşalar hazırlamışdır.

Görkəmli sənətkar 1967-ci ilin oktyabr ayında dünyasını dəyişmişdir. 1997–ci ildə Gürcüstan Mədəniyyət Nazirliyinin qərarı ilə onun 100 illik yubileyi respublika miqyasında qeyd edilmiş, xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaşadığı evə xatirə lövhəsi vurulmuş, Tbilisi şəhərindəki küçələrdən birinə İbrahim İsfahanlının adı verilmişdir

**2010**

## İSMAYIL HƏQQİ

Tiflis Azərbaycan teatrının yaranmasında, inkişafında, xüsusən təşkilatlanmasında əməyi olan ziyalılardan biri də İsmayıl Həqqidir. O, mədəniyyət tariximizə mühərrir, mürəttib, aktyor, habelə mollanəsrəddinçi kimi daxil olmuşdur.

İsmayıl Səməd oğlu Həsənzadə (Həqqi) ötən əsrin əvvəllərində Tiflisdə yaşayan və fəaliyyət göstərən, habelə müəyyən məqsədlə buraya gələn bir sıra ziyalılar- Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Ömər Faiq, Hüseyn Ərəblinski, Əliqulu Qəmküsar, Mirzəli Abbasov, Əziz Şərif və bir çox başqaları ilə dostluq və əməkdaşlıq etmiş, yaradıcılıq ünsiyyətində olmuşdur. Yeri gəlmişkən qeyd edək ki, İsmayıl Həqqi 1930-cu illərdə böyük satirik şairimiz Mirzə Ələkbər Sabir haqqında xatirələrini qələmə almış və dərc etdirmişdir.

O, 1884- cü ildə Tiflisdə anadan olub. İlk Azərbaycan mürəttiblərindən hesab olunur. Əmək fəaliyyətinə mürəttib kimi başlayıb. Bakıda «Kaspi» mətbəəsində, Tiflisdə «Şərqi- Rus» mətbəəsində işləyib. Sonralar «Molla Nəsrəddin» jurnalının mətbəəsində çalışıb.

İsmayıl Həqqi «Molla Nəsrəddin»də həm də mühərir kimi fəaliyyət göstərib. O, jurnalda özünün qələmə aldığı şeir və felyetonları ilə çıxış edib. Həm Tiflis ziyalıları, həm də «Molla Nəsrəddin»in müəllifləri və əməkdaşları arasında böyük nüfuzu olub. Buna görə də Cəlil Məmmədquluzadə Tiflisdə olmayanda jurnalı Əliqulu Qəmküsar və Məmmədəli Sidqi ilə birlikdə İsmayıl Həqqiyə tapşırarmış. ( Qeyd edək ki, jurnalın əsas

simalarından olan Ömər Faiq xəstəliyi ilə əlaqədar daha çox doğulduğu kənddə yaşayırdı).

Müasirlərinin xatirələrindən məlum olur ki, İsmayıl Həqqi həm də aktyor kimi fəaliyyət göstərib. Eyni zamanda, Tiflis Azərbaycan teatrının təşkilatlanması və inkişafı üçün fəal çalışıb.

Məlumdur ki, 1912- ci ildə Tiflisdə bu teatr üçün xüsusi bina- «Auditoriya» açılmışdır. «Auditoriya»nın rəsmi açılış mərasiminin hazırlanması və keçirilməsində Əbdürrəhim bəy Haqverdiyev, Firudin bəy Köçərli, Hüseyn bəy Mirzəcamalov, Həbib bəy Köçərlinski və başqa ziyalılarla birlikdə İsmayıl Həqqi də yaxından iştirak etmişdir. Məhz həmin il «Auditoriya»nın səhnəsində, şəhərin digər teatrlarının binalarında truppa çoxsaylı tamaşalar göstərmişdir.

Professor Əziz Şərifin «Keçmiş günlərdən» kitabından: «Səhnədə birpərdəli gülməli komediya, vodevillərlə yanaşı, «Yağışdan çıxdıq, yağmura düşdük», «Hacı Qara», «Müsyö Jordan və dərviş Məstəli şah», «Pəhləvanani- zəmanə», «Bəxtsiz cavan», «Zorən təbib», «Tamahkarlıq düşmən qazanar» və sair bu kimi iri əsərlər də göstərilirdi ki, bu tamaşalarda əsas iştirakçılar Mirzəli Abbasov, Mirseyfəddin Kirmanşahlı, Həbib Köçərlinski, Sadıqbəyov, İsmayıl Həqqi, Mirzəxan Quliyev və başqalarından ibarət idi». Mənbələrdə İsmayıl Həqqinin Hacı Qara obrazını böyük məharətlə yaratdığı xüsusi qeyd edilmişdir.

Professor Əziz Şərifin xatirələrindən məlum olur ki, Tiflis Azərbaycan teatrının 1913- 1914- cü illər mövsümü türk dramaturqu Namiq Kamalın dalbadal göstərilmiş «Zavallı cocuq», «Vətən» və «Akif bəy» əsərləri

ilə başlamışdır. Həmin tamaşalarda Mirseyfəddin Kirmanşahlı, Həbib Köçərlinski və Əbülfət Vəli ilə birlikdə İsmayıl Həqqi də çıxış etmişdir.

«Akif bəy» tamaşası barədə böyük sənətkarımız Hüseyn Cavidin «İqbal» qəzetinin 9 oktyabr 1913- cü il tarixli sayında «Müxbir» imzası ilə «Tiflisdən teatr, yaxud sənəti- tamaşada təbəddül və tərəqqi» adlı məqaləsi dərc edilmişdir. Hüseyn Cavid öz məqaləsində əsəri və tamaşanı təhlil etmiş, aktyorların oyununu, o cümlədən İsmayıl Həqqinin oyununu yüksək dəyərləndirmişdir.

Məqalədə oxuyuruq: «İmdi artistlərə gələlim. Akif bəy rolunu ifa edən Kirmanşahski cənablarının (Mirseyfəddin Kirmanşahlı nəzərdə tutulur- **A. B.**) tərzitələffüzü aydın, səmimi və aldığı vəziyyətlər tamamilə yerində olub, heç bir qüsur nəzərə çarpmayırdı. Müşarileyh hənuz gəncdir. Məsləkində daha ziyadə ciddiyyət göstərəcək olursa, Qafqazımız ciddən qiymətdar bir artist qazanmış olacaqdır…

Əsəd bəy rolunu ifa edən Abbasov cənablarına gəlincə, mumileyh sənəti-tamaşada ibraz etdiyi iqtidardan başqa, tələffüzündəki ahəng və üslubda bəhlə bir sələsət vardı ki, adətən İstanbul artistlərini xatırladırdı... Şahin bəy rolundakı Ələsgərov cənabları da vicdanlı bir məmur, xeyirxah bir arxadaş qədər ifayi-vəzifə edirdi. Hələ meyxanaçı — M. X. Quliyev cənabları (Mirzəxan Quliyev nəzərdə tutulur- **A. B.**) Türkiyənin cəstü çalak rum meyxanaçılarından əsla seçilməyirdi. Yüzbaşov cənablarının sərxoşluqdakı məharəti, Əliyevin tərəddüdlü və qorxaqca vəziyyəti, İsmayıl Həqqi əfəndinin şətarətli halları və laübali qəhqəhələri ayrı-ayrı birər qiyməti-haiz idi».

Tiflis Azərbaycan teatrı truppasının iki yerə- iki cəmiyyətə, hətta ayrı-ayrı qruplara ayrılması və onların

ayrı-ayrılıqda çıxış etməsi barədə «Mədəniyyət»in («Mədəniyyət qəzeti»-red.) oxucularına məlumat vermişik. Görkəmli ədibimiz Əbdürrəhim bəy Haqverdiyev bu cəmiyyət və qrupları birləşdirmiş, yaratdığı yeni teatr cəmiyyətinə yeni istedadlar cəlb etmişdir. Həmin vaxt məhz yazıçının təşəbbüsü ilə cəmiyyətin idarə heyətinə seçilənlərdən biri də İsmayıl Həqqi olmuşdur.

Gürcüstanın xalq artisti İbrahim İsfahanlının xatirələrindən: «… böyük ədib Əbdürrəhim bəy Haqverdiyevin Tiflisdə olmasından istifadə edən hər iki cəmiyyətin nümayəndələri onunla görüşdülər, hər iki cəmiyyətin iclası olub, həmin iclasda hər iki cəmiyyət birləşdi. Haqverdiyevin təklifi ilə cəmiyyəti idarə etmək üçün heyət seçildi. Heyətə daxil olanlar: Əlimirzə Nərimanov, İsmayıl Həqqi, Ələkbər Seyfi, Əsgər Naxçıvanlı, Həsən Səbri…» (Şurəddin Məmmədli. «İbrahim İsfahanlı», Tbilisi, 1997, səh. 56).

İsmayıl Həqqinin cəmiyyəti idarə edəcək heyətə daxil edilməsi onun təşkilatçılıq qabiliyyətinə malik olması ilə əlaqədardır və aktyorun bu keyfiyyəti Əbdürrəhim bəy Haqverdiyevə də məlum idi.

Cəlil Məmmədquluzadə 1910- cu ildə məşhur el aşığı Nəcəfqulunu və bir neçə aşığı Qarabağdan Tiflisə dəvət etmiş, «Gürcü Əyanları Teatrı»nda Qarabağ aşıqlarının Tiflis Azərbaycan teatrının aktorları ilə birlikdə «El aşıqlarının konserti» keçirilmişdir. Həmin konsertin əsas təşkilatçılarından biri İsmayıl Həqqi olmuşdur.

Bununla yanaşı, o, Tiflisdə yaşayan ziyalıları tez- tez bir yerə toplayar, öz evində onların iştirakı ilə müxtəlif məclislər təşkil edərdi. Belə məclislərdən biri- 1914-cü il martın 11- də İsmayıl Həqqinin öz evində təşkil etdiyi məclis barədə professor Əziz Şərifin gündəliyinə və sonradan qələmə aldığı xatirələrinə istiadən «Mə-

dəniyyət»in oxucularına məlumat vermişik. Həmin məclisdə Hüseyn Cavid, Hüseyn Ərəblinski, habelə Tiflisdə yaşayan ziyalı və aktyorlardan Mirzəli Abbasov, Əliqulu Qəmküsar, Mirseyfəddin Kirmanşahlı, Əşrəf Yüzbaşov, Nadir İbrahimov, Məmmədtağı Ələsgərov, Seyid Şuşinski və bir çox başqaları iştirak etmişlər. Elə bu fakt özü İsmayıl Həqqinin Tiflis ziyalıları arasında böyük nüfuza malik olduğunu, sayılıb- seçildiyini sübuta yetirir.

O vaxtlar Şeytanbazar məhəlləsində azərbaycanlıların toplaşdığı «Auditoriya» ilə yanaşı başqa bir mədəniyyət mərkəzi- qiraətxana da fəaliyyət göstərirdi. Burada yeni çap olunmuş qəzet və jurnalları oxumaq mümkün idi. Qiraətxana Bakı və Tiflisdə, habelə Türkiyə və Rusiyada çıxan qəzet- jurnalları alırdı.

Şeytanbazar məhəlləsində üçüncü bir mədəniyyət mərkəzi də vardı. Bu, İsmayıl Həqqiyə məxsus «Şərq» mətbəəsi idi. Professor Əziz Şərifin xatirələrindən məlum olur ki, İsmayıl Həqqi öz qardaşı və köməkçisi ilə birlikdə burada kiçik sifarişlər çap edir, bəzən broşür və kitabçalar buraxırmış. Əziz Şərifin rus dilindən tərcümə etdiyi «Rəhm çeşməsi» adlı kitabça da 1912- ci ildə burada çap olunmuşdur. Bütün bunlarla yanaşı, «Şərq» mətbəəsi azərbaycanlı ziyalıların ən çox toplaşdığı məkan, görüş yeri olmuşdur.

Professor Əziz Şərifin «Keçmiş günlərdən» kitabından: «Mətbəənin (İsmayıl Həqqiyə məxsus «Şərq» mətbəəsi nəzərdə tutulur- **A. B.**) kantoru bizim üçün bir klub kimi idi. Bir adamla görüşmək, bir kəsdən xəbər tutmaq, mədəniyyət aləmindən təzə bir məlumat almaq və sair bu kimi işlər üçün hamımız Həqqinin kantoruna qaçar və həmişə burada öz arzumuzu yerinə yetirərdik. Bir sözlə desək, … Tiflis azərbaycanlılarının mədəni

mərkəzi Həqqinin kantoru idi. Gündəliyimdəki qeydlər də bunu, məncə, aydın göstərir».

İsmayıl Həqqinin oğlu  Osman Həqqi atasının aktyorluq sənətini davam etdirmiş, əvvəllər Tbiliçi Dövlət Azərbaycan Dram Teatrında, sonralar Azərbaycan Milli Dram Teatrında çalışmış, bir sıra filmlərə çəkilmişdir.

Müasirlərinin yüksək qiymətləndirdiyi, professor Əziz Şərifin  «Tiflisdə yaşayan azərbaycanlı ziyalıların sevimlisi, ağsaqqalı, ruhu, vicdanı» adlandırdığı İsmayıl Həqqi repressiya qurbanı olmuş, «vətən xaini» damğası ilə həbs edilmiş, 1938- ci ildə güllələnmişdir.

1957- ci ildə ona bəraət verilmişidir

**2012**

## ABBAS QURBANOV

Milli teatrımızın təşəkkülündə və inkişafında Tiflis Azərbaycan Teatrının böyük rolu olmuşdur. XIX əsrin 70-ci illərindən başlayaraq yerli ziyalıların əməyi və səyi ilə Tiflisdə tamaşalar hazırlanmış və müxtəlif yerlərdə göstərilmişdir. 1922-ci ildə isə hökümət qərarı ilə M.F.Axundov adına Tiflis Azərbaycan Dövlət Dram Teatrı yaradılmışdır.

Bu teatrda Mustafa Mərdanov, Möhsun Sənani, Əli Qurbanov, İbrahim İsfahanlı, Mirzəli Abbasov kimi qüdrətli səhnə ustaları yetişmiş və fəaliyyət göstərmişlər.

Onlardan biri də görkəmli komik, bədii qiraət ustası, Gürcüstanın əməkdar artisti Abbas Qurbanov idi.

Bir vaxtlar Borçalıda, onun hüdudlarından kənarda çox məşhur idi bu ad. Onu tez-tez mədəniyyət evlərində, kənd klublarının səhnəsində, bilavasitə kənd əməkçilərinin iş yerlərində - tarlalarda, fermalarda, xırmanlarda, tütün sahələrində görmək olardı, səsi radio dalğalarından eşidilərdi. Abbas Qurbanov gülüş bəxş edərdi. Ürəkdən gələn sağlam, mənalı gülüş… El məsəlinə, söz-söhbətlərin şirinliyinə çevrilmişdi onun adı: «Abbas Qurbanov demişkən», «Abbas Qurbanov dəstri», «Abbas Qurbanovun ərizəsi kimi»…

O, 1912-ci ildə Tiflis şəhərində doğulub. Elə həmin il Tiflis teatrsevərlərinin həyatında fərəhli bir hadisə baş verib. «Şeytanbazar» deyilən yerdə Azərbaycan teatrı üçün xüsusi bina - «Auditoriya» açılıb.

Abbas gözlərini açanda qardaşı Əlini (Azərbaycanın xalq artisti Əli Qurbanov) və xalası oğlu Möhsunu (Azərbaycanın xalq artisti Möhsun Sənani) bu teatrın

səhnəsində görmüş, Möhsunun «Şeytanbazar»da məhəllə uşaqlarının iştirakı ilə hazırladığı «tamaşalara» baxmış, özü də bu mərasimlərdə iştrak etmişdir. Onun teatra bitib-tükənməz məhəbbəti də o vaxtlar yaranıb.

Abbas 1925-ci ildən etibarən qardaşı Əlinin təşəbbüsü ilə Tiflis Azərbaycan teatrının aktyoru olub. (Əli bu zamanlar həmin teatrın tanınmış aktyorlarından idi).

Abbas Qurbanov bu teatrda bir çox maraqlı və yadda qalan obrazlar yaratmışdır. «Şeyx Sənan»da Şeyx Əbuzər və Serqo, «Kiyaz»da Şakro, «Sevil»də Atakişi və Babakişi, «Almaz»da Balaoğlan və Şərif, «Oqtay Eloğlu»nda Mazandaranski, «Hind qızı»nda Cəlaləddin, «Özgə uşağı»nda (S.Şaniaşvili) Sençina, «Şamil»də (Vangeli) Musa, «Koroğlu»da Vəzir, «Otello»da Rodriqo, «Müfəttiş»də Dobçinski, «Qaçaq Nəbi»də Koxa, «Kinto»da (A.Sereteli) Kinto və bir çox başqa obrazlar Abbas Qurbanovu hələ gənc yaşlarından tamaşaçıların sevimlisi etmişdir.

M.F.Axundov adına Tiflis Azərbaycan Dram Teatrının da öz problemləri olmuşdur. Bəzən iqtisadi çətinliklər, bəzən yersiz hücumlar teatrın inkişafına müəyyən qədər təsir göstərə bilmişdir. Lakin bunlar Tiflis teatrının öz sözünü deməyə, uğurlu tamaşalar yaratmasına mane ola bilməmişdir.

1930-cu illərdə A.Qurbanov teatrın bir çox uğurlu tamaşalarında çıxış etmişdir. 1938-ci ildə Tur qardaşları və A.Şeynin «Üzləşdirmə» pyesinin tamaşası böyük müvəffəqiyyət qazanmışdır. Rejissor V.Quşitaşvilinin hazırladığı tamaşada Abbas Qurbanov Qureviç obrazını yaratmışdır. «Yeni kənd» qəzeti 21 fevral 1938-ci il tarixli nömrəsində bu tamaşanı «teatrın parlaq qələbəsi» adlandırmış, məqalə müəllifi Rza Şahvələd yazmışdır ki, Qurbanov bu rolla inam və sədaqətlə dolu bir aləm

yaradır və aktyor Qureviç rolu ilə yaradıcılığındakı görkəmli bir dönüşlə gələcəyin yaxşı talantı olacağına böyük ümidlər verir.

Aktyorun özü bu rolu barədə belə demişdir: «Qureviç rolunu yaratmaqda məni hər şeydən çox maraqlandıran ondakı sağlam hissdir. Onun qoca deyingənliyi arxasında vətən məhəbbəti və sağlam vətəndaşlıq şüuru özünü göstərməkdədir. Mən yumşaq, həssas və cazibəli bir obraz yaratmağa səy etmişəm».

1938-c ildə teatrın daha bir tamaşası - «Arşın mal alan» böyük muvəffəqiyyət qazanır. Gürcüstanın xalq artisti İbrahim İsfahanlının hazırladığı bu tamaşada Vəli rolunda Abbas Qurbanov çıxış edirdi. Tiflis Azərbaycan teatrının tarixinə aid qiymətli tədqiqatın müəllifi filologiya elmləri doktoru, professor Abbas Hacıyev yazır ki, həmin tamaşaya baxmaq üçün Gürcüstanın uzaq kəndlərindən belə Tiflisə gələnlər olurdu.

Yəqin ki, tamaşanın uğur qazanmasında Vəli rolunun ifaçısı Abbas Qurbanovun da böyük zəhməti olmuşdur. Bu faktı İbrahim İsfahanlı təsdiq edərək belə yazmışdır: «Vəli rolunu həmişə olduğu kimi, Abbas Qurbanov məharətlə ifa edirdi».

«Toy» komediyasında Abbas Qurbanovun yaratdığı Kərəmov obrazı da hələ öz vaxtında mətbuatın nəzərini cəlb etmiş, onun barəsində xoş sözlər söylənmişdir.

Böyük Vətən müharibəsi illərində teatr Rza Şahvələdin «Qız qalası» əsərini tamaşaya qoymuşdur. İbrahim İsfahanlının hazırladığı bu tamaşa böyük müvəffəqiyyət qazanmış, Gürcüstan mətbuatı ilə yanaşı, Azərbaycan mətbuatını da maraqlandırmışdır. «Ədəbiyyat qəzeti»nin 25 iyun 1944-cü il tarixli nömrəsində «Qız qalası» Tiflis Dövlət Dram Teatrı səhnəsində» adlı yazıda (müəllif Ə.Ş.) tamaşa geniş təhlil edilmiş,

aktyorların oyunu səciyyələndirilmiş, Kəndbaşı rolunun ifaçısı, respublikanın əməkdar artisti Abbas Qurbanovun öz gözəl oyunu ilə hadisələri daha da canlandırdığı, ümumi müvəffəqiyyətə çox yardım etdiyi xüsusi qeyd olunmuşdur.

İbrahim İsfahanlı öz xatirələrində dramaturq Rza Şahvələdin «əvəzsiz komik Abbas Qurbanova məxsus» surətlər yaratdığını xüsusi qeyd etmişdir.

Yeri gəlmişkən, İbrahim İsfahanlı öz xatirələrində həmkarının yaradıcılığı barədə xoş sözlər söyləmişdir.

Abbas Qurbanov bu teatrda İbrahim İsfahanlı, Mirzəxan Quliyev, Əli Qurbanov kimi sənətkarlarla çalışmış, Mirzəli Abbasov, A.M.Şərifzadə, Ülvi Rəcəb, Mustafa Mərdanov, Mərziyə Davudova ilə eyni tamaşalarda çıxış etmişdir.

1947-ci ildə Tiflis Azərbaycan Dram Teatrı öz fəaliyyətini dayandırdıqdan sonra onun aktyorlarının əksəriyyəti başqa teatrlara getmiş, bəziləri başqa sahələrdə işə keçmişlər. Abbas Qurbanov isə doğma şəhərdən, bir də öz sevimli peşəsindən ayrılmamışdır.

A.Qurbanov 1947-ci ildən etibarən taleyini özfəaliyyətlə bağlamış, Tbilisi şəhər xalq yaradıcılığı evi və Marneuli rayon mədəniyyət evi kollektivləri ilə birlikdə çıxış etmişdir. O bu kollektivlərdə kiçik həcmli tamaşalar və tamaşalardan parçalar hazırlamış, bu tamaşaların rejissoru (bəzən də müəllifi) və əsas aktyoru olmuşdur. Onun «truppası» maraqlı proqramlarla dəfələrlə Tbilisi şəhərində, Borçalının ən ucqar kəndlərdə çıxış etmiş, tamaşaçıların dərin hörmətini qazanmışdır. «Lənkəran xanının vəziri», «Arşın mal alan», «O olmasın, bu olsun», «Beş manatlıq gəlin», «Durna», «Toy kimindir?» və bir çox başqa tamaşaları, onlardan parçaları Abbas Qurbanov tamaşaçılara təqdim etmişdir. Yüksək sənət-

karlığı və gözəl səsə malik olması onu Mirzə Həbib, Sultan bəy, Məşədi İbad, Dursun, Qoşun, Quluş bəy kimi obrazların məşhur ifaçısı etmişdir.

O, eyni zamanda, sənət dostları İbrahim İsfahanlı, Göyçək Allahverdiyeva, Qara Nəzərli, Nəco Məmmədov və başqaları ilə birlikdə Gürcüstan radiosunun Azərbaycan redaksiyasının hazırladığı radio-tamaşalarda çıxış etmiş, «Lənkəran xanının vəziri», «Hacı Qara», «Kinto», «O olmasın, bu olsun» və s. tamaşalarda yaddaqalan obrazlar yaratmışdır.

El məsəlinə, söz-söhbətlərin şirinliyinə çevrilib onun adı: «Rəhmətlik Abbas Qurbanov demişkən…»

Bax, beləcə yaşayır aktyor. Tamaşaçı beləcə yaşadır aktyoru...

**2010**

## BİR QASTROL HAQQINDA

Tiflis Azərbaycan teatrı truppa şəklində formalaşmağa başladığı ilk vaxtlardan etibarən öz tamaşalarını yalnız Tiflisdə göstərməklə kifayətlənməmiş, müntəzəm olaraq qastrol səfərlərində olmuş, bununla həm özünü şöhrətləndirmiş, həm də Azərbaycan dramaturqlarının əsərlərini geniş miqyasda təbliğ etmişdir.

Tiflis Azərbaycan teatrı ilə bağlı çox gərəkli araşdırmaların müəllifi professor Abbas Hacıyevin «Tiflis Azərbaycan teatrı» kitabından: «Zaqafqaziyanın müxtəlif şəhərlərində, Orta Asiya, İran, Türkiyə və başqa yerlərdə dönə- dönə qastrolda olan Tiflis Azərbaycan teatrı 20- ci illərdən (1920- ci illər nəzərdə tutulur- **A. B.**) fəaliyyətini daha da genişləndirir, çoxcəhətli yarvdıcılıq axtarışları aparırdı. Onun güclü və təcrübəli kollektivi tez- tez Gəncə, Qazax, Ağstafa, Şəki və Zaqatalada, habelə Gürcüstanın azərbaycanlılır yaşayan rayonlarında- Borçalı, Adıgün, Qarayazı, Başkeçid, Ağbulaq, Bolnisi, Axalsixi, Aspindza və Batumda zəngin repertuarla çıxış edirdi. Buna görə də Gürcüstanda yaşayan azərbaycanlıların dünyagörüşünün, bədii- estetik zövqünün formalaşmasında… Tiflis Azərbaycan teatrının əvəzsiz rolu olmuşdur».

Əlbəttə, bu teatrın tamaşaçıları təkcə azərbaycanlılardan ibarət deyildi. Orta Asiya, İran, Türkiyə və başqa yerlərdə tamaşalar göstərmiş teatr və teatrın ayrı- ayrı aktyorları bu yerlərdə də alqışlanmış və sevilmişdir. Tiflis Azərbaycan teatrının qastrollarının, xüsusən Türkiyə, İpan və İrəvan qastrollarının səhnə əsərlərimizin geniş miqyasda təbliği baxımından mühüm əhəmiyyətə malik olduğunu qeyd edən akademik Cəfər

Cəfərov truppanın İstanbulda geniş şöhrət qazanmasını, İrəvanda «Ölülər»in, Cənubi Azərbaycanda «Dəmirçi Gavə» və «Nadir şah»ın bir sıra çətinlik və maneələrə baxmayaraq uğurla göstərilməsini, Təbrizdə qadınlar üçün xüsusi tamaşa verilməsini teatr tariximizin maraqlı səhifələri hesab etmişdir.

Teatrın 1919- cu ildə təşkil olunmuş uzunmüddətli Türkiyə qastrolu barədə xüsusi danışmaq lazımdır.

Truppanın 1919- cu ilin əvvəllərində başlamış həmin qastrolu bir neçə ay davam etmişdir. Qastrolun təşkilatçısı və rəhbəri Tiflis Azərbaycan teatrının uğurlarında və təşkilatlanmasında xüsusi əməyi olan səhnə fədailərindən biri, «Mədəniyyət»in («Mədəniyyət» qəzeti - red) oxucularına aktyor və rejissor, eyni zamanda, dramaturq, pedaqoq, nəzəriyyəçi və teatr təşkilatçısı kimi təqdim etdiyimiz Mirseyfəddin Kirmanşahlı olub. Qastrol müddəində Türkiyə tamaşaçılarna təqdim olunmuş «Nadir şah», «Ağa Məhəmməd şah Qacar», «Pəri cadu», «Bəxtsiz cavan», «Dəmirçi Gavə» (Gaveyi-ahəngər»), «Əlmənsur», «Arşın mal alan», «O olmasın, bu olsun», «Leyli və Məcnun», «Əsli və Kərəm», «Əlli yaşında cavan» və «Evlikən subay» tamaşalarını da Mirseyfəddin Kirmanşahlı hazırlamışdı. Onun bu işdə köməkçisi isə İbrahim İsfahanlı idi. Bunlardan başqa, truppanı aktyorlarodan Mustafa Mərdanov, Əşrəf Yüzbaşov, Möhsün Sənani, Həsən Səbri, Paşa Məmmədov, Həsən Abdullazadə, Abbas İsmayılov, tarzən Hüseyn Qasımov, qadın səhnə ustalarından N. Kaftaradze, Tərlan xanım və başşqaları təmsil edirdilər.

Türkiyə mətbuatında qastrol tamaşalarının nümayişi ərəfəsində Azərbaycan teatr sənəti və ayrı- ayrı aktyorlar barədə, tamaşalar göstərildikdən sonra isə bu tamaşalar haqqında çoxsaylı məqalələr, habelə truppanın repertuarı, tamaşaların proqramları dərc edilirdi.

Bu materiallardan məlum olur ki, truppa gərgin işləmiş, İstanbulun bir neçə teatrında çıxış etmiş, gün ərzində bəzən bir neçə tamaşa göstərmişdir.

«Tamaşa» dərgisi «Arşın mal alan» tamaşasının proqramını dərc etmişdir. Proqramda əsərin «Azərbaycan dram və operetta kompaniyası» (Truppa Türkiyədə bu adla təqdim olunmuşdur- **A. B.**) tərəfindən «Millət» teatrında göstəriləcəyi barədə məlumat verilmiş, rejissorun (Mirseyfəddin Kirmanşahlı) və onun köməkçisinin (İbrahim İsfahanlı), habelə tamşada iştirak edən aktyoprların adları qeyd edilmişdir. Burada daha sonra yazılmışdır: «Asari- məzkur arasında bütün başqa dillərə tərcümə edilmiş, çox məşhur operetlərlə Şərq həyatına aid dram və məzhəkələr də vardır. Təmsillərdə Bəhriyyə nəzarəti- cəliləsinin Ərtoqrul orkestri ilə Qafqazın məşhur tarzənlərindən Hüseyn bəy Qasımov iştirak edəcəkdir».

Qeyd edək ki, Ərtoqrul Möhsün Türkiyənin məşhur teatr xadimi- rejissor və aktyor, eyni zamanda teatrşünas olmuşdur. Onun şəxsi professional orkestrinin truppanın sərəncamına verilməsi və musiqili tamaşaların bu orkestrin müşayiəti ilə oynanılması Türkiyəyə gəlmiş Azərbaycan aktyorlarına qarşı tərəfin məhəbbətinin, habelə inamının ifadəsi idi. Ərtoqrul Möhsün isə bütün tamaşalarda iştirak etmiş, truppaya təmənnasız hər cür kömək etmişdir. Beləliklə, truppanın Türkiyə qastrolu «Millət» teatrında «Arşın mal alan»ın nümayişi ilə başlamışdır. Tamaşada əsas rolları Mirseyfəddin Kirmanşahlı, İbrahim İsfahanlı, Mustafa Mərdanov, Möhsün Sənani, Paşa Məmmədov, xanım N. Kaftaradze, Tərlan xanım və başqaları ifa etmişlər. «Arşın mal alan» böyük uğur qazanmış və tamaşaçıların xahişi ilə qastrol müddətində dəfələrlə- 43 dəfə göstərilmişdir.

Xalq artisti Mustafa Mərdanovun xatirələrindən

məlum olur ki, o vaxtlar Türkiyədə olan Fransanın «Pate» kinofilm şirkətinin nümayəndələri də «Arşın mal alan»ı görmüş və əsəri ekranlaşdırmaq istəmişlər. Bununla əlaqədar «Pate»nin sədr müavini truppanın üzvləri ilə görüşmüş və onları Parisə dəvət etmişdir. O, təklif etmişdir ki, truppa Parisdə «Arşın mal alan»ı on dəfə oynasın və daha sonra əsər üç ay müddətində ekranlaşdırılsın. Lakin aktyorlar bununla razılaşmamış və Tiflisə qayıtmışlar. Təbii ki, aktyorlar əsərin müəllifinin- Üzeyir Hacıbəylinin bu barədə məlumatı və razılığı olmadan bu addımı atmamışlar.

Gürcüstanın xalq artisti İbrahim İsfahanlının xatirələrindən: «… İstanbulda göstərilən əsərlər çox maraqlı keçdi. Türkiyənin ən məşhur rejissorlarından Ərtoğrul (Ərtoqrul Möhsün nəzərdə tutulur- **A. B.**) bizim bu qastrolumuzun gözəl keçməsinə xeyli kömək etmişdi. Üzeyir bəyin «Leyli və Məcnun», «Əsli və Kərəm», «Şah Abbas və Xurşidbanu», «O olmasın, bu olsun», «Arşın mal alan», Zülfüqar bəyin «Əlli yaşında cavan», «Evliykən subay», Əbdürrəhim bəyin «Ağa Məhəmməd şah Qacar», «Pəri cadu», «Bəxtsiz cavan», «Dağılan tifaq», Nəriman Nərimanovun «Nadir şah», habelə « Gaveyi-ahəngər», «Əlmənsur» tamaşaları böyük müvəffəqiyyət qazandı. Mirseyfəddin Kirmanşahlı, Əşrəf Yüzbaşov, Mustafa Mərdanov, Möhsün Sənani və Tərlan xanım haqqında İstanbul jurnallarında böyük məqalələr dərc olunmuşdu…»

Bu tamaşalar İstanbulun müxtəlif teatrlarında- «Millət», «Odeon», «Qaziköy» və başqa teatrlarında göstərilir və hər dəfə alqışlanırdı.

Türkiyə mətbuatında dərc olunmuş «Bildiriş»lərdən: «Azərbaycan dram və operetta kompaniyası» qarşıdakı cümə günü yalnız xanımlar üçün, nəqliyyat

vasitəsi və hazırkı vəziyyət nəzərə alınaraq gündüz və axşam «Təpəbaşı» teatrında, cümə ertəsi gündüz və gecə Şahzadəbaşında «Millət» teatrında, bazar ertəsi günü və axşamı Qazıköyündə «Quşdili» teatrında Qafqaziyanın ən məşhur operetti «Məşədi İbad»ı oynayacaqdır».

Qastrol tamaşaları böyük uğurlar qazanır və tamaşa göstərmək üçün aktyorları Türkiyənin digər şəhərlərinə də dəvət edirdilər.

Qeyd etdiyimz kimi, mətbuatda tamaşalar və aktyorlar barədə məqalələr dərc olunur, habelə aktyorların fotoşəkilləri verilirdi. Ərtoqrul Möhsün truppa haqqında belə yazmışdı: «Azərbaycanlılar, istər müqtədir, istər qeyri- müqtədir olsunlar, bizə Qafqazın ötəsindən əsəri- sənət gətirirlər. Onların vəzifəsi uyuyan diyarın xalqına bir parça zövq, bir parça nəşə, bir parça sənət, bir parça gözəllik gətirməkdir. Onlar bizə kafi dərəcədə bunları gətirdilər. Çox təşəkkürlər edirik…»

Əlbəttə, qastrol zamanı bəzi problemlər də meydana çıxırdı. Lakin bunlar Tiflis Azərbaycan teatrı truppasının uğurlu çıxışlarına kölgə sala bilməmişdir. İstanbulda nəşr olunan nüfuzlu «Tamaşa» dərgisinin 1 aprel 1919- cu il tarixli sayında dərc olunmuş yazıda oxuduğumuz bu sətirlər hər birimizi bu gün də fərəhləndirir: «Üç aydan bəridir ki, azərbaycanlı artistlər İstanbuldadır. Onlar bu müddətdə «Millət», «Odeon», «Qaziköy» teatrlarında tamaşa vermişlər. Qafqazın zəngin səhnələrində tamaşa verməyə alışmış bu aktyorlar, bizim çürük- çarıq səhnələrimizdə yırtıq və arıq dekorların içində, heç də Avropanı təqlid etmədən, milli xəzinədən çıxardıqları əsərlərlə ruhumuzu oxşayan tamaşalar verirlər. Bu sənətkarlar davam etdikləri cığır ilə gedərək, daha mükəmməl bir zəmin və vasitələrlə, şübhə yoxdur ki, daha çox diqqəti cəlb edəcək əsərlər yarada bilərlər».

Əlbəttə, bu sözlər Azərbaycan teatr sənətinə və aktyorlarımıza verilən yüksək qiymətin ifadəsidir, uğurla keçmiş qastrol isə Azərbaycan- Türkiyə ədəbi- mədəni əlaqələri tarixində mühüm yer tutur.

Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, bu qastrolun, xalq artisti Mustafa Mərdanovun da yazdığı kimi, aktyorların yaradıcılığına müsbət təsiri olmuşdur. Onlar Türkiyədə öz həmkarları ilə təmasda olmuş, həmin vaxt İstanbulda qastrolda olan Fransanın məşhur «La» Komedi Fransez» teatrının aktyorlarının ifasında böyük fransız dramaturqu J. B. Molyerin «Don Juan» və «Jorj Danden» əsərlərinin tamaşalarına baxmış, ifaçılarla görüşmüş və bundan çox bəhrələnmişlər.

Bu qastrodan sonra Tiflis Azərbaycan teatrının fəaliyyəti daha da canlanmış, məhz Mirseyfəddin Kirmanşahlının rəhbərliyi və iştirakı ilə «Nadir şah», «Qaçaqlar», habelə «Jorj Danden» kimi iri həcmli tamaşalar hazırlanmış və nümayiş etdirilmişdir.

**2012**

# ONLAR İLK SƏNƏT ADDIMLARINI TİFLİS AZƏRBAYCAN TEATRINDA ATMIŞLAR

## MÖHSÜN SƏNANİ

Ayrı-ayrı dramaturqların, habelə rejissor və aktyorların yetişməsində Tiflis Azərbaycan teatrının rolu danılmazdır. İlk addımlarını burada atan, bərkiyən bir sıra teatr həvəskarları sonradan Azərbaycanın müxtəlif teatrlarının aparıcı aktyoru olmuş, milli kinomuzun iftixarına çevrilmişlər.

Görkəmli səhnə xadimlərindən Mustafa Mərdanov, Əli Qurbanov, Mirseyfəddin Kirmanşahlı, Ülvi Rəcəb, Əbülfət Vəli və bir çox başqaları ilk səhnə addımlarını bu teatrda atmış, Aleksandr Tuqanovun Azərbaycan teatrı ilə ilk tanışlığı burada olmuşdur.

Tiflis teatrının Azərbaycan səhnəsinə verdiyi simalardan biri də qüdrətli teatr və kino aktyoru, xalq artisti Möhsün Sənanidir.

Möhsün Sənani 1900-cü ildə Tiflisdə doğulub. Kiçik yaşlarında ata-anasını itirib və buna görə də xalası Zinyət xanımın himayəsidə yaşayıb. Qeyd edək ki, Zinyət xanım iki tanınmış aktyorun- Azərbaycanın xalq artisti Əli Qurbanovun və Gürcüstanın əməkdar artisti Abbas Qurbanovun anasıdır.

Möhsün kiçik yaşlarından teatr sənətinə xüsusi həvəs göstərmiş, Tiflisdə göstərilən qastrol tamaşalarına

maraqla baxmışdır. İlk dəfə o, «Şəbeh» mərasimdə uşaq obrazı yaratmışdır. Teatrşünas Azad Dadaşov aktyorun şəxsi arxivindən götürdüyü xatirələrindən aşağıdakı parçanı özünün «Möhsün Sənani» kitabına daxil etmişdir: «Uşaqlıqda ürəyəyatan məlahətli səsim vardı. Məhəllə qızları, qadınları bir yerə yığışanda həmişə məni aparıb oxutdurardılar. Qonşuluğumuzda yaşayan görkəmli Azərbaycan aktyorlarından Mirzəxan Quliyev, Mirseyfəddin Kirmanşahlı, İbrahim İsfahanlı və Həsən Səbri mənim səsimi eşitmişdilər. Bir gün onlar məni teatra dəvət etdilər... Əvvəllər teatrda sözsüz rollarda çıxış edərdim. Bəzi tamaşalarda isə oxumaq lazım gəldikdə səhnənin arxasında durub həvəslə oxuyardım».

Məhz həmin vaxtlar o, teatr həvəskarı kimi müxtəlif tamaşalarda çıxış edir. Onun «Xorxor» tamaşasında yaratdığı Seyfulla obrazı uğurlu alınır. Mirzəli Abbasov, Mirzəxan Quliyev, İbrahim İsfahanlı və başqa aktorlar onun istedadını yüksək qiymətləndirirlər. Bu isə Möhsünü daha da həvəsləndirir və ömür yolunu müəyyənləşdirir- o, aktyor sənətini seçir.

Yeri gəlmişkən qeyd edək ki, Mirzəxan Quliyev istedadlı komik aktyor və rejissor olmuşdur. Müasirlərinin xatirələrindən məlum olur ki, Tiflis teatrının səhnəsində yaratdığı Kərəməli («Hacı Qara»), Hacı Qəmbər («Hacı Qəmbər»), Muradxan («Əlli yaşında cavan»), Jorj Danden («Jorj Danden») obrazları onu xeyli şöhrətləndirmişdir. Mirzəxan Quliyev özünün hazırladığı «Zorən təbib» tamaşasında təbib rolunda böyük uğurla çıxış etmişdir. Tiflis teatrının bir sıra aktyorları sənət sirlərini məhz ondan öyrənmişlər.

Bu teatrda aktyorların yetişməsində xüsusi xidmətləri olan sənətkarlardan biri də Gürcüstanın əməkdar artisti Mirzəli Abbasovdur. Möhsün Sənani də sənət sir-

lərini ilk dəfə bu iki aktyordan öyrənmiş və sonradan Azərbaycan teatrı və kinosunun qüdrətli simalarından birinə çevrilmişdir.

Möhsün Sənaninin səhnə həyatının unudulmaz anlarından biri məhz Tiflisdə böyük sənətkar Hüseyn Ərəblinskinin hazırladığı tamaşada çıxış etməsi və onunla tərəf-müqabil olmasıdır.

Hüsyn Ərəblinski 1914-cü ildə Tiflisə gəlir və burada yerli aktyorların iştirakı ilə türk yazıçısı Şəmsəddin Saminin «Gaveyi-ahəngər» pyesini tamaşaya hazırlayır. Möhsünə bu tamaşada Bəhram rolu tapşırılır və gənc aktyor ona tapşırılan işin öhdəsindən ləyaqətlə gəlir.

Tədqiqatçılardan Abbas Hacıyevin və Azad Dadaşovun araşdırmalarına istinadən demək olar ki, məhz bu tamaşadan sonra Möhsün Sənani daha da şöhrətlənmiş və bu uğur onun inkişafında mühüm rol oynamışdır.

Möhsün Sənani 1914-1919- cu illər arasında Tiflis teatrında «Gaveyi-ahəngər»də Bəhramla yanaşı, həm də Qəhlan, «Nadir şah»da Rzaqulu və Heydər xan, «Arşın mal alan»da Vəli, «Dağılan tifaq»da Süleyman bəy, «Otello»da Kassio, «Qaçaqlar»da Roller, «O olmasın, bu olsun»da Hambal, «Hacı Qara»da Heydər bəy, «Ağa Məhəmməd şah Qacar»da Rza xan və başqa maraqlı obrazlar yaratmaqla tamaşaçıların rəğbətini qazanmışdır. Aktyorun yaratdığı Vəli («Arşın mal alan») obrazı onu tamaşaçıların sevimlisi etmişdi. Qeyd edək ki, Möhsün Sənani həmin tamaşada Telli rolunun da ifaçılarından olub.

Tiflisdə doğulmuş və bütün ömrünü burada yaşamış qohumumuz 1970-ci illərdə bu teatrın aktyorları barədə söhbətimiz zamanı belə demişdi: «Tiflis teatrının bir çox tamaşalarına, o cümlədən bu tamaşa hər dəfə göstərilərkən salonda oturmağa yer tapılmazdı. Akt-

yorları alqışlayardılar. Mən Vəli rolunda həm Möhsün Sənanini, həm də Abbas Qurbanovu görmüşəm. Hər ikisi ürəklə oynayırdı. Tamaşaçıların arzusu ilə Vəli-Telli dueti bir neçə dəfə təkrar edilirdi».

Tiflis teatrının 1919-cu ildə Türkiyəyə qastrolu zamanı göstərilən uğurlu tamaşalar digər aktyorlarla yanaşı, hələ çox gənc olan Möhsün Sənanini də şöhrətləndirir. Aktyorların bu səfəri barədə qastrolun iştirakçılarından Mustafa Mərdanov və İbrahim İsfahanlının xatirələrində, habelə professor Abbas Hacıyevin «Tiflis Azərbaycan teatrı» kitabında maraqlı məqamlara rast gəlirik.

Qastrol İstanbulun «Millət» teatrında «Arşın mal alan» tamaşası göstərilməklə açılmışdır. Möhsün Sənani bu tamaşada Vəli rolunda çıxış etmişdir. İlk tamaşa çox uğurlu keçmiş və tamaşaçıların istəyi nəzərə alınaraq «Arşın mal alan» qastrol müddətində 43 dəfə göstərilmişdir.

Qastrol müddətində «Arşın mal alan»la yanaşı «O olmasın, bu olsun», «Nadir şah», «Ağa Məhəmməd şah Qacar», «Dağılan tifaq», «Gaveyi-ahəngər», «Pəri cadu», «Əlli yaşında cavan», «Bəxtsiz cavan», «Əsli və Kərəm» və başqa tamaşalar da oynanılmışdır.

Ümumiyyətlə isə truppanın bütün tamaşaları çox uğurla keçmiş və hər bir tamaşa, habelə ayrı-ayrı aktyorlar barədə Türkiyə mətbuatında maraqlı məqalələr dərc edilmişdir. Əlbəttə, bu uğurların qazanılmasında Möhsün Sənaninin də öz payı vardı.

Teatrşünas Azad Dadaşov aktyorun uğurları barədə belə yazmışdır: «Təkcə bunu göstərmək kifayətdir ki, Möhsün Sənaninin türk tamaşaçıları tərəfindən səmimiyyətlə qarşılanmasının şahidi olan truppanın rəhbəri və rejissoru Mirseyfəddin Kirmanşahlı aktyorun şərəfinə

benefis keçirməyi qərara alır. Həmin gecə üçün çap olunmuş afişa və vizit biletləri indi də aktyorun arxivini bəzəyir». (Müəllif bu sətirləri aktyorun sağlığında qələmə alıb).

Qastrol başa çatdıqdan sonra Möhsün Sənani öz arzularını daha böyük səhnədə reallaşdırmaq üçün Bakıya gedir. «Vaqif»də Eldar, «O olmasın, bu olsun»da Qoçu Əsgər obrazlarını yaratmaq, neçə-neçə obraza öz möhürünü vurmaq üçün.

2011

## MUSTAFA MƏRDANOV

İlk addımlarını Tiflis Azərbaycan teatrında atan səhnə xadimlərindən biri də görkəmli dram və kino aktyoru, teatr təşkilatçısı, Azərbaycanın xalq artisti Mustafa Mərdanov (1894-1968) olub. İndiki gənc nəsil onu səhnədə görməyib. Ancaq Mustafa Mərdanovun iştirakı ilə çəkilmiş «Fətəli xan», «Görüş», «O olmasın, bu olsun», «Səhər», «Əhməd haradadır?» və başqa filmlərə bu gün də maraqla tamaşa edilir.

Görkəmli teatrşünas, akademik Cəfər Cəfərovun aktyorun «50 il Azərbaycan səhnəsində» (Bakı, 1959) adlı xatirələr kitabına yazdığı ön sözdə oxuyuruq: «Azərbaycan teatrı dedikdə təkcə Azərbaycanda fəaliyyət göstərən truppaları nəzərdə tutmaq olmaz. «Azərbaycan teatrı» məfhumu daha genişdir. Çünki Azərbaycan teatrı eyni zamanda Gürcüstanda, Ermənistanda, Orta Asiyada, xüsusən Türkmənistanda, habelə Cənubi Azərbaycanda da inkişaf etmişdir. Uzun müddət Zaqafqaziyanın inzibati və mədəni mərkəzlərindən olan Tiflis şəhərində Azərbaycan teatrı hələ keçən əsrin axırlarından fəaliyyət göstərməyə başlamış və bu fəaliyyət getdikcə genişlənərək Azərbaycan teatrının ümumi inkişafına səmərəli təsir göstərmişdir. Mustafa Mərdanov Tiflisdə doğulub böyüdüyündən onun səhnə fəaliyyəti bir müddət məhz buradakı Azərbaycan teatrı ilə bağlı olmuşdur».

Mustafa Mərdanov 1894-cü ildə Tiflisdə doğulub. 1905-ci ildə burada gimnaziyaya daxil olub. 1909-cu ildə gimnaziyayanın dördüncü sinfində oxuduğu vaxt Tiflisdə, «Kazyonnı teatr»da «Faust» operasının tamaşasına baxmış və bu onun həyatında, sonradan

özünün yazdığı kimi, «ən böyük hadisələrdən biri» olmuş, eyni zamanda, ömür yolunu müəyyənləşdirmişdir.

Aktyorun xatirələrindən: «Faust» operasının tamaşası, xüsusən, qoca doktorun dönüb cavan olması səhnəsi mənə böyük təsir bağışladı. O gündən mənim bütün istirahətim pozuldu, fikrim-zikrim teatr oldu. Hər gün məktəbə gedəndə evdə mənə pul verirdilər ki, yeməyə bir şey alım. Mən bu puldan qənaət eləyib teatra bilet alırdım».

O, müntəzəm olaraq tamaşalara gedər, teatr tarixinə aid, habelə ayrı-ayrı aktyorlar haqqında məqalə və kitablar oxuyardı, məhərrəm ayında keçirilən şəbih tamaşalarına da maraqla baxar, hətta bu mərasimlərin məşqlərində də iştirak edərdi.

Mustafa Mərdanovun atası Hacı Haşım və əmisi Əbdülməhəmməd əsasən ticarətlə məşğul olsalar da, teatrı çox sevir, artistlərə maddi və mənəvi yardım göstərirdilər. Qardaşlar Tiflis ziyalıları, o cümlədən Tiflis teatrının aktyorları ilə müntəzəm olaraq görüşür, onlarla dostluq edirdilər. Bu görüşlərdə Mustafa da iştirak etməyə çalışar, onların söhbətlərinə diqqətlə qulaq asardı.

Aktyor olmaq həvəsi bir an onu tərk etmirdi. Nəhayət, 1909-cu ildə bu arzusunun reallaşdırılması yolunda ilk addımını atır.

Mustafa həmin il öz həmyaşıdlarının iştirakı ilə (bunların arasında sonradan Gürcüstanın xalq artisti adına layiq görülmüş İbrahim İsfahanlı və Tiflis teatrının aktyoru Nadir İbrahimov da olmuşdur) Azərbaycan dilinə tərcümə edilmiş «Xor-xor» vodevili əsasında tamaşa hazırlayır. Bu tamaşa qonşunun zirzəmisində göstərilir və maraq doğurur. Mustafa Mərdanov və dostları bundan ruhlanaraq tamaşanı bir həf-

tədən sonra təkrar göstərir və qrim etmək üçün Tiflis teatrının aktyoru Mirzəxan Quliyevi dəvət edirlər. Mirzəxan Quliyev tamaşada Seyfulla rolunda çıxış edən Mustafa Mərdanovun oyununu bəyənir və bu barədə onun atasına məlumat verir, gənc «aktyoru» tərifləyir. Beləliklə də Mustafa Mərdanovun böyük səhnəyə çıxması üçün «yaşıl işıq» yanır.

1910-cu ildən başlayaraq o, Tiflis teatrının aktyorları ilə dostlaşır və bu teatrın tamaşalarında aktyor kimi iştirak edir. Mustafa Mərdanov bu teatrın aktyoru və təşkilatçısı Mirzəli Abbasovun məsləhətlərindən xeyli faydalanır və bir aktyor kimi özünü təsdiq edir.

Onun bu teatrda ilk rolu J.B.Molyerin «Zorən təbib» komediyasında nökər Valerik olur. Bu tamaşanı Mirzəxan Quliyev hazırlamışdı. Aktyorun xatirələrindən: «Birinci rolu alandan sonra bir neçə gün iştaham tamam kəsildi, boğazımdan su da keçmədi. Görüb-götürmüş aktyorlara yanaşıb, oynayacağım rol haqqında onlardan məsləhətlər alırdım… Nəhayət, tamaşa günü gəlib çatdı. Hər gün gördüyüm teatr binası elə bil dəyişmişdi, nə üçünsə qorxurdum. Səhnənin yolunu güc-bəla ilə tapıb artistlərin otağına gəldim, geyinməyə başladım. Sözün doğrusu, nə cür oynadığım yadımda deyildir, ancaq dedilər ki, yaxşı oynamışam».

Mustafa Mərdanovun bu teatrda ikinci rolu Hacı Qəmbər («Hacı Qəmbər») olur. Mirzəli Abbasovun hazırladığı tamaşa  Zubalov Xalq Evində (indiki K.A.Marcanaşvili adına teatr) göstərilir. Mustafa Mərdanov bu tamaşada da uğur qazanır. Lakin bu uğur ona bir məyusluq də gətirir. Aktyorun xatirələrindən: «Gördüm ki, tamaşaçılar əl çalırlar. Bu məni ruhlandırdı… Sevincək aktyor otağına tərəf  yollandım. Bir də gördüm gimnaziyanın inspektoru qapının ağzında dayanıb. O məni

Hacı Qəmbərin paltarında, qrimdə görüb belə dedi: -Sinifdə bir kəlmə danışa bilmirsən, dilin topuq vurur, burada dil-dil ötürsən. Atana de ki, sabah gəlib sənədlərini aparsın.

Ertəsi gün məni artistlik etdiyimə görə gimnaziyadan qovdular».

Bir müddət sonra Azərbaycan səhnəsinin məşhur aktyoru Hüseyn Ərəblinski Tiflisdə olarkən Mustafa Mərdanov bu barədə ona məlumat verir. Hüseyn Ərəblinskinin məsləhəti ilə Mustafa Mərdanov müvəqqəti olaraq səhnədən ayrılır və gimnaziyada təhsilini davam etdirir. Ancaq boş vaxtlarında yenə teatra gedir, aktyorların məşqlərinə baxırdı…

Bir müddətdən sonra yenidən səhnəyə qayıdır və burada professional bir sənətkar kimi yetişir, püxtələşir. Professor Abbas Hacıyev «Tiflis Azərbaycan teatrı» kitabında yazır: «Mirzəli Abbasov, M.S.Kirmanşahlı, Ə.Yüzbaşov və Mirzəxan Quliyevin qayğısı ilə səhnəyə gələn Mustafa Mərdanov 1922- ci ilin sonuna qədər Tiflis Azərbaycan teatrında fəaliyyət göstərmiş, burada… müasir səhnənin yaranmasında əsas simalardan biri olmuşdur».

Mustafa Mərdanov 1910- cu illərdə bu teatrın bir dəstə aktyoru ilə İrəvan, Təbriz və İstanbul şəhərlərinə qastrola getmiş, bu qastrolların təşkilatçılarından və iştirakçılarından biri kimi tanınmışdır.

İrəvan qastrolu zamanı «Dəmirçi Gavə» («Gaveyi-ahəngər»), «Ölülər», «Arşın mal alan» və «Bəxtsiz cavan» tamaşalarının göstərilməsi təzərdə tutulmuşdu. O vaxtlar sənət yollarında ilk addımlarını atan gənc xanəndə Bülbülün və tarzən Məşədi Cəmil Əmirovun İrəvanda olmasından istifadə edən aktyorlar Bülbülün iştirakı ilə «Əsli və Kərəm» operasını da tamaşaya qo-

yurlar. Bülbül, eyni zamanda, «Arşın mal alan»da da çıxış edir.

Uğurlu tamaşaları ilə İrəvanlı soydaşlarımızı valeh edən aktyorlar bir az keçməmiş çətin vəziyyətdə qalmışlar: «Ölülər»də Şeyx Nəsrullah obrazını məharətlə yaradan «Molla Nəsrəddin»çi» şair Əliqulu Nəcəfov (Qəmküsar) tamşanın ertəsi günü İrəvanın mövhumatçı möminləri tərəfindən döyülür. Qeyd edək ki, Mustafa Mərdanov həmin tamaşada Hacı Həsən rolunu oynayırdı. Lakin bu hadisə truppanı ruhdan salmır, aktyorlar nəzərdə tutulmuş bütün tamaşaları göstərir və Tiflisə qayıdırlar.

Mustafa Mərdanovun sənət dostları ilə növbəti səfəri Təbrizə olur. Bu səfər zamanı yuxarıda qeyd olunan tamaşalarla yanaşı («Ölülər»dən başqa), «Əlli yaşında cavan» və «Nadir şah»ı, habelə bir sıra vodevilləri Təbriz və Mərənd tamaşaçılarına təqdim edirlər. Professor Abbas Hacıyevin «Tiflis Azərbaycan teatrı» kitabından: «Qastrolun (Təbriz qastrolu nəzərdə tutulur-**A.B.**) təşəbbüskarları Əşrəf Yüzbaşovla Mustafa Mərdanov idi. Tamaşaların rejissorluğu İbrahim İsfahanlıya, musiqi hissələrinin idarəsi Haşım Haşımova tapşırılmışdı… Truppa çətinliklərə məruz qalsa da, Təbriz və Mərənddə bir sıra tamaşalar verib, böyük müvəffəqiyyət qazandı».

Tiflis teatrının 1919-cu ildə Türkiyəyə uğurlu qastrolu barədə «Mədəniyyət»in ("Mədəniyyət" qəzeti-red.) oxucularına məlumat vermişik. Bir şeyi xatırladaq ki, tamaşaçıların istəyi nəzərə alınaraq qastrol müddətində «Arşın mal alan» 43 dəfə göstərilmişdir. Bu tamaşada əsas rollardan birini- Sultan bəy rolunu Mustafa Mərdanov oynamışdır. Qastrol zamanı Türkiyə mətbuatında ayrı-ayrı tamaşalar ,habelə aktyorlar haqqında müsbət rəylər dərc edilirdi. «Tamaşa» dərgisində Mustafa Mərdanov

barədə belə yazılmışdı: «Həyatda həlim, səlim və bütün qüdrət və məziyyətini inkar edən bu gənc, eyni bir ustad əlində, xariqələr göstərəcək dərəcədə istiqbale badayeyə vəd rəfah ediyor. Bizə Qafqasın bəlli başlı, bütün xüduti müəyyən tiplərini göstərənlərdən biri də Mustafa bəydir». (Sitat Mustafa Mərdanovun «50 il Azərbaycan səhnəsində» (Bakı, 1959) kitabından götürülmüşdür.)

Mustafa Mərdanov 1921- ci ildən fəaliyyətini rəsmi olaraq Tiflis Azərbaycan Dövlət Dram Teatrında davam etdirir. O, 1922- ci ildə bu teatrın Bakı şəhərində göstərdiyi qastrol tamaşalarında iştirak edir. Daha sonra Azərbaycan hökuməti tərəfindən bir neçə aktyorla birlikdə təhsil almaq üçün Moskvaya göndərilir.

Oradan qayıtdıqdan sonra bütün ömrünü Azərbaycan kinosu və teatrı ilə bağlayır.

**2011**

## MİRSEYFƏDDİN KİRMANŞAHLI

İlk addımlarını Tiflis Azərbaycan teatrında atan, bu teatrın uğurlarında və təşkilatlanmasında xüsusi əməyi olan səhnə fədailərindən biri də Mirseyfəddin Kirmanşahlı olub. O, teatr tariximizdə öz sənət dostları-Mirzəli Abbasov, Mirzəxan Quliyev və İbrahim İsfahanlı kimi aktyor və rejissor, eyni zamanda, dramaturq, pedaqoq, nəzəriyyəçi və teatr təşkilatçısı kimi tanınır.

Mirseyfəddin Kirmanşahlı əslən Cənubi Azərbaycanın Kirmanşah şəhərindəndir. Valideynləri XlX əsrin sonlarında Tiflisə köçmüş və Mirseyfəddin də 1892- ci ildə burada doğulmuşdur. Doğmalarını çox tez itirən Mirseyfəddin kiçik yaşlarından özü- özünü dolandırmağa məcbur olsa da, həyat sınağından şərəflə çıxmış, ehtiyac içində yaşasa da, qürurunu itirməmiş, heç kəsə baş əyməmişdir.

Sənətkarın uşaqlıq dostu və həmkarı Mustafa Mərdanovun xatirələrində onun həyatının ilk və sonrakı dövrləri, habelə fəaliyyəti ilə bağlı xüsusi maraq doğuran bir sıra məqamlarla rastlaşırıq.

Ehtiyac içində yaşayan bu uşaq təhsil almaq, biliyini artırmaq üçün fədakarlıq etmiş, eyni zamanda, teatra da xususi həvəs göstərmişdir. O, əvvəlcə Tiflisdə xeyriyyə məktəbində, sonra isə rus-tatar məktəbində təhsil almışdır. Mustafa Mərdanovun yazdıqlarından: «Hər gün Mirseyfəddin dərsdən sonra bizə gələrdi, verilən dərsləri bərabər hazırlayardıq… Bizi birləşdirən və dostluğumuzu get- gedə artıran bir amil də var idi; o da teatra, səhnəyə böyük həvəs və məhəbbətimiz idi. Biz bu barədə çox söhbət edərdik, teatra aid kitablar oxuyardıq. İmkanımız olanda teatra gedər, Azərbaycan aptistləri ilə

tez-tez görüşməyə və söhbət etməyə can atardıq. Teatrda tamaşalara baxdıqdan sonra  Mirseyfəddini tanımaq olmurdu. O, atəş içərisində yanırdı. Onu qəhrəman rolları və səhnə tərtibatı olduqca maraqlandırırdı. İllər keçdikcə Mirseyfəddində səhnəyə həvəs və məhəbbət daha da artırdı». Bu mənbədən məlum olur ki, həvəs tezliklə onu teatra gətirir. Həvəskar aktyor əvvəllər sözsüz rollarda, bir qədər sonra isə kiçik rollarda səhnəyə çıxır. Tiflis Azərbaycan teatrının yaranmasında müstəsna xidmətləri olan Mirzəli Abbasov və Əşrəf Yüzbaşov ona inanır və məsul rollar verməyə başlayırlar. Mirseyfəddin Kirmanşahlı həmin vaxtlar  Mirzəli Abbasov, Əşrəf Yüzbaşov, Mirzəxan Quliyev, Həbib Köçərlinsli kimi tanınmış səhnə ustaları ilə birlikdə «Ağa Məhəmməd şah Qacar», «Nadir şah», «Qaçaqlar», «Dağılan tifaq», «Bəxtsiz cavan», «Arşın mal alan», «O olmasın, bu olsun”, «Hacı Qara», «Yağışdan çıxdıq, yağmura düşdük», «Zorən təbib», «Müsyö Jordan və dərviş Məstəli şah» tamaşalarında çıxış edir.

Tiflis Azərbaycan teatrının truppası 1911- ci ildə iki dəstəyə bölünür və dəstələrdən birinə Mirseyfəddin Kirmanşahlı rəhbərlik edir. 1912- ci ildə Tiflisdə «Auditoriya» açılır (bu barədə «Mədəniyyət»in (“Mədəniyyət” qəzeti-red.) oxucularına məlumat vermişik) və bu dəstələr birləşir.

Professor Abbas Hacıyevin «Tiflis Azərbaycan teatrı» kitabından: «Tiflisdə Azərbaycan Xalq Evi- «Auditoriya» açıldıqdan sonra Tiflis Azərbaycan teatrının tamaşaları musiqi və tərtibatın dərinliyi, aktyor oyununun təzəlik və orijinallığı ilə fərqlənir, ayrı-ayrı tamaşalar qızğın müzakirə və mübahisəyə səbəb olur. Tiflis Azərbaycan teatrı öz ətrafında güclü və istedadlı aktyor kollektivini birləşdirir, qadın rollarını ancaq

aktrisalar aparırdı. Mirzəli Abbasov, Mirseyfəddin Kirmanşahlı, Əşrəf Yüzbaşov, Həbib Köçərlinsli, Mirzəxan Quliyev, Panfiliya Tanailidi, Əşrəf Yüzbaşov… və başqaları nüfuzlu, şüur, düşüncə və mənəviyyata təsir edə bilən sənətkar kimi tanınırdılar».

Həmin vaxtdan başlayaraq Kirmanşahlı həm də rejissor kimi fəaliyyət göstərir.

Müasirlərinin yazdıqlarından məlum olur ki, o, səhnə fəaliyyətinin ilk illərində Pərviz və Gavə («Gaveyi-ahəngər»), Əlmənsur («Əlmənsur»), Əsgər («Arşın mal alan»), Sərvər («O olmasın, bu olsun»), Qurban («Pəri cadu»), Heydər bəy («Hacı Qara»), Nəcəf bəy («Dağılan tifaq») və başqa rollarda çıxış etmiş, tamaşaçı rəğbəti qazanmışdır. Lakin Kirmanşahlı özünü hələ yetkin aktyor hesab etmir, daim axtarışlar aparır, öyrənirdi. Bu məqsədlə o, Tiflisdəki digər teatrların aktyorları, habelə şəhərə qastrola gələn aktyorlarla görüşür və söhbətləşir, böyük sevinclə onlarla eyni tamaşada oynayırdı.

1916- cı ildə Tiflis teatrının bir dəstə aktyoru İrəvan şəhərinə qastrola gedir. Truppanın repertuarına «Gaveyi-ahəngər», «Arşın mal alan», «Ölülər» və «Bəxtsiz cavan» tamaşaları daxil edilmişdi. Tamaşaların rejissoru Mirseyfəddin Kirmanşahlı idi. «Ölülər»də İsgəndər rolunun ifaçısı Nadir İbrahimov qastrola gedə bilmədiyinə görə əsərin müəllifinin-Cəlil Məmmədquluzadənin tövsiyəsi ilə bu rolda Kirmanşahlı özü çıxış edir və uğur qazanır.

Bu qastroldan sonra o, xeyli məşhurlaşır, yeni tamaşalarda yeni obrazlar yaradır.

Tiflis teatrının 1919-cu ildə Türkiyəyə qastrolu nəticəsində isə bu truppanın üzvlərinin, o cümlədən Mirseyfəddin Kirmanşahlının şöhrəti daha geniş miqyasda yayılır. Qeyd edək ki, bu illərdə artıq Kirmanşahlı yalnız

istedadlı aktyor və rejissor kimi yox, həm də bacarıqlı bir təşkilatçı kimi özünü təsdiq etmişdi. Buna görə də həmkarları qastrol müddətində truppaya rəhbərliyi ona həvalə etmişdilər. Bundan başqa, Kirmanşahlı qastrol müddətində göstəriləcək bir çox tamaşaların rejissoru və həm də əsas iştirakçılarından biri idi. Qastrol müddətində «Gaveyi-ahəngər», «Əlmənsur», «Arşın mal alan», «O olmasın, bu olsun», «Əsli və Kərəm», «Ağa Məhəmməd şah Qacar», «Nadir şah», «Pəri cadu», «Dağılan tifaq», «Bəxtsiz cavan», «Əlli yaşında cavan», «Leyli və Məcnun», «Evliykən subay» tamaşaları göstərilmişdir.

Əvvəlki yazılarımızda Tiflis teatrının Türkiyəyə qastrolu barədə «Mədəniyyət»in ("Mədəniyyət" qəzeti-red.) oxucularına məlumat vermiş və mənbələrə istinadən yazmışdıq ki, tamaşaların göstərilməsi ərəfəsində Türkiyə mətbuatında ayrı-ayrı tamaşalar və aktyorlar haqqında məlumat verilmiş, truppanın repertuarı təqdim edilmişdi. Qastrol zamanı isə Türkiyə mətbuatında ayrı-ayrı tamaşalar, habelə aktyorlar haqqında müsbət rəylər dərc edilirdi.

İstanbul mətbuatında dərc edilmiş elan: «Şahzadəbaşında Millət teatrı, Azərbaycan kompaniyasının böyük müsamirəsi, səhnəmizdə misalına nadir təsadüf edilən məşhur tarixi faciə: Ə. Haqverdiyev- «Ağa Məhəmməd şah Qacar».

Ağa Məhəmməd şah- M.S. Kirmanşahlı. Rejissor- M.S. Kirmanşahlı». (Qulam Məmmədli. «Azərbaycan teatrının salnaməsi», Bakı, 1975, s.519).

İstanbulda çıxan «Tamaşa» dərgisinin 1919-cu il 1 mart tarixli sayında məşhur türk aktyoru və rejissoru Ərtoqrul Möhsünün «Azərbaycanlıların İstanbula ziyarətləri münasibətilə» adlı məqaləsi dərc edilmiş, birinci səhifədə Mirseyfəddin Kirmanşahlının fotoşəkli veril-

miş və fotoşəklin altında «Azərbaycan türk operet və dram kompaniyası rejissoru Mirseyfəddin Kirmanşahlı» sözləri yazılmışdı.

Dərginin növbəti səhifəsində isə oxuyuruq: «Son dərəcə sevimli, tərbiyəli və nazik olan bu sənətkar (Mirseyfəddin Kirmanşahlı – **A.B.**) Azərbaycan heyət tamaşasının ilk rəhbərlərindəndir. Burada həcbilicab operetlərdə oynaması və sevdiyi dramlardan məhçur qalması Mirseyfəddinin sənətini bizə tamamilə ibraz etməsini mütəəsər buraxmışdır». (Sitat Mustafa Mərdanovun «Mənim müasirlərim» (Bakı, 1973) kitabından götürülmüşdür).

Mirseyfəddin Kirmanşahlının rəhbərlik etdiyi truppaya «Tamaşa» dərgisinin 1 aprel 1919- cu il tarixli sayında verilmiş daha bir dəyər: «Üç aydan bəridir ki, azərbaycanlı artistlər İstanbuldadır. Onlar bu müddət içərisində «Millət», «Odeon», «Qaziköy» teatrlarında tamaşa vermişlər. Onu da qeyd edək ki, «Tamaşa» dərgisinin həmin sayının üz qabığında Mirseyfəddin Kirmanşahlının fotoşəkli verilmişdir.

Bu uğurlu qastroldan sonra Tiflis teatrının fəaliyyəti daha da canlanır, məhz Kirmanşahlının rəhbərliyi və iştirakı ilə hazırlanmış «Nadir şah», «Jorj Danden», «Qaçaqlar» kimi iri həcmli tamaşalar nümayiş etdirilir.

Mirseyfəddin Kirmanşahlı 1919- cu ilin payızında Bakıya dəvət olunur və 1921- ci ilədək səhnə fəaliyyətini burada davam etdirir. 1921- ci ildə Gürcüstan hökuməti onu Tiflisə rejissor vəzifəsinə dəvət edir. O, burada «Əbülüla» tamaşasını hazırlayır və özü də baş rolda çıxış edir. Bu tamaşa 1922- ci ildə Rustaveli teatrının səhnəsində göstərilir və xüsusi komissiya tərəfindən bəyənilir, teatra dövlət teatrı statusu verilir. Beləliklə də 1922- ci ildə M.F.Axundov adına Tbilisi Azərbaycan

Dövlət Dram Teatrı yaradılır. Elə həmin il yeni yaradılmış Tbilisi Azərbaycan Dövlət Dram Teatrı Mirseyfəddin Kirmanşahlının rəhbərliyi ilə Bakıya qastrola gedir.

Bu qastrol dövlət teatrı kimi Tiflis teatrının ilk rəsmi səfəri idi. Qastrol repertuarına J.B.Molyerin «Jorj Danden», Hüseyn Cavidin «Uçurum», Böyükağa Talıblının «Keyf içində» və Mirseyfəddin Kirmanşahlının özünün qələmə aldığı «Üç cərəyan» pyesləri əsasında hazırlanmış tamaşalar daxil edilmişdi.

Qastrol başa çatdıqdan bir qədər sonra teatrın aktyorlarından Mirseyfəddin Kirmanşahlı və Mustafa Mərdanov, habelə Bakı teatrından daha iki aktyor Azərbaycan hökumətinin qərarı ilə professional teatr təhsili almaq üçün Moskvaya göndərilirlər.

Təhsil alıb qayıdan Mirseyfəddin Kirmanşahlı həyatını Azərbaycan teatrı və kinosuna həsr etmişdir.

**2011**

# ƏLİ QURBANOV

Görkəmli dram və kino aktyoru, Azərbaycanın xalq artisti Əli Qurbanov (1898-1962) ilk sənət addımlarını Tiflis Azərbaycan teatrında atmışdır. İndiki gənc nəsil onu «Səbuhi», «Fətəli xan», «Qara daşlar», «Ögey ana», «Koroğlu», «Bir qalanın sirri», «Böyük dayaq» və başqa filmlərdə yaratdığı obrazlar vasitəsilə tanıyır.

Əli Qurbanov 1898-ci ildə Tiflisdə anadan olub. Onun atası Mirzəli kişi dəmir yolunda fəhləlik edirdi. O, övladlarını oxutmaq, hər hansı bir sahə üzrə savadlı mütəxəssis etmək istəyirdi. Bu məqsədlə də oğlu Əlini məktəbə qoymuşdu. Lakin o, qəflətən dünyasını dəyişdi və bu arzularını da özü ilə qara torpağa apardı. Buna görə də Əli başsız qalmış ailəni dolandırmaq üçün erkən yaşlarından işləməyə məcbur olur.

Anası Zinyət xanım övladları- Əli və Abbasla (Gürcüstanın əməkdar artisti Abbas Qurbanov) yanaşı, valideynlərini itirmiş bacısı uşaqları Möhsün (Azərbaycanın xalq artisti Möhsün Sənani) və Əbülfəti (Tiflis Azərbaycan teatrının aktyoru Əbülfət Sənani) də öz himayəsinə götürmüşdü.

«Mədəniyyət»in ("Mədəniyyət" qəzeti-red.) oxucularına məlumdur ki, Möhsün kiçik yaşlarından teatr sənətinə xüsusi həvəs göstərmiş, Tiflisdə göstərilən qastrol tamaşalarına maraqla baxmışdır. Möhsünün teatra olan sonsuz marağı xalası oğlu Əliyə də keçmiş və o da erkən yaşlarından teatrla maraqlanmağa başlamışdır.

Möhsünün təşəbbüsü ilə bir neçə tamaşaya baxdıqdan sonra o, 1914-cü ildə Tiflisdə həvəskarların hazırladığı «Gaveyi- ahəngər» tamaşasında ilk dəfə «səhnəyə» çıxır. Bu tamaşada onun bircə sözü vardı:

«Gedək». Müasilərinin yazdığına görə, Əli Qurbanov böyük səhnəyə yolunun başlanğıcı olan həmin günü bütün ömrü boyu böyük sevinc və həyəcanla xatırlamışdır. Həmin tamaşa gələcək aktyor üçün düşərli olur, o, ayrı-ayrı tamaşalarda çıxış edərək ilk uğurlarını qazanır.

Teatrşünas Adilə İsmayılovanın «Əli Qurbanov» (Bakı, 1962) kitabından: «… 1915- ci ildə Möhsün Sənaninin təşəbbüsü ilə təşkil edilmiş «O olmasın, bu olsun» tamaşasında Əli Qurbanov Rüstəm bəy rolunu kifayət qədər yaxşı oynayır. Məlahətli səsi onun müvəffəqiyyətini daha da artırır. Bu hadisədən sonra Əli Qurbanova qarşı olan maraq artır. İndi onu yalnız dram tamaşalarına deyil, hətta opera, operetta və müsamirələrə həm artist, həm də tarçalan kimi dəvət etməyə başlayırlar.Teatr tamaşalarında iştirak etməklə bərabər Əli öz ümumi təhsilini, biliyini, mədəni səviyyəsini artırmağı da unutmur. O, Tiflisdə işləyən gürcü və rus truppalarının tamaşalarını izləyir, başqa şəhərlərdən qastrola gələn truppaların və tanınmış səhnə ustalarının tamaşalarına baxır».

Əli Qurbanov məhz həmin illərdə Azərbaycan səhnəsinin Hüseyn Ərəblinski, Mirzağa Əliyev, Sidqi Ruhulla, Hüseynqulu Sarabski, habelə Tiflis truppasının Mirzəli Abbasov, Mirzəxan Quliyev, Mirseyfəddin Kirmanşahlı, İbrahim İsfahanlı kimi görkəmli nümayəndələri ilə tanış olur, onların iştirakı ilə hazırlanmış «Arşın mal alan», «O olmasın, bu olsun», «Nadir şah», «Ağa Məhəmməd şah Qacar», «Bəxtsiz cavan», «Pəri cadu», «Gaveyi-ahəngər» və başqa tamaşalarda çıxış edir. Bütün bunlar onun bir akiyor kimi inkişafına müsbət təsir göstərir.

Professor Abbas Hacıyevin «Tiflis Azərbaycan teatrı» kitabından: «İlk günlər səhnədə epizodik və sözsüz

rollar aparan Əli Qurbanov ancaq 1915- ci ildə Rüstəm bəy rolunda («O olmasın, bu olsun») teatr mühitinin diqqətini özünə çəkmiş, 1917- ci ildə isə «İttihad» dram cəmiyyətinin tamaşaya qoyduğu «Bəxtsiz cavan» pyesində (Qoca kəndli) onun nadir istedadına xas olan fərdi keyfiyyətlər aydınlığı ilə görünmüş; Tiflisdə Niyazın («Pəri cadu») yetkin ifaçısı kimi tanınmışdır.» Tədqiqatçı onu da qeyd etmişdir ki, Əli Qurbanov bədii əsərə, apardığı rola yaradıcı sənətkar kimi yanaşmış, götürdüyü rolu duymadan, onun cizgiləri, əxlaqi- mənəvi keyfiyyətləri ilə yaşamadan səhnəyə çıxmamışdır.

Əli Qurbanov 1918- ci ildən aktyorluq fəaliyyətini «İbrət» dram cəmiyyətində davam etdirir. Bu truppada Mirzəli Abbasov, Mirzəxan Quliuev, Mirseyfəddin Kirmanşahlı, İbrahim İsfahanlı kimi təcrübəli və istedadlı aktyolar vardı. Heç şübhəsiz, bu aktyorlarla çiyin-çiyinə fəaliyyət göstərməsi, onların təcrübəsindən bəhrələnməsi gənc aktyorun püxtələşməsində mühüm rol oynamışdır. O, burada Hacı Həsən («Ölülər»), Şahmar bəy («Müsibəti- Fəxrəddin»), Şah Sultan Hüseyn xan («Nadir şah»), Cavad bəy («Dağılan tifaq»), Əsgər bəy («Hacı Qara») və digər rollarda oynamış və uğur qazanmışdır.

Məlumdur ki, 1922-ci ilədək truppa şəklində fəaliyyət göstərmiş Tiflis teatrı həmin il hökumətin qərarı ilə Tiflis Dövlət Azərbaycan Dram Teatrına çevrilmişdir. Məhz həmin vaxtdan etibarən teatr fədailəri- İbrahim İsfahanlı, Mirzəxan Quliyev, Mirzəli Abbasov, Mustafa Mərdanov, Mirseyfəddin Kirmanşahlı və başqaları ilə birlikdə Əli Qurbanov da həmin teatrın aktyoru olur.

İlk əvvəllər bu teatrda tamaşalar Mirzəli Abbasov, Mirseyfəddin Kirmanşahlı, İbrahim İsfahanlı və başqa aktyorlar tərəfindən hazırlanırdı. 1922- ci ildə görkəmli

aktyor Sidqi Ruhulla Tiflis Dövlət Azərbaycan Dram Teatrına dəvət olunur və burada baş rejissor kimi fəaliyyətə başlayır. Əli Qurbanov onun hazırladığı «Otello», «Ölülər», «Anamın kitabı», «Dağılan tifaq» və başqa tamaşalarda çıxış etmişdir.

1923- cü ildə teatrın baş rejissoru vəzifəsi görkəmli səhnə xadimi Aleksandr Tuqanova tapşırılır. Aleksandr Tuqanov Tiflis teatrına bələd idi. Əvvəllər burada bir sıra tamaşalar da hazırlamışdı.

Aleksandr Tuqanovun xatirələrindən: «1918-1919-cu il mövsümünü mənim «TARTO» şirkətim «Artist cəmiyyəti» teatrında «Böyük müsəlman konserti» ilə açdı. Sonralar biz müsəlman tamaşaları üçün tez- tez vaxt ayırırdıq. Bu tamaşalar məni Azərbaycan teatrı və ifaçıları ilə əsaslı şəkildə yaxınlaşdırdı.Peşəkar teatr olmasa da, buradan sonralar böyük aktyorlar çıxmışdı: Sidqi Ruhulla, Mustafa Mərdanov, Əli Qurbanov, Mirseyfəddin Kirmanşahlı və başqaları».

Əli Qurbanov da öz növbəsində Aleksandr Tuqanovun bir rejissor kimi onun yaradıcılığında xüsusi rol oynadığını vurğulamış, milli teatr sənətimizin inkişafında əvəzsiz xidmətlərini minnətdarlıqla qeyd etmişdir : «Aleksandr Tuqanovun bizim teatra gəlməsi işimizin sürətlə inkişaf etməsinə səbəb oldu. Şəxsən mənim yaradıcılığıma Tuqanovun çox böyük təsiri və köməyi olmuşdur. Mən onun rəhbərliyi ilə Qərb və rus dramaturgiyasına bələd olmuşam. Onun rejissorluğu ilə verilmiş tamaşalar mənim üçün bir məktəb qədər xeyirli olmuşdur. Tuqanovun rəhbərliyi ilə mən Şveytser («Qaçaqlar»), Montano («Otello»), Bələdiyyə rəisi («Müfəttiş»), Sutanvel («Jorj Danden»), Şeyx Nəsrullah («Ölülər»), Niyaz («Pəri cadu»), Balaxan («Aydın») kimi bir sıra obrazlar yaratmışam. Bu rollar üzərindəki işim mə-

nim sonrakı yaradıcılığım üçün çox faydalı olmuşdur» (Sitat Adilə İsmayılovanın «Əli Qurbanov» (Bakı, 1962) kitabından götürülmüşdür).

Əli Qurbanov Tiflis Dövlət Azərbaycan Dram Teatrının tərkibində 1922- ci ildə Türkiyəyə, 1925-ci ildə isə İrana qastrol səfərlərində olmuşdur.

O, 1925-ci ildə Bakıya- Azərbaycan Dövlət Dram Teatrına dəvət olunmuş və ömrünün sonuna - 1962-ci ilədək burada fəaliyyət göstərmişdir. Əli Qurbanov bu teatrda hazırlanan tamaşalarda və bir sıra filmlərdə unudulmaz obrazlar yaratmış, bir sənəkar kimi pillə-pillə yüksəlmiş, Azərbaycanın xalq artisti fəxri adına, digər mükafatlara layiq görülmüşdür.

**2012**

## PANFİLİYA TANAİLİDİ

Tiflis Azərbaycan teatrı, burada fəaliyyət göstərmiş bir sıra aktyorlar, o cümlədən ilk addımlarını burada atan, sonradan Azərbaycanın müxtəlif teatrlarının aparıcı aktyoru olmuş, milli kinomuzun iftixarına çevrilmiş bir sıra teatr həvəskarları barədə oxuculara imkan daxilində məlumat vermişik.

Tiflis teatrının Azərbaycan səhnəsinə verdiyi simalardan biri də tanınmış teatr və kino aktyoru Panfiliya Tanailidi olub. O, bir sıra tamaşalarda Sürəyya Zəngəzurlu (Zəngəzurskaya) adı ilə də çıxış edib.

Mənbələrdən məlum olur ki, Panfiliya Tanailidi 1891-ci ildə Zəngəzur mahalında doğulub. Onun valideynləri buraya Türkiyədən gəlmişdilər. Ailə daha sonra Tiflisə köçmüşdür.

Panfiliya Tanailidi pont yunan əsillidir. (Pont yunanları və ya sadəcə pontlular etnik qrupdur. Tarixən Türkiyənin şimal- şərqində yaşamışlar.)

O,türk dilini mükəmməl bilirmiş. Tiflisə köçdükdən sonra rus və gürcü dillərini də öyrənib. Erkən yaşlarından incəsənətə, xüsusən teatra xüsusi həvəs göstərən Panfiliya Tiflis Azərbaycan teatrı truppasının hazırladığı tamaşalarda və müxtəlif tədbirlərdə aktyor və rəqqasə kimi iştirak edib. Daha sonra o, Mirzəli Abbasov, Əşrəf Yüzbaşov, Mirseyfəddin Kirmanşahlı, Mirzəxan Quliyev, Həbib Köçərlinski, Nadir İbrahimov, Mustafa Mərdanov, Möhsün Sənani və Tiflis Azərbaycan teatrı truppasının digər tanınmış səhnə ustaları ilə birlikdə müxtəlif tamaşalarda çıxış etmişdir.

Məlumdur ki, ötən əsrin əvvəllərində Azərbaycan teatrında, o cümlədən Tiflis truppasında qadın rollarını

kişilər, yaxud başqa millətlərdən olan qadınlar ifa edirdilər. Buna görə də Azərbaycan dilinə mükəmməl yiyələnmiş Panfiliya Tanailidi Tiflis Azərbaycan teatrı üçün böyük tapıntı idi. Mərhum yazıçı- publisist, Tiflis Azərbaycan teatrı ilə bəğlı bir sıvra araşdırmaların müəllifi Rza Şahvələd yazmışdır ki, səhnədə xanım Tanailidinin azərbaycanlı olmadığını hiss etmək mümkün deyildi.

Böyük səhnə ustası Hüseyn Ərəblinski 1909- cu il də Tiflisdə və Batumda qastrolda olmuşdur. Bir ay davam etmiş həmin səfərlərdə onunla birlikdə Bakıdan gəlmiş aktyorların, habelə yerli aktyorların iştirakı ilə «Ağa Məhəmməd şah Qacar»la yanaşı «Bəxtsiz cavan», «Gaveyi- ahəngər», «Əlmənsur», «Nadir şah», «Zavallı cocuq», «Zorən təbib», «Yəhudilər» tamaşaları göstərilmişdir. Həmin tamaşalarda Panfiliya Tanailidi də aktyor kimi iştirak etmişdir.

O, 1914- cü ildə Hüseyn Ərəblinski ilə daha bir tamaşada tərəf- müqabil olmuşdur. Həmin il Gürcü Əyanları Teatrında Tiflis Azərbaycan teatrının aktyoru Mirzəli Abbasovun hazırladığı «Səd ibn-Vəqqas» (türk dramaturqu Əli Heydər Əmirin əsəri) tamaşası göstərilmişdir. Bu tamaşa barədə professor Əziz Şərif öz xatirələrində maraqlı məlumat vermişdir. Əziz Şərif tamaşa barədə «Zakafkazye» qəzeti üçün resenziya yazmış, lakin həmin vaxt bu qəzetin nəşri dayandırıldığına görə yazdığını çap etdirə bilməmişdir. Alimin öz arxivində saxladığı resenziyadan məlum olur ki, tamaşada Hüseyn Ərəblinski Səd ibn- Vəqqas, Panfiliya Tanailidi isə Fatimə rolunu ifa etmişdir. Resenziyada göstərilir ki, İslam dininin çiçəklənməsi dövründən bəhs edən bu əsərin tamaşası böyük uğur qazanmış, bütün aktyorlar, o cümlədən Panfiliya Tanailidi «çox gö-

zəl oynamış, Ərəblinskinin səyi sayəsində möhkəm ansambl yaratmışdılar».

Buradan belə məlum olur ki, bu illərdə digər sənət dostları ilə birlikdə Tanailidi də özünü aktyor kimi təsdiq edə bilmişdi.

Professor Abbas Hacıyevin «Tiflis Azərbaycan teatrı» kitabından: «1913- cü ildə «Auditoriya»da, Zubalov adına Xalq Evində, Kazyonnı və Gürcü Əyanları teatrlarında tamaşaların quruluşunu Əbülfət Vəli və Mirzəli Abbasov, bəzən də Sidqi Ruhulla və Mirseyfəddin Kirmanşahlı verirdilər. Tamaşalarda Mirseyfəddin Kirmanşahlı, Əbülfət Vəli, Mirzəli Abbasov, Həbib Köçərli, Əşrəf Yüzbaşov, Əhməd Salahlı, Panfiliya Tanailidi, Mirzəxan Quliyev… böyük müvəffəqiyyət qazanır, tamaşaçıları həyəcanlandırır və buna görə də onların sənəti ədəbi mühit tərəfindən yüksək qiymətləndirilirdi».

Professor Abbas Hacıyev xüsusi olaraq qeyd etmişdir ki, Tiflisdə Azərbaycan Xalq Evi- «Auditoriya» açıldıqdan sonra Tiflis Azərbaycan teatrının tamaşaları musiqinin və tərtibatın dərinliyi, aktyor oyununun təzəlik və orijinallığı ilə fərqlənir, ayrı-ayrı tamaşalar qızğın müzakirə və mübahisəyə səbəb olurdu. Mirzəli Abbasov, Mirseyfəddin Kirmanşahlı, Əşrəf Yüzbaşov, Həbib Köçərli, Mirzəxan Quliyev, Panfiliya Tanailidi, Əşrəf Yüzbaşov… və başqaları nüfuzlu, şüur, düşüncə və mənəviyyata təsir edə bilən sənətkar kimi tanınırdılar.

Araşdırmalardan məlum olur ki, 1912-1913- cü il mövsümündə Tiflis Azərbaycan teatrı 40- dan artıq əsəri tamaşaya qoymuşdur. Bu tamaşalar sırasında «Otello», «Nadir şah», «Ölülər», «Qaçaqlar», «Dağılan tifaq», «Zorən təbib», «Yağışdan çıxdıq, yağmura düşdük», «O olmasın, bu olsun», «Arşın mal alan», «Hacı Qara», «Müfəttiş» və s. məşhur səhnə əsərləri vardı. Məhz

həmin tamaşalarda «ağıllı və düşüncəli oyunu ilə rəğbət qazanan, səhnədə canlı bədii surətlər yarada bilən» aktyorlardan biri də Panfiliya Tanailidi olmuşdur.

Uzun illlər Tiflis Azərbaycan teatrında aktyor və rejissor kimi fəaliyyət göstərmiş görkəmli səhnə ustası Mirzəxan Quliyev 1915- ci ildə Üzeyir Hacıbəylinin «Arşın mal alan» operettasını hazırlamış və bu tamaşa eyni vaxtda iki dildə- Azərbaycan və gürcü dillərində oynanılırdı. Bu tamaşada məşhur gürcü dram və komediya ustası Vaso Abaşidze (sonralar Gürcüstanın xalq artisti adına layiq görülmüşdür) ilə birlikdə onun qızı Taso (Anastasiya) Abaşidze də (sonralar o da Gürcüstanın xalq artisti adına layiq görülmüşdür) iştirak edirdi. Hər iki aktyor öz rollarını gürcü dilində ifa edirdilər. Digər rollarda isə Mustafa Mərdanov (Sultan bəy), İbrahim İsfahanlı (Əsgər), Nadir İbrahimov (Süleyman) oynamışlar. Müasirlərinin xatirələrindən məlum olur ki, bu tamaşada Panfiliya Tanailidi Telli rolunda çıxış etmiş və onun çıxışı da uğurlu olmuşdur.

Panfiliya Tanailidi 1916-cı ildə Tiflis Azərbaycan teatr truppasının aktyorları ilə birlikdə İrəvanda qastrol səfərində iştirak etmişdir. Mirseyfəddin Kirmanşahlı, Əşrəf Yüzbaşov, İbrahim İsfahanlı, mollanəsrəddinçi-şair Əliqulu Qəmküsar, Mustafa Mərdanov və başqa səhnə ustalarından ibarət truppa həmin qastrol zamanı «Gaveyi- ahəngər», «Ölülər», «Arşın mal alan» və «Bəxtsiz cavan» tamaşalarını göstərmişdir.

Panfiliya Tanailidi həmin truppanın 1917-ci ildə təşkil edilmiş Təbriz, 1919- cu ildə isə İstanbul qastrollarının da iştirakçısı olmuşdur.

1923- cü ildən Tiflis Azərbaycan Dövlət Dram Teatrının baş rejissoru vəzifəsində çalışan Aleksandr Tuqanov 1924- cü ilin yazında Bakı şəhərinə- Azərbaycan

Dövlət Dram Teatrına dəvət edilmiş və yaradıcılıq fəaliyyətini burada davam etdirmişdir. Məhz onun dəvətilə 1925- ci ildən etibarən  Panfiliya Tanailidi də bu teatrda işləmişdir.

O bu teatrda Kəblə Fatma («Ölülər»), Emiliya («Otello»), Şamama cadu («Pəri cadu»), Tükəz («Hacı Qara»), Köylü qadın («Topal Teymur»), Marqo («Knyaz»), Tamara («Oqtay Eloğlu»), Böyükxanım («Aydın») və bir sıra başqa obrazlar yaratmış, iki bədii filmə- «İsmət» və «Almaz» filmlərinə çəkilmişdir.

Erkən yaşlarından taleyini Azərbaycan teatrı ilə bağlamış Panfiliya Tanailidi repressiya qurbanı olmuşdur. 1937- ci ildə saxta ittihamla tutulmuş, 1938- ci ildə güllələnmişdir.

1957- ci ildə ona bəraət verilmişdir.

**2012**

## ƏLƏKBƏR SEYFİ

İlk addımlarını Tiflis Azərbaycan teatrında atan, bu teatrın uğurlarında və təşkilatlanmasında xüsusi əməyi olan Mustafa Mərdanov, Əli Qurbanov, Möhsün Sənani, Panfiliya Tanailidi, Mirseyfəddin Kirmanşahlı, Əbülfət Vəli və digərlərinin səhnə fəaliyyətinin Tiflis dövrü barədə «Mədəniyyət»in ("Mədəniyyət" qəzeti-red.) oxucularına məlumat vermişik. Belə sənətkarlardan biri də Ələkbər Seyfi olub. O, dram və kino aktyoru, teatr təşkilatçısı kimi tanınmış, eyni zamanda, teatrşünas və tərcüməçi kimi də fəaliyyət göstərmişdir.

Ələkbər Seyfi 1960-cı illərdə «Azərbaycanfilm» kinostudiyasının istehsal etdiyi «Səhər», «Qanun naminə», «Mən ki gözəl deyildim» filmlərinə çəkilmiş, «Uşaqlığın son gecəsi» filmində yaratdığı İsmayıl obrazı ilə daha çox yadda qalmışdır.

O, 1901- ci ildə Tiflisdə doğulub. Elə burada da təhsil alıb. Ötən əsrin əvvəllərində Tiflisdə mövcud ol an qaynar teatr mühiti hələ şagird olarkən Ələkbəri də özünə cəlb edib. 1914- cü ildə ilk dəfə səhnəyə çıxıb. Bir çox gələcək həmkarları kimi, o da ilk dəfə Şəmsəddin Saminin «Gaveyi- ahəngər» («Dəmirçi Gavə») pyesinin tamaşasında uşaq rolunu (Gavənin oğlu Bəhram) oynayıb. Daha sonra «İbrət» dram cəmiyyətinə üzv yazılıb. (Həmin vaxtlar Tiflisdə bir neçə teatr cəmiyyəti fəaliyyət göstərirdi.)

Ələkbər Seyfi bu truppada hazırlanmış bir sıra tamaşalarda, o cümlədən «Gaveyi- ahəngər» (Pərviz), «Qaçaq Kərəm» (Feyzulla), «Nadir şah» (Rzaqulu xan), «Arşın mal alan» (Telli və Vəli), «Yağışdan çıxdıq, yağmura düşdük» (Yetər) tamaşalarında çıxış et-

mişdir. Göründüyü kimi, o, səhnədə qadın rollarını da oynamışdır. Təbii ki, bu da mövcud vəziyyətlə bağlı idi. Professor Abbas Hacıyevin Tiflis Azərbaycan teatrı ilə bağlı apardığı tədqiqatlardan məlum olur ki, 1919-1920-ci illərdə «İbrət» dram cəmiyyətinin fəaliyyəti çoxcəhətli olmuşdur. Buna görə də Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir Hacıbəyli, Hüseyn Ərəblinski, Sidqi Ruhulla, Hüseynqulu Sarabski və Əbülfət Vəli dram cəmiyyətləri arasındakı ziddiyyət və narazılıqları nəzərə almamış, «İttihad»la «İbrət»in gücündən, şəhərin istedadlı və təcrübəli artistlərindən eyni dərəcədə istifadə etmişlər. Bununla yanaşı, ümumi səyə, repertuar əlvanlığına baxmayaraq, «İbrət»in tamaşaları müasir tələb və ehtiyacı ödəyə bilməmiş, hətta cəmiyyət qadın rollarını kişilərə tapşırmağa məcbur olmuşdur. Lakin bütün bunlar Ələkbər Seyfinin teatra, səhnəyə olan həvəs və məhəbbətini söndürə bilməmişdir. O, qadın rollarını da həvəslə oynamışdır.

A. Məmmədov və A. Ağamirovun «Ələkbər Seyfi» kitabından: «1919- cu ilin fevralında «Pəri cadu»da Hafizə xanım rolu Ələkbər Seyfiyə tapşırılır. Qabaqlar həmin tamaşada nökər Əmrah və təlxək rollarını olduqca müvəffəqiyyətlə ifa edən Ələkbər Seyfi əvvəlcə bu roldan boyun qaçırmağa çalışır; lakin yoldaşlarının təhriki ilə razılıq verir. Çox gərgin məşqlər gedir. Məşqlərin birinə xəlvəti baxan Əbdürrəhim bəy Haqverdiyev işdən sonra Ə. Seyfinin yoldaşlarına deyir:

- Ələkbərdən əla Hafizə xanım çıxacaq.

Ə. Seyfi böyük ədibin inamını doğruldur, bu zabitəli və qəddar qadının unudulmaz surətini yaradır». ( Sitat Abbas Hacıyevin «Tiflis Azərbaycan teatrı» kitabından götürülmüşdür.)

«Mədəniyyət»in (“Mədəniyyət” qəzeti-red.) oxu-

cularına məlumdur ki, Tiflis Azərbaycan teatrı truppası iki yerə- iki cəmiyyətə («İttihad» və «İbrət»), hətta ayrı-ayrı qruplara ayrılmışdı və onlar ayrı - ayrılıqda çıxış edirdilər. Əbdürrəhim bəy Haqverdiyev 1919- cu ildə bu iki cəmiyyəti və qrupları birləşdirmiş, yaratdığı teatr cəmiyyətinə yeni istedadlar cəlb etmişdir. Ələkbər Seyfi bu teatrda bir sıra maraqlı obrazlar yaratmış və Tiflisdə istedadlı akiyor kimi tanınmağa başlamışdır.

1921-ci ilədək truppa şəklində fəaliyyət göstərən Tiflis teatrı həmin il hökumətin qərarı ilə Tiflis Dövlət Azərbaycan Dram Teatrına çevrilir. İbrahim İsfahanlı, Mirzəli Abbasov, Mustafa Mərdanov, Mirseyfəddin Kirmanşahlı, Mirzəxan Quliyev kimi teatr fədailəri ilə birlikdə Ələkbər Seyfi də Dram Teatrının ilk aktyorlarından olur. Ələkbər Seyfi burada 1929-cu ilədək çalışmışdır.

Bu illərdə o, teatrda Zabit («İblis»), Şeyx Abuzər və Serqo («Şeyx Sənan»), Pyotr İvanoviç («Müfəttiş»), Vəli («Arşın mal alan»,), Cücə («Topal Teymur»), Kərəməli («Hacı Qara»), Hambal («O olmasın, bu olsun»), Əşrəf bəy («Yağışdan çıxdıq, yağmura düşdük» ), Əbdüləli bəy («Sevil»), Şeyx Əhməd («Ölülər») və bir çox başqa rolları uğurla ifa etmişdir.

1922-ci ildə M.F.Axundov adına Tiflis Azərbaycan Dövlət Dram Teatrı Bakıya qastrola getmişdir. Qastrola gedən akiyorlar sırasında, Mirzəli Abbasov, Mirseyfəddin Kirmanşahlı, Mirzəxan Quliyev, İbrahim İsfahanlı, Nadir İbrahimov, Panfiliya Tanailidi, İsmayıl Həqqi və başqa təcrübəli sənətkarlarla yanaşı, nisbətən gənc olan Ələkbər Seyfi də olmuşdur.

Qastrol repertuarına J.B.Molyerin «Jorj Danden», Hüseyn Cavidin «Uçurum», Böyükağa Talıblının «Keyf içində» və Mirseyfəddin Kirmanşahlının «Üç cərəyan» pyesləri əsasında hazırlanmış tamaşalar daxil edilmişdi.

Həmin tamaşalarda digər həmkarları ilə birlikdə Ələkbər Seyfi də uğur qazanmışdır.

Ələkbər Seyfi həm də tərcüməçi kimi fəaliyyət göstərmiş, bir sıra səhnə əsərlərini Azərbaycan dilinə çevirmişdir. Aleksandr Tuqanovun 1923-1924-cü illərdə Tiflis Azərbaycan Dram Teatrının baş rejissoru vəzifəsində işləyərkən hazırladığı uğurlu tamaşalardan olan «Məkr və məhəbbət» (F. Şiller) pyesini Ələkbər Seyfi tərcümə etmişdir.

Ələkbər Seyfinin tərcümə etdiyi üçpərdəli «Harunərrəşid» pyesinin quruluşunu da Aleksandr Tuqanov vermişdir. 1924- cü ilin aprelində Ş. Rustaveli adına teatrın binasında Ələkbər Seyfinin şərəfinə oynanılmış bu tamaşada baş rollarda aktyorun özü və Panfiliya Tanailidi çıxış etmişdir.

O, sonralar Tiflis teatrında, habelə digər teatrlarda tamaşaya qoyulmuş «Qızıl quşlar və qarğalar», «İki yetim qız», «İşarə», «Morqanın qohumu» və bir çox başqa pyesləri də dilimizə çevirmişdir.

Ələkbər Seyfinin teatrşünas və teatr tənqidçisi kimi də fəaliyyəti diqqəti cəlb edir. O, 1920- ci illərdə Tiflisdə «Yeni fikir» qəzetində və «Dan yıldızı» jurnalında dərc olunmuş teatrla bağlı bir sıra məqalələrin müəllifidir.

Məlumdur ki, 1929- cu ilin əvvəllərində böyük sənətkarımız Abbasmirzə Şərifzadənin səhnə fəaliyyətinin 20 illiyi Tiflisdə də geniş qeyd edilmişdir. Ələkbər Seyfinin bu münasibətlə yazdığı və həmin mətbuat orqanlarında dərc etdirdiyi «Türk səhnəsinin dəyərli aktyoru», «Hamlet» və «Abbasmirzə Şərifzadənin 20 illik yubileyi» məqalələri teatr taritximizin öyrənilməsi üçün bu gün də əhəmiyyət kəsb edir.

Ələkbər Seyfi 1929- cu ildə Bakı Türk İşçi Teatrına dəvət olunmuş, 1932- ci ildən isə fəaliyyətini Gəncədə

davam etdirmişdir. O, Gəncə Dövlət Dram Teatrının direktoru vəzifəsində də çalışmışdır.

Azərbaycanın xalq artisti Ələkbər Seyfi 1977- ci ildə dünyasını dəyişmişdir.

**2012**

# ONLAR TİFLİS AZƏRBAYCAN TEATRI İLƏ BAĞLI OLMUŞLAR

## ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV

Böyük Azərbaycan yazıçısı və dramaturqu Əbdürrəhim bəy Haqverdiyevin Tiflis Azərbaycan teatrı ilə əlaqələri teatr tariximizin parlaq səhifələrindəndir. Dramaturqun bir sıra əsərləri burada tamaşaya qoyulmuş, o özü isə bu teatrda bir neçə əsərə quruluş vermiş, eyni zamanda, aktyor kimi səhnəyə çıxmışdır.

Ümumiyyətlə isə onun teatr aləminə marağı məhz Tiflisdə oyanmışdır. Ədib özü sonralar belə yazmışdır: «1890-cı sənədə Şuşa realnı məktəbinin altı sinfini bitirib, Tiflis realnı məktəbinin yeddinci sinfinə keçdim. Mükəmməl dram teatrı nə olduğunu mən ancaq Tiflisdə anladım. Tiflisdə təhsil edərkən, «Nahaq qan» sərlövhəli bir faciəni ruscadan tərcümə etdim».

O, Peterburqda təhsil alıb qayıtdıqdan sonra da Tiflislə, buradakı sənət adamları ilə əlaqəni üzməmiş, xüsusən Tiflis Azərbaycan teatrı ilə yaradıcılıq əməkdaşlığı etmişdir. Əbdürrəhim bəy Haqverdiyevin həyatının müəyyən dövrləri Gürcüstanla, xüsusən Tiflislə bağlıdır. Ədibin özünün yazdıqlarından: «Mənim günlərimin gözəlləri, cavanlığım Tiflisdə keçdiyindən, o şəhərə mənim xüsusi bir məhəbbətim var».

Professor Abbas Hacıyev «Tiflis Azərbaycan teatrı» kitabında yazır: «Arxiv materialları və mətbuat sübut edir ki, 1905-1907- ci illərdə ziyalılar, ilk növbədə C.Məmmədquluzadə, Ə. Haqverdiyev, Ə.Yüzbaşov, H.Minasazov, M.Şahtaxtlı, E.Sultanov, Ö.F.Nemanzadə Tiflis Azərbaycan teatrı ilə daha çox bağlı olmuşlar. Onlar məşqlərdə iştirak etmiş, teatrın göstərdiyi tamaşaların çoxuna baxmışlar. Hətta Ə. Haqverdiyev bir neçə əsərə mükəmməl, realist üslubda bədii quruluş vermişdir. 1907- ci il aprelin 27- də onun rejissorluğu ilə «Dağılan tifaq» tamaşaya qoyulmuşdur. Tamaşa təsirli və mənalı keçmiş, tamaşaçılar tez- tez aktyorları və Ə. Haqverdiyevi səhnəyə çağırıb alqışlamışlar».

Məlumdur ki, 1912-ci ildə yerli ziyalıların təşəbbüsü ilə Tiflis şəhərinin azərbaycanlılar yaşayan «Şeytanbazar» məhəlləsində Tiflis Azərbaycan teatrı üçün xüsusi bina - «Auditoriya» açılmışdır. «Auditoriya»nın təntənəli açılışı mərasimində görkəmli Azərbaycan ziyalıları ilə bir sırada Əbdürrəhim bəy də iştirak etmiş, professor Abbas Hacıyevin yazdığına görə, həmin tədbirdə o, teatrın dünyagörüşünə, əxlaq və mənəviyyata təsirindən, Azərbaycan teatrının yaranma və inkişaf tarixindən məzmunlu söhbət açmışdır.

Əbdürrəhim bəyin öz əli ilə yazdığı tərcümeyi- halından məlum olur ki, o, 1916-1919- illərdə Gürcüstanda yaşamış və işləmişdir. Ədib 1916- cı ildə Tiflisdə rus dilində nəşr olunan «Şəhərlər ittifaqı Qafqaz şöbəsinin xəbərləri» adlı aylıq məcmuənin müdiri təyin olunmuş, 1917- il fevral inqilabından sonra Tiflis İcraiyyə Komitəsinin Mərkəzi Şurasına üzv seçilmiş və Borçalı qəzasına komissar təyin edilərək qəzanın Şülöyür kəndində fəaliyyət göstərmişdir. 1918- ci ildə Gürcüstan öz

müstəqilliyini elan etdikdən sonra o, Gürcüstan Türklərinin Milli Şurası tərəfindən ilk Gürcüstan Parlamentinə seçilmişdir.

Bütün bunlarla yanaşı, Əbdürrəhim bəy ədəbi yaradıcılıqdan və teatr aləmindən ayrılmamış, yeni- yeni əsərlər yazmış, onların səhnədə oynanılmasına nail olmuş, fəal mədəni- maarif işi aparmışdır. Professor Əziz Şərifin «Keçmiş günlərdən» kitabından: «Mənim arxivimdə Tiflisdə K.Y. Zubalov adına Xalq Evi nəzdində Türk Dram Cəmiyyətinin 1919- cu il üçün üzvlük bileti vardır. Mənim adıma yazılmış bu bileti Türk Dram Cəmiyyəti idarə heyətinin sədri Əbdürrəhim bəy Haqverdiyev imzalamışdır. Bundan bəlli olur ki, Tiflisdə məsul siyasi vəzifə daşıyan yazıçımız yenə də məftun olduğu teatr işindən əsla ayrılmır və bu sahədə fəaliyyət göstərirmiş».

Yeri gəlmişkən qeyd edək ki, Əbdürrəhim bəy bu cəmiyyəti yaratmaqla Tiflis Azərbaycan teatrı truppasının dağılmasının qarşısını almış, onun gələcək inkişafı üçün zəmin yaratmışdır. Belə ki, bu truppa iki yerə- iki cəmiyyətə, hətta ayrı-ayrı qruplara ayrılmışdı və onlar ayrı - ayrılıqda çıxış edirdilər. Ədib məhz bu iki cəmiyyəti və qrupları birləşdirmiş, yaratdığı teatr cəmiyyətinə yeni istedadlar cəlb etmişdi. Beləliklə də onun Tiflis Azərbaycan teatrının təşkilatlanmasında böyük əməyi olmuşdur.

Tədqiqatçılar xüsusi olaraq göstərmişlər ki, həmin illərdə Tiflis Azərbaycan teatrına qeyri-rəsmi şəkildə Əbdürrəhim bəy Haqverdiyev başçılıq etmişdir. Repertuar və artistlər arasında rol bölgüsü onun məsləhəti və göstərişi ilə müəyyənləşdirilmişdir.

Onun Tiflis Azərbaycan teatrında «Dağılan tifaq»la yanaşı «Ağa Məhəmməd şah Qacar», «Bəxtsiz cavan», «Pəri cadu», «Ac həriflər», «Yeyərsən qaz ətini, görərsən ləzzətini», «Köhnə dudman» pyesləri tamaşaya qoyulmuş, eyni zamanda, bu tamaşalar teatrın Təbriz və İstanbul şəhərlərinə qastrollarında da nümayiş etdirilmişdir. Dramaturqun əsərlərinə müxtəlif vaxtlarda Hüseyn Ərəblinski, yerli rejissorlardan Mirzəli Abbasov və İbrahim İsfahanlı, habelə müəllif özü quruluş vermişdir.

Bu tamaşalarda teatrın aktyorlarından Mirzəli Abbasov, Mirzəxan Quliyev, Mirseyfəddin Kirmanşahlı, Əşrəf Yüzbaşov, İbrahim İsfahanlı, Əli Qurbanov, Möhsün Sənani və başqaları iştirak etmiş, dramaturqun yaratdığı obrazları səhnədə canlandırmışlar.

Əbdürrəhim bəy Haqverdiyev Tiflisdə yaşadığı illərdə «Hacı Qara», «Nadir şah» və müəllifi olduğu «Bəxtsiz cavan» pyeslərinə quruluş vermiş, xalr artisti Mustafa Mərdanovun yazdığı kimi, «dolğun məzmunlu tamaşalar yaranmasına çox əmək sərf etmişdir».

1908-ci ildə Tiflisdə Əbdürrəhim bəy Haqverdiyevin «Ağa Məhəmməd şah Qacar» faciəsi tamaşaya qoyulmuş və böyük uğur qazanmışdır. Tamaşada Qacar rolunu Hüseyn Ərəblinski, İrakli rolunu Əbülfət Vəli, digər rolları Tiflis Azərbaycan teatrının aktyorları oynamışlar. Tamaşanın rejissoru Hüseyn Ərəblinski, onun köməkçiləri isə Əbülfət Vəli və Əbdürrəhim bəy Haqverdiyev özü olmuşdur.

Hüseyn Ərəblinski dramaturqun tərcümə etdiyi «Qazavat» pyesini də Tiflis Azərbaycan teatrının aktyorlarının iştirakı ilə tamaşaya qoymuş və baş rolda- Əhməd bəy rolunda özü çıxış etmişdir. Bu tamaşa da tamaşaçılar tərəfindən razılıqla qarşılanmışdır.

Professor İnqilab Kərimovun araşdırmalarından məlum olur ki, 1913- cü ildə Tifliisdə yazıçının «Bəxtsiz cavan» pyesi Əbülfət Vəlinin rejissorluğu ilə tamiaşaya qoyulmuş və tamaşada Hacı Səməd ağa rolunda Əbdürrəhim bəy özü çıxış etmişdir. 1927- ci ildə Tiflisdə, Rustaveli teatrında Əbdürrəhim bəy Haqverdiyevin ədəbi fəaliyyətinin 35 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir. Yubiley ərəfəsində Tiflis mətbuatında ədibin həyat və yaradıcılığına aid məqalələr dərc edilmiş, yubiley komissiyası tərəfindən Azərbaycan və rus dillərində xüsusi vərəqə buraxılmışdı. Bu vərəqədə dramaturqun fotoşəkli, qısa tərcümeyi- halı, pyeslərinin və tərcüm etdiyi əsərlərin siyahısı verilmişdir. Vərəqə bu sözlərlə tamamlanırdı: «Tiflis Dövlət Türk Teatrının təşəbbüsü ilə seçilmiş olan yubiley komissiyası ümid ed ir ki, 1927- ci il fevral ayının 4-də Rustaveli teatrosunda Ə.Haqverdiyevin təsid ediləcək 35 illik ədəbi-ictimai yubileyi Tiflis şəhərində olduğu kimi, onun xaricində dəxi böyük sevinclə qarşılanacaqdır».

Doğrudan da yubiley mərasimi yüksək səviyyədə keçirilmiş, tədbirin təşkilatçılarından biri- professor Əziz Şərifin yazdığı kimi, bu yubiley o zamanın ədəbi və mədəni həyatında əlamətdar ictimai hadisə olmuşdur.

Mərasimdə rəsmi şəxslər, ayrı- ayrı respublikaların, o cümlədən Gürcüstanın teatr ictimaiyyətinin nümayəndələri, şair və yazıçılar yubilyarı təbrik etmiş, Tiflis Azərbaycan Dövlət Dram Teatrı aktyorlarının iştirakı ilə dramaturqun «Bəxtsiz cavan» pyesinin ikinci pərdəsi və «Ac həriflər» pyes oynanılmış, eyni zamanda, böyük konsert verilmişdir.

Mərasim Tiflis mətbuatında geniş işıqlandırılmışdır.

Böyük ədib və dramaturq Əbdürrəhim bəy Haqver-

diyevin Tiflis Azərbaycan teatrının formalaşmasında və inkişafında rolu danılmazdır və onun bu yöndə fəaliyyəti milli mədəniyyətimizin solmayan səhifələrindəndir.

**2012**

## HÜSEYN ƏRƏBLİNSKİ

Tiflis Azərbaycan teatrı ilə təmasda olan, bu kollektivlə yaradıcılıq əlaqələri saxlayan sənət xadimlərindən biri də səhnəmizin böyük aktyoru və rejissoru Hüseyn Ərəblinski olmuşdur. O, 1907- ci ildən başlayaraq bir neçə dəfə Tiflisə gəlmiş, burada tamaşalar göstərmiş, habelə Tiflis Azərbaycan teatrının truppasını cəlb etməklə tamaşalar hazırlamışdır.

Aktyorun Tiflisə ilk səfəri 1907- ci ilə təsadüf edir. Məhz həmin ildə o, yerli aktyorların iştirakı ilə Nəriman Nərimanovun «Nadir şah» pyesini hazırlamış və bu tamaşa «Kazyonnı teatr»da nümayiş etdirilmişdir. Tamaşa uğur qazanmış, Tiflis mətbuatında, o cümlədən gürcü qəzetlərində əsər və tamaşa haqqında rəylər dərc edilmiş, maraqlı fikirlər səsləndirilmişdir. Bu tamaşa aktyorlara və Tiflis Azərbaycan teatrının inkişafına təsir göstərən amillərdən biri olmuşdur. Professor Abbas Hacıyevin «Tiflis Azərbaycan teatrı» kitabından: «…1907- ci il Tiflis Azərbaycan teatrının əsaslı dönüş ili idi. Cəlil Məmmədquluzadənin Zubalov Xalq Evində çıxışı (yazıçının müxtəlif millətləri təmsil edən görkəmli ziyalıların təşkil etdikləri «İlk xalq konserti» zamanı aparılan diskussiyalardakı çıxışı nəzərdə tutulur- **A.B.**), Əbdürrəhim bəy Haqverdiyevin bir neçə əsəri tamaşaya hazırlaması, Hüseyn Ərəblinskinin Tiflisə qastrolu yerli artistlərin səhnəyə marağını daha da gücləndirdi, onları sənət, sənətin vacib problemləri, səhnə quruluşunun ciddiliyi və özünəməxsusluğu, hər hansı tamaşanın müasirliyi və idraki-tərbiyəvi əhəmiyyəti haqqında düşünməyə vadar etdi».

Tiflis ədəbi mühiti və Tiflis Azərbaycan teatrı ilə bağ-

lı çox dəyərli tədqiqatların müəllifi olan professor Abbas Hacıyev onu da qeyd edir ki, çox zəngin Tiflis ədəbi mühiti, teatr həvəskarları Hüseyn Ərəblinskiyə güclü təsir bağışlamışdı. Buna görə də o, 1908- ci ildə yenidən Tiflisə gəlir. Ziyalılar , müxtəlif xalqların aktyorları, sənət adamları onu mehribanlıqla qarşılayırlar.

İndi isə həmin hadisələrin canlı şahidi olmuş Gürcüstanın xalq artisti İbrahim İsfahanlının xatirələrinə müraciət edək: «Küçələrə vurulmuş bər- bəzəkli afişalar 1908- ci ildə tiflisliləri Əbdürrəhim bəy Haqverdiyevin «Ağa Məhəmməd şah Qacar» faciəsinin tamaşasına çağırırdı. Tamaşada Qacar rolunu Hüseyn Ərəblinski, İraklii rolunu Əbülfət Vəli oynayacaqdı… Tamaşanın rejissoru da Hüseyn Ərəblinski idi. Bu işdə ona Əbülfət Vəli və həmin aralarda Tiflisdə olan Əbdürrəhim bəy Haqverdiyev özü kömək edəcəkdi. Əsərdəki qalan rolları Tiflis Azərbaycan teatrının aktyorları oynayacaqdı… Biletlərin yayılmasında «Şərqi- Rus» qəzetinin redaktoru Məhəmməd ağa Şahtaxtlı və «Molla Nəsrəddin» jurnalının redaktoru Cəlil Məmmədquluzadə fəal iştirak edirdilər. Biletlər bir həftə qabaq satılıb qurtarmışdı». («Səhnə andı», Bakı, 1982, səh. 41)

Xüsusi olaraq qeyd edək ki, tamaşaya azərbaycanlılarla yanaşı, Tiflisdə yaşayan digər millətlər, xüsusən gürcülər də böyük maraq göstərirdilər. Təbii ki, bu maraq hadisələrin həm də Tiflisdə baş verməsi, gürcü hökmdarı İkinci İraklinin səhnəyə gətirilməsi ilə bağlı idi. Tiflisdə nəşr olunan «Oqni» jurnalı hələ 1907- ci ilin noyabr ayında yazırdı: «Əbdürrəhim bəy Haqverdiyevin «Ağa Məhəmməd şah Qacar» adlı dramının Qafqaz səhnələrində oynanılmasına icazə verilmişdir. Bu əsər 18-ci əsrdə Gürcüstanı talamış və Şuşada öldürülmüş məşhur padşahın fəaliyyəti dövrünü əhatə edir. Pyes

yalnız müsəlmanlar üçün deyil, gürcülər üçün də maraqlıdır. Onun ilk səhnəsi Gürcüstana həsr edilmiş və İkinci İrakli səhnəyə gətirilmişdir». (Qulam Məmmədli. «Azərbaycan teatrının salnaməsi». Bakı, 1975, səh.146-147)

«Kazyonnı teatr»ın binasında göstərilmiş bu tamaşa böyük uğur qazanmış, tamaşaçıların arzusu ilə təkrar nümayiş etdirilmişdir. Dövrünün görkəmli ziyalıları və sənət adamlarından Cəlil Məmmədquluzadə, Məhəmməd ağa Şahtaxtlı, Eynalı bəy Sultanov, Hüseyn Minasazov, Şalva Dadiani, Vaso Abaşidze, Sultan Məcid Qənizadə və bir çox başqaları da tamaşaya baxmışlar. Tamaşaçılar əsərin müəllifi Əbdürrəhim bəy Haqverdiyevi, tamaşanın rejissoru və baş rolun ifaçısı Hüseyn Ərəblinskini, habelə İrakli rolunun ifaçısı Əbülfət Vəlini alqışlarla səhnəyə çağırmış, aktyorlara gül- çiçək dəstələri, müxtəlif hədiyyələr təqdim etmişlər.

Hüseyn Ərəblinskinin Tiflisə növbəti qasrol səfəri 1909- cu ildə (bəzi mənbələrə görə, 1910- cu ildə) olmuşdur. Bir ay ərzində onunla birlikdə Bakıdan gəlmiş aktyorların, habelə yerli aktyorların iştirakı ilə «Ağa Məhəmməd şah Qacar»la yanaşı «Bəxtsiz cavan», «Dəmirçi Gavə» («Gaveyi- ahəngər»), «Əlmənsur», «Nadir şah», «Zavallı cocuq», «Zorən təbib», «Yəhudilər» tamaşaları göstərilmişdir. Professor Abbas Hacıyevin «Tiflis Azərbaycan teatrı» kitabından: «Mətbuat qastrol (1909- cu il qastrolu nəzərdə tutulur- **A.B.**) tamaşaları ilə maraqlanmış, diqqəti daha çox N. Nərimanovun «Nadir şah» pyesi üzərində cəmləşdirmişdir. Çünki Hüseyn Ərəblinski «Nadir şah» əsərini yeni, tamam orijinal quruluşda tamaşaya qoyur, kütləvi səhnələrdə yüzdən artıq xüsusi geyimli aktyordan istifadə edir, əsərin ideyasını tamaşaçılara genişlik və aydınlığına

qədər çatdırırdı. Buna görə də «Zaqafqaziye» qəzetinin əməkdaşı Hüseyn Minasazov həm «Nadir şah» pyesini «güclü, təsirli və məzmunlu» tamaşa adlandırır, həm də Hüseyn Ərəblinskini «Şərqin böyük səhnə xadimi…» kimi qiymətləndirir və «Ərəblinski müsəlman səhnəsinin… yaradıcısıdır; onu müasirləri dərk edib qiymətləndirməsələr də, gələcək nəsillər adını hörmətlə yad edəcəklər»- deyirdi».

Bundan başqa, Tiflisin gürcüdilli mətbuatında da həmin tamaşalar, xüsusən Hüseyn Ərəblinski barədə ürəkaçan yazılar dərc edilmişdi.

Həmin günlərdə «Ağa Məhəmməd şah Qacar» pyesinin tamaşası ərəfəsində baş vermiş bir hadisə Hüseyn Ərəblinskini həm də bir insan kimi gözümüz önündə yüksəldir. «Tamaşadan əvvəl Ərəblinskiyə xəbər verirlər ki, faciənin əsas surətlərindən olan , Gürcüstan hökmdarı İkinci İraklinin nəvələrindən biri Tiflisdədir. Hüseyn Ərəblinski İkinci İraklinin nəvəsi olan xanımın yanına gedib göstəriləcək faciədəki hadisələri- … Tiflisin yandırılmasını, onun babası İkinci İraklinin qəhrəmancasına vuruşmasını söyləyib, «xanım tərəfindən etiraz olmazsa, tamaşanı göstərək», deyə nəzakətlə pyesin səhnəyə qoyulmasına icazə istəmişdi. Xanım: «Tarixin əleyhinə getmək olmaz», deyə əsərin oynanılmasına razılıq vermiş və hətta, xüsusi bir loja biletinin ona göndərilməsini xahiş etmişdi» (Kamran Məmmədoov. «Əbdürrəhim bəy Haqverdiyev». Bakı, 1955, səh.55-56)

Professor Əziz Şərifin məşhur «Gündəliklər»ində Hüseyn Ərəblinskinin 1914- cü il Tiflis qastrolu barədə məlumat öz əksini tapmışdır. Həmin il yanvarın 10-da «Gürcü Əyanları Teatrı»nda Hüseyn Ərəblinskinin rəhbərliyi ilə «Sultan Osman» (müəllifi Volter, tərcümə

edəni Ə. Haqverdiyev) tamaşası göstərilmişdir. Tamaşada baş rolda Hüseyn Ərəblinski, digər rollarda Tiflis Azərbaycan teatrı truppasının aktyorları- Mirzəli Abbasov, Mirseyfəddin Kirmanşahlı, Məmmədtağı Ələsgərov və başqaları oynamışlar.

Həmin tamaşada Hüseyn Ərəblinski ilk dəfə səhnəyə çıxan zaman gurultulu alqışlar qopmuş və zala rəngarəng vərəqələr səpələnmişdi. Vərəqələrdə Azərbaycan və rus dillərində bu sözlər yazılmışdı: «Salam olsun əziz yoldaşımız və namdar artistimiz Ərəblinski cənablarına. Artist yoldaşlardan». Əlbəttə, bu xoş sözlər böyük sənətkara həmkarlarının və tamaşaçıların hörmət və məhəbbətini ifadə edirdi.

Həmin qastrol zamanı növbəti tamaşa «Gaveyi-ahəngər» olmuşdur. Bu tamaşada Hüseyn Ərəblinski ilə yanaşı yerli aktyorlardan Mirzəli Abbasov, Mirseyfəddin Kirmanşahlı, Məmmədtağı Ələsgərov, Əşrəf Yüzbaşov və digərləri çıxış etmişlər.

1914- cü il yanvarın 24- də «Sultan Əbdüləziz, yaxud Osmanlı inqilabı» tamaşası təqdim olunmuşdur. Qeyd edək ki, bu tamaşaların hazırlanmasında Hüseyn Ərəblinskinin təklifi ilə Tiflis Azərbaycan teatrının aktyoru və rejissoru Mirzəli Abbasov da rejissor kimi iştirak etmişdir.

Hüseyn Ərəblinski Tiflis sənətsevərləri arasında böyük nüfuza malik idi. Müasirlərinin yazdığına görə, on un iştirakı ilə Tiflisdə göstərilən tamaşaların biletlərinin hamısı bir neçə gün əvvəl satılıb qurtarardı.

1914- cü il Tiflis qastrolu zamanı göstərilmiş tamaşaların hər birinin Azərbaycan və rus dillərində proqramı çap olunmuşdur. Hər bir proqramın üzərində Hüseyn Ərəblinskinin fotoşəkli yerləşdirilmiş və yazılmışdır: «Müsəlman səhnəsinin namdar artisti Hüseyn

Ərəblinskinin qastrolu (Tiflis müsəlman dram dəstəsinin iştirakı ilə)». Daha sonra isə müəllifin və əsərin adı, habelə aktyorların siyahısı verilmişdir.

Göründüyü kimi, Hüseyn Ərəblinski ilə Tiflis ziyalıları, xüsusən Tiflis Azərbaycan teatrının aktyorları arasında isti bir münasibət yaranmışdı. Həmin illərdə Tiflis teatrında güclü aktyorlar yetişmişdi. Mirzəli Abbasov, Mirzəxan Quliyev, Mirseyfəddin Kirmanşahlı, İbrahim İsfahanlı, Nadir İbrahimov, Həbib Köçərlinski, Məmmədtağı Ələsgərov, Əli Qurbanov, habelə ilk sənət addımlarını atan Mustafa Mərdanov və Möhsün Sənani kimi sənətkarlar istənilən tamaşada yüksək səviyyədə oynamağa qadir idilər. Əlbəttə, belə bir truppa ilə işləmək Hüseyn Ərəblinski üçün də xoş idi.

Bununla yanaşı, onu da qeyd etmək lazımdır ki, Tiflis Azərbaycan teatrının formalaşmasına və ayrı-ayrı aktyorların inkişafına Hüseyn Ərəblinskinin ciddi təsiri olmuşdur. Bütün bunlara görə o, Gürcüstanda da ürəkdən sevilmiş, yüksək qiymətləndirilmişdir.

Hüseyn Ərəblinskinin 1919- cu ilin mart ayında Bakıda qətlə yetirilməsi xəbəri TİflisdƏ də hüznlə qarşılanmış, mətbuatda Əziz Şərifin və Əliqulu Qəmküsarın yazıları dərc olunmuşdu. Bu yazılar nə qədər üzüntülü olsa da, Azərbaycan teatrının gələcəyi ilə bağlı nikbin notlarla bitirdi. Əziz Şərif öz yazısını bu sözlərlə tamamlayırdı: «… biz inanırıq ki, mərhum Ərəblinskinin bolca səpdiyi tərəqqi və sənayeyi- nəfisə toxumu bizim cavanlarımızın ürəyində böyüyüb, gələcəkdə güclü bir mədaxil verər».

Milli teatr sənətimizin müasir mənzərəsi deyiləni sübuta yetirir.

**2011**

## ABBASMİRZƏ ŞƏRİFZADƏ

Səhnəmizin korifeylərindən biri, görkəmli aktyor və rejissor, xalq artisti Abbasmirzə Şərifzadə Tiflis teatr mühiti, o cümlədən Tiflis Azərbaycan teatrı ilə yaradıcılıq əlaqələri saxlamış, buradakı Azərbaycan və gürcü sənətkarları ilə dostluq etmişdir. Təbii ki, bu əlaqələr Tiflis Azərbaycan teatrının formalaşmasına, aktyorların peşəkarlığının artırılmasına, yeni aktyor və rejissorların yetişməsinə, habelə Azərbaycan – gürcü teatr əlaqələrinin inkişafına müsbət təsir göstərib.

O, tez- tez Tiflisə qastrola gələr, eyni zamanda, yerli aktyorlarla birlikdə tamaşalar hazırlayar, özü də bu tamaşalarda aktyor kimi səhnəyə çıxardı. Abbasmirzə Şərifzadənin bu səfərləri sistemli şəkil aldığına görə, professor Abbas Hacıyevin yazdığı kimi, «hətta mətbuat onu yerli artist- Tiflis səhnəsinin artisti adlandırırdı».

Mənbələrdən məlum olur ki, 1916- cı ildə Üzeyir Hacıbəyli tərəfindən «Hacıbəyov qardaşlarının opera, operetta dəstəsi» adlı truppa təşkil edilmiş və truppanın rejissorluğu Üzeyir bəy tərəfindən Abbasmirzə Şərifzadəyə tapşırılmışdır. Truppa 1917- ci ilin aprel ayında Tiflisdə qastrolda olmuş və burada «Arşın mal alan», «O olmasın, bu olsun», «Şah İsmayıl», «Aşıq Qərib» tamaşaları nümayiş etdirilmişdir. Gürcüstanın xalq artisti İbrahim İsfahanlının xatirələrindən məlum olur ki, Abbasmirzə Şərifzadənin rejissorluğu ilə göstərilmiş bu tamaşalarda Üzeyir bəy özü dirijorluq etmiş, Bakıdan gəlmiş aktyorlarla yanaşı yerli artistlər- Nadir İbrahimov, Əli Şahsabahlı, Məmməd Cəfərli, o vaxtlar burada yaşayan və Tiflis Azərbaycan teatrının tamaşalarında aktyor kimi çıxış edən Seyid Şuşinski iştirak etmişdir..

Abbasmirzə Şərifzadənin Tiflis teatr mühiti ilə əlaqələri 1920- ci illərin əvvəllərində Tiflis Azərbaycan Dövlət Dram Teatrı rəsmi status aldıqdan sonra daha da intensivləşmiş və bu təmas aktyorun ömrünün sonunadək davam etmişdir.

O, 1923- cü ilin iyun ayında sənət dostu Mərziyə Davudova ilə birlikdə Tiflisdə qastrolda olmuş və burada yerli aktyorlarla birlikdə böyük dramaturqumuz Hüseyn Cavidin «İblis» və «Şeyx Sənan» pyeslərində çıxış etmişdir. İyunun 19- da Gürcü klubunda «İblis» tamaşası göstərilmişdir. Tiflis Azərbaycan teatrının rejissoru və aktyoru Mirseyfəddin Kirmanşahlının quruluş verdiyi bu tamaşada İblis rolunda Abbasmirzə Şərifzadə, Rəna rolunda Mərziyə Davudova, Arif rolunda İbrahim İsfahanlı, İxtiyar rolunda Mustafa Mərdanov çıxış etmişdir. Digər rolları da Tiflis teatrının aktyorları oynamışlar. İyunun 22- də isə dramaturqun başqa bir əsəri- «Şeyx Sənan» pyesi göstərilmişdir. Bu tamaşanı da Mirseyfəddin Kirmanşahlı hazırlamış, baş rolları Abbasmirzə Şərifzadə və Mərziyə Davudova, digər rolları yenə Tiflis teatrının aktyorları oynamışlar. Hər iki tamaşa, xüsusən Abbasmirzə Şərifzadənin oyunu Tiflis mətbuatında yüksək qiymətləndirilmişdir.

Professor Abbas Hacıyevin «Tiflis Azərbaycan teatrı» kitabından: «... Bakı və Tiflis (Tbilisi şəhəri 1936-cı ilədək Tiflis adlanmışdır- **A.B.)** artistlərinin birgə tamaşaları daha təsirli, daha məzmunlu olurdu. Birgə tamaşalar göstərmək üçün Mərziyə xanımla A. M. Şərifzadə 1923- cü ildə Tiflisə gəlmişdilər. Onlar Rustaveli və Marcanişvili teatrlarında «Şeyx Sənan» «İblis» və «Aydın» pyeslərini tamaşaya qoyurdular. Əsərlərin səhnə quruluşunu M. Kirmanşahlı verirdi. Tamaşaların hamısında A. M. Şərifzadə, Mərziyə xanım, M. Kir-

manşahlı, M. Mərdanov, İ. İsfahanlı, M. Abbasov, P. Tanailidi, İsmət xanım, Tərlan xanım və İ. Hüseynov iştirak edir, tamaşaçı rəğbəti qazanırdılar».

Aktyorun Tiflisə növbəti qastrolu 1926- cı ildə olmuşdur. O bu dəfə Tiflis Azərbaycan teatrının aktyorlarının iştirakı ilə «İblis» və «Şeyx Sənan»la yanaşı, «Oqtay Eloğlu», «Otello» və «Don Juan» pyeslərini də tamaşaçılara təqdim etmişdir.

Tiflis mətbuatında bu tamaşalar barədə çap olunmuş resenziyalarda Abbasmirzə Şərifzadənin oyunu təhlil edilmiş, arı-ayrı müəlliflər onun «Şeyx Sənan rolunu mümkün olduğu dərəcədə müvəffəqiyyətlə oynadığını», «Don Juan rolunda bütün məharətini göstərdiyini», «Oqtay rolunu xüsusi ruh yüksəkliyi ilə ifa etdiyini», «Otello rolunu oynamaqla birinciliyi qazandığını» xüsusi vurğulamışdılar.

«Yeni fikir» qəzetinin 21 fevral 1926- cı il tarixli sayında «Oqtay Eloğlu» tamaşası barədə verilmiş resenziyada yazılmışdı. «… Oynayanlara gəldikdə qastrolçu Abbasmirzə Şərifzadənin Oqtay rolunu son dərəcə gözəl oynamasını birinci növbədə qeyd etməliyik. Çəkdiyi əzablardan, işgəncələrdən, aldığı töhmətlərdən, yoldaşlarının lazımi yüksəklikdə olmamasından yorulmuş böyük aktyor- Oqtay, özündə olan böyük qüvvənin köməyi ilə yaşayır. Bu qüvvə onu ən ümidsiz hallardan qurtarır. Oqtayın ümumi hisslərini Abbasmirzə böyük məharətlə göstərir və tamaşaçını müttəsil öz təsiri altında saxlayır».

Abbasmirzə Şərifzadənin səhnə fəaliyyətinin 20 illiyi 1929- cu ilin əvvəllərində Tiflisdə də geniş qeyd edilmişdir. Bu münasibətlə Gürcüstan hökumətinin İncəsənət Şöbəsi tərəfindən xüsusi yubiley komissiyası yaradılmış və komissiyanın tərkibinə tanınmış dövlət

və mədəniyyət xadimləri, teatr ictimaiyyətinin nümayəndələri daxil edilmişdilər. Bu barədə Tiflis mətbuatında yazılmışdı: «Tiflis Dövlət Türk Dramının Bədii Şurası Azərbaycanın əməkdar aktyoru A. M. Şərifzadənin 20 illik zəhmətini nəzərə alaraq onun bu günlərdə Bakıda bayram edilən yubileyini Tiflisdə təkrar etməyi qərara almışdır. Yubiley martın əvvəlində bayram ediləcəkdir. Yubiley komissiyonu bu qərarla tərtib edilib, Ali İncəsənət Şöbəsi tərəfindən təsdiq olunmuşdur».

Yubiley ərəfəsində və yubileydən sonra Tiflis mətbuatında, xüsusən «Dan yıldızı» jurnalında və «Yeni kənd» qəzetində ayrı- ayrı müəlliflərin aktyorun fəaliyyətinə aid məqalələri dərc edilmişdir.

«Yeni kənd» qəzetində Abbasmirzə Şərifzadə haqqında dərc olunmuş məqalənin Ə. Ucarlı imzalı müəllifi yazırdı ki, səhnəmizin bu əməkçi oğlunu tanımayan yoxdur. O, türk teatrını yüksəltmək yolunda çox əmək sərf etmiş, sənət onun ilə doğulmuş və onu aşılmaz dağlardan aşırmışdır.

Yubiley tədbiri 1929- cu il martın 1- də Ş. Rustaveli adına teatrın binasında keçirildi. Həmin tədbirdə Tiflis Azərbaycan Dövlət Dram Teatrının aktyorlarının ifasında «Hamlet» tamaşası göstərildi. Hamlet rolunu Abbasmirzə Şərifzadə oynayırdı.

«Yeni kənd» qəzetində dərc edilmiş «Abbasmirzə Şərifzadənin yubileyi» adlı yazıdan: «Kafi dərəcədə iradə qüvvəsinə malik olmadığından əzablar içərisində məhv olan Hamlet tipini Abbasmirzə xırda detallarına qədər təhlil və onu dərin düşüncə ilə oynayaraq, unudulmaz bədii bir sima yaradır. Qocaman dramaturq Əbdürrəhim bəy Haqverdiyevin dediyi kimi, «Dursunəli- Hamlet! Nə böyük məsafə, nə ağır yollar, nə parlaq nailiyyət!» Bunu

bu axşam tamaşaçılarımızın dəfələrlə qopan gurultulu və səmimi alqışları sübut etdi».

Ə. Seyfinin «Dan yıldızı» jurnalında çap olunmuş məqaləsində də aktyorun sənətinə böyük məhəbbətin şahidi oluruq. Məqalə müəllifinin fikrincə, Otello, Hamlet, Karl Moor, Elxan, İblis, Şeyx Sənan, Aydın, Svenqali kimi məsul rolların Abbasmirzə tərəfindən böyük bacarıq və müvəffəqiyyətlə oynanılması sənətkarın keçmiş olduğu yolu və onun bədii simasını müəyyən edən gözəl sübutdur.

Xüsusi olaraq qeyd edilməlidir ki, Abbasmirzə sənəti Tiflisdə yaşayan digər xalqların nümayəndələri tərəfindən də sevilmiş və yüksək qiymətləndirilmişdir. Tiflisdə rus dilində nəşr olunan «Zarya Vostoka» qəzetinin 23 mart 1936- cı il tarixli sayında dərc edilmiş «Türk teatrının böyük qələbəsi» adlı yazıda teatrın «Şekspir zirvələrinə yüksəlməyə qadir aktyor qüvvələrinə malik olduğu» göstərilir və bu aktyorlar sırasında Abbasmirzə Şərifzadənin adı çəkilir. Məqalə müəllifinin fikrincə, «Abbasmirzənin Maqbeti (U. Şekspirin «Maqbet» faciəsindəki eyni adlı obraz nəzərdə tutulur- **A. B.**) - Şekspir epoxasının ictimai keşməkeşlərindən doğmuş, daxilində ehtiraslar qaynayan bir irsan obrazı…, aktyorun böyük yaradıcılıq qələbəsidir».

Görkəmli gürcü rejissoru və aktyoru, SSRİ xalq artisti İsaak Antadze ( o, teatr ictimaiyyətində Dodo Antadze adı və soyadı ilə tanınır) də aktyorun sənətini, xüsusən onun ifasında Hamlet obrazını yüksək qiymətləndirmiş və belə yazmışdır: «Tiflis tamaşaçıları öz sevimli aktyorları olan A. M. Şərifzadə ilə son dəfə 1936- cı ildə görüşdülər. Həmin ildə o, Hamlet rolunu oynadı və öz parlaq talantı ilə tamaşaçıları bir daha valeh etdi… »

Həmin qastrolun başqa bir şahidi, görkəmli gürcü

şairi Sandro Şanşiaşvilinin xatirələrindən: «1936- cı ilin isti yay günlərindən birində o (A. M. Şərifzadə- **A. B.**), bizə gəlmişdi. Ona dedim ki, eşitdiyimə görə, Maqbet rolunda tüğyan edirsən. Bizim «Zarya Vostoka» qəzetində bu barədə məqalə dərc olunmuşdur. Məqalə müəllifi yazır ki, «Maqbet»i Şekspir yazıb, Abbasmirzə Şərifzadə yaradıb. Səni bu rolda görmək istərdim. Dedi ki, bu dəfə qastrolumda heyif ki, «Maqbet» yoxdur. Məni bu rolda görmək üçün, əziz dost, səni Bakıya dəvət edirəm… Ailənlə birlikdə bizə qonaq gəlsən, həm mən sevinərəm, həm də sən məni Maqbet rolunda görərsən. Dedim ki, sağlıq olsun, gələrəm…»

Təəssüf ki, dostların bu arzusu baş tutmadı. Bir müddət sonra Abbasmirzə Şərifzadə saxta ittihamla həbsə alındı, daha sonra «xalq düşməni» damğası ilə güllələndi…

Bizə qalan onun böyük sənəti oldu.

**2012**

## ALEKSANDR TUQANOV

Aleksandr Tuqanov Azərbaycan teatr sənətində iz qoymuş simalardandır. O, 1871-ci ildə Moskvada doğulub. Moskvada Korş teatrında, habelə Rusiyanın bir sıra şəhərlərində aktyor, sonradan Gürcüstanda, 1924-cü ildən isə Azərbaycanda rejissor kimi fəaliyyət göstərib. Aleksandr Tuqanovun fəaliyyətinin müəyyən dövrü Tiflis Azərbaycan Teatrı ilə bağlıdır.

Özünün yazdığına görə, Azərbaycan teatrı ilə ilk tanışlığı 1898- ildə Moskva Korş teatrının Tiflis şəhərinə səfəri zamanı olmuşdur. 1912- ci ildə isə o, daimi işləmək üçün Tiflisə gəlir və burada rus teatrında fəaliyyətə başlayır. Həmin vaxtlar burada Azərbaycan ziyalılarının yaratdığı «Müsəlman teatr cəmiyyəti»nin tamaşalarına baxır. Bu tamaşalar  Zubalov Xalq Evində, habelə digər teatrların səhnələrində göstərilirdi.

Əlbəttə, o, bir mütəxəssis kimi imkan daxilində bütün tamaşaları izləyirdi. Azərbaycan teatrına olan böyük maraq və bağlılıq, təbii ki, məhz o vaxtlar meydana gəlib. Onun xatirələrindən: «Zubalov Xalq Evində baxdığım tamaşalar, ekzotik Tiflisdə, başqa xalqların milli tamaşaları ilə eyni səviyyədə, böyük bir məktəb təsiri bağışlayırdı. Burada (Zubalov Xalq Evi nəzərdə tutulur- **A. B.**)  on bir bölmə işləyirdi. Hər millətin tamaşası öz doğma dilində qoyulurdu… Əsas – rus, gürcü,  Azərbaycan dram dərnəklərindən başqa, burada Ukrayna, yəhudi, osetin, yunan, aysor dram cəmyyətləri də fəaliyyət göstərirdi».

Məlum olduğu kimi, 1912-ci ildə Tiflisdə–azərbaycanlı artistlərin hazırladığı tamaşaları göstərmək üç ün  şəhərin azərbaycanlılar yaşayan «Şeytanbazar» mə-

hәllәsindә teatr üçün xüsusi bina- «Auditoriya» açılmışdı. Bundan sonra tamaşaların göstәrilmәsi ardıcıl xarakter alır  vә Tuqanov bu tamaşalara ardıcıl baxmaq imkanı qazanır. «Bu tamaşalar mәni Azәrbaycan teatrı vә onun ifaçıları ilә әsaslı şәkildә yaxınlaşdırırdı. Peşәkar teatr olmasa da, buradan sonralar böyük aktyorlar çıxmışdı: Sidqi Ruhulla, Mustafa Mәrdanov, Əli Qurbanov, Mirseyfәddin Kirmanşahlı vә başqaları».

O, 1922- ci ildәn başlayaraq azәrbaycanlı aktyorların dәvәti ilә Azәrbaycan dilindә dә tamaşalar hazırlayırdı. «O zamanlar ağlıma da gәlmәzdi ki, Azәrbaycan teatrı ilә belә yaxından bağlanacağam vә yaradıcılığımın әn qaynar, hәrarәtli illәrini ona hәsr edәcәyәm». Azәrbaycanın xalq artisti Mustafa Mәrdanov belә xatırlamışdır: «1922- ci ildә öz benefisimә «Ədirnәnin fәthi»ni (C. Cabbarlının pyesi- **A. B.**) hazırlayırdım; әsәrdә baş rolu- Harisi özüm oynayırdım. Tamaşanın daha gözәl hazırlanması üçün Tiflis Dövlәt Rus Teatrının baş rejissoru A. A. Tuqanovu «Ədirnәnin fәthi»nin rejissorluğuna dәvәt etdik. Tuqanov әsәri gözәl surәtdә hazırlayıb tamaşaya qoydu».

Nәhayәt, Tiflis teatrının aktyorlarından Mustafa Mәrdanov vә  Mirseyfәddin Kirmanşahlının, habelә inzibatçı  Əli Bayramovun tәkidli xahişlәri nәticәsindә A. A. Tuqanov bu teatrda işlәmәyә razılıq verir. Belәliklә dә o, 1923-cü il avqustun 23- dә Tiflis Azәrbaycan Dram Teatrının baş rejissoru tәyin edilir.

Qeyd etdiyimiz kimi, Tuqanov bu teatrın aktyor heyәti vә tamaşaları ilә tanış idi vә sәnәt yanğılı bu insanları yüksәk qiymәtlәndirirdi: «O vaxt Azәrbaycan teatrının (Tiflis teatrı nәzәrdә tutulur- **A. B.**) Meydandakı darısqal binasında rastlaşdığım aktyorların ürәyi işlәmәk, tamaşa hazırlamaq hәvәsi vә yanğısı ilә dolu idi».

Məhz bunları nəzərə alan rejissor əsl teatr yaratmaq, güclü kadrlar yetişdirmək üçün bütün gücünü səfərbər edir. Tuqanov ayrı- ayrı əsərlərin yalnız səhnəyə çıxarılması ilə kifayətlənmir, hazırladığı tamaşaların ümumi mədəni səviyyəsinin yüksəldilməsinə də xüsusi səy göstərir və buna nail olurdu: «Bir sözlə, əsl teatr yaratmaq istəyirdik!»

Bütün bu işlərdə onun ən yaxın köməkçisi Gürcüstanın xalq artisti İbrahim İsfahanlı idi. A. Tuqanov İbrahim İsfahanlını özünün müəllimi hesab edir, onun, habelə Gürcüstanın əməkdar artisti Mirzəli Abbasovun, aktyorlardan Mirzəxan Quliyevin, Əşrəf Yüzbaşovun və digər aktyorların səhnə fədakarlığını yüksək qiymətləndirirdi.

Tiflis teatrında orijinal pyeslərin, habelə Azərbaycan səhnəsi üçün yeni olan klassik əsərlərin A. Tuqanov tərəfindən tamaşaya qoyulması aktyorların fərdi yaradıcılıq xüsusiyyətlərinin üzə çıxmasına şərait yaradır, onlara özlərinə məxsus cəhətləri göstərmək imkanı verir, tamaşaçıları teatra cəlb edirdi.

Onun bu teatrda ilk işi Şəmsəddin Saminin «Gaveyi-ahəngər» pyesinin tamaşası olub. Aleksandr Tuqanovun xatirələrindən: «Bu, yetkin tamaşa idi, aktyorların öz rollarına tamam yeni münasibətləri duyulurdu: bu tamaşa bütün mövsümə müəyyən hava verdi».

Beləliklə, başlanğıc uğuru olur. Bunun ardınca tamaşaçılara fransız yazıçısı J. B. Molyerin «Jorj Danden» komediyası təqdim olunur. Bu tamaşa da böyük uğur qazanır.

Aleksandr Tuqanov teatrda baş rejissor kimi fəaliyyət göstərərkən «Uçurum», «İblis», «Şeyx Sənan», «Pəri cadu», «Ölülər» pyeslərini yeni quruluşda tamaşaya hazırlayır. İbrahim İsfahanlının fikrincə, onun

ən maraqlı quruluşlarından biri «Müfəttiş» (N. V. Qoqol) komediyasının tamaşası olmuşdur. Səhnədə ilk addımlarını atan gənc aktyor Ülvi Rəcəb məhz Tuqanovun hazırladığı tamaşalarda uğurlu obrazlar yaratmışdır. Onun yaratdığı Dərviş («Şeyx Sənan»), İxtiyar («İblis»), Məhkəmə rəisi («Müfəttiş») obrazları tamaşaçılar tərəfindən hərarətlə qarşılanmışdır.

Aleksandr Tuqanovun Tiflis teatrında hazırladığı «Dağılan tifaq», «Hacı Qara», «Qaçaqlar» (tərcümə edəni Həsən Səbri), «Məkr və məhəbbət» (tərcümə edəni Ələkbər Seyfi) və «Otello» (tərcümə edəni Həsən Səbri) tamaşaları da uğurlu olmuşdur.

Məlumdur ki, Aleksandr Tuqanov Bakıda, Azərbaycan Dövlət Dram Teatrında çalışarkən böyük dramaturq Cəfər Cabbarlı ilə yaradıcılıq əməkdaşlığı etmişdir. Yazıçının pyeslərinin quruluşları əsasən ona məxsusdur. Lakin onun Cəfər Cabbarlı ilə «ilk görüşü» Tiflis teatrında olmuşdur. Tuqanov bu teatrda dramaturqun «Ədirnənin fəthi» pyesindən sonra «Aydın» və «Oqtay Eloğlu» pyeslərinə də quruluş vermişdir. O, sonralar bu barədə belə yazmışdır: «Bu, xatirəsi mənim üçün müqəddəs olan, son dərəcə gözəl, böyük dramaturqla ilk görüş idi».

Dövri mətbuat teatrın fəaliyyətini yüksək qiymətləndirirdi. Aleksandr Tuqanovun xatirələrindən: «Dövri mətbuat bizim işimizə dostcasına, nikbin baxırdı. Əməyimz hədər getmirdi, birgə işimizin elə ilk çağları, ilk mövsüm göstərdi ki, müstəqil yolla irəliləyən Azərbaycan teatrı yaşamağa qadirdir».

Həmin vaxtlar Tiflis Azərbaycan Teatrının uğurları Bakı teatr ictimaiyyətinin də diqqətini cəlb edir. Şübhəsiz, uğurlu tamaşaların meydana çıxması əsasən

Aleksandr Tuqanovun adı ilə bağlı idi. Əlbəttə, bu işdə teatrın fədakar aktyorlarının əməyi də danılmazdır.

Tuqanov 1924- cü ildə işləmək üçün Bakıya- Azərbaycan Dövlət Dram Teatrına dəvət edilir. O bu təklifi məmnuniyyətlə qəbul etmiş və sonralar belə yazmışdır: «Tifliçdə ilk mövsümün uğurları elə böyük idi ki, mən Azərbaycan teatrındakı bu təcrübəmi davam etdirmək üçün imkanı əldən verməmək qərarına gəldim».

Beləliklə, Aleksandr Tuqanov 1924- cü ilin yazında Tiflislə, oradakı rəssam, şair və aktyor dostları ilə vidalaşıb yeni teatr yaratmaq, butün bilik və təcrübəsini sevdiyi sənətə həsr etmək barədə qəlbində baş qaldıran çoxdankı arzularını reallaşdırmaq üçün Azərbaycana, yeni iş yerinə gedir…

**2011**

## ƏBÜLFƏT VƏLİ

Azərbaycan teatrının yaranmasında müstəsna əməyi olan səhnə xadimlərindən biri də Əbülfət Vəli (Vəlizadə) olmuşdur. O öz müasirləri arasında «Vəli əfəndi» adı ilə də tanınmış, istedadlı rejissor və aktyor, habelə səriştəli teatr təşkilatçısı kimi məşhurlaşmışdır. Teatrşünaslar böyük faciə ustası Hüseyn Ərəblinskinin istedadının üzə çıxarılmasında və bir teatr xadimi kimi formalaşmasında Əbülfət Vəlinin xidmətlərini xüsusi qeyd etmiş, onun Azərbaycan teatrının ilk peşəkar aktyoru olduğunu göstərmişlər.

Əbülfət Vəli 1867- ci ildə (bəzi mənbələrdə 1871- ci ildə) Şuşada doğulub, 1918- ci ildə Göyçayda dünyasını dəyişib. Görkəmli teatrşünas, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, mərhum İnqilab Kərimovun araşdırmalarından məlum olur ki, Əbülfət Vəli əsasən faciə aktyoru olmuş, yaratdığı obrazlar rəngarəngliyi ilə seçilmişdir. O, Xəlil («Hacı Qara», Cahangir bəy («Müsibəti- Fəxrəddin»), Şah Təhmas, Cavad, Ədhəm və Heydər («Nadir şah»), Həkim və Heydər bəy («Bəxtsiz cavan»), «Şahmar bəy («Ev tərbiyəsinin bir şəkli»), Dəli Şirin («Daldan atılan daş topuğa dəyər»), Həsən («Qəzavat»), Dobçinski («Müfəttiş»), İkinci İrakli («Ağa Məhəmməd şah Qacar»), Gavə («Gaveyi- ahəngər»), Abdulla («Dağılan tifaq»), Fon Moor («Qaçaqlar») və bir çox başqa rollarda çıxış etmiş, M. F. Axundovun «Hacı Qara», N. B. Vəzirovun «Müsibəti- Fəxrəddin», Ə. B. Haqverdiyevin «Dağılan tifaq» və «Bəxtsiz cavan» pyeslərinə «fikir gözəlliyi və mənalı aktyor oyunu ilə dövrünün qabaqcıl ziyalılarını maraqlandıran» quruluşlar vermişdir.

O, 1908- ci ildə Azərbaycan səhnəsində ilk dəfə olaraq «Gaveyi- ahəngər» tamaşasında Gavə obrazını yaratmışdır. «O zamankı teatr tənqidinin etirafına görə, Əbülfət Vəli öz ağıllı və düşünülmüş oyunu ilə böyük təsir bağışlamış və yaxşı bir «kasıb dəmirçi tipi» yaratmışdı» ( akademik Cəfər Cəfərov).

Əbülfət Vəlinin 1911- ci ildə N. Nərimanovun «Nadir şah» pyesi əsasında hazırladığı tamaşa da xüsusi maraq doğurmuşdur.

Digər sənət dostları kimi, Əbülfət Vəli də Tiflis Azərbaycan teatrı və bu teatrın aktyorları ilə yaradıcılıq əlaqəsində olmuş, əməkdaşlıq etmişdir. Gürcüstanın xalq artisti İbrahim İsfahanlının, digər sənət adamlarının xatirələrindən məlum olur ki, o, yerli ziyalıların və aktyorların dəvəti ilə dəfələrlə Tiflisdə tamaşalar hazırlamış, eyni zamanda, Tiflisdə, Gürcüstanın digər şəhərlərində qastrolda olmuşdur.

Məlumdur ki, 1908-ci ildə Tiflisdə Əbdürrəhim bəy Haqverdiyevin «Ağa Məhəmməd şah Qacar» faciəsi tamaşaya qoyulmuş və böyük uğur qazanmışdır. Tamaşada Qacar rolunu Hüseyn Ərəblinski, İrakli rolunu Əbülfət Vəli, digər rolları Tiflis Azərbaycan teatrının aktyorları oynamışlar. Tamaşanın rejissoru Hüseyn Ərəblinski, onun köməkçiləri isə Əbülfət Vəli və Əbdürrəhim bəy Haqverdiyev özü olmuşdur.

Tiflis mətbuatı 1911- ci ilin iyun ayında xəbər verirdi ki, Bakıdan bir qrup artist şəhərə gəlmişdir. «Bunlar, «Leyli və Məcnun» operasında baş rolda çıxış edən Sarabski, qoca və təcrübəli artist Vəli, Bakı tamaşaçılarının sevimlisi Mirzə Ağa Əliyev və başqalarından ibarətdir. İyunun 14- də Bakı artistləri ilə bərabər Tiflis həvəskarlarının iştirakı ilə Üzeyir Hacıbəyovun «O olmasın, bu olsun» operettası

oynanacaqdır». (Q. Məmmədli. «Azərbaycan teatrının salnaməsi», Bakı, 1975, səh. 251- 252).

İyunun 22- də «Kazyonnı teatr»da göstərilmiş həmin tamaşanın rejissoru Əbülfət Vəli, dirijoru müəllif özü- Üzeyir Hacıbəyov idi. Mətbuatdan o da məlum olur ki, bu səfərin təşkilatçısı və rəhbəri Əbülfət Vəli olmuşdur.

Teatr tariximizin cəfakeş tədqiqatsçısı Qulam Məmmədlinin həmin dövrə aid müxtəlif mənbələrdən toplayıb «Azərbaycan teatrının salnaməsi»nə (Bakı, 1975) daxil etdiyi məlumatlardan sətirlər:«Qafqaz şəhərlərinə qastrola çıxmış müsəlman artistləri Əbülfət Vəlinin idarəsi altında Tiflisdə «Leyli və Məcnun», «O olmasın, bu olsun»u oynayıb Batuma yola düşmüşlər… Buraya (Batuma – **A. B.**) gəlmiş Bakı artistləri Əbülfət Vəlinin idarəsi altında «Vətən» dramını oynayıb Suxuma yola düşmüşlər… Buraya (Suxuma – **A. B.**) gəlmiş Bakı artistləri Əbülfət Vəlinin idarəsi altında «Köhnə Türkiyə» dramını və «Dursunəli və ballıbadı» məzhəkəsini oynayıb buradan Yaltaya, Sevostopola və Krımın başqa şəhərlərinə gedəcəklər».

Əbülfət Vəli 1912- ci ildə Tiflis Azərbaycan teatrının aktyorlarının iştirakı ilə Əbdürrəhim bəy Haqverdiyevin «Bəxtsiz cavan» pyesini tamaşaya hazırlamış və bu tamaşa Tiflisdə bir neçə dəfə göstərilmişdir. Tamaşada Tiflis teatrının aktyorları- Mirzəli Abbasov, Mirzəxan Quliyev, Məmmədtağı Ələsgərov və başqaları oynamışlar.

Professor İnqilab Kərimovun araşdırmalarından məlum olur ki, 1913- cü ildə Tifliisdə «Bəxtsiz cavan» pyesi yenidən Əbülfət Vəlinin rejissorluğu ilə tamaşaya qoyulmuş və bu tamaşada Hacı Səməd ağa rolunda Əbdürrəhim bəy özü çıxış etmişdir. Tamaşada Sidqi Ruhulla, habelə Tiflis Azərbaycan teatrının akt-

yorlarından Panfiliya Tanailidi, Mirzəxan Quliyev və başqaları oynamışlar. (İnqilab Kərimov. «Ə. Haqverdiyev və teatr», Bakı, 1975, səh.115)

Professor Abbas Hacıyevin «Tiflis Azərbaycan teatrı» kitabından: «Y. Tahirovun (Yusif bəy Tahirov həmin illərdə Tiflisdə azərbaycanlıların teatr cəmiyyətinin rəhbəri olmuşdur - **A. B.** ) təşəbbüsü ilə tamaşaçıların psixologiyasını bilən bir aktyor- Əbülfət Vəli Tiflisə dəvət olundu. Bu böyük sənətkarın Tiflisə qastrolu aktyorların əhvali- ruhiyyəsinə, tamaşaların səviyyəsinə ciddi təsir göstərdi. Əbülfət Vəlinin məsləhəti ilə yerli aktyorlar şəhərin müxtəlif teatrlarından intensiv surətdə istifadə edirdilər. Ayda dörd dəfə Gürcü Əyanları teatrında, üç dəfə Zubalov adına Xalq Evində tamaşa göstərirdilər».

Tiflis mətbuatından məlum olur ki, Əbülfət Vəlinin həmin səfəri 1813- cü ilə təsadüf edir. Rejissor həmin il bir neçə tamaşaya uğurlu quruluşlar vermiş, eyni zamanda, özü də həmin tamaşalarda çıxış etmişdir. Professor Abbas Hacıyevin fikrincə, bu tamaşaların uğurlu çıxmasının səbəbi Tiflis Azərbaycan teatrının təcrübəli və istedadlı aktyorlara malik olması ilə yanaşı, həm də Əbülfət Vəlinin bu aktyorların fərdi psixoloji xüsusiyyətlərini , onların zövq və oyun üslubunu yaxşı bilməsi, əsərlərə zəngin və orijinal quruluş verməsi, intensiv məşqlər aparması ilə bağlı olmuşdur. «Əbülfət Vəli Tiflisdə aydın ideyalı, mürəkkəb kompozisiyalı əsərləri tamaşaya qoyurdu. Çünki onun özü daha çox ehtiraslı, təkrarolunmaz faciə aktyoru idi… Əbülfət Vəli səhnədə özünü «unudur», surətlə, onun hiss və arzusu, düşüncə aləmi ilə yaşayırdı».

Rejissorun həmin səfər vaxtı verdiyi uğurlu quruluşlardan biri də türk dramaturqu Namiq Kamalın «Ak if bəy» əsərinin tamaşası olmuşdur. Bu tamaşa barədə

böyük şair və dramaturq Hüseyn Cavidin «İqbal» qəzetinin 9 oktyabr 1913- cü il tarixli sayında «Müxbir» imzası ilə «Tiflisdən teatr, yaxud sənəti- tamaşada təbəddül və tərəqqi» adlı məqaləsi dərc edilmişdir. Hüseyn Cavid öz məqaləsində əsəri və tamaşanı təhlil etmiş, aktyorların oyununu yüksək dəyərləndirmişdir. Bu barədə «Mədəniyyət»in ("Mədəniyyət" qəzeti-red.) oxucularına məlumat vermişik. Ona görə də Hüseyn Cavidin tamaşanın rejissoru və əsas obrazlardan birinin yaradıcısı Əbülfət Vəli barədə yazdıqlarını oxucuların diqqətinə çatdırırıq: «…Əbülfət Vəli cənabları isə hər bir təqdirin fövqündə idi. Almış olduğu ixtiyar vəziyyəti, baxüsus əlaimi-vəcihəyi və bütün hərəkatı çox az artistə nəsib olan xassələrdən idi… Rejissor vəzifəsi Vəli əfəndinin öhdəsində idi. Dekorasiya qayət mükəmməl və çalğı da Tiflisdəki Osmanlı musiqi dəstəsi tərəfindən çalınırdı. Bir sözlə, bu axşamkı səhnə qüsursuz deyiləcək dərəcədə gözəl idi». (H. Cavid. «Əsərləri», 1Y cild, Bakı, 1985, səh. 227- 228).

Əlbəttə, böyük dramaturqumuz Hüseyn Cavidin bu tamaşaya verdiyi yüksək qiymət təsadüfi deyildi. Bu, fədakar aktyor və rejissor Əbülfət Vəlinin istedadına və əməyinə verilən qiymət idi.

Əbülfət Vəli bu qiymətə layiq idi…

**2012**

## HÜSEYN BƏY MİRZƏCAMALOV

Azərbaycan mədəniyyətinin inkişafında, milli-mənəvi dəyərlərimizin toplanılmasında, qorunmasında və təbliğində yetərli fəaliyyət göstərmiş ziyalılardan biri də Hüseyn bəy Mirzəcamalov (Hüseyn Camal Yanar) olub. «Mədəniyyət»in ("Mədəniyyət" qəzeti-red.) oxucuları onu ölkəmizdə ilk dövlət muzeyi- Azərbaycan Xalq Cümhuriyyəti dövründə açılmış İstiqlal muzeyinin yaradıcılarından biri kimi tanıyırlar. O, eyni zamanda, ədəbi yaradıcılıqla məşğul olmuş, tərcümələr etmiş, teatr təşkilatçısı kimi də tanınmışdır.

Hüseyn bəy Mirzəcamalov 1878- ci ildə Şuşada doğulub. İlk təhsilini də Şuşada alıb. Daha sonra Xarkov universitetində oxuyub. Mənbələrdən məlum olur ki, ötən əsrin əvvəllərində Tiflisdə yaşayıb və Tiflis ədəbi- mədəni mühiti ilə çox bağlı olub. Məhz həmin illərdə Tiflisdə Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid, Ömər Faiq, Hüseyn Ərəblinski, Üzeyir Hacıbəyli və başqa yaradıcı ziyalılar yaşayıb- yaradır, yaxud tez- tez buraya gəlirdilər. Tiflisdə Azərbaycan teatr truppası formalaşmışdı. Azərbaycan yazıçılarının əsərlərini, dünya dramaturgiyasından nümunələri uğurla tamaşaya qoyan truppa öz ətrafında Mirzəli Abbasov, Mirzəxan Quliyev, Mirseyfəddin Kirmanşahlı, Məmmədtağı Ələsgərov, Mustafa Mərdanov, İbrahim İsfahanlı, Nadir İbrahimov, Həbib Köçərlinski, İsmayıl Həqqi, Yusif bəy Tahirov və başqa sənət fədailərini birləşdirmişdi. Əbdürrəhim bəy Haqverdiyev teatrın fəaliyyətində yaxından iştirak edir, Hüseyn Ərəblinski, Əbülfət Vəli, Sidqi Ruhulla bu aktyorların iştirakı ilə tamaşalar hazırlayır, onlarla birlikdə tamaşalarda çıxış

edirdilər. Artıq yetkin bir ziyalı kimi formalaşmış Hüseyn bəy Mirzəcamalov bu qaynar ədəbi- mədəni mühitdən kənarda qala bilməzdi. 1912- ci ildə Tiflisdə Azərbaycan teatrı üçün xüsusi binanın- «Auditoriya»nın rəsmi açılışı mərasiminin hazırlanması və keçirilməsində başqa ziyalılarla birlikdə Hüseyn bəy Mirzəcamalov da fəal çalışmış və tədbirdə çıxış etmişdir.

«Auditoriya»nın rəsmi açılışı barədə «Zakavkaziye» qəzetinin 3 aprel 1912- ci il tarixli sayında yazılımışdır: «Müsəlman teatr cəmiyyətinin «Auditoriya» binasının açılışı olmuşdur. Şəhər qlavası Xatisov, generallardan Koxanovski və Əmir Kazım Mirzə, mətbuat, ictimai təşkilatların nümayəndələri, Axund Mollazadə, xəzinədar M. M. Əhmədov, Y. Tahirov, H. Köçərlinski, Ə. Haqverdiyev, H. Mirzəcamalov, səhnə xadimi İ. Volkov, knyaz Eristov, Baratov və Belyayev truppasının nümayəndələri təbrik nitqi söyləmişlər». (Sitat Q. Məmmədlinin «Azərbaycan teatrının salnaməsi» (Bakı, 1975, səh. 286- 287) kitabından götürülmüşdür).

Hüseyn bəy Mirzəcamalov bundan sonra da «Auditoriya» ilə əlaqədə olmuş, burada keçirilən tədbirlərdə iştirak etmiş, maarifləndirmə işi aparmışdır. Professor Əziz Şərifin «Keçmiş günlərdən» kitabından: «Auditoriya»da və Zubalov teatrında tez- tez tamaşa və konsertlər verilir, bəzən də pulsuz mühazirələr oxunurdu. Bu mühazirələrdən biri 1912- ci il aprelin 29-da universitet tələbəsi Hüseyn bəy Mirzəcamalov və gimnaziyanın yeddinci sinif şagirdi Həbib Köçərlinski tərəfindən oxunmuşdu».

Hüseyn bəy Mirzəcamalov, qeyd etdiyimiz kimi, bədii yaradıcılıq və tərcümə ilə də məşğul olmuşdur. «Baku» qəzetinin 3 may 1912- ci il tarixli sayında belə bir məlumat verilmişdir: «Tiflisdən verilən xəbərlərə

görə, Qafqaz Mətbuat Komitəsi M. Əlibəyovun «Məhkəmələr qapısında tökülən göz yaşları» və Hüseyn Mirzəcamalovun birpərdəli «İşgilli Məmo» əsərlərinin Qafqaz səhnələrində oynanmasına icazə vermişdir». Təəssüf ki, həmin əsərin tamaşaya qoyulub- qoyulmaması barədə hələlik hər hansı bir məlumata rast gəlməmişik.

«Baku» qəzetinin məhz həmin il başqa bir sayında Hüseyn bəy Mirzəcamalovun gürcü yazıçısı İ. Kedevanişvilinin «Xain» pyesinin Azərbaycan dilinə tərcüməsi üzərində işləməsi barədə də məlumat verilmişdir. Bu tərcümənin aqibəti barədə də məlumata rast gəlmədik. Onun gürcü dilindən tərcümə etdiyi başqa bir əsər- V. Mçedlişvilinin «Qaçaq Kərəm» pyesi isə elə həmin illərdə Tiflis və Bakı teatrlarında tamaşaya qoyulmuşdur.

V. Mçedlişvili bəzi mənbələrdə İ. Mçedlişvili ötən əsrin əvvəllərində Tiflisdə fəaliyyət göstərmiş mütərəqqi fikirli gürcü yazıçılarından biridir. Burada qəzet redaktoru- naşir olmuşdur. O, məşhur qaçaq, əslən Qazax mahalından olan Kərəm haqqında «Qaçaq Kərəm» adlı pyes yazmışdır. Pyesin Hüseyn bəy Mirzəcamalovun tərcüməsində ilk tamaşası 1912- ci il mayın 10- da Tiflis Azərbaycan teatrı aktyorlarının iştirakı ilə Gürcü Əyanları Teatrında olmuşdur. Həmin ərəfədə «Zakavkazskaya reç» qəzetində belə bir məlumat verilmişdi: « Mayın 10- da Azərbaycan Teatr Cəmiyyətinin artistləri Gürcü Əyanları Teatrında məşhur «Qaçaq Kərəm» dramını tamaşaya qoyacaqlar. Bu pyes üçün yeni dekorasiyalar, parik və kostyumlar alınmışdır. Əsas rolları ifa edirlər: Kərəm - Məmmədtağı Ələsgərov, Rəhim xan - Mirzəli Abbasov, Raxraxadze – Mirseyfəddin Kirmanşahlı, Xeço – məşhur komik, Tiflis tamaşaçılarının sevimlisi Mirzəxan Quliyev». (Sitat Adil Mişiyevin «Azərbaycan

yazıçıları və Tiflis ədəbi- ictimai mühiti» (Tbilisi, 1987, səh. 304) kitabından götürülmüşdür).

Həmin tamaşada o vaxtlar Tiflisdə kommersiya məktəbində təhsil alan, sonradan görkəmli teatr xadimi, aktyor və rejissor kimi məşhurlaşan xalq artisti Rza Təhmasib Qaçaq Kərəmin silahdaşlarından birinin rolunda ilk dəfə səhnəyə çıxmış və bu, professor Əziz Şərifin yazdığı kimi, onun «gələcək həyat və fəaliyyət yolunu müəyyənləşdirmişdir». Əsər Tiflisdə dəfələrlə göstərilmiş və hər dəfə tamaşaçılar tərəfindən razılıqla qarşılanmışdır.

«Qaçaq Kərəm» 1913- cü ildə Tiflis Azərbaycan teatrı aktyorlarının və yerli həvəskarların iştirakı ilə Gəncədə tamaşaya qoyulmuşdur. Bu dəfə Qaçaq Kərəm rolunda teatrın tanınmış simalarından olan Mirseyfəddin Kirmanşahlı çıxış etmişdir.

Əsərin və tamaşanın bu cür şöhrət qazanması «Qaçaq Kərəm»in 1914- cü ildə Bakıda səhnəyə çıxarılması ilə nətitcələnmişdir. Həmin dövrdə mətbuatın yazdığından məlum olur ki, tamaşanı böyük səhnə ustası Hüseyn Ərəblinski hazırlamış və onun özü Qaçaq Kərəm rolunu oynamışdır. Bundan başqa, məlum olur ki, Bakıda «Qaçaq Kərəm»in ilk tamaşasında müəllifin özü- V. Mçedlişvili də iştirak etmişdir. Əlbəttə, bu fakt Azərbaycan- gürcü ədəbi- mədəni əlaqələri tarixinin maraqlı səhifəsidir və bu sahədə Hüseyn bəy Mirzəcamalovun əməyini əks etdirir. Teatr tarixçisi və tədqiqatçısı Qulam Məmmədlinin verdiyi məlumata görə, Hüseyn bəy Mirzəcamalov başqa bir gürcü yazıçısının- İlya Çavçavadzenin də bir pyesini Azərbaycan dilinə çevirmişdir.

Bütün bunlarla yanaşı, Hüseyn bəy Mirzəcamalov vətənpərvər bir ziyalı, nəcib və xeyirxah bir insan olmuşdur. O, ehtiyacı olan ziyalılara əl tutmuş, mənəvi

yardımını əsirgəməmişdir. Məhz bu cəhətlərinə görə o öz müasirləri və həmkarları tərəfindən sevilmiş və yüksək dəyərləndirilmişdir. Böyük sənətkarımız Hüseyn Cavid onu «aliqəlb və həssas arxadaşımız» adlandırmışdır.

Görkəmli publisist, tənqidçi və ədəbiyyatşünas (1883- 1912) Abdulla Sur Tiflisdə müalicə olunduğu xəstəxanada dünyasını dəyişmiş və onun cənazəsi vətəni Gəncəyə gətirilmiş və burada torpağa tapşırılmışdır. Hüseyn Cavid həmin günlərdə öz qələm dostu haqqında böyük bir məqalə yazmış və «İqbal» qəzetinin 17 və 18 may 1912- il tarixli saylarında dərc etdirmişdir. Müəllif məqalədə Hüseyn bəy Mirzəcamalovun bir dost kimi Abdulla Sura göstərdiyi qayğı və ehtirama da xüsusi yer ayırmışdır. Məqalədə oxuyuruq: «Cənazəni Tiflisdən Gəncəyə gətirmək üçün gedən əfəndilərin dediyinə görə, dost olmaq münasibətilə yalnız Mirzəcamalov Hüseyn bəy əfəndinin, o aliqəlb və həssas arxadaşımızın bu müddətdə çəkdiyi zəhmətlər, mərhumun haqqında ibraz etdiyi insaniyyət və nəcabətlər Gəncə camaatını ixtiyar, gənc mühafizəkar təcəddüdpərəst (intelligent) hamısının mərhum Mirzə Abdulla haqqında olan etina və ehtimamatına min dəfə faiqdir». (Hüseyn Cavid. «Əsərləri». 1Y cild, Bakı, 1985, səh. 223)

Hüseyn bəy Mirzəcamalov Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918- 1920) Parlamentdə çalışmış, burada şöbə rəisi olmuşdur. Yuxarıda göstərdiyimiz kimi, məhz həmin dövrdə o, başqa bir vətənpərvər ziyalı Məhəmməd Ağayevlə birlikdə İstiqlal muzeyini yaratmışdır. 1920- ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra Türkiyəyə mühacirət etmiş və 1974- cü ildə İstanbulda dünyasını dəyişənədək burada yaşamışdır.

**2012**

## SEYİD ŞUŞİNSKİ

Ötən yazılarımızda XX əsrin əvvəllərində Tiflis Azərbaycan teatrı ilə əlaqə saxlamış, tamaşaların hazırlanmasında iştirak etmiş görkəmli ziyalılar və sənət adamları - Hüseyn Ərəblinski, Əbdürrəhim bəy Haqverdiyev, Aleksandr Tuqanov, Əziz Şərif, habelə ilk sənət addımlarını burada atmış Mustafa Mərdanov, Əli Qurbanov, Panfiliya Tanailidi və Möhsün Sənaninin bu teatrla yaradıcılıq əlaqələri barədə oxucularımıza məlumat vermişik.

1911- 1919- illərdə burada yaşamış məşhur xanəndə, Azərbaycanın xalq artisti Seyid Şuşinskinin Tiflis Azərbaycan teatrı ilə əlaqələri teatr tariximizin maraqlı səhifələrini təşkil edir. Həmin illərdə Tiflisdə qaynar ədəbi- mədəni mühit formalaşmışdı. Buraya müxtəliv millətləri təmsil edən ziyalılar, yazıçılar, teatr xadimləri, xanəndələr və musiqiçilər toplaşmışdı. Şəhərdə bir neçə teatr binası, habelə klublar fəaliyyət göstərirdi. Bu mədəniyyət ocaqlarında teatr tamaşaları nümayiş etdirilir, konsertlər təşkil olunurdu. Seyid Şuşinski də burada konsertlər verir, eyni zamanda, tamaşalarda pərdələrarası fasilələr zamanı oxuyurdu. Daha sonra o, Tiflisdə tamaşaya qoyulan musiqili səhnə əsərlərində aktyor kimi iştirak etmişdir.

Tiflis Azərbaycan teatrının yaranmasında və təşkilatlanmasında yetərli xidmətləri olan Azərbaycanın xalq artisti Mustafa Mərdanov öz xatirələrində yazır: «Seyid Şuşinski qabaqlar səhnəyə çıxmazdı, ancaq tamaşadan əvvəl və fasilələrdə pərdə qabağında oxuyardı. Tamaşaçılar onu sevirdi. Seyid teatrdan ayrılmazdı, boş saatlarını teatr məşğələlərinə həsr edirdi. Teatr işçiləri

Seyidin inkişaf etməsi üçün ona kömək göstərirdilər. Beləliklə, o, opera və operettalarda çıxış etməyə başladı».

Seyid Şuşinski məhz həmin illərdə Tiflis Azərbaycan teatrında Üzeyir Hacıbəylinin «Leyli və Məcnun» operasında İbn Salam, «Arşın mal alan» operettasında Əsgər, «O olmasın, bu olsun» operettasında Sərvər rollarında səhnəyə çıxmış və müasirlərinin yazdığına görə, tamaşaçılar tərəfindən razılıqla qarşılanmışdır.

1915- ci il noyabrın 15- də Tiflis Azərbaycan teatrı truppası Gürcü Əyanları Teatrının binasında öz uğurlu tamaşalarından olan «O olmasın, bu olsun» operettasını göstərmişdir. Tamaşanı görkəmli aktyor və rejissor Mirzəli Abbasov hazırlamışdı və o özü Məşədi İbad rolunda çıxış edirdi. Digər rollarda Məmmədtağı Ələsgərov (Rüstəm bəy), Mirzəxan Quliyev (Hambal), İsmayıl Həqqi (Rza bəy) və başqaları oynayırdılar. Seyid Şuşinski bu tamaşada Sərvər rolunda səhnəyə çıxmışdır. Cəlil Məmmədquluzadə öz ailə üzvləri ilə, Hüseyn Cavid və digər ziyalılar tamaşaçılar arasında olmuşlar. Həmin tamaşaçılardan biri- Əziz Şərif sonralar öz xatirələrində belə yazmışdır: «Seyidin bu tamaşadakı oyunu bu gün də mənim gözümün qabağındadır… Biz onu öz milli paltarında (arxalıq və çuxa), əlində qaval görməyə adət eləmişdik. İndi isə o, yüngülvari qrim edilmiş və tamam başqa paltar geymişdi… o qədər gözəl oxuyurdu ki, hər dəfə tamaşaçıların gurultulu alqışları ilə qarşılanırdı».

Seyid Şuşinski 1916- 1919- cu illərdə Tiflis Azərbaycan teatrının Batum, Mahaç- Qala və Dərbənd şəhərlərində göstərdiyi opera və operetta tamaşalarında da uğurla çıxış etmişdir.

Onu da qeyd etmək lazımdır ki, Seyid Şuşinski çıxışları üçün heç vaxt pul almamış, əksinə, teatr tamaşalarının hazırlanmasına  və aktyorlara maddi yardım göstərmişdir.

Seyid Şuşinski böyük səhnə xadimi Hüseyn Ərəblinski ilə də yaradıcılıq əlaqəsi saxlamış, eyni zamanda, bu iki sənəkar yaxın dost olmuşlar. Hüseyn Ərəblinskinin Tiflisdə hazırladığı tamaşalarda fasilələr vaxtı Seyid Şuşinski oxumuşdur. Eyni zamanda, Hüseyn Ərəblinski Tiflisdə «Kazyonnı teatar»ın binasında (indiki Z. Paliaşvili adına Opera Teatrı) Seyid Şuşinskinin iştirakı ilə «Şərq konserti» təşkil etmişdir. Həmin konsertdə məhz Hüseyn Ərəblinskinin tövsiyəsi ilə Seyid Şuşinski səhnəyə avropasayağı geyimdə- kostyum, ağ köynək və qara bantla çıxmışdır.

Görkəmli tədqiqatçı- musiqişünas Firidun Şuşinskinin «Seyid Şuşinski» (Bakı, 1991) kitabından: « O, (Seyid Şuşinski nəzərdə tutulur- **A. B.**)… İtaliyada musiqi təhsilini yenicə bitirib Tiflis şəhərinə gələn, İran konsulu Məcid-əs-Səltənənin qızının fortepianoda müşayiətilə ayaq üstündə «Bayatı İsfahan» muğamını oxumuşdur. Seyiddən sonra səhnəyə çıxan Hüseyn Ərəblinski Hamletin «Olum, ya ölüm» monoloqunu söyləmişdir. Teatrın salonunda əyləşən min beş yüzdən artıq dinləyici ayağa qalxıb  Seyid Şuşinskini və Hüseyn Ərəblinskini dəfələrlə səhnəyə dəvət edərək onlara səmimi alqışlarla öz minnətdarlıqlarını bildirmişlər».

1916- cı ilin əvvəllərində Bakıda Cəlil Məmmədquluzadənin «Ölülər» pyesi tamaşaya hazırlanarkən Seyid Şuşinski və mollanəsrəddinçi- şair Əliqulu Qəmküsar Tiflisdən buraya dəvət olunurlar. Tamaşada Əliqulu Qəmküsar Şeyx Nəsrullah obrazını (qeyd edək ki, Əliqulu Qəmküsar bu obrazın ən yaxşı ifa-

çılarından biri olmuşdur) yaradır, Seyid Şuşinski isə tamaşanın fasilələrində oxuyur. Bu, Seyid Şuşinskinin Bakı şəhərində ilk çıxışı idi və ona böyük şöhrət qazandırmışdır. Həmin tamaşa və Seyid Şuşinskinin ifası barədə yazıçı Seyid Hüseynin və aktyor Cəlil bəy Bağdadbəyovun xatirələrində ürəkaçan sətirlər vardır.

Həmin illərdə Tiflisdə yaşayan azərbaycanlı ziyalılar, aktyorlar, musiqiçilər bir yerə yığışar, müxtəlif məclislər keçirərdilər. Belə məclislərdən birini 1914- cü il martın 11- də Tiflisdə yaşayan mühərrir və aktyor İsmayıl Həqqi öz evində təşkil etmişdir. Həmin məclis barədə professor Əziz Şərifin gündəliyində və sonradan qələmə aldığı xatirələrində maraqlı məqamlara rast gəlirik. Həmin məclisdə Hüseyn Cavid və Hüseyn Ərəblinski, habelə Tiflisdə yaşayan ziyalı və aktyorlardan Mirzəli Abbasov, Əliqulu Qəmküsar, Mirseyfəddin Kirmanşahlı, Əşrəf Yüzbaşov, Nadir İbrahimov, Məmmədtağı Ələsgərov və bir çox başqaları iştirak etmişlər. Seyid Şuşinski də burada olmuşdur. Əziz Şərifin həmin gün yazdığı «Gündəlik»dən: «Burada otuz beş- qırx adam toplaşmışdı. Qabaqca Nadir (Tiflis Azərbaycan teatrının aktyoru Nadir İbrahimov- **A. B.**) tar çaldı, qızlar oynadı. Sonra Seyid oxudu… Gecə saat on birə qədər beləcə yedik, içdik. Seyidin «Şur» muğamına heç söz ola bilməz. Onun oxumağı hamını valeh eləmişdi… Gecə yarıya işləyəndə biz böyük dəstə ilə evdən çıxdıq. Seyid şikəstəni başladı, nə başladı! Tarı da Nadir çalırdı. Bu musiqidən adamın ruhu təzələnirdi».

Aradan 60 il keçdikdən sonra öz xatirələrini qələmə alan Əziz Şərif bu hadisəni həyəcanla yada salmışdır: «O gecə çox şairanə gecəydi, çünki gənc Seyidin səsi və məktəbli Nadirin xüsusi ilhamla dindirdiyi tarı hamının qəlbini oxşayır, hamıya sonsuz ləzzət verirdi. Biz gənc

idik, biz doğma xalqımıza, onun ədəbiyyat, incəsənət və mədəniyyətinə xidmətdə öz canından keçməyə hazır olan, öz ictimai vəzifə və məqsədini düzgün anlayan gənclər idik, biz xalqımızın gələcəyi idik».

Həmin gənclərdən biri də milli musiqi mədəniyyətimizin inkişafında əvəzsiz xidmətləri olmuş Seyid Şuşinski idi…

2012

## ƏZİZ ŞƏRİF

Görkəmli ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi Əziz Şərifin (1895-1988) ömrünün müəyyən illəri Tiflis şəhəri ilə bağlı olmuşdur. O, ötən əsrin əvvəllərində Tiflis gimnaziyasında təhsil almış, daha sonra təhsilini Moskva şəhərində davam etdirmiş, 1920- 1935- ci illərdə Tiflisdə mətbuat sahəsində çalışmış, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsində məsləhətçi işləmişdir.

Əziz Şərif həm gimnaziyada təhsil aldığı illərdə, həm də əmək fəaliyyəti dövründə Tiflis ədəbi mühiti, o cümlədən teatr mühiti ilə dərindən maraqlanmışdır. Ədib özü sonralar bu barədə belə yazmışdır: «Mənim həyatımda olduğu kimi, gündəlik və müxtəlif yazı-pozularımda da teatr müəyyən yer tutur. Uşaq vaxtımdan, Tiflisdə gimnaziyada oxuduğum illərdən mən teatra və teatr yaradıcılarına yaxın olmuş, Tiflisdə Azərbaycan teatrının fəaliyyətində iştirak etmiş və bütün ömrüm boyu teatr tamaşaları haqqında Tiflis mətbuatında, bəzən də Bakı mətbuatında yüzlərlə irili- xırdalı məqalə və resenziya yazıb çap etdirmişəm».( Əziz Şərif. «Keçmiş günlərdən», Bakı, 1977, səh.148)

«Mədəniyyət»in ("Mədəniyyət" qəzeti-red.) oxucularına məlumdur ki, 1912- ci ilin aprel ayında Tiflisdə azərbaycanlıların yaşadığı «Şeytanbazar» məhəlləsində teatr tamaşaları göstərmək üçün Azərbaycan Xalq Evi-Bundan sonra Tiflis Azərbaycan teatrı öz tamaşalarını burada göstərməyə başlamışdır. Bununla yanaşı, Əziz Şərifin teatrla təması da canlanmış, o, məhz həmin vaxtdan tədricən suflyor, tərcüməçi və publisist kimi formalaşmışdır.

Professor Abbas Hacıyevin «Tiflis Azərbaycan teatrı» kitabından: «Əziz Şərif cavan yaşlarından Tiflis ədəbi mühitinə bağlı idi … Tiflis Azərbaycan teatrı aktyorlarını, mühərrirləri tanıyırdı. Teatrın göstərdiyi tamaşaların çoxuna baxır, məşqlərdə, müzakirə, müsamirə və Şərq axşamlarında, xeyriyyə cəmiyyətlərinin yığıncaqlarında iştirak edirdi».

Əziz Şərifin xatirələrindən məlum olur ki, o, gimnaziyada oxuya- oxuya Tiflis Azərbaycan teatrının bütün tamaşalarına baxmış, həm də teatrın işlərində yaxından iştirak etmişdir. «Gündəlik»dəki qeydlərindən o da məlum olur ki, ədib 1912- ci il aprelin 22-də «Auditoriya»da göstərilən «Pəhləvanani-zəmanə» tamaşasında suflyorluq etmişdir.

Həmin il aprelin axırlarında tanınmış türk aktyoru Osman bəy Bektaşi həyat yoldaşı Mərziyə xanımla İstanbuldan Tiflisə gəlmişdir. Onlar  Əziz Şəriflə tanış olmuş, Tiflis aktyorları ilə  birlikdə tamaşa hazırlamaq və göstərmək arzusunda olduqlarını bildirmişlər. Yerli aktyorlar bununla razılaşmış və bu məqsədlə türk yazıçısı Namiq Kamalın «Zavallı cocuq»  pyesi seçilmişdir. Əziz Şərif tamaşanın məşqlərində suflyor kimi iştirak etmiş, nəhayət, may ayında «Auditoriya»da göstərilən tamaşada suflyor olmuşdur. Ədibin yazdığına görə. tamaşa uğurla keçmiş və tamaşaçılar tərəfindən razılıqla qarşılanmışdır.

Əziz Şərifin həmin illərdə Tiflis Azərbaycan teatrının tamaşaları barədə mətbuatda dərc etdirdiyi məqalələr və gündəlikləri bu teatrın tarixi, aktyor və rejissor işi ilə bağlı araşdırmaların aparılmasında xüsusi əhəmiyyət kəsb edir. Əlbəttə, ədib bu truppanın problemlərini də unutmurdu. O, Nəcəf  bəy Vəzirovun «Hacı Qəmbər» pyesinin tamaşası haq-

qında yazdığı məqalədə dramaturqun yaradıcılığını yüksək dəyərləndirir, aktyorların oyununu bəyənir və bununla yanaşı, azərbaycanlı qızların səhnədə görünmədiyinə təəssüflənirdi: «Keçən məqalələrimin birində mən müsəlman aktrisalarına aid çətin və incə bir mətləbə yüngülvari toxunmuşdum.Ancaq bu, azdır. Ümumiyyətlə, türk qadınlarından və xüsusilə aktrisalardan həmişə yazmaq, qızları olan ataları qızlarını səhnə üçün qurban verməyə çağırmaq lazımdır. Səhnə qadınsız yaşaya bilməz. Tutaq ki, bizə kömək edən rus qadınlarından bizim iki aktrisamız vardır, biz onlara çox minnətdarıq, lakin nə üçün bizim öz içimizdən aktrisamız yoxdur» (Sitat professor Abbas Hacıyevin «Tiflis Azərbaycan teatrı» kitabından götürülmüşdür).

Məlumdur ki, Əziz Şərif ömrünün 75 ili müddətində sistematik olaraq gündəlik yazmış, daha sonra isə bunların əsasında öz xatirələrini qələmə almışdır. Bununla yanaşı, onun zəngin şəxsi arxivi olmuşdur. Ədib hələ sağlığında öz arxivini təmənnasız olaraq Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə vermişdir. (Yeri gəlmişkən qeyd edək ki, bu barədə professor Ataxan Paşayevin «El» jurnalının son sayında maraqlı bir məqaləsi dərc edilmişdir). Təbii ki, ədibin arxivində Tiflis Azərbaycan teatrı ilə bağlı müxtəlif materiallar vardır.

«Gündəlik»lərdən məlum olur ki, görkəmli aktyor və rejissor, respublikanın xalq artisti, Dövlət mükafatı laureatı, professor Rza Təhmasib (1894-1980) Tiflisdə təhsil alarkən «Müsəlman Artistləri İttifaqı»nın teatr truppasına daxil olmuş və ilk sənət addımlarını burada atmışdır.

Əziz Şərifin «Keçmiş günlərdən» kitabından: «Öz ilk rolunu hazırlayan Rza (Rza Təhmasib- **A. B.**) dərin həyə-

can keçirirdi. Sözlərini yaxşı əzbərləmişdi və dəfələrlə bütün rolunu mənim yanımda və mənim replikalarımla ifa edir, səhnəyə çıxmağa hazırlaşırdı… Hər necə olursa-olsun, bu ilk tamaşa («Qaçaq Kərəm» tamaşası nəzərdə tutulur- **A. B.**) Qaçaq Kərəmin silahdaşlarından birinin rolunu ifa edən gənc Rza Təhmasibin gələcək həyat və fəaliyyət yolunu müəyynələşdirmişdi».

Əziz Şərifin xatirələrində onunla birlikdə gimnaziyada oxuyan və aktyor kimi tez- tez səhnəyə çıxan Həbib Kərimov- Köçərlinski və Nadir İbrahimovun fəaliyyəti ilə bağlı maraqlı məqamlar vardır. Ədib hər iki gənc aktyorun istedadını xüsusi qeyd etmiş və eyni zamanda onların sənət sahəsində deyil, başqa sahələrdə fəaliyyət göstərdiklərinə təəssüflənmişdir.

Əziz Şərif 1912- ci ildə fransız yazıçısı Melxior Lengelin «Tayfun» dramını rus dilindən Azərbaycan dilinə tərcümə etmişdir. Tərcümə Tiflis Azərbaycan teatrının aktyorları tərəfindən bəyənilmiş və tamaşaya qoyulması qərara alınmışdır. Sonradan Tiflisdə qastrol səfərində olan böyük səhnə xadimi Hüseyn Ərəblinski «Tayfun»u hazırlamağı öz öhdəsinə götürsə də, məlum olmayan səbəblərdən bu tamaşa hazırlanmamışdır.

Əziz Şərifin şəxsi arxivində Tiflis Azərbaycan teatrının tamaşalarının proqramları da toplanmışdır. Bu proqramlarda xüsusi bir məqam diqqəti cəlb edir. Belə ki, Əziz Şərif baxdığı tamaşalarda iştirak etmiş aktyorların oyununu qiymətləndirmişdir. Bu «qiymətlər» aktyorların adı və soyadı qarşısında yazılmış «misilsiz dərəcədə gözəl», «gözəl», «çox yaxşı» «yaxşı», «ortabab», «pis» və s. sözlərlə ifadə edilmişdir.

Əziz Şərifdən «yüksək qiymət almış aktyorlar sırasında Mirzəli Abbasov, Mirzəxan Quliyev, Mirseyfəddin Kirmanşahlı, Əşrəf Yüzbaşov kimi ustad

aktyorlar, habelə Nadir İbrahimov və Həbib Kərimov-Köçərlinski kimi istedadlı gənclər vardır.

Əziz Şərif «Keçmiş günlərdən» kitabında onun müasiri olmuş istedadlı gənc aktyor Nadir İbrahimov haqqında danışarkən belə yazmışdır: «...Nadir İbrahimov milli teatr və musiqi sahəsində görkəmli bir sima olmuş və incəsənətimizin inkişafında müəyyən rol oynamışdır... Mən arzu edərdim ki, milli səhnə və musiqi tariximizdə onun da adı çəkilsin, çünki Nadir doğrudan da buna layiq bir sənətkar idi».

Bu sözlər Ustadın özünə də aiddir.

**2012**

# KİTABLAR... RƏYLƏR

## NEMƏTLƏRİN TACI

«Çörəyə pərəstiş etməyi, onu göz bəbəyi kimi qorumağı ulu babalarımızdan öyrənmişik. El-oba çörəyə bərəkət deyib, axı, bol çörək xoşbəxtlik, bəxtiyarlıq, əmin-amanlıq deməkdir.

İsti çörək xoş ovqatdır. Yaz vaxtı, gözəl təbiət mənzərələri insanda hansı duyğuları oyadırsa, çörəyin ətri də adamlarda o cür hisslər yaradır.

Çörək bəşəriyyətin ən nadir, ən əziz nemətidir…».

Bu sətirlər jurnalist Nemət Veysəllinin «Hər şeydən uca» kitabından götürülüb. «Gənclik» nəşriyyatının buraxdığı kitabda müəllif bütün nemətlərin tacı olan çörək barədə fikir və mülahizələrini, eşitdiklərini və gözü ilə gördüklərini oxunalı bir dildə qələmə alıb. Bunlar «Nemətlərin tacı», «Dəyirman yolu», «Sarı buğda zəmiləri», «Ağdamda Çörək muzeyi», «Yurdun sərvətinə elin qayğısı» sərlövhəli söhbətlərdə toplanmışdır.

«Dəyirman yolu» hissəsi əsasən jurnalistin uşaqlıq xatirələri əsasında qələmə alınıb. Bu uşaqlıq müharibədən bir az sonrakı dövrə təsadüf edib. Bu elə bir dövr idi ki, çörək dükanlarının qabağında uzun növbələr vardı. «Bir «kərpic» çörək təsəlliydi, ikisinə, üçünə sahib olmaq isə firavanlıq, xoşbəxtlik əlamətiydi».

Müəllif öz gənc oxucularına dəyirman, təndir, xəmir barədə elə şirin-şirin danışır ki…

Fikrimizcə, bunlar çox vacibdir. Axı, Azərbaycan kəndindəki su dəyirmanlarının yalnız adı qalıb. İndiki

təndirlər də əvvəlkinə bənzəmir. Elə çörəyin dadı, tamı da…

Kitabda Ağdam Çörək Muzeyinə (bu muzey 1990-cı illərin əvvəllərində Ermənistanın hərbi birləşmələri tərəfindən şəhərin bombardımanı zamanı yerlə yeksan edilmişdir - **red.**) xüsusi bölmə həsr edilib. Bu muzey ölkəmizdə həmin profildən olan ilk muzeylərdən biridir. Jurnalistin buradakı ayrı-ayrı eksponatlar barədə məlumatı məhz çörəklə bağlı olduğu üçün maraqlıdır. «Burada nələr yoxdur?  Xəmir kündələmək üçün duvaq, xəlbir, teşt, təhnə, çanaq, əkin-biçin, xırmanla bağlı məişət əşyaları da burada toplanıb: yaba, arpadöyən, çəltikdöyən alətlər…»

Müəllif müharibə illərində Leninqradda bişirilmiş 125 qramlıq çörəyi eksponatlar arasında gördükdə da ha çox təsirlənir və bizə nisbətən yaxın olan tarixi xatırladaraq göstərir ki, mühasirə vaxtı aclıq 640 mindən çox leninqradlının ömrünü yarı yolda qoyub, aclığın boz üzü bu qədər əhalini tələf eləyib. Beləliklə, buna görə çörək nemətlərin tacı olmaqla bərabər,  həm də müqəddəsdir.

Müəllifin sonrakı söhbətləri Azərbaycanda taxılçılığın inkişafı və bu sahədə qarşıda duran vəzifələr, habelə problemlər haqqındadır. Uşaqlar, bu işdə sizin də üzərinizə müəyyən vəzifələr düşür. Axı, sizin aranızda elələri vardır ki, çörəyi yalnız hazır şəkildə görür, ona çəkilən zəhmətdən xəbəri yoxdur. Elə buna görə də müəllif belə bir fikir söyləyir ki, şagirdlərə məşhur taxılçıların həyatından, taxılı necə əkib-becərdiklərindən də «dərs» demək lazımdır.

Kitab hər bir məktəblidə çörəyə- bu müqəddəs  nemətə, bərəkətə gözəl hisslər tərbiyə edir. Taxılçı, çörəkçi peşələrinə məhəbbət oyadır, qənaətçil olmağa çağırır.

Jurnalist deyir ki, qızmar günəş altında elin malını toplamaqda hər cür çətinliyə dözən kəndli, onun əziz-ləyə-əzizləyə topladığı taxıldan hazırlanmış çörəyin çölə atıldığını, mal-qoyuna verildiyini bilsə, qol-qanadı qurumuş budaq kimi yanına düşər. «Evimizdə qurumuş və artıq çörəyi çölə, küçəyə atmazdan əvvəl, mala-qo-yuna verməzdən əvvəl, haradasa qan-tər içində taxıl biçən kəndlini gözünüzün önünə gətirin…»

Müəllifin bu fikri də yerinə düşür ki, çörəyə qarşı hörmətsizlik elə insanın özünə, ailəsinə, övladlarına qar-şı hörmətsizlik, biganəlikdir.

Çörək adlı nemətin meydana gəlməsində bir çox pe şə sahibləri-maşınqayıranlar, melioratorlar, mexaniza-torlar,əkinçilər, biçinçilər, çörəkbişirənlər iştirak edirlər. Deməli, ölkəmizdə elə bir peşə sahibi yoxdur ki, onun işi nəticə etibarı ilə çörəyə, çörək bolluğu kimi müqəddəs bir məqsədə xidmət etməsin. «Yer üzündə çörəyə sərf edilən əməkdən gözəl nə ola bilər?!»

Uşaqlar, inanırıq ki, siz də bu fikirdəsiniz.

Onda Nemət Veysəllinin «Hər şeydən uca» kitabını oxuyun.

**1989**

## MƏNALI ÖMÜR YOLU

«Maarif» nəşriyyatı Fikrət Seyidovun «Qori seminariyası və onun məzunları» adlı kitabını nəşr etmişdir. Kitabda Zaqafqaziya müəllimlər seminariyasının yaradılması tarixi, burada metodikaya aid aparılan işlər, sinifdənxaric tədbirlər, gənc seminaristlərin 1905-ci il inqilabı ilə bağlı hərəkatda iştirakı, seminariya məzunlarının elmi-pedaqoji və ədəbi-ictimai fəaliyyəti şərh edilmişdir. Əsər arxiv materialları, elmi əsərlər, xatirələr əsasında və həm də bunlar saf-çürük edilməklə qələmə alınmışdır.

Müəllif konkret materiallar əsasında seminariyanın Azərbaycan şöbəsinin yaradılması tarixini dəqiqləşdirməklə bu barədə mövcud olan qarışıqlığa son qoymuş, şöbənin yaradılmasında, buraya ilk qəbul işinin təşkilində seminariyanın direktoru D. D. Semyonovun və inspektor A. O. Çernyayevskinin rolunu işıqlandırmışdır.

F.Seyidov «Giriş»də yazır: «Azərbaycan xalqının mədəni inkişafı və tərəqqisində XIX əsrin 70-ci illərində Qori şəhərində yaradılmış və mütərəqqi rus pedaqoqlarının rəhbərliyi altında fəaliyyət göstərən seminariyanın Azərbaycan şöbəsi böyük rol oynamışdır. Mübaliğəsiz demək olar ki, bu şöbə Azərbaycan üçün M.B.Lomonosov adına Moskva Universitetinin Rusiyaya göstərdiyi xidmət qədər əhəmiyyətli olmuşdur».

Bu doğrudan da belədir. Elə seminariyanın bir neçə məzununu xatırlayaq: N. Nərimanov, C. Məmmədquluzadə, Ü. Hacıbəyli, F. Köçərli, S. S. Axundov, M. Maqomayev… Azərbaycan mədəniyyətinin inkişafında, ümumən xalqımızın taleyində bu adamların rolu hamıya məlumdur.

Seminariyanın Azərbaycan şöbəsinin məzunlarının ən böyük xidmətlərindən biri, kitabda qeyd edildiyi kimi, onların vətənimizin müxtəlif guşələrindəki müəllimlik fəaliyyətidir. Bəli, bu adamlar ən çətin, dözülməz şəraitlərdə belə uzaq-yaxın obalara maarif işığı paylamış, görkəmli elm və mədəniyyət xadimlərinin yetişməsi üçün özül hazırlamışlar.

Kitabın əsas hissəsi məzunların elmi-pedaqoji, ədəbi, ictimai-siyasi fəaliyyətinin işıqlandırılmasına həsr olunmuşdur. Azərbaycan şöbəsini təxminən 250 nəfər bitirmişdir. Kitabda bunlardan bəzilərinin ömür yoluna, elmi- pedaqoji fəaliyyətinə xüsusi səhifələr ayrılmışdır. Bu məlumatlardan aydınlaşır ki, bu adamlar xalqın mənafeyi naminə çalışmış, məhz xalqın məhəbbətini qazanmışlar. Onlardan bəziləri 50-60 il ərzində gələcək nəslə savad, bilik verməklə məşğul olmuşlar. Müəllifin gətirdiyi belə bir fakt maraqlıdır ki, seminariyanın məzunlarından Səməd ağa Mustafayev ömrü boyu kənd məktəblərində işləmiş, təkcə Salahlı kəndindən (Qazax) Qori seminariyasına 30 nəfər müdavim hazırlamışdır. Müəllif çox doğru olaraq onu da qeyd edir ki, Azərbaycanın uzaq kənd və qəzalarında məktəb açıb yeni dünyəvi təhsil uğrunda mübarizə aparan bu fadailərin xeyirxah işini çar məmurları izləmiş, onları təqib etmiş, xalq arasında nüfuzdan salmağa çalışmışlar. Lakin onlar əyilməmiş, öz xalqına işıq gətirmək yolunda heç nədən qorxmamışlar.

Kitabda seminariyanın məzunları barədə məlumat, onların tutduğu mövqeyə görə verilməmişdir. Müəllif bunun səbəbini belə izah edir: «Məlum olduğu kimi, seminariyanı qurtaranların hamısı fəaliyyətə müəllim kimi başlamışlar. Çoxları sonralar sıravi müəllim, nəzəriyyəçi pedaqoq, ali məktəb müəllimi, yazıçı, döv-

lət xadimi və musiqişünas olmuşlar. Əsər pedaqoji səpgidə yazıldığı üçün söhbəti biz əvvəlcə seminariyanı qurtaran, ömrünün sonuna kimi sıravi ibtidai və orta məktəb müəllimi işləmiş məzunlarla başlayıb, sonra ali məktəb müəllimi, nəzəriyyəçi, pedaqoq, yazıçı, ictimai-siyasi xadim, musiqişünas, bəstəkar və s. kimi davam etdirmişik».

Müəllif doğru olaraq məzunların elmi-pedaqoji fəaliyyətinə daha çox diqqət yetirmiş, həm də bu zaman oxucuya yeni söz deməyə çalışmışdır. Onun Cavad Cuvarlinski, Əli Hüseynov, Əli Qəmərlinski, Əhməd Seyidov, Firudin bəy Köçərli, Fərhad Ağazadə barədə söhbətləri maraqlıdır. Konkret faktlar əsasında şərh edilmişdir.

Məlumdur ki, seminariyanın məzunlarının taleyi Gürcüstanla sıx bağlıdır. Onlardan bəziləri təhsili başa vurduqdan sonra elə Gürcüstanda qalıb işləmişlər. Məzunlar arasında əslən bu torpaqdan olanlar da vardı. Bu baxımdan Nəriman Nərimanov, Səməd bəy Acalov, Hüseyn Minasazov, Əli və Hənəfi Terequlovlar… barədə qeydlər maraq doğurur.

Müəllif S.Acalovun (1887-1969) inqilaba qədərki müəllimlik fəaliyyətindən danışır və göstərir ki, Azərbaycanda ilk «Ali cəbr», «Cəbr məsələləri» adlı riyaziyyat dərslikləri onun tərəfindən qələmə alınmışdır. S.Acalov ana dilində orijinal dərsliklər yaratmaqla yanaşı, hesab, həndəsə, coğrafiya və təbiətə aid dərslikləri dilimizə tərcümə etmişdir. Müəllifin dediyi kimi, S.Acalov elə bir ağac əkə bilmişdir ki,onun barından tək özü deyil, başqaları da faydalanmışlar. «Onun barı yüksək elm və mərifət sahibi olan tələbələri idi».

Tədqiqatçı Azərbaycan mədəniyyəti tarixinə görkəmli publisist kimi daxil olmuş maarif və mədəniyyət

carçısı Hüseyn Minasazovun fəaliyyətini işıqlandırarkən qeyd edir ki, onun yazılarının əsas mövzusunu maarif və mədəniyyət, qadın azadlığı və onların təhsili, ana dilinin tədrisi və təmizliyi uğrunda mübarizə, müəllim və müəllim hazırlığı təşkil edir. Kitabda publisistin bəzi yazıları təhlil edilmişdir.

Müəllif N.Nərimanovun elmi-pedaqoji fəaliyyətinin şərhinə xüsusi diqqət yetirmişdir. Onun fikrincə, bir müəllim kimi Nərimanovu səciyyələndirən xüsusiyyət humanizm, qayğı, pedaqoji məharət və xalq balalarına bəslədiyi məhəbbət olmuşdur. Tədqiqatçı göstərir ki, ana dilinin təlim və tərbiyəvi əhəmiyyətini yüksək qiymətləndirən N.Nərimanov dil uğrunda mübarizəni Azərbaycan xalqının azadlığı uğrunda mübarizənin tərkib hissəsi hesab etmiş, vətənpərvərliyi yalnız coğrafi ərazini qorumaqda deyil, həm də xalqın dilini, onun təmizliyini qorumaqda görmüşdür.

Kitabda Əli və Hənəfi Terequlovların fəaliyyətinə də müəyyən yer ayrılmış, onların ömür yolunun səciyyəvi cəhətləri işıqlandırılmışdır. Qori seminariyasının bütün məzunları barədə bir kitabda danışmaq, əlbəttə, mümkün deyil. Ona görə də burada məzunlardan bəzilərinin yalnız adları çəkilir. Bunların sırasında həmyerlilərimiz (məqalə ilk dəfə «Gürcüstan» qəzetində dərc edilmişdir**- red.**) də çoxdur. «Xalq müəllimi, xalq səadəti uğrunda çalışan, öz izini qoyub getmiş mübariz Azərbaycan ziyalılarının ən pak, təmiz və ləyaqətli nümayəndələrindən» həmyerlilərimiz Abbas Minasazov (seminariyanı 1892-ci ildə bitirmişdir), Ziyad Şərifov (seminariyanı 1900-cu ildə bitirmişdir) və başqa məzunların ömür yolunun vərəqlənməsinin, əlbəttə, bu gün böyük tərbiyəvi əhəmiyyəti olardı. Ümid etmək olar ki, bu vacib işi indi Gürcüstanda yetişmiş gənc

tədqiqatçılar həyata keçirəcəklər. Qori seminariyasına aid sənədlər də elə Tbilisidə – Gürcüstan Xalq Maarif Muzeyindədir.

F.Seyidovun gərgin axtarışlarının nəticəsi kimi meydana çıxmış «Qori semnariyası və onun məzunları» kitabı böyük əhəmiyyətə malik olmaqla gələcək tədqiqatlara da təkan verər.

**1989**

## NARAHAT ÜRƏYİN NİKBİNLİYİ

«Bu dünyanı görə-görə». Şair Kamran Mehdi (Kamran Məmmədzadə son vaxtlar həmin imza ilə çıxış edir) «Yazıçı» nəşriyyatında buraxılmış yeni kitabını belə adlandırmışdır. Poetik misralara çevrilmiş şair qəlbinin hiss və həyəcanları, duyğu və düşüncələri kitabın üç bölməsində oxuculara təqdim olunmuşdur.

İlk bölmə «Narahat bir ürək» adlanır. Haradan gəlir bu narahatlıq? Bu, «çaxmaqlı berdanqadan qanadlı paketə, lazer silahına, neytron bombasına» qədər nəhəng addım atan dünyamızın özünün, onun insanlarının, körpə balaların taleyindən doğan narahatlıqdır. «Kəndimiz – ürək xəstəsi» şeirindən görünür ki, bu narahatlıq əbəs deyil:

Anadan
Ürək xəstəsi doğuldu
Çoban Cabbarın körpəsi.
İkicə gün yaşadı.
Kəsildi nəfəsi.
22 yaşlı Əhməd-
anasının təkcəsi,
oturduğu yerdən
dura bilmədi.
Dedilər: ürək…
(Kəndimizin bəxtinə
nələr yazıbmış fələk!...)
Ağsaçlı Usuf müəllim
İki dəfə yatıb
İnfarktdan.

«Qaldırma başını, dünya qaldırma», «Mən də düş-

mək istəyirəm» şeirlərində dünyanın özünü narahat ed ən hisslər, duyğular verilmişdir.

Şair bu narahtlığa taleyimizin Araz həsrətini də qovuşdurur. «Araz boyunda» olduğu kimi:

Odur, iki qardaş durub üz-üzə,
Hərəsi bir mərmər heykələ bənzər,
Sanki iki tale baxar göz-gözə;
Amma hər ikisi dalğın, mükəddər…

Kamranın «Yanardağ» və «Təsəlli» şeirləri də Azərbaycan ədəbiyyatının əbədi mövzularından olan Cənub mövzusundadır. Onun da özünün obyektə yanaşma üsulu var. «Təsəlli» şeiri müəllifin unudulmaz müəllimi, gözəl alimimiz Əhəd Hüseynovun xatirəsinə həsr edilmişdir. İlk dəfə tikanlı məftillər üstündən Arazın o tayına baxan müəllimin gözləri yaşla dolur və kövrəklik onun yanındakılara da sirayət edir. Buna görə də o, üzlərdən kədəri dağıtmaq üçün yanındakılara təsəlli verir.

-Bizi qəmlə doyurub Araz
Axır, şimşək kimi, sıyrılıb gedir.
Düzdür, bir milləti ayırıb Araz.
Amma… altındakı torpaq ki, birdir!...

Torpaq bir… Bu sözlər Araz göynərtisinə məlhəm, Kamranın şeirinə nikbinlik gətirir: Torpaq birdirsə, deməli, ayrılıq da yoxdur, bir kök üstə ömür sürən xalq bölünməz. Elə budur, təsəllimiz, ümidimiz:

Torpaq bir… bu sözün ürəyə işıq,
Şad olsun, şad olsun ruhun, müəllim.
Torpaq bir… bu sözdən dözüm almışıq.
Torpaq bir… bu sözdü mənim təsəllim!

Qeyd edək ki, nikbinlik şairin əksər şeirlərinin ruhuna hopmuşdur. O, dünyanın taleyindən narahat olanda da nikbindir.

Bölmədə verilmiş bəzi şeirlər bu günümüzdən, nisbətən yaxın keçmişimizdən bəhs edir. «Mərmili tarlada kotan çəkənlər» şeiri ötən davanın ürək göynədən bir səhnəsindən xəbər verir. Şair kotana qoşularaq yer əkən səkkiz qadının şəkli önündə xəyala dalır, öz əməyi ilə qələbəmizə yaxından kömək göstərmiş qeyrətli analarımızın, bacılarımızın şərəfinə himn yazır.

«Torpağım… oylağım» bölməsində əsasən şairin Vətən və valideyn müqəddəsliyi, övlad sevgisi barədə şeirləri toplanmışdır. Bu şeirlərdə lirik qəhrəmanın «balaca dünyası» var. Onun «balaca dünyası»na öz obasına, aranına, yaylağına, binəsinə, hətta bu «balaca dünyanın» yağışına, bulağına, körpüsünə, palıd ağacına məhəbbəti birləşir və böyük Vətənə məhəbbətinə çevrilir. Bəzən şairin «balaca dünyası»nın ünvanları dəqiqləşdirilir, öz adı ilə təqdim olunur. «Bu binə», «Dar daş», «Bulaq başında yanğı», «Borçalı» şeirləri bu cəhətdən diqqəti daha çox çəkir. Bu şeirlər öz səmimiliyi ilə yadda qalandır. Bəlkə bu səmimilik elə Kamranın «balaca dünyası»nın, buradakı adamların saflığı, təmizliyi ilə bağlıdır:

Günlər burda daşqın, qaynar,
Baxışlarda ulduz oynar.
Nə müddətdi bu dünyanın
Dərd-sərindən düşüb kənar.
Bu balaca dünyam mənim!...

(«Bu binə»)

Bir qoca yaşardı bizim obada,
Qartək işıqlıydı saçı, saqqalı,

Eldə dağdan ağır ad-sanı vardı,
Düyünlər açardı dərin kamalı.
(«Körpü»)

Şairin «Üç Mehdi», «Ata, xoş gəlmisən», «Keçmiş cəbhəçiyə məktub» şeirləri ötən davadan «özü gəlməliykən şəkli gələn» atalar haqqındadır. İlk baxışda bu şeirlərdə atasızlıqdan doğan bir kədər sezilir. Axı, oğul atasız böyüdüyü kimi, nəvə də babasız böyüyür. Evlərdə ata nəfəsi, ata baxışı hiss olunur. Ata indi şəklə dönüb divardan baxır nəvələrinə.

Bununla birlikdə Kamranın lirik qəhrəmanının nəzərində ata sağdır. O, öz oğlunun evinə qədəm basır, onun baxışları evə nur ələyir, bərəkət gətirir:

Sən oğul evinə xoş gəldin, ata,
Bu evə nur düşdü birdən elə bil.
Bu evə nur düşdü…yanar bir odam,
Titrəyib ağızda söz tutmayır dil.

Eyni mövzuda yazılmış «Üç Mehdi» şeiri təsirlidir, həm də, orijinaldır. Bir evdə eyni adda üç şəxs var. Bunlardan biri babadır, daha doğrusu, onun «divardan baxan şəkli»dir. İkincisi «Ömrü boyu ata deyib inləyən» oğuldur. Atasının adını öz adı ilə qoşa yaşadan oğul. Üçüncüsü nəvədir, babanın adı ona verilmişdir, hər üç ad şairin atasız günlərinin təsəllisidir, sevincidir. Bunların hər üçü (əslində bir olan üç) eyni qədər doğmadır, eyni dərəcədə əzizdir.

Yarımçıq qalmış bir ömür oğul adında, nəvənin ömründə yaşayır. Dünənki bədbinliyi nikbinliyə çevirən də elə budur:

Üç Mehdi var bizim evdə:
Ata, oğul, bir də nəvə.

Üç Mehdinin baxışları
Bizim evdə bir-birini
Əzizləyər sevə-sevə!...

Kamranın məhəbbət mövzusunda yazdığı şeirlər «Bu nə oddu düşdüm belə» adlandırdığı bölmədə toplanmışdır. Bu şeirlər əslində iki cürdür: sevginin sevincindən yaranan şeirlər, ayrılığın ağırlığından doğan şeirlər.

«Sabaha qədər», «Qapına gəlmişəm», «En ki, sözümüz tutsun», «Ay inciyib gedənim» və s. şeirlərdə səmimi sevgi duyğuları tərənnüm olunur. Lirik qəhrəmanın sevgisi təmizdir. Bu şeirlərdə vüsala dərin bir inam vardır, hiss edirsən ki, bu şeirlərdə rəsm olunan ayrılıq da, inciklik də, bəzən şıltaqlıq da müvəqqətidir. Bu sevginin vüsal ünvanlı bir sonluğu vardır:

Bu axşam təbəssüm bəxş etdin mənə,
Sevginə ümidim bir də doğuldu;
Sıyrıldı şübhədən sevən bir ürək,
Ötən hər dəqiqəm şirin nağıldır;
Yaşaram beləcə ümid içində,
Yaşaram beləcə sabaha qədər –
Dodağında təzə təbəssümədək…

«Səni mənə qovuşdurmaz bu yollar», «Sinəndə», «Nə deyir ayaq səslərin», «Sən ki, öz ömrünü atdın tufana», «Gözləmə, geriyə dönən deyiləm» kimi şeirlərdə bəlkə də həsrət notları vüsal notlarından güclüdür. Bu da, şübhəsiz, lirik qəhrəmanın konkret vəziyyəti ilə bağlıdır. Bəlkə də onun ülvi məhəbbəti qarşı tərəfdən ucuz tutulmuş, elə buna görə də bir səadət puç olmuşdur:

Bilməzdik ayrılıq asandı belə…
Qəlbin sevincdənmi usandı belə?!
Nə sözüm? Danışıb dinən deyiləm,
Gözləmə, geriyə dönən deyiləm!...

Amma bu şeirlərin özündə də ümid notları həsrəti, kədəri üstələyir, həsrətin, ayrılığın özündə bir nikbinlik, inam yaranır. Lirik qəhrəmanı yenidən vüsala yetirəcək bir inam:

Nə deyir ayaq səslərin?
həyatın
ağır sınaqlarından
yorğun düşən bir insanı,
ürəyini ötən günlərin
ağrıları-acıları dinən bir insanı
Yuxusundan silkələmək -
ayaq səslərində nə həvəsdir?
Bəlkə
sinəmdə yuxuya getmiş
sevdalı duyğuları
təzədən oyatmaqdı,
ayaq səslərinin qəsdi?!

Elə bu inamdı lirik qəhrəmanı yaşadan, elə bu nikbinlikdir şeiri yaşadan, oxucuya sevidirən…

**1989**

## YURD TƏƏSSÜBLÜ YADDAŞ

Namərd qonşularımızın məlum xəyanətinin ilk ilində ezamiyyə vaxtı Azərbaycanın qonşu respublika ilə həmsərhəd rayonlarının birindəki tarix-diyarşünaslıq muzeyinin direktoru çox hörmətlə yanaşdığımız Solmaz xanım ekspozisiyada Oktyabr inqilabına qədərki dövrə aid bir xəritənin qarşısında həyəcanla demişdi:

- Azərbaycanımızın başı üstündən əsən acı küləklər bizim yerlərdə də izini qoyub… Bağışlanan torpaqlarımızın xeyli hissəsi rayonumuzun payına düşüb. Bu da bizim beynəlmiləlçiliyimizin nişanəsidir?

Mən susmuşdum. Nə deyəydim, axı?!

Nəzərim üstündə «Azərbaycan SSR» yazılmış xəritəyə dikilmişdi. Borçalımız da «o tayda» qalmışdı. Acı-acı xatırlamışdım ki, bir vaxtlar Nadir şah yerli əhaliyə acığı tutduğu üçün (?) Borçalının Gəncə bəylərbəyindən alıb, Kartli-Kaxeti çarlığına verib. Sən demə, sonradan paydan da pay olub. Borçalının bir hissəsi ikinci bir ələ keçib…

Gürcüstanda yaşayan həmkarımız, «Gürcüstan» qəzetinin əməkdaşı, filologiya elmləri namizədi Şurəddin Məmmədlinin (Şurəddin Məmmədli hazırda filologiya elmləri doktoru, professordur- **red.** ) yenicə işıq üzü görmüş «Paralanmış Borçalı» (Bakı,Azərnəşr, 1991) kitabı qarşımdadır.

Kitab 1918-1920-ci illərdə, habelə Zaqafqaziya respublikaları sovetləşdikdən sonra Borçalı ərazisinə sahib olmaq üstündə gedən mübahisələr və mübarizələr, qanlı toqquşmalar haqqındadır.

Müəllif kitabın ilk səhifəsində ictimai xadim, yazıçı və jurnalist İlya Çavçavadzedin 1890-ci ildə «İveria»

qəzetində dərc olunmuş «Borçalı qəzası» adlı məqaləsində adı çəkilən və həmin qəzaya daxil olan Loru nahiyəsi ilə maraqlanır. Məlum olur ki, Loru nahiyəsi Ermənistanın indiki Tumanyan (Allahverdi), Noyemberyan, Stepanavan (Calaloğlu), Taşir (Kalinino) rayonlarının ərazilərindən ibarət imiş və Borçalının bir hissəsi olmuşdur. Bu əraziyə el arasında Dağ Borçalısı deyiblər.

«Bəs necə olub ki, Borçalı paralanıb? Borçalının yarısı Ermənistana nə vaxt, niyə, kimlər tərəfindən verilib?» Müəllif bu suallara cavab vermək üçün mənbələrə- Azərbaycan və Gürcüstanın müxtəlif arxivlərindəki materiallara, 1918-1920-ci illərin mətbuat orqanlarına, digər qaynaqlara üz yönəltmiş və nəticədə xalqımızın tarixinin ağrılı səhifələrinin öyrənilməsi baxımından qiymətli (həm də ürək ağrıdan), bir tədqiqat işi ərsəyə gətirmişdir.

Borçalı haqqında iki müxtəlif mənbədən (Azərbaycan və Gürcü Ensiklopediyalarından) götürdüyü bir sıra faktların bir-birinə uyğun gəlmədiyini görən müəllif çox haqlı olaraq gileylənir ki, bu ulu Yurdun tarixi doğru-düzgün öyrənilməmişdir. «Öyrənsək, yəqin bilərik ki, indiki anlamda nəzərdə tutulan Gürcüstan ərazisində türk tayfalarının çox-çox öncələrdən üzübəri yaşadıqlarını, 765-ci ildə Gürcüstanın şərqində ərəblərə qarşı qanlı savaşlarda türklərin gürcülərlə bərabər vuruşduqlarını, XI-XIII yüzillərdə Gürcüstanın şərqinin «didi turkoba» (böyük türklük) adlandığını təsdiqləyən qaynaqlar vardır».

Bəs həmin tarixin bir hissəsi- «Borçalının paralanması» barədə qaynaqlar nə deyir?

Şurəddin mötəbər mənbələrə söykənərək acı bir həqiqəti çatdırır ki, bu gün Qarabağın dağlıq hissəsinin

başına gətirilən müsibətlər bir vaxtlar Dağ Borçalısının başına gətirilib. Həm də eyni ssenari ilə. Elə müəlliflər də bir sıra xüsusiyyətləri ilə eyni adamlardır, yəni bir-birinin davamçılarıdır, sonrakılar əvvəlkilərin nəvələridir, nəticələridir… Amma çox təəssüf ki, ermənilər o vaxtlar öz məqsədlərinə xeyli dərəcədə nail olmuşlar.

Vaxtilə Borçalı da «dənizdən dənizə böyük Ermənistan» dövlətinin tərkibinə «daxil edilibmiş». «Gürcüstan, Ermənistan və Azərbaycan arasında mübahisəli ərazi» hesab olunan bu torpaq 1918-1920-ci illərdə qanlı toqquşmalar meydanına çevrilmişdi. Tədqiqatçının müxtəlif mənbələrə istinad edərək bu barədə qələmə aldığı sətirlər necə də indimizlə səsləşir! Kitabdan sətirlər: «Yazda və payızda (1918-ci il nəzərdə tutulur-**A.B**.) Borçalıda yerli ermənilər fitnəkarlıqlar törətməyə başladılar. Şüləvar kəndinin erməniləri yaxınlıqdakı azərbaycanlı kəndlərini atəşə tutdular, onları qarət etdilər, tikililərinə od vurdular. İmir, Saraclı kəndlərinin zəmilərindən taxılı biçib oğurladılar. Yuxarı Saral və Gorarxı kəndlərindən küləşi, mal-qaranı və təsərrüfat ləvazimatını apardılar. Avqustun ortalarında yenə ermənilər Aşağı Saral kəndindən 130 baş, Saraclıdan 30 baş mal-qara oğurladılar». (Bu gün Qarabağın dağlıq hissəsində, Laçın və Kəlbəcər rayonlarında ermənilərin törətdiyi oğurluqlar həmin hadisələrin təkrarı deyilmi?!).

Müəllif belə bir həqiqəti də çatdırır ki, bədnam qonşularımız indi olduğu kimi, o zaman da bütün üsullara əl atmışlar. Dağ Borçalısına sahib olmaq üçün alman və ingilis hökumətlərindən, rus çarizmindən, habelə yeni qurulan Sovet hakimiyyətindən istifadə etmişlər. Onlar qəddarlıqdan, habelə lazım olan hallarda ağlayıb-sızlamaqdan da çəkinməmişlər. Müəllifin belə bir qənaəti də diqqəti çəkir ki, «Şura Rusiyasının həm

Azərbaycanı, həm də Gürcüstanı ilhaq planının həyata keçməsini, istiqlalımızın məhvini təmin edən başlıca amillərdən biri Ermənistanın həm Azərbaycana, həm də Gürcüstana düşmənçiliyindən istifadə oldu». Qaynaqlar göstərir ki, 1920-ci ilin əvvələrində Qarabağda erməni əhalisinin qiyamı, 1921-ci ilin fevralında Loruda erməni kəndlilərinin təşkil olunmuş qiyamı rus şura ordusunun Azərbaycana və Gürcüstana soxulması üçün bəhanə olmuşdur.

Kitabda Borçalı əhalisinin öz torpaqlarının müdafiəsi uğrunda mübarizələrinə, bu torpağın Əlimirzə Nərimanov, Ömər Faiq Nemanzadə və Emin ağa Acalov kimi oğullarının fəaliyyətinə də müəyyən yerlər ayrılmışdır. Müəllif göstərir ki, görülən bütün səylər, habelə Azərbaycan Demokratik Respublikasının qəti mövqeyi Zaqafqaziya respublikalarında Sovet hakimiyyətinin qələbəsi ilə puça çıxdı. 1921-ci il noyabrın 6-da Gürcüstan və Ermənistan hökumətlərinin imzaladıqları sənədə əsasən «Borçalının Loru zonası yığma Şura Ermənistanına qatıldı». 1922-ci ilin dekabrında isə Voronsovka bölgəsi də qonşuların malı edildi. «Beləliklə, «beynəlmiləlçilik», «ümumi yekdillik» siyasəti nəticəsində Borçalı paralandı. Borçalı parçalandı, Loru Ermənistanına peşkəş verildi».

Kitabın məziyyətlərindən biri də Borçalı ətrafında baş vermiş hadisələrin bu gün davam edən Qarabağ hadisələri ilə əlaqələndirilməsidir. Müəllif bildirir ki, onlar (erməni mafiyası) bədnam hərəkətlərindən əl çəkmək istəmirlər. Gürcüstanın Marneuli, Bolnisi, Dmanisi rayonlarında erməni kəndlərinin silahlandırılması, Marneuli rayonundan keçən Tbilisi-Yerevan dəmir yolunda fitnəkarlıqlar törədilməsi, Sadaxlı kəndində camaatın hövsələdən çıxarılması, yerli əhalidən girovlar götürülməsi bunu bir daha sübut edir.

Müəllifin tövsiyəsi çox aydındır. «Ayıq olmalıyıq, xeyiri şərdən vaxtında seçməliyik, dumduruca suyumuzu bulandıranları gözdən qoymamalıyıq…»

Bu, «Paralanmış Borçalı»nın harayıdır, öyüdüdür, nəhayət, torpaqlarımızın tələbidir…

«Paralanmış Borçalı»ya «Borçalı - alınmaz qalam mənim» adlı ön söz yazmış şair Abbas Abdullanın xeyir-duası belədir: «Gəlin, birlikdə hər çür iddiadan uzaq bu kitabçanı oxuyaq, var olan və var olacaq doğma Borçalımızın yaddaşlarda yaşamasına, ömürlüyümüzə daxil olmasına sevinək».

**1991**

## SƏNƏTKAR ÖMRÜNÜN ANLARI

Son illər muzeylərimizin nəşriyyat sahəsində fəaliyyəti xeyli genişlənib. Müstəqil bir elm sahəsi olaraq muzeyşünaslığın yaranması və müəyyən inkişaf yolu keçməsi bu işə xüsusi təkan verir. İndi muzey materiallarından istifadə etməklə dissertasiyalar yazılır, kitablar, çoxsaylı məqalələr işıq üzü görür.

Bu siyahıya yeni bir nəşr də əlavə olunub. Heydər Əliyev Fondunun, habelə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə nəşr olunmuş kitab «Qara Qarayev: Həyat və yaradıcılığı Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin materiallarında» adlanır. Layihənin rəhbəri və kitabın elmi redaktoru Alla Bayramova, məsləhətçi Züleyxa Qarayeva-Bağırova, tərtib edəni Alla Fyodorovadır.

Kitab böyük Azərbaycan bəstəkarı Qara Qarayevin həyat və fəaliyyətinin müəyyən məqamlarını əks etdirir. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın kitaba yazdığı ön sözdə oxuyuruq: "Qara Qarayev yaradıcılığı Azərbaycan musiqi sənəti tarixinin özünəməxsus və parlaq səhifələrini təşkil edir. Mədəni irsimizin qorunmasında, inkişaf etdirilməsində, təbliğində, dünya miqyasında tanınmasında bəstəkarın xidmətləri danılmazdır".

Kitabda toplanmış materiallar vasitəsilə Qara Qarayevin xalqımız və mədəniyyətimiz qarşısında göstərdiyi xidmətlərin müəyyən hissəsi ilə tanış ola bilirik.

Muzeyin fondunda 50 mindən artıq əşya vardır. Bunların arasında Qara Qarayevə aid materiallar da mühüm yer tutur. Bunlar Qara Qarayevin və yaxınlarının, müəllim və tələbələrinin fotoşəkilləri, məktublar, not və

mətnlərin əlyazmaları, afişalar, proqramlar, təsviri sənət nümunələri, kitablar və s. ibarətdir.

Məlumdur ki, profilindən asılı olmayaraq muzey işində fotoşəkillər mühüm yer tutur və ekspozisiyanın əsasını da məhz fotoşəkillər təşkil edir. Ona görə ki, hər bir fotoşəkil özündə müəyyən tarix yaşadır. Kitabı ərsəyə gətirənlər də bu prinsipə sadiq qalmışlar. Kitabı vərəqləyən oxucu həmin anlarda muzey seyrçisinə çevrilir və elə bil, bəstəkarın həyatını əks etdirən muzeyin ilk əşyaları ilə tanış olur. Qara Qarayevin 1920-ci ildə çəkilmiş fotoşəkli təbii ki, oxucunu özünə cəlb edir. Daha sonra onun babası İsgəndər bəy Axundov və nənəsi Züleyxa Bayraməlibəyovanın, valideyinləri Əbülfəz Qarayev və Sona Axundovanın, ilk musiqi müəllimləri Vladimir Kozlov və Georgi Şaroyevin fotoşəkilləri təqdim olunur.

İllər keçir…Azərbaycan Dövlət Konservatoriyasının tələbəsi Qara Qarayev öz müəllimləri və tələbə qostları arasında. Daha bir fotoşəkildə Qara Qarayev öz böyük ustadı Üzeyir Hacıbəyli ilə birlikdə dərs zamanı əbədiləşmişdir.

Fotoşəkillərə baxdıqca Qara Qarayevin zirvəyə gedən yolda inamla addımladığının şahidi olursan.

Fotoşəkillər bizi Qara Qarayevin müəllimləri, müasirləri və tələbləri ilə tanış edir. Bu fotolarda o, həmin şəxslərlə bir yerdədir: Dmitri Şostakoviç, Niyazi, Bülbül, Fikrət Əmirov, Mirzə İbrahimov, Süleyman Rüstəm, Cövdət Hacıyev, Tofiq Quliyev, İsmayıl Hidayətzadə, Səid Rüstəmov, Rauf Hacıyev və bir çox başqaları.

Kitabda başqa bir fotoşəkil də var. 1972-ci ildə respublikamızda Rusiya Federasiyasının ədəbiyyat və incəsənət günləri keçirilərkən çəkilib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev böyük musiqi

xadimləri ilə bir yerdədir. Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Şövkət Məmmədova, Rauf Hacıyev, Tofiq Quliyev, Elmira Abasova, habelə rus sovet bəstəkarı Serafim Turikov Ulu Öndərin əhatəsindədir. Bu fotoşəkil Heydər Əliyevin mədəniyyətimizə və mədəniyyət xadimlərimizə diqqət və qayğısının ifadəsidir.

Qara Qarayevi məşhurlaşdıran, təbii ki, onun əsərləri olmuşdur. Bəstəkar bir sıra tamaşalara və kinofilmlərə də musiqi bəstələmişdir. Kitabda yer almış afişa və proqramlar bu barədə geniş məlumat verir.

Bu materiallar sırasında müəllifin müxtəlif teatrlarda tamaşaya qoyulmuş «Yeddi gözəl» və «İldırımlı yollarla» baletlərinin, habelə bəstəkarın musiqi bəstələdiyi teatr tamaşalarının, Azərbaycanda, habelə keçmiş SSRİ-nin müxtəlif kinostudiyalarında çəkilmiş bir sıra filmlərin, bir çox konsertlərin afişa və proqramları vardır. Bunların ünvanları da müxtəlifdir: Bakı, Moskva, Sankt-Peterburq, Tbilisi…

Kitabda bəstəkarın müxtəlif təşkilatlara, ayrı-ayrı şəxslərə yazdığı məktublardan da nümunələr verilmişdir. Biz bu məktubları oxuyarkən onu nəcib insan, qayğıkeş ailə başçısı, xeyirxah müəllim və musiqi təşkilatçısı kimi görür və bununla fəxr edirik.

Kitabda bəstəkarın öz həmkarı Tofiq Quliyevə Moskva şəhərindən 1969-cu ilin mart ayında yazdığı başsağlığı məktubunun fotosurəti və mətni verilmişdir. Qara Qarayev öz məktubunda Tofiq Quliyevə baş vermiş itki -anasının vəfatından kədərləndiyini bildirir. O yazır: «Təskinlik üçün üçün söz tapa bilmirəm. Ancaq onu demək istəyirəm ki, mən və mənim yaxınlarım bu ağır vaxtda Sizin ailədəki kədəri bölüşürlər…»

Bu məktubda muzey işində xüsusi maraq doğuran, diqqəti çəkən bir məqam var. Rus dilində yazılmış mək-

tubun sonunda bəstəkarın latın əlifbası ilə Azərbaycan dilində belə bir qeydi var: «Mart gəldi-dərd gəldi…»

Məlumdur ki, «Mart gəldi-dərd gəldi», habelə «Mart çıxdı-dərd çıxdı» ifadələri yayılmış deyimlərdir və Qara Qarayevin bu ifadəni işlətməsi onun milli xüsusiyyətləri dərindən bildiyini və kökə bağlılığını bir daha əyani şəkildə əks etdirir.

Qara Qarayev öz müasirlərinə, həmkarlarına qarşı həmişə diqqətli olmuş, onlarla birlikdə sevinmiş, onlarla birlikdə kədərlənmiş, onların ağır günlərində öz köməyini əsirgəməmişdir. Onun 1970-ci ildə müalicə üçün Moskva şəhərinə getmiş dirijor Çingiz Hacıbəyova Bakıdan göndərdiyi məktub diqqəti cəlb edir: «Sağal, müalicə ilə bağlı tələsmə, hövsələ et, başını uca tut. Hər şey yaxşı olacaq. Mən buna inanıram…Bakıya - evə xoş qayıdışını gözləyirik…»

1965-ci ildə Azərbaycan Musiqi Fondunun direktoru Ramazan Xəlilova Moskvadan yaradıcılıq işləri ilə əlaqədar yazdığı məktubun sonunda belə bir qeyd vardır: «Bədbəxt Mehdi Hüseynə qarşı necə amansızlıq ediblər! Gör iş nə yerə çatıb…» (Azərbaycan Yazıçılar İttifaqının idarə heyətinin birinci katibi Mehdi Hüseyn 1965-ci il mart ayının 10-da iclas zamanı ürək tutmasından dünyasını dəyişmişdi. Qara Qarayev də öz məktubunda bu hadisəni nəzərdə tuturdu.)

Mədəniyyətimizin, o cümlədən musiqimizin xüsusi qayğı ilə əhatə olunduğu bir dövrdə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin ərsəyə gətirərək oxuculara təqdim etdiyi bu nəşr Qara Qarayev irsinin təbliğinə sanballı töhfədir. Oxucular burada verilmiş müxtəlif səpkili materiallar vasitəsilə bəstəkarın həyat və fəaliyyətinin indiyədək məlum olmayan tərəfləri ilə tanış olacaqlar və bütün bunlar Qara Qarayev sənətinin

və şəxsiyyətinin böyüklüyü barədə təsəvvürləri daha da genişləndirəcəkdir.

Belə hesab edirik ki, bu kitab gələcəkdə böyük bəstəkarımız Qara Qarayevin həyatı və fəaliyyəti, eyni zamanda, musiqi mədəniyyətimizin parlaq bir dövrü barədə tədqiqat işlərinin aparılmasında əvəzsiz bir mənbə rolunu onayacaqdır.

**2011**

## BİR KİTAB HAQQINDA

Kəndimizdə orta məktəbdə oxuyarkən müntəzəm olaraq kolxozun kitabxanasına gedir, təzə çıxan kitabları aparıb evdə həvəslə mütaliə edirdim. Növbəti dəfə kitabları dəyişmək üçün oraya gedəndə kitabxananın müdiri Gülşən xalanın və onun köməkçisinin bərk məşğul olduqlarını gördüm.

Kitabxanaya yeni kitablar gəlmişdi. Köməkçi həmin kitabların adlarını qarşısındakı jurnala yazır, sonra səliqə ilə kəsilmiş kiçik kağız parçalarına nə isə qeyd edir və onları həmin kitabların arasına qoyurdu. Gülşən xalanın stolunun üstünə də xeyli kitab yığılmışdı. O da həmin kitabların adlarını qarşısındakı kağıza yazırdı. Ancaq bu kitablar təzə deyildi. Bəzilərinin üz qabığı yox idi, bəzi kitabların isə vərəqləri tökülmüş, yarısı qalmışdı.

Gülşən xala həmin kitablara maraqla baxdığımı görüb dedi:

- İndi gəlib bu kitabları aparacaqlar. Onlardan kağız hazırlayıb sonra yeni kitablar çap edəcəklər.

Mən isə həmin kitablara baxmaqda davam edirdim. Yenidən kağıza çevriləcək bu kitabların bir çoxunu oxumuşdum. Birdən gözüm nazik üzlü bir kitaba sataşdı. Kitabın üzündə belə yazılmışdı: «Mirzə İbrahimov. Azərbayan dili». Düzü, təəccübləndim. Mirzə İbrahimovun «Gələcək gün» və «Böyük dayaq» kitablarını elə bu kitabxanadan alıb oxumuşdum. Fikirləşdim: «Yəqin dərslikdir».

Kitabı əlimə almaq istəyəndə Gülşən xala:

-Bu kitabı sənə bağışlayıram,- dedi.

Mən ona təşəkkür edib əlimdə həmin kitab evimizə qayıtdım.

Evdə kitabı vərəqləməyə, bəzi yerlərini oxumağa başladım. Belə qənaətə gəldim ki, kitabda müəllifin Azərbayan dili haqqında elmi məqalələri (cəmi dörd məqalə verilmişdi) toplanmışdır. Vaxtı gələndə oxuyaram.

Sonra aparıb kitab şkafına qoydum.

Mən bu kitabı tam şəkildə tələbəlik illərində oxudum. Elə o vaxtlar da eşitdim ki, bu kitaba görə ( xüsusən, 1956-cı ildə mətbuatda dərc olunmuş, 1957- ci ildə bu kitaba daxil edilmiş «Azərbayan dili dövlət idarələrində» adlı məqaləyə və bu yöndə əməli fəaliyyətinə görə) Mirzə İbrahimovun başı ağrıyıb, o, hücumlara məruz qalıb, hətta, məsul vəzifədən- Azərbayan SSR Ali Soveti Rəyasət Heyətinin cədri vəzifəsindən kənarlaşdırılıb. Ancaq hamı kimi, mən də çox şeyləri sonralar, şair-publisist Aleksandr Qriçin 1989- cu ildə «Literaturnıy Azerbaydjan» jurnalının 6-cı sayında dərc olunmuş «Ot uz ildən sonra» adlı məqaləsi vasitəsilə bildim. A. Qriçin bu məqaləsi Mirzə İbrahimovun 1991- ildə çapdan çıxmış «Ana dili- hikmət xəzinəsi» kitabına da daxil edilmişdir.

Aleksandr Qriç 1959-cu ildə keçirilmiş mötəbər bir yığıncağın stenoqramından bəzi parçaları da öz yazısına əlavə etmişdir…

«Azərbayan dili» kitabına «Azərbayan dili dövlət idarələrində» adlı məqaləsi ilə yanaşı müəllifin müxtəlif illərdə qələmə aldığı daha üç məqaləsi- «Dilimizin inkişaf yolları haqqında», «Dil və ədəbiyyat dərslərini nümunəvi təşkil edək» və «Azərbayan dili» məqalələri də daxil edilmişdir. Bu məqalələr onun dilçilik məsələlərini, xüsusən Azərbayan dilinin tarixini lazımi səviy-

yədə bildiyini və bu sahədə də peşəkar olduğunu, eyni zamanda, dilimizi böyük bir məhəbbətlə sevdiyini nümayiş etdirir.

Mirzə İbrahimov yazırdı ki, dili də tarixi kimi qədim olan xalqımız müxtəlif müstəbid və işğalçılara qarşı mübarizə aparmış, bu mübarizənin alovları içərisində öz mənliyini, öz dilini ağır təhlükələrdən qorumuş, əsrlər boyunca dilimiz də torpağımız və xalqımız kimi min bir təcavüzə rast gəlsə də, aldığı yaralardan həlak olmamışdır. Yazıçı onu da vurğulayır ki, Azərbayan dili qüdrətli, ahəngdar, mənalı və gözəl dildir. «Hər xalqın dili uzun, əzablı tarixi bir şəraitdə yaranır. Onun adət və ənənələri ilə, bütün ruhi aləmi ilə üzvi surətdə bağlı olaraq sözlər, fikirlər, ifadələr, zərbi-məsəllər meydana çıxır. Azərbayan dili də xalqımızın keçirmiş olduğu ağır bir tarixi yolla bağlıdır. Dilimiz xalqımızın böyük və tükənməz xəzinəsidir, onun dövlətidir, varıdır».

Mirzə İbrahimovun «Azərbayan dili dövlət idarələrində» adlı məqaləsi ilk dəfə «Kommunist» qəzetinin 26 oktyabr 1956-cı il tarixli sayında dərc olunmuş, bir il sonra isə müəllifin həmin kitabına daxil edilmişdir.

Müəllif bu məqalədə o dövrün təliminə əsaslanaraq milli mədəniyyətlərin və dillərin qorunması və inkişaf etdirilməsinin vacibliyini vurğulayır və bu yöndə konkret addımlar atılmasını məqsədəuyğun hesab edirdi. Bu da təsadüfi deyildi. Mirzə İbrahimov qeyd edirdi ki, respublikamızda Sovet hakimiyyətinin birinci on ili ərzində Azərbayan dilinin işlənməsinə xüsusi diqqət verilir, təhriflərin qarşısı alınırdı. Yazıçı daha sonra təəssüflə bildirirdi ki, son on beş-iyirmi ildə bu sahədə kobud təhriflərə yol verilmişdir. «Bəzi idarələrdə və bəzi adamlarda Azərbayan dilinə qarşı biganə, laqeyd mü-

nasibət yaranmışdır. Hələ onu demirik ki, vətəndaşların azərbaycanca olan ərizələrinə, yaxud bu və ya digər azərbaycanca olan yazılara ana dilində cavab verməyən, ya da bunları tamamilə cavabsız buraxan bürokratlar da tapılır».

Mirzə İbrahimov bütün dövlət idarələrində Azərbaycan dilinin işlənilməsini bir tələb kimi qarşıya qoyur, bunun guya mümkünsüzlüyü barədə səslənən bəzi fikirlərin əsassız olduğunu da sübuta yetirirdi. Bununla yanaşı, o, vacib bir məsələni də unutmurdu: «Dövlət idarələrinin Azərbaycan dilində aparılması o demək deyildir ki, azərbaycanca bilməyən bir vətəndaşı cavabsız buraxasan, yaxud onun şikayətinə anlamadığı dildə cavab verəsən. Təbiidir ki, bu da yanlış bir hərəkət olar. Bele vətəndaşlara rus dilində cavab vermək, yəni onu başa salıb təmin etmək lazımdır».

1956-cı il avqustun 20-də Azərbaycan Ali Sovetinin sessiyası məhz Mirzə İbrahimovun təşəbbüsü ilə Azərbaycan Konstitusiyasına belə bir bəndin əlavə olunması barədə Qanun qəbul etdi: «Azərbaycan SSR-in Dövlət Dili Azərbaycan dilidir».

Azərbaycan Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması barədə bəndin əlavə edilməsi ilə bağlı Qanun, habelə bu məqalə böyük mübahisələrə və Mirzə İbrahimova qarşı hücumlara səbəb oldu.

Aleksandr Qriçin məqaləsindən: «Mirzə İbrahimov və onun Azərbaycan dilinin əhəmiyyətini təbliğ eləyən, bu dilin hər sahədə, o cümlədən dövlət müəssisələrində rolunu yüksəltməyin zəruriliyini sübut eləyən məqaləsini qınamağa başladılar. Bir qədər sonra isə yazıçı Rəyasət Heyətinin sədri vəzifəsindən çıxdı, lakin dillə bağlı məsələ həll edilməmiş qaldı və bu məsələ çoxlarını həyəcanlandırırdı. Başqa qanunlardan fərqli olaraq bu

Qanuna laqeyd yanaşan yox idi, onun hər kəsə dəxli vardı.Və əgər belə bir Qanun mövcud idisə, ya onu yerinə yetirmək, ona tabe olmaq, ya da ləğv etmək gərəkdi. Sadəcə, rəsmi səviyyədə hökmən açıq söhbət getməliydi. Bu söhbət Azərbaycan KP MK-nın 1959-cu il iyunun 16-da keçirilmiş plenumunda açıldı».

Aleksandr Qriçin məqaləsindən aydınlaşır ki, buradakı məruzə və çıxışlarda (əslində isə yığıncağın gündəliyinə tamam başqa məsələ çıxarılmışdı) «Mirzə İbrahimov yoldaşın dil məsələsindəki mövqeyi» tənqid olunmuş, «onun razılaşdırılmamış çap etdirdiyi kitab («Azərbaycan dili» kitabı- **A.B.**) intizamın pozulması» kimi qiymətləndirilmişdir. Bundan sonra isə «Azərbaycan dili» kitabı da, dilimizin Dövlət dili kimi rəsmiləşdirilməsi ideyası da uzun illər «unudulmuşdur».

Mirzə İbrahimovun bu taleyüklü arzusunu 1977-ci ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev gerçəkləşdirdi. Məhz Heydər Əliyevin təşəbbüsü və gərgin əməyi nəticəsində həmin il Azərbaycanın yeni Konstitusiyasına Azərbaycan dilinin Dövlət dili olması barədə xüsusi bənd daxil edildi.

Gülşən xalanın bağışladığı «Azərbaycan dili» kitabı bu gün də mənim şəxsi kitabxanamdadır.

**2011**

## TƏRƏQQİ ÜNVANLI MƏDƏNİYYƏT

Muzeyşünaslıq müstəqil bir elm sahəsi olaraq respublikamızda son illərdə yaranmış və müəyyən inkişaf yolu keçmişdir. Ona görə ki, ötən günlərə işıq tutmaqda, özümüzə və başqalarına, ayrı-ayrı şəxsiyyətlərə, tariximizdə baş vermiş hadisələrə münasibətimizin formalaşmasında muzeylərin rolu əvəzsizdir. Muzey əşyaları vasitəsilə tariximizi, ağrılı-acılı və şanlı günlərimizi görür, gələcəyimizə daha inamla baxırıq. Məhz buna görə də tariximizin müəyyən mərhələlərini, mədəniyyətimizi, adət-ənənələrimizi və ümumən varlığımızı özündə yaşadan «cansız əşyalar» qayğı ilə toplanılır, qorunur, öyrənilir və öyrədilir. Son dərəcə məsuliyyətli və nəcib işi muzeylər və muzey əməkdaşları,habelə ayrı-ayrı tədqiqatçılar həyata keçirirlər. Artıq bu sahədə dissertasiyalar müdafiə edilmiş, kitablar, çoxsaylı məqalələr işıq üzü görmüşdür.

Ötən ilin sonlarında bu siyahıya yeni bir nəşr də əlavə olunub. Bir çoxumuzun gəncliyimizin şəhəri olan Sumqayıtın 60 illiyi ərəfəsində oxuculara təqdim olunan bu nəşr – «Mədəniyyətin tərəqqi ünvanı - Sumqayıt» adlı kitab məhz şəhərin 60 illiyinə töhfədir və bu illərdə burada mədəniyyət sahəsində qazanılmış uğurlardan bəhs edir. Daha dəqiq desək, şəhərin mədəni həyatının salnaməsidir.

İlk əvvəl muzey işindən söhbət açmağımız təsədüfi deyil. Məsələ burasındadır ki, müəlliflərin ( layihənin rəhbəri Əməkdar mədəniyyət işçisi Oliya İslamova, nəşrə hazırlayanlar Sənurə Lazımova, Mətanət Hüseynova və Naləndə Fərəcullayeva, redaktor İbrahim İlyaslı) kitabı qələmə alarkən istifadə etdikləri materiallar bir ünvanda

– Sumqayıt Şəhərinin Tarixi Muzeyində toplanmışdır. Bunlar ötən illərin qəzet-jurnalları, kitablar, fotoşəkillər, mədəniyyət işçilərinin şəxsi əşyaları, müxtəlif sənədlər, vəsiqələr, təltiflər, xatirələr, tədbir və tamaşaların afişa və proqramları, əlyazmaları … digər muzey əşyalarıdır. Bu əşyalar müxtəlif vaxtlarda muzeyin əməkdaşları tərəfindən fədakarlıqla toplanılmış, qorunmuş və tamaşaçıların sərəncamına verilmişdir.

Göstərdiyimiz kimi, kitabda Sumqayıt şəhərində mədəni quruculuq, buradakı mədəniyyət ocaqlarının fəaliyyəti işıqlandırılır, bu müəssisələrin əsası qoyulandan bu günə qədər keçdiyi yol izlənilir.

Müəlliflər bütün bunları ayrı-ayrı bölmələrdə toplamış və hər bölməni həmin müəssisələrin adı ilə adlandırmışlar: «Mədəniyyət evləri, klublar», «Musiqi və incəsənət məktəbləri», «Sumqayıt Musiqi Texnikumu», «Mədəniyyət və istirahət parkları», «Sumqayıt Şəhərinin Tarixi Muzeyi», «Sumqayıt Dövlət Rəsm Qalereyası», «Sumqayıt Dövlət Musiqili Dram Teatrı», «Mərkəzləşdirilmiş Kitabxana Sistemi».

Kitabın ilk səhifələrində muzeyin kolleksiyalarına əsaslanaraq Sumqayıtın qədim tarixinə nəzər yetirilir, məşhur Sum-Ceyran əfsanəsi (bəlkə də baş vermiş hadisə) xatırlanır, «Sumqayıt» sözünün etimologiyası üzərində dayanan müəlliflər unutmurlar ki, lap qədimlərdən bura türkdilli əcdadlarımızın yaşayış məskənı olmuşdur.

«Sumqayıt yaranır» adlanan bölmədə xüsusi vurğulanır ki, şəhər elə ilk əvvəldən həm də mədəniyyət mərkəzi kimi yaradılmışdır. Burada nəhəng zavodlar, iri sənaye müəssisələri ilə birlikdə mədəniyyət ocaqları – mədəniyyət evləri, kitabxanalar, musiqi məktəbləri, kinoteatr da inşa edilmişdir.

Sonrakı bölmələrdə bu müəssisələrin fəaliyyətindən söhbət açan müəlliflər burada yaradılmış bədii kollektivlərin uğurlarını, o dövrün gəncliyinin mənəvi və estetik tərbiyəsinin inkişafında rolunu konkret muzey əşyaları əsasında şərh edirlər. Sumqayıtın ədəbi-mədəni mühiti və teatr həyatı barədə yazılanlar, ümüd edirəm ki, oxucuları məhz həmin illərə qaytaracaq, bu gün mədəni quruculuq sahəsində əldə olunan uğurların təməl daşlarının o vaxtlar qoyulduğunu bir daha göz önünə gətirəcəkdir. Ötən illər ərzində Sumqayıtda yetişmiş qələm və fırça ustaları, teatr və musiqi xadimləri, klub, kitabxana və muzey işçiləri şəhərin mədəni həyatını dolğunlaşdırmış, ümumən Azərbaycan mədəniyyətinin və incəsənətinin inkişafına öz töhfələrini vermişlər.

Sumqayıt  gənclər şəhəridir, Sumqayıt gəncliyimizin şəhəridir. Bu fikir kitabın hər səhifəsində qırmızı xətlə keçir.

«Mədəniyyətin tərəqqi ünvanı – Sumqayıt» neçə illik gərgin əməyin məhsuludur (Mən burada muzeyin bütün əməkdaşlarının əməyini də nəzərdə tutur və çox yüksək qiymətləndirirəm), Sumqayıtın 60 illik yubileyinə layiqli töhfə olmaqla yanaşı, həm də Azərbaycan muzeyşünaslığını zənginləşdirən layiqli bir tədqiqat işidir.

Kitab maraqla oxunur. Ümid edirəm ki, oxucular da bu qənaətə gələcəklər. Sumqayıtı yaradanlar da, şəhərin indiki sakinləri də, qonaqları da…

**2010**

## CAVİDŞÜNASLIĞA LAYİQLİ TÖHFƏ

Hüseyn Cavid Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi görkəmli şəxsiyyətlərdən biridir. O, mədəniyyət tariximizə Azərbaycan ədəbiyyatının klassiki, mütəfəkkir-şair və böyuk dramaturq, habelə filosof kimi daxil olmuşdur. Ədibin milli ruha söykənən və eyni zamanda, ümumbəşəri mahiyyət kəsb edən əsərləri - şeir və poemaları, poeziya və nəsrlə qələmə aldığı faciə və dramları geniş oxucu və tamaşaçi kütləsini cəlb etdiyi kimi, həmişə tənqid və ədəbiyyatşünaslığın da diqqət mərkəzində olmuş, bu mövzuda namizədlik və doktorluq dissertasiyaları, monoqrafiyalar, çoxsaylı məqalələr yazılmışdır. Həmin araşdırmalarda yazıçının ümumi yaradıcılığı, onun ayrı-ayrı sahələri, konkret əsərləri və s. tədqiqat obyekti kimi qötürülmüşdür. Cavid yaradıcılığı bu qün də ədəbi-tənqidi və nəzəri-estetik fikirin diqqət mərkəzindədir. Bu zəngin irsin tədqiqatçıları arasında ədəbiyyatşünas və sənətşünaslarla yanaşı, filosoflar da vardır.

Cavid sənətinin fəlsəfi dərinliyi və zənginliyinin öyrənilməsi istiqamətində də araşdırmalar aparılır. Bu da çox təbii və eyni zamanda, gərəklidir. Ona görə ki, sənətkarın fəlsəfi görüşlərini, xüsusən estetik idealını və bədii amalını öyrənmədən onun yaradıcılığı barədə obyektiv fikir söyləmək çətindir. Daha dəqiq desək, estetik idealı və bədii amalı tədqiq edilməyən sənətkar obyektiv-elmi qiymətini ala bilməz. Hər bir əsərin və ayrı-ayrı obrazların təhlili son nəticədə müəllifin sənət aləminin və fəlsəfi dünyasının müəyyənləşdirilməsinə xidmət etməlidir.

Bu baxımdan Hüseyn Cavid yaradıcılığı zəngin

material verir. Əlbəttə, bu yöndə Cavid irsinə aid müəyyən araşdırmalar aparılmışdır. Azərbaycan MEA-nın müxbir üzvü Səlahəddin Xəlilovun son illərdə Cavid fəlsəfəsinə aid apardığı tədqiqatlar xüsusi əhəmiyyət kəsb edir.

Filologiya elmləri namizədi Rasim Nəbioğlunun qələmə aldığı «Hüseyn Cavidin estetik idealı» monoqrafiyası da (elmi redaktoru sənətşünaslıq doktoru, professor İsrafil İsrafilovdur) adından göründüyü kimi, məhz bu ideyaya xidmət edir.

Cavid yaradıcılığına aid sanballı tədqiqatların müəllifi, akademik Məmməd Cəfər yazmışdır: «Cavidin yaradıcılıq idealı konkret milli məzmunu, milli koloriti ilə yanaşı, həm də ümümbəşəri mahiyyətdədir və zamanla bağlı olaraq, daim ziddiyyətli inkişafda, büllurlaşmaq, aydınlaşmaq, əsrin qabaqcıl ideyalarına yaxınlaşmaq prosesində olmuşdur». Rasim Nəbioğlu öz monoqrafiyasında Cavidin estetik idealını məhz bu mövqedən tədqiq və şərh etmişdir.

Monoqrafiya giriş, üç fəsil və nəticə ilə əhatə edilmişdir.

Müəllif girişdə Cavid sənətinin bədii-fəlsəfi anlayışları və sosial-estetik problemlərinin xüsusi təhlil obyektinə çevrildiyini, ədibin yaradıcılığına xas olan ideya-bədii xüsusiyyətləri vahid bir sistemə salmağa və estetik ideal kateqoriyası işığında bütöv bir tam kimi öyrəndiyi bu sənətin mahiyyətindəki «kristal qəfəsi» üzə çıxarmağa çalışdığını xüsusi qeyd edir.

İlk fəsil estetik ideal işığında Cavid yaradıcılığının tədqiqi tarixinin və mövzunun işlənilməsi səviyyəsinin araşdırılmasına həsr olunmuşdur. Estetik ideal kateqoriaysının məzmunu, təbiəti və funksiyaları haqqında maraqlı fikirlərin, elmi müşahidələrin, sanballı nəzəri

ümumiləşdirmələrin mövcud olduğunu qeyd edən müəllif onu da bildirir ki, estetikanın bu kateqoriyası ətrafında hamı üçün ümumi olan fikirlərlə yanaşı, polemik mülahizələr və müxtəlif münasibətlər də vardır.

Müəllif bunların hər birinə hörmətlə yanaşır və əsas məqamları süzgəcdən keçirir. Tədqiqatçı onun elmi-nəzəri mövqeyini və monoqrafiyada rəhbər tutduğu ədəbi-estetik prinsipləri düzgün ifadə edən mülahizələrə üstünlük verir, eyni zamanda, estetik idealın xüsusiyyətlərini Cavid yaradıcılığından sintez etdiyi konkret estetik ideal nümunəsində şərh edir.

Monoqrafiyanın ikinci fəsli «Hüseyn Cavid sənətinin əsas bədii-fəlsəfi anlayışları» adlanır. Müəllifin fikrincə, Cavid sənətinin əsas bədii-fəlsəfi anlayışları öz məzmunu və həcmi etibarilə varisliyə malik olmaqla, ümumdünya ədəbi-estetik və Şərq ictimai bədii fikri kontekstində müəyyən məna daşıyır. Buna görə də Cavid sənətinin tədqiqi prosesində bu anlayışların tətbiqedilmə yönü və dairəsi məhz belə bir yanaşmanı və öyrənməni tələb edir.

Müəllif Cavid sənətinin əsas bədii-fəlsəfi anlayışlarını bu şəkildə qruplaşdırır: Gözəllik, Məhəbbət, Uçurum, Nəfs (iblislik), Allah, Qəhrəmanlıq.

Hüseyn Cavid gözəllik və məhəbbət anlayışlarını ayrılmaz vəhdətdə götürür, onun idealı gözəllik və məhəbbətin hakim olduğu bir səltənətdir. Şairin məşhur «Mənim Tanrım gözəllikdir, sevgidir» misrasına və digər nümunələrə istinad edən tədqiqatçı burada məhəbbətin gözəllik yaratdığını, gözəlliyin isə məhəbbət doğurduğunu, gözəllik və məhəbbətin həm də yaradıcı quvvə, bəşəriyyətin xoşbəxt gələcəyini təmin edəcək ali

keyfiyyət olduğunu xüsusi vurğulayır, həmçinin, gözəllik və məhəbbətin məna və məzmununu, funksiyalarını sənətkarın yaradıcılığı əsasında şərh edir.

Gözəllik və məhəbbət səltənətini sabahın xoşbəxt aləmi, gələcəyin firavan cəmiyyəti kimi dəyərləndirən Cavid, eyni zamanda, həyatda və cəmiyyətdə uçurumun mövcudluğunu xüsusi vurğulamışdır. Monoqrafiyada «uçurum» bədii-fəlsəfi anlayışı Cavidin bir sıra şeirləri, habelə «Şeyx Sənan», «Şeyda», «Uçurum», «Knyaz» pyesləri əsasında üzə çıxarılır. Cavid personajları məzlum və hüquqsuz insanların ömür yolunu, zəmanənin və cəmiyyətin çirkinlik və ədalətsizliklərini uçurum hesab edirlər. Monoqrafiya müəllifinin bu yöndə qənaəti belədir: «Hüseyn Cavid sənətində «uçurum» anlayışı haqsız, ədalətsiz, eybəcər, yaramaz bir həyatın məzmunundan xəbər verir. Uçurum – milləti və bütün bəşəriyyəti udan sosial-mənəvi bataqlıqdır. Uçurum - Cavidin anti-idealıdır».

Monoqrafiya müəllifi Cavid sənətinin digər bədii-fəlsəfi anlayışı – Nəfs (iblislik) barədə danışmazdan əvvəl bu anlayış barədə Şərq, o cümlədən Azərbaycan fəlsəfəsində mövcud fikirləri araşdırır, böyük Azərbaycan alimi N.Tusinin Şərq - Qərb fəlsəfi-etik nəzəriyyələrindən çıxış edərək nəfs haqqında yaratdığı konsepsiyaya, eyni zamanda, klassik Azərbaycan ədəbiyyatında bu mövzuda poeziya nümunələrinə nəzər yetirir.

Bu məsələni Cavid yaradıcılığı əsasında araşdıran tədqiqatçı belə bir qənaətə gəlir ki, nəfs Cavid idealının əks qütbündə dayanan bir qüvvənin, daha doğrusu, anti-idealın məğzidir. Cavidə görə, müxtəlif növ nəfslər «xəyanət» adlı universal nəfsə daxildir və eyni zamanda, bu nəfsdən şaxələnir. Tamah, şan-şöhrət, sərvət, şəhvət

kimi nəfslər xəyanətdən başlayır və xəyanətdə qurtarır.

Rasim Nəbioğlu öz araşdırmalarına əsaslanaraq belə hesab edir ki, Cavid sənətində tez-tez «xain» və «xəyanət» sözlərinin işlədilməsi, onlara müvafiq epizod, hadisə və səhnələrin verilməsi daxili bir sistem səviyyəsindədir. Tədqiqatçı bu cür epizodlara «Ana», «Xəyyam», «Peyğəmbər» pyeslərində təsadüf olunduğunu qeyd edir. Onun fikrincə, şairin «İblis» faciəsi şər ensiklopediyası olmaqla başdan-ayağa «xəyanət» nəfsinin doğurduğu düşüncə və hərəkətlər silsiləsinə əsaslanır.

Müəllif onu da əsaslandırır ki, Cavid sənətində Allah-zaman və məkanca mövcud «uçurum»ların fövqündə duran cəmiyyətin daxili qanunlar məcəlləsinin yaradıcısıdır – burada bütün insanlar bərabər, azad və xoşbəxt bir həyat yaşayırlar. Allah-ictimai ədaləti bərqərar edən və onun keşiyində duran bir qüvvədir, əxlaqi dəyərləri qoruyan himayəçidir, insan kamilliyinin təşəkkül və təcəssümünün yaradıcısıdır.

Monoqrafiyanın sonuncu – ücüncü fəsli «Hüseyn Cavid sənətinin əsas sosial-etik problemləri» adlanır. Müəllif burada öz qarşısında belə bir sual qoyur: Cavidin gözəllik və məhəbbət səltənəti kimi təcəssüm edən estetik idealına hansı sosial-etik problemlər daxildir? Təbii ki, bu suala qəti cavab vermək çətindir. Buna görə də gələcək tədqiqatların Cavid sənətinin həm bədii-fəlsəfi anlayışları, həm də sosial-etik problemləri istiqamətində çox düyünləri aça biləcəyinə əmin olan müəllif həmin problemləri bu şəkildə qruplaşdırır: kamil insan, kamil insanların birliyi və yer üzündə əbədi sülhün olduğu həyat, azad qadın və xoşbəxt ailə.

Tədqiqatçının fikrincə, göstərilən sosial-etik problemlər Cavidin estetik idealında struktur səviyyəsində

və vəzifəsində olmaqla şairin estetik idealı ilə birlikdə onu təşkil edən ayrı-ayrı komponentlər arasında daxili dialektik əlaqə yaradır. Rasim Nəbioğlu Cavid sənətinin bədii-fəlsəfi anlayışları və sosial-etik problemləri istiqamətində apardığı tədqiqat işi ilə şairin estetik idealını canlı şəkildə görməyə, anlamağa, sintez etməyə və göstərməyə nail olmuşdur.

Monoqrafiya müəllifi yüksək elmi təfəkkürə malik olduğunu və Cavid irsinə dərin bələdliyini nümayiş etdirmişdir.

Rasim Nəbioğlunun «Hüseyn Cavidin estetik idealı» monoqrafiyası Cavidşünaslığa layıqli töhfədir.

**2011**

## AZƏRBAYCAN XALÇASI: MİLLİ VƏ ÜMUMBƏŞƏRİ SƏRVƏT

Bu gün Azərbaycanda xalça sənəti öz inkişafının yeni mərhələsini yaşayır, onun tarixi elmi əsaslarla öyrənilir, tədqiq olunur. Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda, Rəssamlıq Akademiyasının, Mədəniyyət və İncəsənət Universitetinin müvafiq kafedralarında bu sahədə araşdırmalar aparılır, monoqrafiyalar nəşr olunur, namizədlik və doktorluq dissertasiyaları müdafiə edilir.

Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi ölkəmizin ən zəngin muzeylərindən biridir. Burada milli xalça sənətimizin ən qiymətli nümunələri toplanmışdır. Muzeydə Azərbaycan xalça sənətinin öyrənilməsi və təbliği ilə bağlı konfranslar, seminarlar, yaradıcılıq görüşləri və s. tədbirlər təşkil olunur. Muzeyin bazasında 1983-cü, 1988-ci və 2003-cü illərdə Azərbaycan xalça sənətinə həsr edilmiş beynəlxalq simpoziumlar keçirilmişdir. Muzeyin kolleksiyalarından ibarət sərgilər dünyanın bir sıra ölkələrində uğurla nümayiş etdirilmişdir.

Bu muzeyə uzun illərdir ki, Röya Tağıyeva rəhbərlik edir.

Röya xanım Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirdikdən sonra əmək fəaliyyətinə məhz bu muzeydə başlamış, burada kiçik elmi işçi, böyük elmi işçi, elmi katib, şöbə müdiri işləmiş, daha sonra muzeyin direktoru vəzifəsinə təyin edilmişdir.

Röya Tağıyeva, eyni zamanda, elmi tədqiqat işi ilə məşğul olur. Sənətşünaslıq doktorudur. Onlarla elmi məqalənin, «Azərbaycan dekorativ tətbiqi sənəti», «Azər-

baycan süjetli xalçaları», «Nizami obrazları xalçalarda» monoqrafiyalarının, bir sıra tədris proqramlarının və metodiki vəsaitlərin müəllifidir.

Onun «Azərbaycan xalçası» adlı fundamental monoqrafiyası Azərbaycan və ingilis dillərində nəşr edilmişdir.

O, Azərbaycan mədəni irsinin qorunması sahəsində fəal çalışır, səmərəli ictimai iş aparır. Beynəlxalq Muzeylər Şurası (İKOM) Azərbaycan Milli Komitəsinin sədri, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə yaradılmış «Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında» Haaqa Konvensiyasının (1954-cü il) müddəalarının yerinə yetirilməsi üzrə komissiyanın üzvü, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının eksperti, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi nəzdində ekspert komissiyasının sədri, Azərbaycan Rəssamlar İttifaqının, bir sıra təşkilatların, o cümlədən beynəlxalq təşkilatların üzvüdür. Dəfələrlə elmi konfrans və simpoziumlarda, o cümlədən beynəlxalq elmi məclislərdə Azərbaycan xalça sənətinə aid məruzələrlə çıxış etmişdir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində mühazirələr oxuyur.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2006-cı ildə ona «Əməkdar mədəniyyət işçisi» fəxri adı verilmişdir.

«Tutu» nəşriyyatı bu günlərdə Röya Tağıyevanın «Azərbaycan xalçası məişətdə» adlı yeni kitabını nəşr etmişdir. Müəllif öz yeni tədqiqatında Azərbaycan xalçasını etnomədəni tarixi kontekstdə araşdırmış, xalqın adət-ənənə və məişətində onun rolunu və əhəmiyyətini göstərmiş, eyni zamanda, xalça sənəti ilə bağlı termin-

ləri, folklor nümunələrini və xalq deyimlərini kitaba daxil edərək onların izahını vermişdir.

Tədqiqat işi ön söz, üç bölmə, xalça terminləri lüğəti və illüstrasiyalardan ibarətdir.

«Azərbaycan xalçası milli və ümumbəşəri sərvətdir» adlanan birinci bölmədə Azərbaycan xalçası mənsub olduğu xalqın, eyni zamanda, bütün bəşəriyyətin mədəni-mənəvi sərvəti kimi təqdim olunur və bu yöndə araşdırılır, xalçanın xalqımızın məişətində rolu və əhəmiyyəti barədə məlumat verilir. Müəllif apardığı araşdırmalar nəticəsində belə bir qənaətə gəlir ki, xalqımızın varlığının qürur hissinin göstəricisi olan Azərbaycan xalçası məhz özünəməxsus milli bədii xüsusiyyətləri, həyat fəlsəfəsi ilə dünya mədəniyyətinin inkişafına təsir göstərən bir amil kimi beynəlmiləl mahiyyətli hadisəyə, ümumbəşər mədəniyyətinin nailiyyətinə çevrilmişdir.

Röya Tağıyeva dediklərini Azərbaycan xalçasının yaranması və inkişafı tarixini izləməklə şərh etmişdir. Müəllifin fikrincə, Azərbaycan xalça sənəti, incəsənətin başqa sahələri kimi, özünün yüksəliş dövrünü yaşamış, bununla yanaşı, bu sənətdə ideya və obrazların bədii ifadə sisteminin əsl xalq ruhundan gələn əsaslarına sədaqəti qorunub saxlanılmışdır. Azərbaycan xalçasının zəngin bədii xüsusiyyətləri və forma əlvanlığı onun yaranma tarixindən müşahidə olunmuşdur.

İkinci bölmə «Azərbaycan xalçası xalqın etnomədəni tarixi kontekstində» adlanır.

Bu bölmədə problemə münasibət öz yeniliyi və orijinallığı ilə diqqəti cəlb edir. Tədqiqatçı göstərir ki, azərbaycanlıların etnomədəni ənənələri öz kökü etibarilə çox qədim zamanlara - bəşəriyyətin İlkin Ənənəsi ilə vahid Avrasiya etnosu ənənələrinin bila-

vasitə təmasda olduğu minilliklərə gedib çıxır. Müəllif son vaxtlar meydana çıxmış etnomədəni və dil monogenezi konsepsiyası, daha doğrusu, dünya xalqları və mədəniyyətlərinin vahid bir kökdən əmələ gəlməsi ideyası ilə bağlı mülahizələrini də bildirir.

Tədqiqat işində qədim məxəzlərə isttinadən mədəniyyətlərin bir - birinə təsiri, ayrı-ayrı təriqət və inanclar, bunların simvol və motivlərinin Azərbaycan xalçlarında izləri araşdırılır və müəllif bütün bunlara çağdaş sənətşünaslığın qarşısında duran tələblər baxımından yanaşır, Azərbaycan xalqının etnomədəni tarixi kontekstində təhlil edir.

Sufizmin Azərbaycan xalça sənətinə təsiri barədə danışan müəllif onu da göstərir ki, sufizm həm də İslam dininin daxili inkişaf xətti, bu dinin nəzəriyyəsidir və müəllifin fikrincə, bu da şamanizm təcrübəsi ilə bağlı olan qədim ənənəvi təsəvvürləri özünəməxsus şəkildə dəyişərək öyrənirdi. Bütün bunlar barədə məlumat verən Röya Tağıyeva sufizmin xalça sənətinə təsirinin xüsusən, XVI-XVII əsrlər Təbriz xalçalarında müşahidə olunduğu qənaətinə gəlmişdir.

Səfəvilər dövründə və ondan sonra süjetli xovlu xalçaların geniş yayıldığını, bu xalçaların yaradılmasına miniatürçü rəssamların, əlyazma kitabları tərtibatçılarının, xəttat sənətkarların cəlb olunduğunu qeyd edən tədqiqatçı bu xalçalardakı təsvirlərin əsasən sufi poeziyasının süjet və motivlərini özündə əks etdirdiyini də xüsusi vurğulamışdır.

Müəllif belə bir fikri əsaslandırır ki, XVIII əsrdə Azərbaycan xanlıqlarının yaranması ilə əlaqədar saray xalça toxuculuğu deyil, daha çox xalq xalçaçılıq mərkəzləri inkişaf etməyə başlamışdır. Tədqiqatçının fikrincə, məhz bu dövrdə xalq təfəkküründə yenidən etnik arxetiplərin

arxaik qatları canlanmışdı ki, bu da müəyyən mənada İlkin Ənənəyə qayıdışın başlanğıcı olmuş, bu ənənələrlə əlaqələrin itirilməməsini təcəssüm etdirmişdir.

Üçüncü bölmə «Azərbaycan xalçası xalqın adət-ənənəsi və məişəti kontekstində» adlanır.

Bu bölmədə məlum olur ki, sufi təriqətli xalça sənətkarları zahiri görüntüyə əsasən daxili məkanı aşkarlamağa və yeni əsər yaradaraq bildikləri gizli mahiyyəti bədii forma halına salmağa cəhd etmişlər və bu gün sufizmlə bağlı sənət nümunələri bizi xalçaçılıq çərçivəsində əbədiyyət və müdriklik dünyasına aparır ki, bundan da məqsəd magik qoruyuculara və kainatın Səma qüvvələrinə nüfuz etməyə yönəldilməsidir. Beləliklə də simvollar vasitəsilə Kosmik Vəhdət ideyasının xalçaya köçürüldüyünü və onun naxışlarında öz əksini tapdığını əsaslandıran müəllif insanın Səma rəmzləri ilə əlaqə yaradıb kainatın harmoniyasına qoşulduqda böyük uğurlar və xeyir əldə etdiyindən xalçanın da mühüm rol oynadığı sufizm mahiyyətli mərasimlərin – Azərbaycan xalqının köklü adətlərinə çevrildiyi qənaətinə gəlmişdir.

Röya Tağıyeva daha sonra xalçaların ovsunlayıcı və qoruyucu funksiyaları barədə məlumat verir və xalçanın qədimlərdən başlayaraq indiyədək xalqımızın adət – ənənəsində və məişətində oynadığı rolu geniş şərh edir, ondan istifadə olunması məsələlərinə aydınlıq gətirir, eyni zamanda, xalça naxışları, rəmzləri, hətta onun rəngi ilə bağlı daşıdığı mənaları açıqlayır, bəzi xalça adlarının etimologiyasına öz münasibətini bildirir.

Məlumdur ki, Azərbaycanın «Şəddə» xalçalarında qırmızı rəng üstünlük təşkil edir. Müəllif bunu Ruh Aləmi və İlahi Qoruyucu qüvvələrlə əlaqələndirir və qırmızı rəngin başqa xalqlardan fərqli olaraq azərbaycanlılarda yalnız totem deyil, həm də bütövlükdə həyat

fəlsəfəsini, mövcudluğu, həyatın özünü əks etdirməsi, xüsusi canlandırıcı enerji qüvvəsi kimi xalq təbabətində öz əksini tapması, bu rənglə bağlı inancların olması ilə əsaslandırır.

Kitaba «İzahlı xalça terminləri lüğəti» də daxil edilmişdir. Lüğətin ayrı – ayrı bölmələrində sənət və sənətkarlar, boyaqlar və rənglər, toxuculuq dəzgahları və alətləri, xalça və xalça məmulatları, xalçaçılıiq mərkəzləri və xalça məktəbləri ilə bağlı terminlərin geniş izahı verilmişdir. Həm lüğət, həm də xalçaçılıqla bağlı kitabda toplanmış ənənəvi deyimlər, bayatılar, inianclar və adətlər nəşrin əhəmiyyətini və kütləviliyini xeyli artırmışdır.

Sənətşünaslıq doktoru Röya Tağıyevanın «Azərbaycan xalçası məişətdə» kitabı xalça sənətimizin tədqiqində yeni söz, sənətşünaslıq elminə dəyərli töhfədir. Bu tədqiqat işindən sənətşünaslar, tarixçilər, etnoqraflar, folklorşünaslar və muzey işçiləri, eyni zamanda, bu sahələrlə bağlı müəllim, aspirant və tələbələr faydalana bilərlər.

**2007**

## VERGİ MƏDƏNİYYƏTİ

Məlumdur ki, Azərbaycan yer kürəsində ibtidai insanların formalaşdığı bölgələr sırasına daxildir. Ən qədim dövrlərdən başlayaraq bu ərazidə insanın təşəkkülü və yaşaması üçün əlverişli şərait olmuşdur.

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, Azərbaycanda ən qədim zamanlarda müxtəlif sənət sahələri meydana gəlmiş, zaman keçdikcə inkişaf edərək daha da təkmilləşmişdir. Ən qədim dövrlərdən başlayaraq zaman-zaman insanların bu və ya digər tələbatının ödənilməsi məqsədilə yaradılan nümunələr sonradan mədəniyyət sərvəti adını almış və beləliklə, xalqımız öz mədəniyyətinin də əsasını qoymuş, onu yaşatmış, daha da inkişaf etdirmişdir. Eyni zamanda, mədəniyyətin inkişafı dövlətin yaranması dövrünə təsadüf etmişdir. Dövlətin qüdrəti, tərəqqisi, əhalinin yaşayış səviyyəsi onun iqtisadi vəziyyətindən asılıdır. İqtisadiyyatın səviyyəsini isə xəzinəyə daxil olan gəlirlər müəyyənləşdirir. Bu gəlirlərin mühüm hissəsini vergilər təşkil edir.

Ayrı-ayrı fəaliyyət sahələrinə aid mədəniyyət növləri, o cümlədən vergi mədəniyyəti mövcuddur. Bu gün dövrümüzün reallığına çevrilmiş «Vergi mədəniyyəti» anlayışı nisbətən yenidir. İnkişaf etmiş ölkələrdə əhalinin maddi rifahı ilə yanaşı mədəniyyətin, habelə vergi mədəniyyətinin səviyyəsi də durmadan yüksəlir.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Akif Musayev və tanınmış yazıçı, tədqiqatçı-alim Aslan Qəhrəmanovun ərsəyə gətirdikləri «Vergi mədəniyyəti» (ll nəşr) kitabında bu, habelə cəmiyyət və

dövlətlə bağlı bir sıra məsələlər geniş şərh edilmişdir. Kitabın məsləhətçisi Azərbaycan Respublikasının vergilər naziri, 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov, elmi redaktoru akademik Teymur Bünyadovdur.

Müəlliflər «Ön söz»də qeyd edirlər ki, mədəniyyətin, o cümlədən də vergi mədəniyyətinin səviyyəsi birdən-birə yüksəlmir. Onlar bunun təkamül prosesi nəticəsində baş verdiyini və inkişaf etdiyini göstərirlər. Bu gün bir sıra ölkələrin vergi ödəməklə fəxr edən vətəndaşlarının əvvəllər bu işi çox çətinliklə, məcbur edilməklə gördüklərini misal gətirirlər. Müəlliflər, eyni zamanda, vurğulayırlar ki, bu kitab respublikamızda vergi sahəsində aparılan islahatlar, əhalinin maddi və mənəvi səviyyəsinin yüksəlməsi ilə bərabər vergiyə aid biliklərin də vətəndaşların vergi mədəniyyətinə mühüm təsir göstərdiyi nəzərə alınaraq yazılmışdır.

Kitab əsasən vergi mədəniyyətinə həsr edildiyinə görə, burada bu məsələ ilə əlaqədar cəmiyyət, dövlət, iqtisadiyyat, vergilərin təkamülü, vergi tarixi, respublikamızda və bəzi xarici ölkələrdə mövcud vergi sistemləri və digər problemlər də şərh edilmişdir. Müəlliflər bu məsələlərə aydınlıq gətirərkən tarixən inkişaf etmiş bir sıra dövlətlərin və dövlət xadimlərinin təcrübəsinə, Azərbaycan və dünya ədəbiyyatı klassiklərinin əsərlərinə, digər ədəbi abidələrə istinad edirlər. Bütün bunlar isə öz növbəsində kitabın əhəmiyyətini artırmış, onu daha oxunaqlı etmişdir.

Azərbaycanın vergi tarixindən söhbət açan müəlliflər eradan əvvəl və eranın ilk əsrlərində, ərəb xilafətində, Elxanilər dövründə, habelə Azərbaycan xanlarının və Azərbaycan Xalq Cümhuriyyətinin vergi növləri, eyni zamanda, Ağqoyunlu hökmdarı Uzun Həsənin əhalinin

xeyrinə apardığı vergi islahatları barədə maraqlı məlumatlar vermişlər.

Kitabın «Mədəniyyət» və «Azərbaycanda vergi mədəniyyətinin səviyyəsinin yüksəldilməsi tədbirləri» fəsilləri bilavasitə mövzunun şərhi ilə bağlıdır.

Müəlliflər «Mədəniyyət» anlayışının insan fəaliyyətinin müəyyən sahələrdə səviyyəsinin, inkişaf dərəcəsinin ölçüsü kimi başa düşüldüyünü qeyd edirlər. Bu ölçü isə insanın, cəmiyyətin, millətin, hətta bütün bəşəriyyətin fəaliyyətinə aid ola bilər. Buna görə də istehsal, idarəetmə, nitq, dövlətçilik, təfəkkür mədəniyyətləri ilə yanaşı, vergi mədəniyyətindən də danışmaq olar və bu, lazımdır.

Məlumdur ki, hər bir ölkənin iqtisadi gücü, əsasən, büdcəyə daxil olan vəsaitin həcmi ilə müəyyən edilir. Büdcənin formalaşmasında isə fiziki və hüquqi şəxslər tərəfindən ödənilən vergilər mühüm rol oynayır. Hər bir şəxs qazandığı vəsaitdən qanunla qəbul olunmuş qaydada vergi ödəməlidir. Kitabın müəllifləri çox doğru olaraq göstərirlər ki, vergi intizamı və vergi mədəniyyəti olmayan ölkədə buna nail olmaq çətindir.

Müəlliflər vergi yığımına inkişaf etmiş ölkələrdə daha ciddi yanaşıldığı və bu işdə günahkar şəxslərin cəzalandırıldığı barədə maraqlı faktlar söyləyirlər. Məlum olur ki, dünyanın ən məşhur kino ulduzlarından biri- italiyalı Sofi Loren, başqa bir italiyalı, məşhur müğənni Luçano Pavarotti, böyük kino rejissoru və aktyoru Çarli Çaplin vergi ödəmədiklərinə görə məsuliyyətə cəlb ediliblər. Sofi Loren vergiyə görə, hətta, həbs edilibmiş.

Kitabda Azərbaycan Respublikasının vergi sistemi, habelə respublikamızda vergi mədəniyyətinin səviyyəsinin yüksəldilməsi üçün görülən tədbirlər barədə ətraflı məlumat verilir.

Akif Musayev və Aslan Qəhrəmanovun «Vergi mədəniyyəti» kitabı sanballı tədqiqat işidir, ixtisasından, peşəsindən asılı olmayaraq hər bir oxucu tərəfindən maraqla qarşılanır. Vergi və mədəniyyət işçiləri ilə yanaşı, tarixçilər, etnoqraflar, iqtisadçılar və təbii ki, ali məktəblərin müvafiq fakültələrinin müəllim və tələbələri bu kitabdan faydalana bilərlər.

**2011**

## İŞĞAL OLUNAN TORPAQLARIMIZ: MADDİ MƏDƏNİYYƏTİMİZ...

Müəyyən bir bölgənin etnoqrafik tədqiqi ümumən xalqın tarixinin, mədəniyyətinin və etnoqrafiyasının öyrənilməsində mühüm rol oynayır. Bu baxımdan tanınmış etnoqraf-alim, Əməkdar mədəniyyət işçisi Solmaz Məhərrəmovanın «Elm» nəşriyyatı tərəfindən buraxılmış «XIX –XX əsrin əvvəllərində Kiçk Qafqazın cənub-şərq bölgəsinin maddi mədəniyyəti və təsərrüfatı» adlı monoqrafiyası xüsusi maraq doğurur. Monoqrafiyanın elmi redaktorları akademik T. Bünyadov və tarix elmləri namizədi Q. Rəcəblidir.

S. Məhərrəmova həmin bölgənin (Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Cəbrayıl və Füzuli rayonları) maddi mədəniyyətini və təsərrüfat həyatını, digər bölgələrlə oxşar və fərqli cəhətlərini öyrənmiş, nəticədə çox maraqlı və gərəkli bir tədqiqat işini mütəxəssislərə və geniş oxucu kütləsinə təqdim etmişdir.

Nəzərə alsaq ki, müəllifin tədqiq etdiyi bölgə bu gün müvəqqəti də olsa, düşmən tapdağındadır, o zaman monoqrafiyanın xüsusi əhəmiyyət kəsb etdiyini görərik.

S.Məhərrəmova mövzunu sistemli şəkildə şərh edərkən özündən əvvəlki tədqiqat işlərini öyrənmiş, bunların hər birinin rolunu və əhəmiyyətini müəyyənləşdirmiş, habelə ənənəvi müşahidə metodundan istifadə etməklə 2000-ci ildən başlayaraq Füzuli rayonunun işğal olunmamış ərazisində, habelə bölgə əhalisinin müvəqqəti məskunlaşdığı Bakı və Sumqayıt şəhərlərində, Ağcabədi, Ağdam, Bərdə, Daşkəsən, Xanlar, İsmayıllı, Xızı rayonlarında, digər yaşayış yerlərində

topladığı etnoqrafik materiallar əsasında uğurlu və eyni zamanda gərəkli bir elmi iş yazmışdır.

Monoqrafiya üç fəsildən ibarətdir. Birinci fəsil «Bölgənin təbii-coğrafi şəraiti və öyrənilməsi haqqında. Tarixi icmal» adlanır. Adından göründüyü kimi, bu fəsildə bölgənin təbii-coğrafi şəraiti və tarixi, habelə mövzunun öyrənilməsi dərəcəsi araşdırılmışdır.

Müəllif həmin fəslin «Tarixi icmal» bölməsində XIX əsrdə və XX əsrin əvvəllərində bölgədəki mövcud vəziyyət, habelə burada baş vermiş sosial-siyasi və tarixi hadisələr barədə məlumat vermişdir.

Məlumdur ki, XIX əsr Quzey Azərbaycanının, o cümlədən Qarabağ bölgəsinin rus qoşunları tərəfindən işğalı və xanlıq üsul-idarəsinin ləğvi ilə səciyyələnir. Məhz bu işğaldan sonra ölkə çar Rusiyasının qayda–qanunları ilə idarə olunmuş, bütün bunlar isə əhalinin maddi mədəniyyətinə və təsərrüfatına da öz təsirini göstərmişdir.

Monoqrafiyanın «Maddi mədəniyyət» adlanan birinci fəslində bölgədə yaradılmış və istifadə olunmuş yaşayış məskənləri və yaşayış evləri, geyim və bəzəklər, yemək və içkilər, xalq nəqliyyat vasitələri və yollar araşdırılır, onların inkişaf yolu izlənilir. Müəllif öz araşdırmalarının nəticəsi olaraq belə  bir qənaətə gəlir ki, bölgənin maddi mədəniyyətinə aid xüsusiyyətlər başqa bölgələrdə də vardır. Bununla yanaşı, tədqiqatçı elə spesifik cəhətləri üzə çıxarmışdır ki, bunlara yalnız bu bölgədə rast gəlmək mümkündür. Müəllif bunu ərazinin coğrafi şəraiti və təsərrüfat həyatı, xüsusilə əhalinin XX əsrin əvvəllərinədək köçmə maldarlıqla məşğul olması ilə əlaqələndirir.

S. Məhərrəmovanın fikrincə, bölgənin maddi mədəniyyəti ilə bağlı özünəməxsus bir sıra cəhətlər öz

əksini, hər şeydən əvvəl, yaşayış məskənləri və yaşayış evlərinin tikintisində tapmışdır. Müəllif bölgə əhalisinin təsərrüfat həyatı, daha doğrusu, maldarlıqla məşğul olması ilə əlaqədar olaraq yaşayış məskənlərinin də daimi və müvəqqəti olmaqla iki qrupa bölündüyünü qeyd etmiş, burada qışlaq, yaylaq, oba, biçə, yurd kimi yaşayış məskənlərinin yaranmasını və bunların sonradan böyük kəndlərə çevrilməsinə zəmin yaratdığını xüsusi qeyd etmişdir. Müəllif öz müşahidələri nəticəsində müəyyən etmişdir ki, bölgənin topoqrafik quruluşundan asılı olaraq evlər həm dağınıq, həm koma-koma, həm də pərakəndə inşa edilmişdir.

Tədqiqatçının bölgənin geyim və bəzəkləri barədə araşdırmaları da xüsusi maraq doğurur. O göstərir ki, XIX əsrin sonu XX əsrin əvvəllərində mövcud şəraitə uyğun olaraq bölgə əhalisinin geyimində bir sıra dəyişikliklər baş vermiş, ənənəvi geyim nümunələri ilə yanaşı, fabrik istehsalı olan paltarlardan istifadə edilmiş, zaman keçdikcə saç düzümündə də müəyyən yeniliklər əmələ gəlmişdir. Bununla yanaşı, dövrün etik normalarına ciddi əməl olunmuş, bölgənin əksər kəndlərində və yaşayış məntəqələrində qız və gəlinlərin qısa qol, yaxası açıq paltar geyinməsi və yaşca böyüklərin qarşısına belə görünüşdə çıxması yolverilməz sayılmışdır. Müəllif bu nu bölgədə milli xüsusiyyətlərin və ənənələrin ciddi şəkildə saxlanılmasının ifadəsi kimi xarakterizə etmişdir.

Monoqrafiyada bölgənin özünəməxsus yeməkləri və içkiləri, habelə nəqliyyat vasitələri barədə araşdırmalar da diqqəti cəlb edir.

Monoqrafiyanın üçüncü fəslində bölgənin təsərrüfat sahələri tədqiq olunmuşdur. Müəllif burada maldarlıq, əkinçilik, ipəkçilik, çəltikçilik, bağçılıq, arıçılıq, ovçuluq və balıqçılığın inkişafını bölgənin təbii-coğrafi şəraiti ilə

əlaqələndirmiş, eyni zamanda, maldarlığın inkişafının toxuculuq, xalçaçılıq, keçəçilik, dəriçilik kimi sənət növlərinin yaranmasına zəmin yaratdığını xüsusi qeyd etmişdir.

Tədqiqat işində Azərbaycanın digər bölgələrindən fərqli olaraq bu bölgədə əhalinin təsərrüfat həyatında maldarlığın aparıcı rol oynadığı göstərilmişdir. Müəllif burada bəslənilən heyvan cinslərinin ətli olması, bol süd verməsi, keyfiyyətli yunu və sərt iqlimə uyğunlaşması ilə səciyyələndirmiş, bölgədə ayrı-ayrı şəxslərə məxsus at ilxılarının olduğunu, bu ilxılarda cins Qarabağ atları, habelə digər cinslər (Şahmar, Durnalar, Ağcadil və s.) yetişdirildiyini vurğulamışdır.

Bölgənin tarixi etnoqrafik tədqiqi nəticəsində burada yaşayan əhalinin məhz özünəməxsus cəhətləri olduğunu, eyni zamanda, bütün bunların ümumazərbaycan səciyyəsi daşıdığını müəyyənləşdirmiş Solmaz Məhərrəmova çox maraqlı və gərəkli bir tədqiqat əsəri yazmışdır.

İnanırıq ki, bu gün müvəqqəti olaraq Azərbaycanın ayrı-ayrı guşələrində məskunlaşmış və burada da öz adət-ənənələrini, özünəməxsus milli xüsusiyyətlərini, müxtəlif mərasimlərin keçirilməsi qaydalarını qoruyub saxlayan və bütün bunlara əvvəllər olduğu kimi əməl edən soydaşlarımız yaxın zamanda öz maddi və mənəvi dəyərlərini doğma yurdlarında dirçəldəcək, daha da inkişaf etdirəcəklər…

**2010**

## TARİX UNUTMUR

Həsən Əziz oğlu Həsənovun görkəmli dövlət xadimi Nəriman Nərimanov haqqında ikinci kitabı çapdan çıxmışdır. Kitab «Nəriman Nərimanovun tarixi missiyası» adlanır. (Müəllif 2004-cü ildə nəşr edilmiş birinci kitabını «Nəriman Nərimanov - milli təmayüllü kommunist» adlandırmışdı).

Müəllif yeni kitabında xalqımız üçün həmişə əziz və doğma olan bir insanın - Nəriman Nərimanovun həyatı və fəaliyyəti ilə bağlı araşdırmalar aparmış, öz qənaətlərini, fikir və mülahizələrini şərh etmişdir.

Kitab ayrı-ayrı bölmələrdən ibarətdir və ilk bölmələrdən biri belə adlanır: «Kim idi Nəriman Nərimanov?» Nəriman Nərimanovun kimliyinin açılması təkcə bu bölmə ilə məhdudlaşmır. Biz kitabı oxuduqca bu sualın əhatəli cavabını ala bilirik. Qeyd edək ki, bu bilgilərin çox hissəsini məhz Həsən Həsənovun tədqiqatından alırıq. Bunların çoxu yenidir, ilk dəfə Həsən Həsənov tərəfindən üzə çıxarılmış və tədqiqata cəlb olunmuşdur.

Nəriman Nərimanovun Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəsi (son dərəcə çətin şəraitdə olsa belə!), Rusiyaya və o vaxtlar Mərkəz adlandırılan Moskvaya qarşı siyasəti, türkçülük mövqeyi və Türkiyəyə münasibəti, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi naminə fəaliyyəti ilə bağlı məsələlər professional tədqiqatçı səriştəsi ilə obyektiv şəkildə işıqlandırılmışdır.

Nəriman Nərimanovun milli-mədəni dəyərlərimizin qorunması və inkişafı ilə əlaqədar fəaliyyətini

araşdıran müəllif çox maraqlı faktlarla rastlaşır. Bakı şəhərində böyük satirik şair M.Ə.Sabirin ilk dəfə heykəlinin ucaldılması (ətrafdakıların bəzilərinin etirazına baxmayaraq!), teatr işçilərinin hərbi xidmətdən azad edilməsi, müəllimlərin qurultayının keçirilməsi, universitetin müəllimlərinin əmək haqqının artırılması, indiki Milli Elmlər Akademiyasının bünövrəsi olan «Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti»nin yaradılması, Pedaqoji İnstitutun, Politexnik İnstitutunun və Texnikumunun, Konservatoriyanın ( indiki Musiqi Akademiyası) təşkili... Bütün bunlar Azərbaycanın baş naziri Nəriman Nərimanovun şəxsi təşəbbüsü və əməli fəaliyyətinin nəticəsidir.

Kitabda Nəriman Nərimanovun ana dilimizin qorunması ilə bağlı fikir və mülahizələri, bu yöndə əməli fəaliyyəti də işıqlandırılır. Azərbaycan dili məhz Nəriman Nərimanovun fərmanı ilə dövlət dili statusu almış, bütün idarələrdə yazışmaların rus dili ilə yanaşı Azərbaycan dilində də aparılması rəsmiləşdirilmişdir.

Biz Həsən Həsənovun tədqiqatında Nəriman Nərimanovu öz xalqını sevən, onun gələcəyi naminə fədakarlıqla çalışan, yaxşı mənada «millətçi» kimi görürük.

Kitabdakı bölmələrdən biri «Nəriman Nərimanovun Bakının milli simasını itirməmək uğrunda mübarizəsi» adlanır. Buradan məlum olur ki, 1920-ci il aprel çevrilişindən sonra Bakının erməniləşdirilməsi planı həyata keçirilməyə başlanıb və təbii ki, Nəriman Nərimanov buna qarşı ciddi mübarizə aparıb. Bu məsələ müəllif tərəfindən konkret faktlarla izah edilmişdir. Həsən Həsənov belə bir cəhəti də unutmur ki, Nəriman Nərimanovun bu hərəkəti Moskvanın xoşuna gələ bilməzdi və o, çox ciddi müqavimətə rast gəlirdi. Buna baxmayaraq Nərimanov bu yolda mübarizəsini davam

etdirmişdir. Həsən Həsənovun «Nəriman Nərimanovun tarixi missiyası» kitabını oxuduqca fərəhlənir, Nəriman Nərimanovu yetirən bir xalqın nümayəndəsi olduğun üçün qürrələnirsən. Bununla yanaşı, bəzi səhifələri oxuyanda kədər notları üstün gəlir. Vətəni və xalqı üçün bəlkə də hamıdan çox yanan, ömrünü məşəl edən bir insana qarşı nə qədər ədalətsizliklər edilmişdir...

Həsən Həsənov yazır: «N.Nərimanov fenomeni ondan ibarət idi ki, həm çar Rusiyası, həm də bolşeviklər onu özlərinə siyasi opponent sayırdı. Çar Rusiyası onu həbs edərək Metex qalasında saxlayırdı və Sibirə sürgün etmək qərarına gəlmişdi. Hətta AXC hökumətinin daxili işlər naziri Xəlil bəy Xasməmmədov Şuşa və Gəncə qubernatorlarına sərəncam vermişdi ki, N.Nərimanov oralarda görünən kimi həbs edilsin. Üzv olduğu partiyadan olan ortodoks-bolşeviklər isə onu, el sözü ilə desək, gözümçıxdıya salır, xalqdan uzaqlaşdırır, xalq qarşısındakı xidmətlərini isə «millətçilik» kimi qiymətləndirirdilər».

Ürək ağrıdan faktlardan biri Nəriman Nərimanov Moskvada məsul vəzifədə olarkən Bakıda yuxarı dairələrin ona laqeyd münasibət göstərməsidir. Bu laqeyd münasibət Nərimanovun sağlığında da olmuş, dünyasını dəyişəndən sonra da. 1925-ci ilin fevralında Moskvada Nəriman Nərimanovun ədəbi-ictimai fəaliyyətinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib, «Malı teatr»da onun «Nadir şah» pyesi tamaşaya qoyulub. Yubiley tədbirləri Tiflisdə, habelə Nəriman Nərimanovun bir vaxtlar dərs dediyi Borçalının Qızılhacılı kəndində də keçirilib. Lakin Bakıda bu yubiley hər hansı bir şəkildə qeyd edilməyib.

O, 1925-ci ilin martında Moskvada dünyasını dəyişib. Bu böyük azərbaycanlının Azərbaycanda dəfn

olunması “məsləhət bilinməyib”. Moskvada keçirilən dəfn mərasimində Azərbaycan nümayəndələri iştirak etməyiblər. Matəm komissiyasının sədri gürcü, müavini isə erməni olub. Komissiyanın tərkibində azərbaycanlı olmayıb. Azərbaycanın nümayəndələri yalnız dəfndən bir neçə gün sonra mərhumun məzarını ziyarət ediblər.

Həsən Həsənovun toxunduğu daha bir ürəkağrıdan fakt: Nəriman Nərimanovun vəfatından bir neçə ay sonra SSRİ Şərqşünaslarının Elmi Assosiasiyası təklif edir ki, Şərq xalqları arasında təbliğat və tədqiqat işlərini yaymaq üçün onun adına xüsusi kinostudiya təşkil olunsun. Bu təklif Dağıstan, Tatarıstan, Başqırdıstan, Krım, Qaraçay-Çərkəz respublikaları və İnquşetiya Muxtar Vilayəti tərəfindən dəstəklənir. Lakin həyata keçirilməsi mümkün olmur. Səbəbi isə “Cənubi Qafqaz türklərinin”, yəni azərbaycanlıların bu məsələyə münasibət bildirməməsi olur.

Bütün bunlarla yanaşı, həmin illərdə də hakimiyyət dairələrindən fərqli olaraq Azərbaycan xalqı Nəriman Nərimanovu sevmiş, ona hörmət və ehtiramını müxtəlif vasitələrlə ifadə etmişdir.

Müəllif öz kitabında ümummilli liderimiz Heydər Əliyevin Nəriman Nərimanov irsinə qayğısı, onun adının əbədiləşdirilməsi, yeni hücumlardan qorunması ilə bağlı əməyini yüksək qiymətləndirir. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Bakı şəhərində Nəriman Nərimanovun əzəmətli abidəsi ucaldıldı, xatirə muzeyi yaradıldı.

Həsən Həsənovun “Nəriman Nərimanovun tarixi missiyası” kitabı bu sözlərlə başlanır: “Mən çox xoşbəxtəm ki, Nəriman Nərimanovun doğulub, boya-başa çatdığı Tiflis şəhərinin Meydan (el arasında Şeytanbazar adlanır) məhəlləsində dünyaya gəlmişəm və yeniyetmə dövrümü orada keçirmişəm”. Müəllif daha sonra Tiflisdə

hər gün məktəbə gedərkən yerlilərin "Nərimanov klubu" adlandırdığı binanın qarşısından keçdiyini, Bakıda oxuduğu ali məktəbin və yaşadığı yataqxananın Nərimanov prospektində yerləşdiyini, 1960-cı ildə tələbə yoldaşları ilə yolüstü Moskvada olarkən Nəriman Nərimanovun məzarını ziyarət etdiklərini bildirir və bütün bunların onda Nərimanov şəxsiyyətinə böyük hörmət və ehtiram, yaradıcılıq irsinə və fəaliyyətinə xüsusi maraq yaratdığını göstərir.

Bəli, Həsən Həsənov öz dediklərində haqlıdır. Böyük zəhmətə qatlaşıb xalqımızın böyük oğlu Nəriman Nərimanov şəxsiyyətini daha da ucaldan, indiki nəslə daha yaxından tanıdan müəllif doğrudan da xoşbəxtdir...

**2005**

## AZƏRBAYCANIN QAYAÜSTÜ İNCƏSƏNƏTİ HAQQINDA TƏDQIQAT

Qobustanın qaya rəsmləri Azərbaycan ərazisində ən qədim sənət nümunələri hesab olunur. Tədqiqatçıların fikrincə, qayalar üzərində həkk olunmuş bu rəsmlərin ən qədimi eramızdan əvvəl VIII-VI əsrlərə aiddir. Əlbəttə, bu təsvirlərin hamısı eyni vaxtda meydana gəlməmiş, ayrı-ayrı dövrlərdə yaradılmışdır.

Qobustan qayalarına insan fiqurları, müxtəlif heyvanların təsvirləri, ovçuluq səhnələri və s. həkk edilmişdir. Burada tək dayanmış insan rəsmləri, qrup halında «Yallı» oynayan adamların təsvirləri mövcuddur.

Qobustan təsvirləri barədə tədqiqatçıların müxtəlif fikirləri vardır. Tədqiqatçıların əksəriyyəti bu rəsmləri sənət əsəri kimi qiymətləndirirlər. Qobustanın qaya təsvirləri daş dövründən XIX əsrə qədər olan dövrün təsviri sənətini və yazı mədəniyyətini özündə yaşadır.

Məhz buna görə də bu qədim sənət nümunələri ilə bağlı araşdırmaların aparılması, obyektiv elmi qənaətlərin əldə edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan tarix elmləri namizədi Məlahət Fərəcovanın oxuculara təqdim edilmiş «Azərbaycan qayaüstü incəsənəti» kitabı maraq doğurur. Bəri başdan qeyd edək ki, kitab müəllifin uzun illər apardığı elmi-tədqiqat işinin uğurlu nəticəsi olaraq meydana çıxmışdır.

Kitab Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən üç dildə- Azərbaycan, rus və ingilis dillərində nəfis şəkildə nəşr edilmişdir. Mövzu ilə bağlı çoxsaylı illüstrativ materialların kitaba daxil edilməsi onun dəyərini xeyli artırmışdır.

Müasir dövrdə qayaüstü təsvirlərin- petroqliflərin arxeoloji abidə kimi xüsusi əhəmiyyətini vurğulayan müəllif, eyni zamanda, onu da qeyd edir ki, bu mühüm tarixi mənbələr uzun müddət xüsusi tədqiqat mövzusu olmamaş, nəşr edilmiş əsərlərin əksəriyyətində əsas diqqət petroqliflərin ümumi təsvirinə yönəldilmiş, onların dəqiq və sistemli öyrənilməsi kənarda qalmışdır.

Məlumdur ki, qayaüstü təsvirlərin öyrənilməsi qədim insanların mədəniyyəti, incəsənəti və dünyagörüşü ilə əlaqədar bir sıra məsələlərin həllinə imkan verir. Azərbaycan qayaüstü təsvirlərinin arxeoloji cəhətdən yetərincə öyrənilmədiyini nəzərə alsaq, Məlahət Fərəcovanın «Azərbaycan qayaüstü incəsənəti» tədqiqat işinin bu sahədə mövcud boşluğun aradan qaldırılmasna müsbət təsiri öz-özünə aydınlaşar.

Tədqiqat işinin əsasını  Qobustan qayaüstü təsvirləri, daha dəqiq desək, bu təsvirlərin dövrlərə bölünməsi təşkil edir. Müəllifin fikrincə, bu mürəkkəb prosesin şərhi müxtəlif elmlərin, o cümlədən antropologiya, geologiya, paleontologiya, arxeologiya, etnoqrafiya və tarix elmlərinin məlumatlarına əsaslanan araşdırmalar nəticəsində mümkündür.

Müəllif onu da qeyd edir ki, Qobustan, Abşeron, Gəmiqaya və Kəlbəcərdə arxeoloqların apardığı tədqiqatlar əcdadlarımızın keçdiyi tarixi inkişaf mərhələlərinin müəyyənləşdirilməsi, onların mədəniyyətinin, xüsusən qayaüstü incəsənətinin takamülü haqqında təsəvvür yaradır, Avropa və Asiyanın mədəniyyət tarixləri ilə kontekstdə Azərbaycan qayaüstü təsvirlərinin yerini və əhəmiyyətini düzgün anlamağa imkan verir.

Tədqiqatın geniş xronoloji sərhədləri, müəllifin qeyd etdiyi kimi, petroqliflərdə müxtəlif tarixi dövrlərə aid kompleks təsvirlərin mövcudluğu ilə şərtlənir. Mü-

əllifin apaşdırmaları ayrı-ayrı komplekslərin geniş izahı ilə yanaşı, qayaüstü təsvirlərin xronologiyası, onların semantik təhlili və bədii dəyəri ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirir.

Kitab ön söz, dörd fəsil və nəticədən ibarətdir.

Birinci fəsil «Azərbaycan qayaüstü təsvirlərinin tarixi-coğrafi icmalı» adlanır. Azərbaycan petroqliflərinin tədqiq edilməsinin tarixi icmalını şərh edərkən müəllif bu işin əsasının görkəmli arxeoloq İ. Cəfərzadə tərəfindən qoyulduğunu xüsusi vurğulayır, digər arxeoloqların tədqiqatlarına nəzər yetirir. Məlahət Fərəcova hər bir tədqiqatçının əməyini qiymətləndirir, onların fikir və qənaətlərinə hörmətlə yanaşır, eyni zamanda, öz qənaətlərini də əsaslandırır. O, belə bir qənaətə gəlir ki, hazırda qayaüstü təsvirlərin tədqiqi davam etdirilir və iş prosesində yeni kəşflər meydana çıxır. Müəllifin fikrincə, bütün bunlar bu qiymətli abidələrə yeni baxışla nəzər salmağa imkan verir və o öz tədqiqatını bu yöndə qurur.

M. Fərəcova kitabın ikinci fəslini «Azərbaycan petroqliflərinin mövzu və işlənilmə texnikasına görə təsnifatı» adlandırmışdır. Müəllif Azərbaycan qayaüstü təsvirlərini insan və heyvan, hərəkət vasitələrinin təsvirlərinə, habelə antropomorf və zoomorf təsvirlərə, işarələr, damğalar və su çalalarına bölmüşdür. Ayrı-ayrı təsvirlər üzərində arxeoloji və etnoqrafik müşahidələr aparan müəllif onların səciyyəvi cəhətlərini üzə çıxarır, bu barədə öz fikir və mülahizələrini şərh edir.

Üçüncü fəsil Azərbaycan qayaüstü təsvirlərinin dövrləşdirilməsinə həsr olunmuşdur. Müəllif petroqliflərin tarixinə dair əldə edilmiş son dəlillərə əsaslanaraq mövcud xronologiyaya müəyyən düzəliş və dəyişikliklərin edilməsini məqsədəuyğun sayır. O, eyni

zamanda, petroqliflərin dövrləşdirilməsi ilə bağlı özünün konkret təkliflərini təqdim edir.

Müəllif sonuncu- dördüncü fəsildə Azərbaycan qayaüstü incəsənətinin semantikasını şərh etmişdir.

Məlahət Fərəcovanın qənaətinə görə, Azərbaycan petroqliflərinin təhlili belə bir nəticə çıxarmağa imkan verir ki, qayaüstü təsvirlər bölgənin qədim insanlarının tarixi keçmişi ilə bağlı özünəməxsus cəhətlərə malikdir. Qobustan, Gəmiqaya, Kəlbəcər və Abşeronun qayaüstü təsvirləri sübut edir ki, həmin dövrün mədəniyyəti təcrid olunmuş deyil, qonşu əyalətlərin mədəniyyətləri ilə qarşılıqlı əlaqədə inkişaf etmişdir.

Müəllif onu da unutmur ki, Azərbaycan qayaüstü incəsənətinin öyrənilməsində bir sıra məsələlər hələ də aydınlıq tələb edir. Qafqaz və Avropa mədəniyyətlərinin inkişafında Qobustanın rolu müəyyənləşdirilməli, bu məqsədlə də Qobustanda, habelə Gəmiqayada, Kəlbəcərdə və Abşeronda geniş tədqiqatlar aparılmalıdır.

Tədqiqat işi ilə bağlı müəllifə bir arzumuzu da bildirmək istərdik.

Məlumdur ki, Azərbaycan qayaüstü təsvirləri arxeoloji abidə olmaqla yanaşı, həm də sənət əsərləridir. Azərbaycan incəsənəti öz qaynaqlarını onlardan götürür. Ona görə də bu təsvirlər həm də bədii cəhətdən öyrənilsəydi, tədqiqat işi bundan qazanardı.

Güman edirik ki, Məlahət xanım gələcək tədqiqatlarında bunu nəzərə alacaqdır…

**2010**

## ZƏNGİN XƏZİNƏ:
## BU GÜN VƏ GƏLƏCƏK ÜÇÜN

Sənətşünaslıq doktoru, professor Tariyel Məmmədovun yeni kitabı – «Koroğlu aşıq havaları» monoqrafiyası işıq üzü görmüşdür. Müəllifin belə bir qeydi kitaba epiqraf kimi verilmişdir: «Azərbaycanın görkəmli musiqi xadimlərinə – ənənəvi musiqimizi toplayıb nota yazaraq, onu gələcək nəsillər üçün qoruyanlara, maarifçi və tədqiqatçılara ithaf olunur».

Doğrudan da qeyri-maddi mənəvi irsimizi, o cümlədən aşıq musiqisinin notlaşdırılması bu zəngin xəzinənin qorunmasına, öyrənilməsinə və gələcək nəsillərə çatdırılmasına şərait yaradır. Kitabın müəllifi Tariyel Məmmədovun özünün də qeyd etdiyi kimi, artıq otuz ildir ki, onun elmi tədqiqatlarının mənbəyini qeyri-maddi mənəvi irsin notlaşdırılması təşkil edir. Müəllifin fikrincə, bu sahə Azərbaycan musiqi mədəniyyətinin məhz kökündən, mayasından tədqiq olunmasını təmin edən və şifahi ənənəli xalq musiqisinin dinamik inkişafının təkamül yolunu izləməyə imkan verən, milli irsimizin ən mükəmməl xüsusiyyətlərini səciyyələndirən müstəqil bir sahədir.

Tariyel Məmmədovun əvvəllər nəşr olunmuş «Koroğlu mahnıları», «Azərbaycan ənənəvi aşıq havaları», «Aşıq sənəti», «Azərbaycan klassik aşıq havaları» kitablarında, başqa tədqiqat işlərində də bu və ya digər dərəcədə həmin məsələlər dururdu. «Koroğlu aşıq havaları» müəllifin əvvəlki kitablarında praktiki şəkildə nümayiş etdirilən problemləri metodoloji cəhətdən elmi şəkildə açıqlayan və əsaslandıran fundamental

tədqiqat işidir. Bu məsələni müəllif özü çox obyektiv şəkildə bir cümlə ilə ifadə etmişdir: «Burada diqqət mərkəzində ömrünü şifahi ənənəvi professional milli irsin toplanılmasına, tədqiqinə və notlaşdırılmasına həsr etmiş etnomusiqişünasın elmi mövqeyinin şərhi durur» (Yeri gəlmişkən, qeyd edək ki, Tariyel müəllim bu yöndə səmərəli fəaliyyətinə görə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür). Bununla yanaşı, müəllif unutmur və xüsusi olaraq qeyd edir ki, onun bu gün əldə etdiyi nəticələr donub qalmış elmi sənədə çevrilməyəcək. Klassik aşıq havaları tarix boyunca çoxsaylı variantda öz həyatını davam etdirir, öz ifaçılarının – aşıqların iştirakı ilə daim yeniləşən bir prosesə çevrilir, eləcə də, bu havalar haqqında yazılanlar da hər dəfə zənginləşəcək, aşıq havalarının notlaşdırılması, müəllif tərəfindən orijinal şəkildə transkripsiya olunan hər bir nümunəsi isə xalq mədəniyyətinin və dünyaduyumunun dünənini və bu gününü səciyyələndirən kamil örnəklər olaraq qalacaqdır.

Kitab giriş və üç hissədən ibarətdir.

«Metodologiya» adlanan birinci hissədə kitabda qeyd edildiyi kimi, müəllifin metodoloji platforması açıqlanır. Burada müəllif şifahi ənənəyə söykənən professional musiqinin səciyyəvi cəhətlərinin, musiqi folklorşünaslığı axarında özəl xüsusiyyətlərinin araşdırılması ilə bağlı özünün metodoloji prinsiplərini şərh edir. Qeyd edək ki, müəllifin bu yöndə problemə yanaşma prinsipi yeniliyi ilə diqqəti cəlb edir.

«Tədqiqat» adlanan ikinci hissə üç fəsildən ibarətdir: «Tarixin səhifələri», «Poetika» və «Tipologiya».

Azərbaycan xalqının bədii təfəkkürünün məhsulu olan «Koroğlu» dastanı ilə bağlı ayrı-ayrı tədqiqatlara münasibət bildirən müəllif, eyni zamanda göstərir ki,

dastan burada ifadə olunan xalq epik yaradıcılığı həqiqətini bədii ənənə çərçivələrində özünəməxsus şəkildə modelləşdirir, çoxəsrlik təcrübə xalqın idealları, iradəsi və baxışları ilə birləşir.

Tədqiqatçı bu hissədə dastanın aşıq tərəfindən söylənilməsi, dinləyicilərə çatdırılması məsələləri üzərində xüsusi dayanır, bu barədə öz müşahidələrini, fikir və mülahizələrini şərh edir. Müəllif məlum həqiqəti xatırladır ki, aşıq dinləyicilərin tələb və zövqlərinə uyğun olaraq dastanın mətnini dəyişdirə, uzada və qısalda bilər, yeni epizodlar əlavə edə bilər, yaxud ayrı-ayrı epizodları inkişaf etdirə bilər. Məsələyə bu yöndən işıq salan tədqiqatçı belə hesab edir ki, zaman hüdudu «Koroğlu» dastanı üçün bir çərçivədir; onun qəhrəmanı Koroğlunun ağlasığmaz sərgüzəştləri və şücaətləri bu çərçivə daxilində baş verə bilər; qalan bütün əhvalatlar Koroğlunun ətrafında cərəyan edir və bununla qəhrəmanın xarakteri açılır. Müəllif bu hissədə belə hesab edir ki, «Koroğlu» dastanının epik havaları qəhrəman Koroğlunun öz dostlarına, yaxın adamlarına və düşmənlərinə olan münasibətini əks etdirir, qəhrəmanın qüdrətini, rəşadətini obrazlı şəkildə ifadə edir və Azərbaycan xalqının genetik cəhətdən əsasən XV əsrdən sonra formalaşan qəhrəmanlıq nəğmələrinə gedib çıxır.

Müəllif «Tədqiqat» hissəsinə yekun vuraraq belə bir qənaətə gəlir ki, «Koroğlu» dastanı fəlsəfi ümumiləşdirmələrin dərinliyi, istiqaməti, vətəndaşlıq pafosu səlis musiqi - poetik bir dillə, zəngin təsvir vasitələri və bədii ümumiləşdirmələrlə birləşərək, Azərbaycan xalqının qəhrəmanlıq ənənələrinin zəngin salnaməsinə çevrilmişdir. Bu hissənin sonunda kitabın üçüncü hissəsində not yazıları verilmiş aşıq havalarının aid olduğu

«Koroğlunun Dərbənd səfəri», «Durna teli», «Koroğlunun Toqat səfəri», «Koroğlu və Bolu bəy» qollarının qısa məzmunları verilmişdir ki, bu da nəşrin oxucu dairəsinin genişlənməsinə və daha oxunaqlı olmasına müsbət təsir göstərir.

Müəllif «Antologiya» hissəsində dastanın ayrı-ayrı qollarında yer alan «Koroğlu» aşıq havalarının – «Misri Koroğlu», «Təbl-Cəngi Koroğlu», «Qanlı Koroğlu», «Cəngi Koroğlu», «Misri», «Koroğlu gözəlləməsi», «Döşəmə Koroğlu», «Dəli Koroğlu» və başqa məşhur aşıq havalarının not yazılarını vermiş və bununla da həmin havaların gələcək nəsillərin də sərvəti olmasını təmin etmişdir. Bundan başqa, tədqiqatçı müxtəlif vaxtlarda nota alınmış Koroğlu aşıq havalarını arxivlərdən üzə çıxararaq öz kitabına daxil etməklə daha bir xeyirxah iş görmüşdür.

Məlumdur ki, «Koroğlu» dastanı bütün türk dünyasında geniş yayılmışdır. Buna görə də Koroğlu türk aşıq havalarından nümunələrin daxil edilməsi nəşrin qiymətini daha da artırır.

Qeyd edək ki, kitabda verilmiş Koroğlu aşıq havalarını müəllif böyük ustadların – Aşıq Hüseyn Saraclının, Aşıq Mikayıl Azaflının, Aşıq Əkbər Cəfərovun, Aşıq İmran Həsənovun ifalarından nota almışdır.

Biz Tariyel müəllimin bu yöndə əməyini yüksək dəyərləndirir və ona Azərbaycan aşıq sənətinin professional səviyyədə tədqiqi işində daha böyük yaradıcılıq uğurları diləyirik.

**2010**

## MİSRALAR... RƏNGLƏR... CİZGİLƏR

Tanınmış sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyevin «Sabir təsviri sənətdə» adlı yeni kitabı Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə işıq üzü görmüşdür. Kitabda, annotasiyada da qeyd edildiyi kimi, bənzərsiz «Hophopnamə»si ilə Azərbaycan ədəbiyyatında dərin iz salmış böyük şairimiz Mirzə Ələkbər Sabirin həyat və yaradıcılığına həsr olunmuş təsviri və dekorativ-tətbiqi sənət əsərlərindən söz açılır. Burada xüsusi olaraq vurğulanır ki, sənət adamlarının M. Ə. Sabir yaradıcılığına bədii münasibəti şairin əsərlərinin kitab halında ilk nəşrindən (1914) başlayaraq indiyədək davam edir.

Rəssamlardan Əzim Əzimzadə, Mikayıl Abdullayev, Səttar Bəhlulzadə, Nəcəfqulu İsmayılov, İsmayıl Axundov, Ələkbər Rzaquliyev, Asəf Cəfərov, Yusif Hüseynov, Elçin Məmmədov, Arif Hüseynov, Adil Rüstəmov, Bayram Hacızadə, heykəltəraşlardan Cəlal Qaryağdı, İbrahim Zeynalov, Tokay Məmmədov, Ömər Eldarov, Fuad Salayev, Xanlar Əhmədov, Akif Əsgərov və bir çox başqaları şairin əsərləri əsasında dəyərli bədii nümunələr, habelə sənətkarın əzəmətli obrazını yaratmışlar. Bu gün böyük şairin xatirəsini əbədiləşdirən və özündə yaşadan həmin nümunələr bağ və xiyabanların, muzey və sərgi salonlarının bəzəyinə çevrilmişdir.

Ziyadxan Əliyev bu bədii nümunələri mövzusuna və müəlliflərinə uyğun olaraq «M. Ə. Sabirin rənglərlə «yazılan» poeziyası», «Hophopnamə»yə Əzim Əzimza-

də münasibəti», «Hophopnamə»yə yeni rəssam baxışları», «Şairin uşaqlara hədiyyəsi», «M. Ə. Sabir yaradıcılığı əbədi ilham mənbəyidir», «Sabir ünvanlı «Daş nağılları», «M. Ə. Sabirə həsr olunmuş dekorativ- tətbiqi sənət nümunələri» adlandırdığı ayrı- ayrı bölmələrdə təhlil etmişdir.

Hər şeydən əvvəl qeyd edək ki, Ziyadxan Əliyev bu kitabda özünü səriştəli tədqiqatçı- sənətşünas olmaqla yanaşı, həm də Sabir poeziyasının incəliklərinə dərindən bələd olan Sabirşünas- ədəbiyyatşünas kimi təsdiq edə bilmişdir. O, çox haqlı olaraq yazır ki, poetik irsinin «Milli brilliantı» olan «Fəxriyyə»sində özümüzü özümüzə tanıdan M. Ə. Sabir ömrünün yarımçıq qırılmasına razı olsa da, ömrünün sonuna qədər həqiqəti söyləməkdən imtina etməmiş, yaradıcılığı cəmiyyətin təlatümlü dövrünə təsadüf edən şair zəmanəsində gördüklərini əks etdirməklə, xalqını çox sevdiyindən köhnəlikləri rədd etdiyini gizlətməyərək mübariz bir şair olduğunu təsdiqləmişdir.

Ziyadxan Əliyev bu tədqiqat işində belə bir fikri əsaslandırır ki, M. Ə. Sabir «Hophopnamə»sində özünün həm də böyük şair- rəssam olduğunu sübut etmişdir. Müəllifin fikrincə, şairin dərdlərimizə şaşırdıcı işıq salan poeziyası sanki mürəkkəblə yox, əlvan rənglərlə yazılıb. Doğrudan da Sabirin hər bir şeirində deyilənləri, göstərilənləri asanlıqla göz önündə canlandırmaq olar.

«Sabir təsviri sənətdə» kitabından: «Heç şübhəsiz, M. Ə. Sabir şeirlərinin rəssam təxəyyülünün və fırçasının qüdrəti ilə yaddaqalan sənət əsərlərinə çevrilməsi onlardakı dramaturji məziyyətlərin çox böyük ustalıqla hadisələrə və obrazlara «köçürülməsindən» keçib. Bu mənada tədqiqatçı- alim Akif Əlinin «…M. Ə. Sabirin istedadının bu cəhəti məhz onun xüsusi «dramaturji»

qabiliyyəti ilə bağlıdır. «Hophopnamə»dəki dialoqlar, səhnəciklər, oyun elementləri və s. fikrimizi təsdiq edən nümunələrdir» qənaətini vurğulamaq istərdik».

Məlumdur ki, M. Ə. Sabirin şeirləri ilk dəfə «Molla Nəsrəddin» jurnalında dərc edilsə də, onun yaradıcılığına rəssam münasibəti yalnız şairin vəfatından sonra, 1914-cü ildə «Hophopnamə»nin ikinci nəşrində özünü göstərmişdir. Bu zəngin irsə ilk bədii münasibət bildirən fırça ustası isə görkəmli xalq rəssamı Əzim Əzimzadə olmuşdur.

Ziyadxan Əliyevin araşdırmasından məlum olur ki, «Hophopnamə»nin bu nəşrinə Əzim Əzimzadənin şairin əsərləri əsasında çəkdiyi iyirmi dörd rəngli illüstrasiya daxil edilmişdir. Bu illüstrasiyalar böyük Sabirin «A şirvanlılar», «Millət necə tarac olur olsun, nə işim var?!», «Tərpənmə, amandır bala, qəflətdən ayılma», «Küpəgirən qarının qızlara nəsihəti», «Uşaqdır uşağım», «Fəhlə, özünü sən də bir insanmı sanırsan?», «Bir belə…», «Məsləhət», «Ey dad- bidad Ərdəbil» və digər məşhur şeirləri əsasında ərsəyə gəlmişdir.

Rəssamın fırçasından çıxmış təsviri sənət nümunələrini təhlil edən sənətşünas belə hesab edir ki, Əzim Əzimzadənin bu gün də yüksək bədii- estetik dəyərini itirməyən Sabir ünvanlı əsərlər yaratmasının kökündə onun Azərbaycan həyatına və tarixinə, etnoqrafiyasına, adət- ənənələrinə, maddi mədəniyyət nümunələrinə kifayət qədər bələd olması durur . Ona görə ki, həqiqi təsviri sənət nümunələri yalnız rəssamın müraciət etdiyi mövzuya əhatəli münasibətindən, onu hərtərəfli öyrənməsindən və mahiyyətinə dərindən nüfuz etməsindən sonra yaranır. Məhz buna görə də Əzim Əzimzadənin yaratdığı obrazlar Sabirin misralarında olduğu kimi, koloritli və yaddaqalandır.

Ziyadxan Əliyev bu fikri belə şərh edir: «Reallıqla bədii ümumiləşdirmənin qovşağından «yoğrulmuş» belə obrazlar «Hophopnamə» oxucusunun ən müxtəlif təbəqəliləri üçün anlaşılandır. Bu bədii görüntülər nə qədər rəssamın şair misralarına nüfuz etməsidirsə, bir o qədər də şairin yaşadığı mühitin, bütünlükdə isə cəmiyyətin əksidir. Bu bütün mənalarda mövcud olanın, sadəcə «əks»idir; ona görə də, şeirlərdə olduğu kimi, rəsmlərdə də çoxları özlərini görə bilirlər».

M. Ə. Sabirin «Məktub» şeirini və bu əsərə Əzim Əzimzadənin çəkdiyi illüstrasiyanı təhlil edən Ziyadxan Əliyev doğru olaraq qeyd edir ki, əgər şair burada insanların istismarından zövq alan tüfeylinin xarakterini sözlə açmağa nail olubsa, rəssam həmin misraları rəng və cizgilərin köməyi ilə bədiiləşdirməklə daha təsirli etmişdir. Müəllifin fikrincə, Əzim Əzimzadənin təqdimatında saqqalı və əlləri xınalı, beli qurşaqlı, barmağı üzüklü  obraz görkəminə görə nə qədər «bahalı»dırsa, təkcə elə baxışları ilə öz kütlüyünü nümayiş etdirir. Beləliklə, rənglərin və cizgilərin yığcamlığından ustalıqla istifadə edən rəssam məlum şeirin yaddaqalan «obrazını» yaratmışdır.

Bununla yanaşı, müəllif unutmur ki, Əzim Əzimzadənin «Hophopnamə»yə çəkdiyi illüstrasiyalar , ilk növbədə, süjetlərin çoxfiqurlu olması ilə səciyyələnir. Müəllif bu xüsusiyyəti rəssamın şeirin daşıdığı məzmun yükünün əhatəliliyini göstərmək istəyi ilə əlaqələndirir və Əzim Əzimzadənin «Hophopnamə»ni zənginləşdirən rəsmlərini bütünlükdə qədim ənənələri olan Azərbaycan kitab qrafikası sənətinə layiqli töhfə hesab edir.

Yuxarıda qeyd etdiyimiz kimi,  «Hophopnamə»yə digər fırça ustaları da müraciət etmişlər. 1962- ci ildə şairin 100 illik yubileyi münasibətilə nəşr edilmiş

«Hophopnamə»yə xalq rəssamı Nəcəfqulu İsmayılovun çəkdiyi illüstrasiyalar daxil edilmişdir. Ziyadxan Əliyev belə hesab edir ki, bu illüstrasiyalar ruhən Əzim Əzimzadənin işlədiyi rəsmlərə yaxın olsa da, burada özünəməxsusluq da vardır. Müəllif öz fikrini şairin «A şirvanlılar», «Avropada Məmdəlinin eşqbazlığı», «Bakı pəhləvanlarına», «Qorxuram» və başqa şeirlərinə çəkilmiş rəsmlərin təhlili ilə əsaslandırır.

«Sabir təsviri sənətdə» kitabından: «Rəssamın (Nəcəfqulu İsmayılov nəzərdə tutulur-**A.B.**) «A şirvanlılar» şeirinə çəkdiyi illüstrasiya ruhən Əzim Əzimzadənin işlədiyi rəsmə yaxın olub, onun davamı kimi qəbul olunur. Belə ki, əgər əvvəlki əsərdə şairin bədxahları qəzəbli görkəmdədirlərsə, Nəcəfqulunun təqdimatında onlar artıq şairi daşlamaq ərəfəsindədirlər. Rəsmin daha realist- gerçəkçi, işıq- kölgə təzadları ilə həllinin təsvirdəkilərin daha cəlbedici görünməsində yardımçı olduğu da duyulandır…»

Məlumdur ki, «Hophopnamə» dəfələrlə nəşr olunmuş və hər nəşr yeni tərtibatda oxuculara təqdim edilmişdir. Təbii ki, hər bir nəşr yeni illüstrasiyalarla zənginləşdirilmişdir. Ziyadxan Əliyev xatırladır ki, «Hophopnamə»nin 1980- ci il nəşri Azərbaycan kitab məkanında birmənalı qarşılanmamış, müəyyən mübahisələrə səbəb olmuşdur. «Buna səbəb gənc rəssam Arif Hüseynovun həmin kitaba verdiyi çox fərqli tərtibat idi. Həmin mübahisələrin nəticəsi bu oldu ki, Sabirin başqa cür də «oxunuşu» mümkündür və bunu «top-tüfəng»lə qarşılamaq əvəzinə alqışlamaq lazımdır». Sənətşünas bunu rəssamın uğuru sayır və öz fikrini Arif Hüseynovun Sabirin əsərlərinin süjet və ideyasından başqa, şairin yaradıcı üslubuna tapınaraq yaratdığı ağ-qara rəsmlərin özündə həm də bu poeziyanın fəlsəfi

yozumunu hifz etdiyinə görə çox düşündürücü olması ilə əsaslandırır. Sənətşünasın fikrincə, xalq rəssamı Arif Hüseynovun şairin «İstərəm ölməyi mən, leyk qaçır məndən əcəl…», «Şairəm, çünki vəzifəm budur..», «Daş qəlbli insanları neylərdin, İlahi?!», «Nə bərəldirsən böylə, a qare gözünü», «Adəmi adəm eyləyən paradır», «Bu çərxi fələk tərsinə dövran edir indi» və başqa şeirlərinə sonralar çəkdiyi eyni adlı illüstrasiyalar da ümumi kompozisiya həllinə görə orijinal olduqlarından yeni və cəlbedicidir.

«Sabir təsviri sənətdə» kitabında şairin poeziyasına müraciət etmiş digər rəssamların, habelə heykəltəraşların əsərləri də təhlil edilmişdir.

Bu nəşr böyük şairimiz Mirzə Ələkbər Sabirin 150 illik yubileyinə layiqli töhfədir.

**2012**

## SÖZƏ HƏSSAS MÜNASİBƏT

Rasim Nəbioğlu elm aləmində tənqidçi- ədəbiyyatşünas, mədəniyyətşünas, estetik, eyni zamanda, tərcüməçi kimi tanınır. Mütəxəssislər onun «Hüseyn Cavidin estetik idealı» monoqrafiyasını  Cavidşünaslığa layiqli töhfə hesab edirlər. Doğrudan da monoqrafiya müəllifi burada özünün yüksək elmi təfəkkürə malik olduğunu və Cavid irsinə dərin  bələdliyini nümayiş etdirə bilmişdir.

Filologiya üzrə fəlsəfə doktoru Rasim Nəbioğlu bu dəfə özünü oxuculara şair və nasir kimi təqdim etmişdir. Onun yeni nəşr olunmuş «Dərəzarat» kitabına müxtəlif vaxtlarda qələmə aldığı bədii yaradıcılıq nümunələri- «Dərəzarat» və «Xatəmül- Ənbiya» poemaları, şeir və hekayələri, etüd və esseləri, habelə ingilis dilindən etdiyi bədii tərcümələrdən nümunələr daxil edilmişdir.

Öncə Dərəzarat kəndi və  «Dərəzarat» poeması haqqında.

Dərəzarat kəndi qədim Xızı- Bərmək mahalının ən qədim kəndlərindən biridir. Ötən əsrin ikinci yarısından başlayaraq mahalın bir sıra kəndləri ilə yanaşı, bu kəndin də boşalması Rasim Nəbioğlunu kədərləndirmiş, onun şair qəlbini riqqətə gətirmişdir. Ona görə ki, Dərəzarat şairin doğma obası, şairin öz dili ilə desək, «hər nemətiduzu, suyu, çörəyi, ürəyidir».  Dərəzaratlıların ulu babalarının bir vaxtlar tərk etdiyi kəndin vəziyyəti daha acınacaqlıdır. Poemanın proloqundakı misralar ürəkləri göynədir:

Babadağın tuşundakı zirvədə-
Viranə kənd… qartalların məskəni…

Babamızın binə daşı var burda,
Əfsuslar ki, heç kim dönmür bu yurda.

Daha sonra şair ötənləri xatırlayır:
Bu dağları qarış-qarış gəzmişəm,
Kəklikotu, turşəng, nanə üzmüşəm
Allah! Necə ayrılığa dözmüşəm?..

Sakinləri başqa yerlərə köç etmiş, demək olar ki, adamsız qalmış bu kəndin indiki vəziyyəti şairi kədərləndirir.

Hər bir sənətkarın doğulduğu, boya-başa çatdığı yerlərdən məhəbbətlə danışması, öz əsərlərində doğma yurdu xatırlaması çox təbiidir. Mənsub olduğu xalqın tarixinə, dilinə, mədəniyyətinə, tanınmış şəxsiyyətlərinə, adət-ənənələrinə hörmətlə yanaşan qələm sahibinin gözünü ilk dəfə açanda gördüyü yerlərə, eşitdiyi laylalara, doğma adamlara məhəbbəti də qanunauyğun bir haldır. Biz belə hesab edirik ki, qələm əhlinin «kənd həsrəti», doğma yerlərə məhəbbəti onun ümumən Azərbaycana məhəbbətinin tərkib hissəsidir. Bunu Rasim Nəbioğlunun kitaba daxil etdiyi poema, şeir və hekayələrində də görmək mümkündür.

Rasim Nəbioğlu üçün «Vətən» «Babadağın tuşundakı zirvədən», meyvəsini yediyi tut və yemşandan, kəkotu, turşəng, nanə dərdiyi dağdan, düzdən, un üyütdüyü dəyirmandan, mal- qara otardığı örüşdən, xəşil, yarpaq xəngəli yediyi halal kənd süfrəsindən başlayır. İndi isə bunlar həzin bir xatirəyə dönüb, qan yaddaşına çevrilib:

Qan yaddaşım məni bura çağırdı
Gəldim, gördüm- lap ürəyim ağrıdı,
Səni belə hansı düşmən qarğadı?!.

Poemanın hər bəndində şairin doğma kəndinə böyük məhəbbəti və real vəziyyətdən doğan təəssüf və kədəri paralel verilmişdir. Şair bir tərəfdən əvvəllər gördüyü yerləri bir də görür, vəsf edir, növbəti misralarda isə kədər notları bu xoş ovqatı üstələyir. Ona görə ki, adamsızlıq ucundan burada bulaqları ot- əncər basıb, cığırlarda ot bitib. Yemlik, şomu, quzqulaq, yarpız dərən yoxdur, şanapipik, kəklik, bülbül seyrəlib. Lakin bütün bunlar şairin böyük kədərinə çevrilmir və o, poemanı nikbin notlarla, bu günümüzə olan böyük ümidlə bitirir:

Xızı- Bərmək mahalının gözəli…
Keçəcəkdir ömrümün bu xəzəli!

Onda mən də dönə- dönə qoy deyim:
Dərəzarat, kəndim mənim, ürəyim!

Poema 1985- ci ildə qələmə alınıb və burada Dərəzarat kəndinin həmin ildəki real vəziyyəti öz əksini tapıb. Rasim Nəbioğlunun həmin ildə nikbinliklə qələmə aldığı bu son misralardan doğan arzu indi həqiqətə çevrilməkdədir. Məlumdur ki, bu gün müstəqil Azərbaycanımızda nəhəng quruculuq işləri gedir. Kəndlərimizin abadlaşdırılması, boşalmaqda olan obalarımıza qayıdış hiss olunur. Dərəzarat kəndi də bu sıradandır. Doğrudur, Rasim Nəbioğlu bu fərəhi hələlik poeziya dilinə çevirməsə də, kitabda poemanın epiloqu kimi yazdığı şərhdə bildirmişdir. İnanırıq ki, Dərəzaratın yeni günləri yazarın yeni bir əsərinin mövzusu olacaq və o vaxt Rasim daha inamla deyəcək: «Dərəzarat, kəndim mənim, ürəyim!»

Poema etnoqrafik lövhələr yaradılması baxımından da xüsusi maraq doğurur. Burada kənd əhalisinin məş-

ğuliyyəti, maddi və mənəvi mədəniyyəti ilə bağlı maraqlı məqamlara, deyimlərə rast gəlirik. Poemada təsadüf olunan «nehrə yağı» «xəşil», «yarpaq xəngəli», «cığır», «ot-əncər», «qanqal», «yorğa at», «kəmənd atmaq», «ök üz arabası», «tövlə», «pəyə», «nohur», «səhəng», «xana», «daraq», «cəhrə», «əlçim», «dəryaz» və başqa söz və ifadələr müəllifin xalq həyatına bələdliyini əks etdirir.

Yuxarıda qeyd etdiyimz kimi, kitaba Rasim Nəbioğlunun şeir və hekayələri, etüd və esseləri də daxil edilmişdir. Müəllifin bu yazıları da maraq doğurur, oxucunu özünə cəlb edə bilir. Onun kitabda verilmiş hekayələrindən biri- «Ağ gün» ötən il Azərbaycan yazıçılarının Amerika Birləşmiş Ştatlarında ingilis dilində nəşr olunmuş hekayələrindən ibarət topluya da daxil edilmişdir. Qeyd edək ki, görkəmli Azərbaycan yazıçılarının həmin topluda verilmiş hekayələrinin bir qismini ingilis dilinə məhz Rasim Nəbioğlu çevirmişdir.

Rasim Nəbioğlunun kitabda verilmiş «Mən insanam», «Mən özümə qayıdıram», «Yüksəliş», «Canlıların ən alisi», «Göz yaşları», «Əbədiyyət», «Etiraf və ya bir qəlbin hıçqırıqları», «Ada» və «Kamillik» poetik etüd və esseləri öz orijinallığı, fikir təzəliyi ilə diqqəti cəlb edir. Bunlar yazar- estetikin qələmindən çıxmışdır və ayrıca söhbətin mövzusu ola bilər. Bu etüd və esselər lirik qəhrəmanın dilindən söylənilsə də, bədii- fəlsəfi ümumiləşdirmələrə meyl göstərən və öz etik- estetik platformasından çıxış edən tədqiqatçı yazarın şəxsi qənaətləridir. Bu əsərlərdə müəllifin insanlıq, şəxsiyyət, özünüdərk və özünəqayıdışla bağlı mülahizələri ilə tanış oluruq.

Professor Məhərrəm Qasımlı öz qələm qardaşının «Dərəzarat» kitabına «Ruhunu danışdıran adam» adlı yığcam və maraqlı bir ön söz yazmışdır. Burada oxu-

yuruq: «Rasim Nəbioğlu sözə, illah da ki poetik sözə qarşı çox həssasdır, istər yazdığı bədii əsərlərdə, istərsə də tərcümə işlərində sözü yerli- yerində işlətməyə, lakonik, yığcam ifadə tərzinə xüsusi diqqət yetirir… Orasını da deyim ki, Rasim Nəbioğlunun yazı üslubu özünün canlılığı ilə də seçilir. Səbəbi odur ki, o, elə danışdığı kimi yazır, yazdığı kimi də danışır. Səmimiyyət, ədəbi mehr-məhəbbət üçün bundan doğru yol yoxdur. Rasimin hekayələri bu mənada gözəl bir söhbətdir. O öz oxucusu ilə söhbət eləməyi bacarır».

Belə hesab edirik ki, məhz sözə həssas münasibət Rasim Nəbioğluna bədii yaradıcılıq sahəsində də uğurlar qazandırmışdır. «Dərəzarat» kitabında toplanmış bədii nümunələr deyilənləri sübuta yetirir.

**2014**

# ETNOQRAFİK MÜŞAHİDƏLƏR*

## TALISTAN KƏNDİ

Azərbaycanda qədim adət-ənənələrin qorunub saxlandığı və etnoqrafik cəhətdən xüsusi maraq doğuran yaşayış məntəqələrindən biri də İsmayıllı rayonunun Talıstan kəndidir. Bu kənd İsmayıllı şəhəri yaxınlığında, dağ ətəyində səfalı bir yerdədir. Sərin bulaqları, sıx meşələri, təbii gözəlliyi ilə diqqəti cəlb edir.

Böyük Səməd Vurğun hələ 1935- ci ildə özünün «Talıstan» adlı poemasını qələmə almış və bu yerlərin gözəlliyini tərənnüm etmişdi:

Ormanlar içində durur Talıstan,
Ona bir baxışda vurulur insan.
Günəş bu yerlərdə qalxır atına,
Yüksəlir göylərin yeddi qatına.
Bu yurdun havası, suyu sərindir,
Keçdiyim dərələr göydən dərindir.

Əvvəllər kəndin adı Marraş (Marraş kəndi) olmuş, sonradan Talıstan adlandırılmışdır. Kənd bir neçə məhəllədən ibarətdir. Bu məhəllələrin içərisində Əbilli, Koxalı, Əhmədli, Dərəməhəllə, Yuxarı məhəllə, Aşağı məhəllə, Dəlləkli, Yolçulu məhəllələri kəndin ən böyük

* ***Bu bölmə etnoqraf-alim Solmaz Məhərrəmova ilə birlikdə yazılmışdır***

məhəllələri hesab edilir. Kəndin qəbristanlıqlarındakı məzar daşlarının üstündəki daş kitabələr, nəbati , həndəsi, simvolik məna daşıyan təsvirlər, svastika, klassik şeirlərdən beytlər, ibrətamiz kəlamlar, «Qurani-Kərim»dən ayələr o qədər bacarıq və məharətlə oyulmuşdur ki, bunların hər birini bir sənət əsəri , həmçinin qədim tarix hesab etmək olar. Bu maddi-mədəniyyət nümunələrinin ciddi arxeoloji araşdırmalara ehtiyacı vardır. Bu qəbristanlıqlarda Talıstan camaatının böyük ehtiramla yad etdiyi müqəddəslər uyuyurlar. Həmin qəbirlər ziyarətgahlara çevrilmişdir.

Talıstanda əhalinin əsas məşğuliyyəti əkinçilik, maldarlıq, çəltikçilik, arıçılıq, ipəkçilik olmuş, sonradan kənddə tütünçülük təsərrüfatı da yaradılmışdır. Kəndin əhalisi əkinçilikdə taxılçılığa, maldarlıq təsərrüfatında isə qoyunçuluğa daha çox üstünlük vermişdi. Əhalinin qoyunçuluqla məşğul olan hissəsi yarımköçəri həyat tərzi sürmüş, yayda sürülərini Babadağın ətəklərində yerləşən Səlimsoltan yaylağında, qışda isə Kürdəmir rayonunun qış yataqlarında bəsləmişdir. Kənddə su dəyirmanı da mövcud olmuşdur. Əvvəllər Talıstan kəndində böyük tut çəkilliklərinin olması ipəkçiliyin inkişafına zəmin yaratmış, əhalinin böyük əksəriyyəti baramaçılıqla məşğul olmuşdur. Talıstanda toxuculuq, sərraclıq, ağacişləmə, arabaçılıq sənətləri geniş yayılmışdı. Kənd sakinləri indi də məşhur araba ustaları Cəlal Rəşidovu, Abdulhəlim Balakişiyevi, Bəhəl Rəşidovu yaxşı xatırlayırlar. Onlar, həmçinin ev tikililərində ağac materiallarının, xış, boyunduruq, vəl kimi kənd təsərrüfatı alətlərinin hazırlanmasının mahir ustaları olmuşlar. Sərrac Novruz Abbasovun düzəltdiyi yəhər və yüyənlərin şöhrəti Talıstandan kənarda da məşhur idi.

Bütün Azərbaycanda olduğu kimi, burada da toy

mərasimi bir neçə mərhələdən- «qızbəyənmə», «elçilik», «nişan», «paltarbiçmə», «xınayaxdı», toy şənliyi və «gəlingörmə»dən ibarətdir.

Adətən, qızı oğlanın valideynləri və yaxın qohumları görüb bəyənər, sonra elçilik edilərdi. Adət üzrə elçilər şirniyyat, çay, qəndlə doldurulmuş zənbil və bir xoruz aparmaqla elçiliyə gedərdilər. Elçiləri qarşılayan qız evi bu şeyləri evlərində müəyyən müddət saxlayar, lakin əl vurmazdılar. Bu həm də sınaq müddəti adlanırdı. Həmin müddət ərzində qız evi də oğlanın ailəsi haqqında məlumat toplayar, bu barədə yaxın qohumları ilə məsləhətləşərdilər. Əgər qız evində razılıq olardısa, zənbil açılar, xoruz kəsilərdi. Razılıq olmadıqda isə oğlan evindən bir nəfəri çağırar, zənbil və xoruzu geri qaytarardılar. (Yəqin ki, «xoruzunu qoltuğuna vermək» məsəli də buradan yaranmışdır.)

Hər iki ailə arasında razılıq əldə edildikdən sonra nişan mərasimi həyata keçirilərdi. Nişan məclisi üçün oğlan evindən ərzaq göndərilər, qıza yaylıq və nişan üzüyü, şirniyyat xonçası aparılardı. Gənclərin nişanlı olduğu müddətdə oğlan evindən qız evinə bayram günlərində (Ramazan, Qurban bayramları) bayramlıq xonçaları göndərilərdi. Qız evindən də oğlan evinə xonça gətirilərdi.

«Paltarbiçmə» mərasimi qız evində keçirilirdi. Bu məclisin iştirakçıları yalnız qadınlar olurdular. Məclisin ərzaq və şirniyyatını oğlan evi göndərərdi.

Məclis iştirakçılarına yemək verildikdən sonra oğlan evindən qız üçün gətirilən paltarlar və zinət şeyləri nümayiş etdirilərdi. Bunu oğlan evinin nümayəndələrindən biri həyata keçirirdi. O, əvvəlcə parçalardan birini götürərək «qayçı kəsmir» deyər və bununla da ona xələt verilməsinə işarə edərdi. Qızın

anası həmin qadına xələt (hədiyyə, pul) verdikdən sonra qadın paltarları oturanlara nümayiş etdirərdi. Qadın bu əşyaları nümayiş etdirərkən (məsələn, "Bu, qızın sırğası ") uca səslə çağırar, yerdə oturanlar isə «Allah mübarək eləsin» deyərək alqış edərdilər. Qız üçün gətirilən hədiyyələr nümayiş etdirildikdən sonra valideynlər, qardaş-bacılar və yaxın qohumlar üçün gətirilən hədiyyələr göstərilərdi. Bundan sonra, məclisə dəvət olunan qadınlar öz hədiyyələrini, yaxud pul verərdilər. Qadın həmin hədiyyələri və pulun miqdarını uca səslə elan edər və «Subaylarınıza qismət olsun» deyərdi. Hədiyyələrin arasında elə əşyalar da olurdu ki, qız bunları cehiz kimi ər evinə apara bilərdi. Bunların arasında xalça-palaz, süfrə, yorğan, döşək, yastıq, parça və s. olurdu ki, bunu da «cehizüstü» adlandırırdılar. Məclisin sonunda evlərinə qayıdan qadınlara parçadan tikilmiş kiçik torbalarda oğlan evindən göndərilmiş şirniyyat paylanardı.

«Xınayaxdı» mərasimi də qız evində keçirilən qadın məclisi hesab edilirdi. Adətən, həmin məclisdə cavan qız və gəlinlər iştirak edirdilər. Çox zaman xınayaxdı məclisini musiqiçilərin iştirakı ilə keçirirdilər. Lakin buradakı musiqiçilər də mütləq qadınlar olmalı idi. Xınayaxdı məclisində qız və gəlinlər şənlənər, yemək yeyər, sonra isə oğlan evindən qız evinə göndərilən xınadan əllərinə yaxardılar. Xınayaxdı məclisində də qız üçün hədiyyələr yığılardı. Xınayaxdı məclisində gətirilən xınanı oğlan evinin nümayəndəsi böyük bir qabda isladar və gəlinin, habelə iştirakçıların əllərinə yaxardı. Xınanı isladan nümayəndəyə qız evindən hədiyyə verilərdi. İsladılmış xınanın bir hissəsi də oğlan evinə göndərilər, orada da hər kəs əlinə xına yaxardı.

Toyun sonrakı mərhələsi gəlinin bəy evinə aparıl-

ması idi. Bu zaman oğlan evinin ağsaqqalları qız evinə gələr, toy üçün lazım olan ərzaq və şirniyyatın miqdarını müəyyənləşdirərdilər. Bu «kəsəmət» adlandırılırdı. Çox zaman kəsəmət kəsilərkən oğlan evi tələb olunan ərzaq və şirniyyatın dəyərini pulla qız evinə ödəyir, qız evi bu ərzaqların alınmasını öz öhdəsinə götürürdü. Toy mərasimi toya dəvətlə başlanırdı. Dəvəti «çağırışçı» edirdi. Adətən çağırışçını uca səsli adamlardan seçirdilər. Çağırışçı qoluna qırmızı yaylıq bağlayaraq bütün kəndi gəzər və toyun tarixini çatdırardı. Toy sahibinə qohum olan dəvətlilər isə çağırışçıya pul verib qoluna kəlağayıdan xələt bağlayar, yaxud dəsmal, köynək, corab hədiyyə edərdilər.

Toyun başlanmasını isə musiqiçilər kəndin uca bir yerinə çıxıb çalmaqla bildirirdilər.

Gəlinin bəy evinə aparılması ərəfəsində icra edilən adətlər də maraq doğurur. Gəlini bəzəyən qadın onun örpəyinin altından başına bir hədiyyə qoyurdu. Bu hədiyyə gəlinin belini qırmızı yaylıqla bağlayana (bəyin qardaşı, atası, dayısı) çatırdı. Adətə görə gəlinin belini bağlayan şəxs hədiyyəni götürər, əvəzində isə pul verərdi. Gəlini evdən çıxaran zaman başının üstündə şirin çörəyi kəsib iki yerə bölür, bir hissəsini gəlinə verir, bir hissəsini isə evdə saxlayırdılar. Bu, gəlinə «sənin payın verildi, ruzini ər evində qazanmalısan» məna yozumu kəsb edirdi. Gəlin bəyin evinə daxil olarkən su ilə bağlı ayin icra edərdi. Bəzi bölgələrdən fərqli olaraq Talıstanda qapının kandarına saxsı əşya yox, su ilə dolu qab qoyulardı. Əgər başqa bölgələrdə gəlin saxsıdan olan əşyanı ayağı ilə vurub sındırırdısa, bundan fərqli olaraq Talıstanda gəlin kandardakı su ilə dolu qabı ayağı ilə vurub dağıtmalı, bununla da öz «hökmünü göstərməli» idi. Gəlin evə daxil olanda isə onu qayınat-

ası qarşılayar, imkanı daxilində ona ya inək, qoyun, və yaxud bağındakı bar ağaclarının birindən hədiyyə boyun olardı. Gəlinin qucağına oğlan uşağı otuzdurmaqla çoxlu oğlan övladı olmasını arzulayardılar.

Gəlinin cehizinə sandıq, yorğan-döşək, xalça-palaz, yastıq, qab-qacaq, hətta inək, qoyun da daxil idi. Cehizlə bərabər bəy evinə xonçalarda yağlı şirin fətir göndərilərdi. Fətir üç gündən sonra ər evində keçirilən «gəlin görməsi» mərasimndə kəsilib süfrəyə qoyulurdu. Bu məclisdə də fətiri doğrayana hədiyyə verilərdi. 40 gündən sonra gəlinin atası evi onu əri və digər ailə üzvləri ilə birlikdə qonaq çağırıb «ayaqaçdı» edər və hədiyyələrlə yola salardı.Talıstandakı toy məclislərini musiqisiz və aşıqsız təsəvvür etmək qeyri-mümkündür. Musiqi və aşıq məclisi ilə keçən toylar hətta üç gün davam edərdi.

Sonradan yaranmış bəzi adətlər istisna olmaqla Talıstanda toy mərasimləri indi də ənənəvi toylar kimi keçirilir.

**2010**

## BASQAL QƏSƏBƏSİ

İsmayıllı rayonunun Basqal qəsəbəsi qədim xalq sənətkarlığını qoruyub saxlayan və bu gün də inkişaf etdirən yaşayış məntəqələrindəndir. Onu da qeyd edək ki, Basqal yurdumuzun qədim guşələrindəndir. XIII əsrə aid bir sıra mənbələrdə onun adı çəkilir.

Basqalda qədim tarixə malik kanalizasiya şəbəkəsi, daş döşənmiş küçələr, bazar, hamam və məscidlər vardır. Burada ağacişləmə, xalçaçılıq, kömürçülük, kəlağayı istehsalı, boyaqçılıq sənəti qədim sənətlərdən hesab olunur və bu gün də yaşayır.

Basqalda Qoşabulaq, Dərəməhəllə, Dəmirçibazar, Qəlibgah, Xarabiyan, Qalabaşı adlı məhəllələr vardır. Hər məhəllənin adı isə orada yaşayanların məşğuliyyəti, tarixi keçmişi, etnik tərkibi ilə bağlı yaranmışdır. Basqalın yaşlı sakinlərinin verdiyi məlumata görə, Dəmirçibazar məhəlləsində dəmirçi Hacı Məhərrəm və onun övladları, nəvə-nəticələri yaşamış, dəmirçiliklə məşğul olmuşlar.

Qəlibgah məhəlləsində kəlağayı üçün qəlib basan rəngsazlar yaşamışlar. Qoşabulaq məhəlləsi orada olan qoşa gözlü bulağın adından, Dərəməhəllənin adı məhəllənin hər iki tərəfindən palıd və qoz ağaclarının əhatə etdiyi dərədən ibarət olması, Xarabiyan məhəlləsinin adı isə məhəllənin başında uçqun yerin olması ilə bağlı yaranmışdır.

Kələküçə Basqalın baş küçəsidir. Bu məhəllənin sakinləri əsasən boyaqçılıq və toxuculuqla məşğul olmuşlar.

Basqalda evlərin hamısı üzü cənuba doğru tikilmişdir. Evlərin tikintisində hər 6-7 daş cərgədən bir ağac kətil (yastıq) atılmışdır ki, bu kətillər ərazinin seysmikliyi

nəzərə alınaraq qabaqlayıcı tədbir rolunu oynamış, həm də tikiliyə xüsusi yaraşıq vermişdir. Evlərin üstün cəhəti ondan ibarətdir ki, bütün evlərdə hamam vardır. Yaşlı məlumatçıların söhbətlərindən məlum oldu ki, hələ XVII əsrdə Basqalda hər evin hamamı olmuşdur.

Basqal özünün qədim abidələri ilə də məşhurdur. Qəsəbədə indiyədək qorunub saxlanmış tağlı hamam XVII əsrdə inşa edilmişdir. Yerli sakinlərin məlumatına görə bu hamamdan 1994-cü ilə qədər istifadə edilmişdir.

Hamamdan bir az aralıda başı göylərə ucalan qollu-budaqlı çinar ağacı vardır. Ağacın diametri 4 metrdir. Yaşlı sakinlərin məlumatına görə bu ağacın 500-dən çox yaşı var. Tarixi abidə kimi qorunur. Ağacın aşağı hissəsində olan koğuş adam boyundan da hündürdür. Sakinlərin dediyinə görə, burada müxtəlif vaxtlarda çayxana, bərbərxana fəaliyyət göstərmişdir.

Basqalın kanalizasiya şəbəkəsinin tarixi XIII-XIV əsrlərdən hesablansa da, bu günə qədər salamat qalmışdır. Yağış və çirkab suları üstü sal daşlarla örtülmüş daş qanovlarla axıb gedir.

Hacı Bədəl məscidi, Əl fəqir Şeyx Səfayi ibn Şeyx Məhəmməd məscidi xüsusi maraq doğuran tarixi abidələrindəndir. Hacı Bədəl məscidi hazırda fəaliyyət göstərir. Məsciddə qadınlar və kişilər eyni vaxtda namaz qılırlar. Lakin məscidin qadınların ibadət etməsi üçün olan otağı elə tikilmişdir ki, qadınların məscidə daxil olmasını belə kişilər görə bilməzlər. Ayrıca bir kompleks olmaqla ikinci mərtəbədə yerləşir.

Basqal Şirvanın böyük toxuculuq və sənətkarlıq mərkəzlərindən hesab olunmuşdur. Müxtəlif çeşidli kəlağayılar, yorğanüzü, qanovuz, kişmir, tafta, darayı, mov, cecim və s. xarici bazarlarda və beynəlxalq sərgilərdə yüksək qiymətləndirilmişdir.

1862-ci ildə Azərbaycan ilk dəfə Londonda keçirilən ümumdünya sərgisində iştirak etmiş, həmin sərgidə basqallı Nəsir Abduləziz oğlunun toxuduğu kəlağayı və qanovuz parça gümüş medal və diplomla mükafatlandırılmışdır. Bu gün Basqalda kəlağayı sexi fəaliyyət göstərir. Basqal kəlağayıları indi də məşhurdur və sexin məhsulları xarici ölkələrə ixrac olunur.

Basqalın şöhrəti olan kəlağayıların toxunması bir neçə mərhələdən keçir. Birinci mərhələ kəlağayının sapının(ipək sap) istehsalıdır. Kəlağayı üçün çox nazik ipək sap tələb olunur. Bir qram nazik sap 10-12 baramadan alınır. 429 metr nazik sap 1 qram çəkisindədir. Daha keyfiyyətli kəlağayı 310 metrlik və 1 qram çəkisində olan sap ilə toxunur . Adətən 429 metrlik sap kəlağayının ərişinə, 310 metrlik sap isə arğacına işlənir.

Kəlağayının hazırlanması bir neçə mərhələdən keçməklə uzun zaman tələb edir. Əl dəzgahında gün ərzində üç kəlağayı toxumaq olardı. Hazırda sexdə avtomat dəzgahlardan istifadə olunur. Gün ərzində 8 kəlağayı istehsal edilir. Kəlağayılıq məhsul dəzgahda toxunduqdan sonra 150-160 sm. ölçüdə qayçı ilə doğranır. Sonra onu soda qatılmış suda 20-30 dəqiqə qaynadırlar. Kəlağayını suda bişdikdən sonra sıra ilə düzülmüş 2-3 vannada növbə ilə, yəni 2-3 dəfə soyuq suda yaxalayır, yüngülcə sıxır, asaraq qurudurlar. Qurutduqdan sonra naxışlama işi başlanır. Kəlağayını armud, qoz, cır alma ağacından hazırlanan, üzəri böyük ustalıqla oyulmuş nəbati, həndəsi və kosmoqonik təsvirlərdən ibarət qəliblərlə naxışlayırlar. Qəliblər naxışlarına görə müxtəlif adlarla adlandırılır. Bu naxışların içərisində «günəş», «pullu qəlib», «simayi-şəms», «haşiyə», «şax» (böyük buta), «buta» (kiçik buta), «göbək», «mədahil», «xarı bülbül», «xətayi», «kəpənək», «heyratı», «çobanyastığı»,

«çiyələk», «aypara», «tikəş», «ispirəy» daha məşhurdur. Etnoqrafik səfər zamanı bu qəliblərdən ən qədimi sayılan «ispirəy»lə tanış olduq. Sexin işçilərinin məlumatına görə, bu qəlibi hazırda orada usta işləyən Abbasəli Talıbovun ulu babası Talıb düzəltmişdir. Qəlib 200 il əvvəl Basqalda palıd ağacından hazırlanmışdır.

Kəlağayının naxışlanması üç mərhələdə aparılır. Birinci mərhələdə konifol, parafin, solidor (araba yağı) bir-birinə qarışdırılaraq bişirilir. Alınmış qatışıqla kəlağayının naxışları və haşiyəsi basılır. İkinci və üçüncü mərhələlərdə rənglərə batırılmış qəliblərlə işi başa çatdırırlar.

Kəlağayı naxışlandıqdan sonra onun boyanması işi başlanır. Boyama boyaqçılıq emalatxanasında görülür. Boyaqçılıq emalatxanası «küp damı» adlandırılır. Yaşlıların məlumatına görə, küp damı əhali arasında müqəddəs yer sayılmışdır. Adətən, oraya şikəstləri, yeriməyən uşaqları ziyarətə gətirərdilər. Günah etmiş adamları tövbə etmək və ya and içdirmək üçün də küp damına aparardılar.

Boyağı sarağan, vələs, narınc ağaclarından, həyət süpürgəsinin kötüyündən, cır alma ağacının qabığından əldə edirlər. Cır alma ağacının qabığından sarı rəngi alırlar. Rəngləri əldə edərkən daha tünd və açıq rəng almaq üçün turşudan da istifadə edilir. Bu məqsədlə məhlula turşu əlavə edib müəyyən müddət saxlayırlar. Adətən, 20-30 litr məhlula bir stəkan turşu əlavə edirlər. Məsələn, qırmızı rəngi almaq üçün sarağanı küt balta ilə kötüyün üstündə döyüb əzir və içərisindən çıxan ağac tellərini suda qaynadırlar. Boyama işinə başlamazdan əvvəl basılmış naxışların rənglərinin qarışmaması üçün parafinlə örtür, sonra boyağın içərisinə salırlar. Boyama işi başa çatdıqdan sonra parafin örtüklər götürülür.

Kəlağayını boyadıqdan sonra soda və paltar sabunu ilə qarışdırılmış 70-80 dərəcə istiliyi olan suda bir neçə dəfə yaxalayırlar. Beləliklə, onun üzərindəki yağ təbəqəsi təmizlənir. Bu əməliyyatdan sonra kəlağayını yenidən soyuq su ilə üç dəfə, ən sonda isə sabunlu soyuq suda yaxalayır və ipdən asaraq qurudurlar. Qurutduqdan sonra məngənədə sıxırlar. Bu əməliyyat «ütüləmə» adlanır. Ütülənmiş kəlağayılar kitab şəklində qatlanaraq üst-üstə yığılır və yenidən məngənədə sıxılır. Bu prosesi «kitab eləmə» adlandırırlar.

Kəlağayı ustaları boyaqçılıq və qəliblə naxışlama sənətini muğamlarımızla müqayisə edirlər. Onlarla apardığımız söhbət zamanı bunu ata-babalarından eşitdiklərini, kəlağayının boyanmasında yeddi rəngdən istifadə etdiklərini, hətta qəlib naxışlarının adlarının muğamlarımızla eyni adda olmasını («Heyratı», «Simayi-şəms» və s.) söylədilər.

Bütün bunlar xalqımızın qədim və zəngin mədəniyyətə malik olduğunu bir daha təsdiq edir.

**2010**

# MÜNDƏRİCAT

## Milli dəyərlərimiz

Tariximiz… Mədəniyyətimiz…(Mülahizələr)..................3
Milli və ümumbəşəri sərvət (Azərbaycan xalçası haqqında düşüncələr)..............................................................10
Azərbaycan xalçası poeziyada (Xalq şairi Səməd Vurğunun yaradıcılığı əsasında)...................................19
Muzeylərimizin tarixinə qısa səyahət......................... 36
Eksponatlarda yaşayan tarix……...............................…41
Ədəbi-xatirə muzeyləri ………….............................…51
Cansız əşya yaddaşa çevriləndə.............................57
Tablolarda yaşayan ömürlər ……..............................…68
Fotoşəkillər önündə düşüncələr.................................74
Təqdimatda yadıma düşənlər …...............................……80
Sənət məbədi-müqəddəs məkan ..............................86
Xatirələrdə yaşayan sənətkar ……...........................…91
Müqəddəs sənət məbədləri ……...............................…95

## Muzey qurucularımız

Ağakərim Şərifov…......................................................99
Əhməd Əfəndi Çələbizadə.........................................105
Unudulmaz Kazım müəllim........................................111
Xalis müəllim - Xalis əmi..............................................115

## Səhnə ustalarımız: sənət fədailəri

Mirzəli Abbasov...........................................................120
Mirzəxan Quliyev …....................................................124
Nadir İbrahimov ……………............................................130

Əşrəf Yüzbaşov ......................................136
Həbib Köçərlinski ......................................142
İbrahim İsfahanlı ......................................146
İsmayıl Həqqi......................................150
Abbas Qurbanov ......................................156
Bir qastrol haqqında ......................................161

## Onlar ilk addımlarını Tiflis Azərbaycan teatrında atmışlar

Möhsün Sənani ...................................... 167
Mustafa Mərdanov ......................................172
Mirseyfəddin Kirmanşahlı......................................178
Əli Qurbanov ......................................184
Panfiliya Tanailidi ......................................189
Ələkbər Seyfi ......................................194

## Onlar Tiflis Azərbaycan teatrı ilə bağlı olmuşlar

Əbdürrəhim bəy Haqverdiyev......................................199
Hüseyn Ərəblinski......................................205
Abbasmirzə Şərifzadə......................................211
Aleksandr Tuqanov......................................217
Əbülfət Vəli......................................222
Hüseyn bəy Mirzəcamalov......................................227
Seyid Şuşinski......................................232
Əziz Şərif......................................237

## Kitablar... Rəylər

Nemətlərin tacı......................................242
Mənalı ömür yolu......................................245
Narahat ürəyin nikbinliyi......................................250

Yurd təəssüblü yaddaş……………………….............256
Sənətkar ömrünün anları…………………………………261
Bir kitab haqqında …………………………….......266
Tərəqqi ünvanlı  mədəniyyət ………………….........271
Cavidşünaslığa layiqli töhfə ……………………....274
Azərbaycan xalçası: milli və ümumbəşəri sərvət.........280
Vergi mədəniyyəti ……...............................................286
İşğal olunan torpaqlarımız: maddi mədəniyyətimiz...290
Tarix unutmur ……………..........................................294
Azərbaycanın qayaüstü incəsənəti haqqında
tədqiqat.........................................................................299
Zəngin xəzinə: bu gün və gələcək üçün …...................303
Misralar…  Rənglər… Cizgilər ………….................307
Sözə həssas münasibət ……….....................................313

## Etnoqrafik müşahidələr

Talıstan kəndi ……….................................................318
Basqal qəsəbəsi …………............................................324

## ADİLXAN BAYRAMOV



Tənqidçi, ədəbiyyatşünas, sənətşünas, publisist, tərcüməçi. Filologiya elmləri doktoru.

1949-cu il fevralın 19-da Gürcüstanın Marneuli rayonunun (Borçalı bölgəsi) Sadaxlı kəndində anadan olmuşdur.

1966-cı ildə Sadaxlı kənd orta məktəbini gümüş medalla bitirmişdir. 1966-1971-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsində ali təhsil almışdır.

1971-1979-cu illərdə Sadaxlı 2 saylı kənd orta məktəbində tərbiyə işləri üzrə direktor müavini, Azərbaycan dili və ədəbiyyatı müəllimi, 1979-1980-ci illərdə Səməd Vurğunun ev-muzeyində elmi işçi, şöbə müdiri işləmişdir.

1980-2007- ci illərdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyində (indiki Mədəniyyət və Turizm Nazirliyində) böyük inspektor, aparıcı inspektor, baş inspektor, baş idarənin rəis müavini, baş idarənin rəisi, aparatın rəhbəri vəzifələrində çalışmışdır.

2007-ci ilin oktyabr ayında doktorluq dissertasiyası müdafiə etmiş və həmin vaxtdan Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Mədəniyyətşü-

naslıq üzrə Elmi-Metodiki Mərkəzinin direktor müavini vəzifəsində çalışır.

Azərbaycan Aşıqlar Birliyi İdarə Heyətinin, Beynəlxalq Muzeylər Şurası Azərbaycan Milli Komitəsi Rəyasət Heyətinin, Azərbaycan Jurnalistlər Birliyinin, Azərbaycan Rəssamlar İttifaqının üzvü, «Müasir mədəniyyətşünaslıq» jurnalının baş redaktorunun müavini, «Qarapapaqlar» (Gürcüstan) dərgisi redaksiya heyətinin üzvüdür.

Adilxan Bayramov elmi-tədqiqat işi ilə fəal məşğul olur. Əsasən xalq şairi Səməd Vurğunun yaradıcılığını tədqiq edir. 1990-cı ildə «Səməd Vurğun yaradıcılığında xalqlar dostluğu» mövzusunda namizədlik, 2007-ci ildə «Səməd Vurğun yaradıcılığında insan: millilik və ümumbəşərilik» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Ədəbiyyatşünaslıq, mədəniyyət və incəsənət məsələləri ilə bağlı 6 kitabın müəllifi, 3 kitabın müştərək müəllifidir. Çoxsaylı elmi və elmi-metodiki məqalələri, habelə bədii və bədii-publisistik yazıları çap olunmuşdur. Mətbuatda vaxtaşırı «A.Bayramqullu» və «A.Bayramquluoğlu» imzaları ilə bədii yazılarla çıxış edir.

## QEYD ÜÇÜN

# QEYD ÜÇÜN

**ADİLXAN BAYRAMOV**
*(Adilxan Hüseynəli oğlu Bayramov)*

# *SƏNƏT, SƏNƏT MƏBƏDLƏRİ,*
# *SƏNƏT FƏDAİLƏRİ*

**Bakı - 2015**

Yığılmağa verilmişdir: 13.01.2015
Çapa imzalanmışdır: 24.02.2015
Ofset kağızı. Format 60X84 1/16
Şərti çap vərəqi 21. Tiraj 300

Kitab "VƏTƏNOĞLU" Nəşriyyat və Poliqrafiya
Şirkəti MMC-nin mətbəəsində hazır deopozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.

Ünvan: Bakı şəhəri, Dərnəgül qəsəbəsi, Ə.Əliyev küçəsi 108
Direktor: Cəfər Əziz oğlu Bağırov
Tel: 563-02-94



Ar 2015/489

101830